**Səməd Vəkilov**

# QƏRBİ AZƏRBAYCANDAN DEPORTASİYA

# İMİRLİDƏ MƏSKUNLAŞMA

***(hüquq və tarix kontekstində)***

**Bakı-2023**

**Səməd Vəkilov**

# QƏRBİ AZƏRBAYCANDAN DEPORTASİYA İMİRLİDƏ MƏSKUNLAŞMA

***(hüquq və tarix kontekstində)***

**Bakı – «Red N Line» MMC – 2023, 310 səh.**

**Məsləhətçi: Dos.Sadiq Qurbanov**
Azərbaycan Respublikası Milli Məclisinin təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri

*Rəyçi:* **Leyla Calalova**
Tarix üzrə fəlsəfə doktoru

*Elmi redaktor:* **Nazim Mustafa**
Tarix üzrə fəlsəfə doktoru, Dövlət Mükafatı laureatı

*Redaktor:* **Cəsarət Hüseynzadə**

*Kitabın məzmununda əks olunan fikir və mülahizələr müəllifə aiddir və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin rəsmi mövqeyini əks etdirməyə bilər.*

"Qərbi Azərbaycandan Deportasiya. İmirlidə məskunlaşma (hüquq və tarix kontekstində)" kitabında Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə Müvəkkil Hüquq Mərkəzinin "Qərbi Azərbaycan haqqında tarixi həqiqətlərin araşdırılması və təbliği" layihəsi çərçivəsində Dərələyəz mahalının Çivə, Sallı, Qozulca, Göyçə mahalının Mollalı, Vedibasar mahalının Hortun kəndinin əhalisinin öz dogma yurdlarından İosif Stalinin qərarı ilə deportasiya edilərək Bərdə rayonunun İmirli kəndində məskunlaşmasının hansı tarixi şəraitdə baş verməsi, deportasiyanın hüquqi aspektləri araşdırılmış və bu aksiyaya məruz qalmış insanların şəxsi hekayələri toplanmışdır.

**S** $\frac{\textbf{5204000553 – (303)}}{\textbf{M – 656 – 2023}}$

**© Səməd Vəkilov**

## Mündəricat

Ön söz ..........................................................................4
Azərbaycan türklərinə qarşı deportasiyanın etno-siyasi əsasları ..........................................................................13
Ermənilərin Qərbi Azərbaycan ərazisində kütləvi məskunlaşmasının tarixi mərhələləri ..............................19
1948-1953-ci illər deportasiyası ..........................................33
Dərələyəz mahalının kameral siyahıya alınması tarixi mənbə kimi ..................................................................90
Dərələyəz mahalı, Çivə kəndi .................................................93
Dərələyəz mahalı, Sallı kəndi .................................................123
Göyçə mahalının Mollalı kəndi ..............................................134
Dərələyəz mahalının Qozulca kəndi .......................................151
Şəxsi həyat hekayələri və bioqrafik məlumatlar.......................167
İmirlidə məskunlaşma.............................................................245
Süleyman bəyin yadigarı 120 yaşlı İmirli kəndi məscidi..........248
İmirli, yoxsa Əmirli .................................................................251
Yetmiş yaşlı Əmirli (İmirli) kənd orta məktəbi .......................268
Əmirli kənd orta məktəbinin məzunu olan şəhidlər..................277
Bərdə rayon İmirli kəndi üzrə şəhidlər, Qarabağ və Çernobıl əlilləri, I, II Qarabağ və Əfqanıstan müharibəsi veteranları haqqında məlumat...............................................283
Əmirli (İmirli) kənd orta məktəbinin yetişdirdiyi alimlər.........287
Qərbi Azərbaycana qayıdış .....................................................290
İstifadə edilmiş ədəbiyyat siyahısı ..........................................307

## ÖN SÖZ

Qədim oğuz türk yurdu Qərbi Azərbaycandan azərbaycanlıların deportasiya edilməsi Sovet tarixşünaslığının gizli saxladığı bir məqam olduğu məlumdur. Ermənistanda azərbaycanlılara qarşı 1918-1920-illərdə soyqırım və 1930-1938-ci illərdə kütləvi repressiya və sürgün aksiyalarının həyata keçirilməsinə baxmayaraq, Ermənistanın Türkiyə və İran sərhədləri, eləcə də Azərbaycan və Gürcüstan sərhədləri boyunca yenə də əsasən azərbaycanlılar yaşayırdılar. İrəvan şəhərinin ətraf rayonları ən münbit torpaqlar hesab edilirdi və həmin rayonlarda da azərbaycanlılar əksəriyyət təşkil edirdilər.

1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası isə ermənilərin və onların havadarlarının İkinci Dünya müharibəsinin sonunda Sovet İttifaqının üstün mövqeyə çıxması ilə yaranan şəraitdən bəhrələnmək siyasətinin növbəti mərhələsi idi.

İkinci Dünya müharibəsinin sonlarına yaxın ermənilərin Türkiyəyə qarşı ərazi iddiası ilə SSRİ-nin Türkiyəyə hücum etmək planları üst-üstə düşürdü. İ.Stalin Rusiya ilə Türkiyənin 1914-cü il sərhədlərini bərpa etmək, yəni Qars və Ərdahan vilayətlərini yenidən Türkiyədən qoparmaq istəyirdi. Lakin Türkiyədən qoparılması nəzərdə tutulan ərazilərin məskunlaşdırılması problemi qarşıya çıxmışdı. Bu problemin xaricdə məskunlaşan Türkiyə əsilli ermənilərin hesabına həll edilməsi nəzərdə tutulurdu. Qarşıdan isə bütün ermənilərin katolikosunu seçmək kampaniyası gəlirdi. İ.Stalin bu məqamdan istifadə edərək, Eçmiədzin kilsəsinin arxiyepiskopu, katolikos postuna real namizəd G.Çörəkçyanı Moskvaya çağırır. 1945-ci il aprelin 19-da G.Çörəkçyan Stalinlə görüşür. Görüşün sonunda İ.Stalin deyir ki, Sovet hökuməti 1921-ci ildə Türkiyəyə verilmiş torpaqları qaytarmaq istəyir, arzu olunandır ki, həmin torpaqlarda Türkiyədən qaçmış və hazırda xaricə səpələnmiş ermənilər məskunlaşdırılsın. İ.Stalin təqribən 100 min erməninin immiqrasiyasını təşkil etmək haqqında tezliklə

hökumətin qərarının olacağını bildirir və Eçmiədzin kilsəsinin bu işdə köməklik göstərməsini istəyir. Məhz bu görüşdən sonra ermənilərin xaricdən Ermənistana köçürülməsinə və paralel olaraq, azərbaycanlıların deportasiya edilməsinə ciddi hazırlıq görülməsinə başlanmışdı.

1945-ci il mayın 15-də Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Q.Arutinov məktubla SSRİ Xalq Komissarları Sovetinin sədri İ.Stalinə müraciət edərək, xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına "qaytarılması" haqqında qərarın qəbul edilməsini xahiş edir. İyunun 6-da İ.Stalin Kremldə Q.Arutinovu qəbul edir. Q.Arutinov İ.Stalinə Türkiyə ilə 1914-cü ildəki vəziyyətə uyğun sərhədləri bərpa etmək haqqında məktubunu təqdim edir.

Oktyabrın 27-də Q.Arutinov yenidən İ.Stalinin qəbulunda olarkən İ.Stalin ona Sovet hökumətinin Türkiyəyə qarşı ərazi iddiasının gündəlikdən düşmədiyini bildirir. Q.Arutinov 300 mindən artıq erməninin Sovet Ermənistanına can atdığını, lakin öncə "mövcud ədalətsizliyin" aradan qaldırılmasını – yəni Dağlıq Qarabağ və Naxçıvan məsələsinin həll edilməsini xahiş edir. Q.Arutinov görüşün sonunda Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında növbəti məktubunu Stalinə təqdim edir.

SSRİ Xalq Komissarları Soveti 21 noyabr 1945-ci il tarixdə "Ermənilərin xaricdən Sovet Ermənistanına qayıtmaları ilə əlaqədar tədbirlər haqqında" qərar qəbul edir. Bundan bir həftə sonra ÜİK(b)P MK-nın ikinci katibi G.Malenkov Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi barədə Arutinovun Stalin qarşısında qaldırdığı vəsatəti Azərbaycan KP MK-nın birinci katibi M.C.Bağırova göndərir. 1945-ci il dekabrın 10-da M.C.Bağırov həmin məktuba cavab olaraq göndərdiyi məktubda bildirir ki, o, Q.Arutinovun təklifi ilə o şərtlə razıdır ki, Şuşa istisna olmaqla, Ermənistanın əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Əzizbəyov, Vedi və Qarabağlar rayonları Azərbaycana birləşdirilsin. Bundan sonra həmin məsələ qapadılmış, əvəzində

azərbaycanlıların Ermənistandan deportasiyası məsələsi aktuallaşmışdı.

SSRİ Ali Sovetinin 19 oktyabr 1946-cı il tarixli fərmanına əsasən xaricdən Ermənistana "repatriasiya" edilən ermənilərə (***əslində, xaricdən köçürülüb gətirilən erməniləri "repatriant" adlandırmaq elmi nöqteyi-nəzərdən düzgün deyildi. Çünki köçürülüb gətirilən ermənilər heç vaxt indiki Ermənistan ərazisində yaşamamışdılar***) Sovet İttifaqının ərazisinə daxil olduqları andan etibarən SSRİ vətəndaşı statusu verilməsi qərara alınır. Təkcə 1946-cı ildə Suriya, Yunanıstan, Livan, İraq, Bolqarıstan və Rumıniyadan 50 min 900 nəfər erməni immiqrasiya edilir. 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İraq və Livandan 35,4 min nəfər erməni qəbul edilərək Ermənistanda yerləşdirilir. Ermənistan rəhbərliyi 1946-cı ilə nisbətən 1947-ci ildə xaricdən köçürülüb gətirilən ermənilərin sayının azalmasının səbəbini onunla izah edirdi ki, xaricdən gələn ermənilər əsasən şəhər sakinləridir, onları dağlıq rayonlarda yerləşdirmək mümkün deyil, köçürülənlər isə yalnız İrəvan və onun ətraf rayonlarında məskunlaşmaq istəyirlər. Ümumiyyətlə, 1946-1949-cu illərdə xarici ölkələrdən Ermənistana 96 min erməni köçürülmüşdü ki, onların da xeyli hissəsi İrəvanda məskunlaşmışdı. Onlar əsasən şəhər ətrafındakı Nor-Areş, Zeytun, Nor Kilikiya massivlərində məskunlaşdırılmışdılar.

Tarixçilər SSRİ-nin Türkiyəyə qarşı ərazi iddiasını İkinci Dünya müharibəsindən sonra SSRİ ilə Qərb dövlətləri arasında "soyuq müharibənin" başlanğıc mərhələsi kimi izah edirlər. Sovet hökuməti ilə ABŞ və İngiltərə arasında aparılan uzun sürən diplomatik danışıqlar nəticəsində nəhayət ki, Sovet hökuməti Türkiyəyə hücum etmək niyyətindən əl çəkmişdi. Ermənilər Sovet hökumətinin köməyi ilə Qars və Ərdahanı ələ keçirmək fürsətini əldən versələr də, azərbaycanlı əhalinin tarixi-etnik torpaqlarından deportasiya edilməsinə nail oldular.

1947-ci il dekabrın əvvəlində Azərbaycan və Ermənistan KP MK-larının birinci katiblərinin adından İ.Stalinin adına məktub

göndərilir. Birgə məktubda Ermənistanda yaşayan 130 min nəfər azərbaycanlının köçürülməsi məsələsini həll etmək xahiş olunurdu.

1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul edir. Həmin qərarda göstərilirdi ki, 1948-1950-ci illərdə könüllülük prinsipi əsasında Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün. Qərarın 1-ci bəndində 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min və 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. Həmin qərarın 11-ci bəndində göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn ermənilərin yerləşdirilməsi üçün istifadə etsinlər. "Digər azərbaycanlı əhali" kateqoriyasına açıqlıq gətirilməsə də, aydın olurdu ki, bu kateqoriya altında Ermənistanın şəhərlərində yaşayan fəhlələr və kolxozçu olmayan azərbaycanlıların köçürülməsi nəzərdə tutulurdu.

10 mart 1948-ci il tarixdə SSRİ Nazirlər Soveti 23 dekabr 1947-ci il tarixli qərarına əlavə olaraq "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" ikinci qərar qəbul etmişdir. 14 maddədən ibarət olan bu qərarda köçürmə ilə əlaqədar olaraq SSRİ hökumətinin, habelə Azərbaycan və Ermənistan Nazirlər Sovetlərinin qarşısında konkret tədbirlərin həyata keçirilməsi vəzifəsi qoyulmuşdu.

Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 13 may tarixli qərarına əsasən həmin il Ermənistan SSR-in kənd rayonlarının kolxozçuları ilə bərabər İrəvan şəhərinin Stalin və Spandaryan rayonlarından azərbaycanlıların köçürülməsi nəzərdə tutulurdu.

1948-ci ilin sonunda Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyev SSRİ Nazirlər Soveti sədrinin müavini V.Malenkova

ünvanlandığı 27 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixli yuxarıda sadalanan qərarlarının yerinə yetirilməsinin vəziyyəti haqqında hesabat xarakterli məktubunda Kür-Araz ovalığına köçürülən əhali üçün bütün zəruri şəraitin olmadığı - yaşayış üçün mənzillərin olmaması, torpağın yararlı hala salınmaması, su təchizatının həll edilməməsi, sanitar-profilaktik müəssisələrinin yoxluğu vurğulanırdı. Bütün bunları nəzərə alaraq, Ermənistan SSR-dən azərbaycanlıların köçürülmə planında dəyişiklik edilərək bu rəqəmin 1949-cu ildə 15000-dən artıq nəzərdə tutulmaması, Ermənistanın dağlıq rayonlarından köçürülənlərin Azərbaycanın dağlıq rayonlarında yerləşdirilməsinə icazə verilməsi SSRİ Nazirlər Sovetindən xahiş edilirdi.

Lakin SSRİ Nazirlər Soveti dəfələrlə edilən bu cür müraciətlərə bir qayda olaraq cavab verirdi ki, təsdiq edilmiş köçürmə qrafikindən kənara çıxmaq olmaz.

SSRİ hökumətinin azərbaycanlıların köçürülməsi haqqında verdiyi qərarlar Ermənistan hökumətinə şans vermişdi ki, ilk növbədə İrəvan ətrafında və Ermənistanın xarici sərhədləri boyunca mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin köçürülməsinə nail olunsun. Ermənistan hökumətinin nümayəndələri azərbaycanlı əhalinin psixoloji cəhətdən köçürülməyə hazırlanması üçün müxtəlif şayiələr yayırdılar. Ermənistan SSR-in daxili işlər naziri general-mayor X.Qriqoryanın imzası ilə 3 may 1948-ci ildə M.C.Bağırova ünvanlanmış "Azərbaycan SSR-ə qarşıdakı köçürülmə ilə əlaqədar Ermənistanın azərbaycanlı əhalisi arasındakı əhval-ruhiyyə haqqında arayış"da təkcə köçürülməsi nəzərdə tutulan rayonların azərbaycanlı əhalinin narazılıqları deyil, bu işdə marağı olan, Dağlıq Qarabağın və Naxçıvanın Ermənistana birləşdirilməsini arzulayan ermənilərin söylədikləri də öz əksini tapmışdır.

Arxiv sənədlərində İrəvan şəhərindən azərbaycanlıların deportasiyasına dair faktlar da öz əksini tapmışdır. Məsələn, 1948-ci ilin dekabrında İrəvan şəhərindən 64 azərbaycanlı ailəsinin (253 nəfər) köçürüldüyü, 1949-cu ildə isə 400 ailənin köçürülməsinin nəzərdə

tutulması faktı qeyd edilmişdir.

Köçürülənlər əsasən onların Ermənistanda yaşadıqları rayonların iqlim şəraitinə uyğun olmayan, Zərdab, Əli-Bayramlı (Şirvan), Kürdəmir, Göyçay, Mirbəşir (Tərtər), Salyan, İmişli, Sabirabad, Jdanov (Beyləqan), Yevlax, Ucar, Saatlı rayonlarında yerləşdirilmişdilər ki, onların da bir qismi yoluxucu xəstəliklərə düçar olaraq tələf olmuşdular.

Köçürülənlər üçün yeni mənzillər tikilib istifadəyə verilmədiyindən onlar əsasən ictimai binalarda, yararsız tikililərdə, anbarlarda, tövlələrdə, yerli əhalini sıxışdırmaq yolu ilə onların mənzillərində yerləşdirilmişdi. 1948-1950-ci illərdə Ermənistandan köçürülmüş 8110 ailədən yalnız 3232-si yaşayış evləri ilə təmin olunmuşdu. 1950-ci ildə köçürülənlər üçün 3500 ev tikmək qərara alınsa da, yalnız 470 ev tikilmişdi. Yalnız 1488 köçkün ailəsi həyətyanı təsərrüfat sahəsi ilə təmin olunmuşdu. 1951-ci ildə köçkünlər üçün 5000 yaşayış evinin tikintisi planlaşdırılsa da, cəmisi 3074 ev tikilib istifadəyə verilmişdi. 1952-ci ildə Ermənistan SSR-dən Kür-Araz ovalığına 600 təsərrüfatın köçürülməsi planlaşdırılmış və plan artıqlaması ilə (124,6 faiz) yerinə yetirilmişdir.

Ermənistanın əsasən azərbaycanlılar yaşayan rayonlarının sakinlərinə edilən təzyiqlərin nəticəsində 1948-1950-ci illərdə 1000 təsərrüfatdan yuxarı azərbaycanlı ailəsi Ermənistanı tərk etmək məcburiyyətində qalaraq Azərbaycanın müxtəlif rayonlarına köçmüşdü.

1951-ci ildən etibarən Azərbaycanda evsiz-eşiksiz qalan köçkün azərbaycanlıların bir qisminin müxtəlif yollarla Ermənistana qayıtması prosesi başlanmışdır. 1953-cü ildə İ.Stalinin ölümündən sonra azərbaycanlıların tarixi-etnik torpaqlarından deportasiyası sürəti azalmış və yaşayış şəraiti ağır olan əhalinin öz əvvəlki yer-yurdlarına geriyə qayıtması prosesi sürətlənmişdir.

Ümumiyyətlə, 1948-1953-cü illərdə Ermənistanın 24 rayonundan və İrəvan şəhərindən (200-dən artıq yaşayış məntəqəsindən) rəsmi köçürülən azərbaycanlılarla yanaşı, qeyri-rəsmi şəkildə evlərini tərk edərək Azərbaycana köçənlərin ümumi sayı təqribən

100 min nəfər olmuşdur. Azərbaycanlıların deportasiyası nəticəsində Ermənistan rəhbərləri Əştərək, Martuni (Aşağı Qaranlıq), Qarabağlar, Abovyan (Ellər), Eçmiədzin və Hoktemberyan rayonlarından azərbaycanlıların izinin silinməsinə nail oldular.

Ermənistandan azərbaycanlıların deportasiyası başa çatdırıldıqdan sonra orada yaşayan azərbaycanlı əhalinin azalmasını bəhanə edərək, rayon və respublika miqyasında müəyyən vəzifələr tutan azərbaycanlı kadrların ermənilərlə əvəz edilməsinə başlanıldı.

Qarabağlar, Vedi, Zəngibasar, Krasnoselo rayonlarının partiya komitələrinin azərbaycanlı birinci katibləri, digər 10 rayonda isə ikinci və üçüncü katibləri vəzifədən azad edərək yerlərinə erməniləri təyin etdilər. Amasiya, Basarkeçər və Krasnoselo rayonlarından başqa, yerdə qalan rayonlarda Azərbaycan dilində çıxan qəzetlər bağlandı.

C.Cabbarlının adını daşıyan İrəvan Dövlət Azərbaycan Dram Teatrı 1949-cu ildə azərbaycanlıların cüzi yaşadıqları Basarkeçər rayonunun mərkəzinə köçürülmüş, 1952-ci ildə isə maliyyələşdirilməməsi səbəbindən bağlanmışdı. İrəvan teatrı yalnız 1967-ci ildə yenidən İrəvanda fəaliyyətini bərpa etmişdi.

X.Abovyan adına İrəvan Pedaqoji İnstitutunda 1937-ci ildən təhsil Azərbaycan dilində olan bölmələri - dil-ədəbiyyat, tarix-coğrafiya, fizika-riyaziyyat fakültələri və Ermənistan Dövlət Qiyabi Pedaqoji İnstitutunda mövcud olan eyniadlı fakültələri bağlanaraq, 1948-ci ildə Azərbaycandakı müvafiq institutlara köçürüldülər. 1924-cü ildən fəaliyyət göstərən İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu bağlanaraq onun fakültələri Xanlar (Göygöl) rayon mərkəzinə köçürüldü.

1948-53-cü illər deportasiyası nəticəsində İrəvan şəhərinin azərbaycanlı əhalisi yarıbayarı azaldı. 1939-cu ildə keçirilən siyahıyaalma zamanı İrəvan şəhərində 6569 nəfər azərbaycanlının qeydə alındığı halda, 1959-cu ildə 3413 nəfər azərbaycanlı qeydə alınmışdı (1949-cu ildə siyahıyaalma keçirilməmişdir).

Ermənistandan azərbaycanlıların deportasiyası ilə yanaşı, yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi əməliyyatı aparılırdı.

Təkcə 1947-1953-cü illərdə 60-dan artıq azərbaycanlı yaşayış məntəqələrinin adlarını erməniçələşdirdilər.

Xalqımıza qarşı tarixi cinayət kimi qiymətləndirilən bu aksiyaya hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 18 dekabr 1997-ci ildə "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərman imzalamışdır. Fərmanın təsviri hissəsində deportasiyanın etimologiyası araşdırılmış, nəticə hissəsində isə Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə dərindən araşdırllması zərurəti vurğulanmışdır.

1948-1953-cü illər deportasiyasının araşdırılması müasir tarixşünaslığımızın mühüm problemlərindən biridir. Bu mənada uzun illər Azərbaycan Milli Arxivinə rəhbərlik etmiş professor Ataxan Paşayevin rəsmi arxiv sənədləri əsasında qələmə aldığı "Köçürülmə" əsərini bu sahədə ilk təşəbbüs hesab etmək olar. A.Paşayev Milli Arxiv İdarəsinin Fondunda olan müxtəlif sənədlərdən və yazışmalardan istifadə etməklə Azərbaycan türklərinə qarşı aparılmış deportasiyanın mahiyyətini faktlarla açmış, əsaslandırmışdır.

Qərbi Azərbaycandan soydaşlarımızın deportasiyasının araşdırılması məsələsinə toxunarkən Əsəd Qurbanlı, Bəxtiyar Nəcəfov kimi tədqiqatçıların bu mövzuda apardıqları ciddi araşdırmalarını da qeyd etmək lazımdır.

Tədqiqatçı hüquqşünas Səməd Vəkilovun Sizə təqdim edilən "Qərbi Azərbaycandan deportasiya. İmirlidə məskunlaşma" adlı kitabını bu mövzuda yazılmış maraqlı tədqiqatlardan biri kimi dəyərləndirmək olar. Belə ki, müəllif deportasiyanı törədən tarixi şəraitə qiymət verərkən hadisələri İ.Stalin tərəfindən Krım və Axısqa türklərinə qarşı və etnik baxımdan müsəlman soylu digər xalqlara qarşı törədilən sürgünlər fonunda araşdırmış və doğru olaraq bu cinayət aktının türk xalqlarına qarşı yönəldilmiş

soyqırım cinayəti kimi qiymətləndirmişdir. Həmçinin S.Vəkilov bu cinayət aktının həmin dövrdə qüvvədə olmuş SSRİ Konstitusiyası, Azərbaycan SSR Konstitusiyası fonunda araşdırmaqla bu tarixi cinayətin hüquqi aspektlərinə aydınlıq gətirmişdir. Eyni zamanda kitabın şəxsi hekayələr bölməsində deporatsiyaya məruz qalmış Azərbaycan türklərinin yaşadıqları məşəqqətli sürgün hekayələrinin ayrı-ayrı çalarları fərdi insan taleyi prizmasından qiymətləndirliməsi nöqteyi-nəzərdən yeni yanaşmanın şahidi oluruq. Hesab edirəm ki, böyük zəhmət hesabına hazırlanmış bu kitab Qərbi azərbaycanlılara qarşı yönəldilmiş deportasiyanın öyrənilməsində dəyərli vəsait rolunu oynayacaqdır.

***Nazim MUSTAFA,***
***Tarix üzrə fəlsəfə doktoru,***
***Dövlət Mükafatı laureatı***

## AZƏRBAYCAN TÜRKLƏRİNƏ QARŞI DEPORTASİYANIN ETNO-SİYASİ ƏSASLARI

1948-1953-cü illərdə SSRİ Nazirlər Sovetinin sədri İosif Stalinin Azərbaycan türklərinə qarşı həyata keçirilmiş deportasiya və soyqırım siyasətinin anatomiyasını daha yaxşı anlamaq üçün SSRİ-də bundan əvvəl Krım türklərinə, Axıska türkələrinə qarşı aparılmış deportasiya və soyqırım siyasətinə baxılmalıdır. Krım tatarları Sovet İttifaqı ərazisində ilk məcuburi köçürülməyə məruz qalmış türk xalqıdır. II Dünya müharibəsinin aparıldığı bir dövrdə Krım türklərinin deportasiya edilməsi hansı zərurətdən yaranmışdır? Tarixşünaslıqda deportasiyanın səbəbləri ilə bağlı irəli sürülən ziddiyətli fikirlər mövcuddur. Sovet mənbələri deportasiyanın səbəbi kimi Krım türklərinin guya müharibə zamanı Nasist Almaniyası ilə əməkdaşlıq etməsinə görə onlara qarşı həyata keçirilən kütləvi cəza tədbiri kimi göstərirdi. Bu mənbələr Krım türklərini SSRİ-yə xəyanət etməkdə ittiham edirdilər. Krım türklərinin bir qrupu Şərqi Avropanı işğal etmiş almanlara Stalin rejimindən xilas olmaq üçün xilaskar kimi baxırdılarsa da, müharibə vaxtı 25,033 Krım türkünün Qırmızı Ordunun tərkibində döyüşlərdə iştirak etməsi, xidmətlərinə görə səkkiz nəfərin isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi faktr. Bütün bunlar və sonrakı deportasiyaya məruz qalmış millətlərin etnik tərkibi və metodu Krım türklərinə qarşı irəli sürülmüş birinci versiyanı inkar edir.

Haqlı olaraq Krım türklərinin milliyətçi kəsimi irəli sürülmüş bu iddialara rədd edir və onların bu ərazilərdən köçürülməsinin Türkiyə ərazisində yerləşən Dardanel boğazına keçid əldə etmək məqsədilə təşkil olunmuş sovet planının tərkib hissəsi olduğunu bildirirdi. Deportasiyanın Krım türklərinin bu plana mane ola biləcəyini nəzərə almaqla həyata keçirilməsi fkri də irəli sürülmüş versiyalardan biridir. 18-20 may 1944-cü il tarixlərində ən azı 191,044 nəfər, Krım Tatarları Milli Hərəkatının məlumatına görə isə 400,000-dən çox Krım tatarı öz qədim yurdundan deportasiya

edilmişdir. İosif Stalinin deportasiya qərarı SSRİ Dövət Müdafiə Komitəsi sədrinin müavini Lavrenti Beriya tərəfindən icra edilmişdir. L.Beriya üç gün ərzində Krım türklərini NKVD, kommunistlər və Qırmızı Ordu üzvlərinin səfərbər olduğu bir mənfur komanda ilə qadınları, uşaqları və yaşlıları yük qatralarına məcburi yerləşdirməklə bir neçə min kilometr uzaqlıqda yerləşən Özbəkistan Sovet Sosialist Respublikasına sürgün etmişdir. Səkkiz minə yaxın Krım türkü deportasiya zamanı həlak olmuş, bundan başqa on minlərlə insan isə kəskin köçürmə şəraitinə dözməyərək ölmüşdür. Türk düşməni İ.Stalin Krım türklərinin bütün izlərini aradan qaldırmağa çalışırdı. Hətta o, bu məqsədlə əhalinin növbəti siyahıya almalarında Krım türklərinin adının çəkilməsini qadağan etmişdi. 1956-cı ildə hakimiyyətə gələn yeni Sovet lideri Nikita Xruşşov müxtəlif millətlərin deportasiyası da daxil olmaqla Stalinin apardığı siyasəti tənqid etsə də, Krım tatarlarının geri qayıtmasına olan qadağanın ləğv olunmasına dair bir qərar qəbul etmədi. Kırım türkləri 1980-ci illərin sonlarına qədər Orta Asiyada yaşamağa davam etdilər. Məhz həmin dövrdə 260,000 Krım türkü yenidən öz əvvəlki yurd-yuvasına qayıda bildi. Krım tatarlarının geri qayıtması haqqında olan qadağa ləğv olundu və Krım Ali Şurasının 14 noyabr 1989-cu ildə qəbul etdiyi qərara əsasən İ.Stalinin həyata keçirdiyi deportasiya cinayət kimi tövsif edildi. 2004-cü ilə qədər Krım türklərinin böyük hissəsi Krıma geri qayıtdı və yarımadanın əhalisinin 12 faizini təşkil etdilər. Yerli hakimiyyət onların geri qayıtmasına heç bir köməklik göstərmədi, həmçinin itirdikləri torpaqlara görə kompensasiya vermədi.

12 dekabr 2015-ci ildə Ukrayna Ali Radası bu hadisələrin-soyqırım kimi tanınması barədə qərar qəbul etdi və 18 may günü Ukraynada **"Krım tatarlarının soyqırımı"** günü kimi ölkə təqviminə salındı.

SSRİ ərazsisində İ.Stalinin həyata keçirdiyi ən faciəvi deportasiyalardan biri də Axısqa türklərinə qarşı həyata keçirildi. SSRİ Nazirlər Sovetinin sədri İosif Stalinin əmriylə 14 noyabr 1944-cü il tarixində SSRİ Xalq Daxili İşlər Komissarlığı (NKVD)

komissar Lavrenti Beriya və onun 4000 NKVD personalının iştirakı ilə Gürcüstan SSR-in (indiki Gürcüstan) Mesxetiya regionunda 212 kənddə məskunlaşmış 95 000-ə yaxın Axısqa türkü öz evlərindən məcburi şəkildə çıxarılmışdır. Onlar mal-qara üçün nəzərdə tutulmuş vaqonlara yerləşdirilməklə Özbəkistan SSR-ə göndərilmişdir. Bu əməliyyat çərçivəsində digər etnik qruplardan olan 15 000-ə yaxın kürdlərvə həmşinlər (müsəlmanermənilər) də deportasiya edilmişdir. Qeyd edək ki, Qafqazda yaşayan digər müsəlman və türk soylu xalqlar olan çeçenlər, inquşlar, balkarlar, qaraçaylar və kalmıkların da deportasiyaya məruz qalması İ.Stalin sürgün siyasətinin etimologiyasının öyrənilməsi üçün zəruri materialdır.

SSRİ Dövlət Müdafiə Komitəsinin 31 iyul 1944-cü il tarixli 6277ss nömrəli sərəncamında yazılır: "… biz Gürcüstanın dövlət sərhədini və SSRİ-nin dövlət sərhədini qorumaq üçün türkləri, kürdləri və həmşinləri sərhəd ərazilərdən başqa yerə köçürtməyə hazırlaşırıq". Qazaxıstan Sovet Sosialist Respublikası Xalq Daxili İşlər Komissarlığı 23 sentyabr 1944-cü il tarixində sovet respublikasının yeni mühacirləri - türkləri, kürdləri, həmşinləri; 5.350 kolxoz ailəsi və 750 sovxoz ailəsini qəbul etməyə hazır olduğu barədə SSRİ Xalq Daxili İşlər Komissarlığına məlumat bildirir. Özbəkistan Sovet Sosialist Respublikası məlumat verir ki, sovet respublikası köçürülməsi planlaşdırılmış 30.000 nəfər yerinə, 50.000 nəfəri qəbul etməyə hazırdır. NKVD-nin əmriylə sürgün edilənləri köçürmək üçün 239 yük daşıyanavtomobil hazır vəziyyətdə saxlanılır, xalq isə hərəkətlənməyə başlayır.

Əməliyyat 26 noyabr 1944-cü il tarixində sona çatmışdır.- Əməliyyatın başlanğıc mərhələsində sovet qoşunları gecə saat 4 radələrində Axısqa türklərinin yaşadıqları evlərə gəlir və onların göndəriləcəkləri yer barədə heç bir şey demir. Əhaliyə xəbərdarlıq verilmir. NKVD tərəfindən verilən ilkin xəbərdarlıqda bildirilir: "Siz deportasiya edilirsiniz. Hazırlaşın. Sizə üç gün bəs edəcək ərzaq məhsulları götürün. Hazırlaşmağınıza iki saat vaxt verilir." Axısqa türklərini yaxınlıqlardakı dəmiryol stansiyalarına aparmaq

üçün "Studebaker" yük maşınlarından istifadə edilirdi.

Rəsmi sovet arxiv sənədlərində göstərilir ki, 92.307 nəfər deportasiya edilmişdir. Deportasiya edilənlərin 18.923-ü kişi, 27.309-u qadın, 45.989-u isə 16 yaşından kiçik uşaqlar idi. Deportasiya edilənlərin 52.163-ü Özbəkistan SSR-ə, 25.598-i Qazaxıstan SSR-ə, 10.546-sı isə Qırğızıstan SSR-ə yerləşdirilir. Deportasiya edilənlərin 84.556-sı kolxozlarda, 6.316-sı sovxozlarda, 1.395-i isə sənaye müəssisələrində işə alınır. Deportasiya edilən axırıncı insan 31 yanvar 1945-ci il tarixində Daşkənd şəhərinə çatır.

Deportasiya olunan Axısqa türkləri xüsusi yaşayış məntəqələrinə yerləşdirilmiş, orada məcburi əməyə cəlb edilmişdilər. Deportasiya və sürgünün ağır şərtləri 12.000-50.000 insanın ölümünə səbəb olmuşdur. Əməliyyatı yerinə yetirmək üçün 34.000.000 (otuz dörd milyon) rubl pul ayrılsa da deportasiya zamanı vətəndaşların hər hansı bir hüququnun təmin olunmasına doğru heç bir addım atılmamışdır. Deportasiya prosesi tamamlandıqdan sonra SSRİ hökuməti əsasən xristian ermənilərdən ibarət 32.000 nəfəri Mesxetiya ərazisinə yerləşdirmişdir.

Yeri gəlmişkən onu da qeyd edim ki, İ.Satlinin vətəni olan Gürcüstanda Çavaxetiya bölgəsində məskunlaşan erməni icması Gürcüstana qarşı torpaq iddiası irəli sürməkdədir.

İ.Stalinin ölümündən sonra SSRİ rəhbərliyi səviyyəsində Axısqa türklərinin deportasiyası tənqid edilsə də bu mövzu araşdırma üçün qapalı saxlanılmışdır. Bu problem 1989-cu ildə-Özbəkistan SSR-də gerçəkləşən Fərqanə hadisələrindən sonra yenidən aktuallıq qazanmışdır. 2006-cı ilin statistik məlumatına görə 260.000-335.000 nəfərdən ibarət Axısqa türklərinin əksəriyyəti yeddi postsovet ölkəsində yaşayır. Müstəqilliyini yenicə qazanmış Gürcüstan nədənsə 1991-ci ildə Axısqa türklərinə Mesxetiyaya geri qayıtmağa icazə verməmişdir.

Sovet səlahiyyətliləri 108 fərqli milliyətdən ibarət bir dövlət qurmağa çalışdılar. Onlar ilkin mərhələdə, bu çoxmillətli dövlətin sərhədlərarası etnik qruplarını Sovet İttifaqına sərhədi olan ölkə-

lərə təsir göstərmək üçün istismar edirdilər.Rusiyaşünaslıq üzrə professor olan Terri Martin bunun əks effektə gətirib çıxardığı fikrini irəli sürmüşdür.

***26 noyabr 1948-ci il tarixində SSRİ Ali Sovetinin Rəyasət Heyəti deportasiya edilmiş etnik qrupları həmin uzaq regionlarda daimi sürgünlə cəzalandıran sərəncam imzalayır. Bu sərəncam çeçenlər, inquşlar, Krım tatarları, Volqa almanları,-balkarlar, kalmıklar və Axısqa türklərinə şamil olunurdu.***

1945–1968-ci illərdə rəsmi sovet nəşrləri Axısqa türkləri və ya onların mənşəyi haqqında bir söz belə yazmırdı. SSRİ Ali Sovetinin Rəyasət Heyətinin 30 may 1968-ci il tarixli sərəncamı onların deportasiyasını etiraf edir, fəqət sərəncamın mətni iddia edir ki, Axısqa türkləri Qazaxıstan və Özbəkistandakı yeni evlərinə "kökləniblər" və orada qalmaq istəyirlər. Axısqa türkləri öz yurdlarına geri qayıtmaq haqqında 45 ildə 144 imza vərəqəsi hazırlayırlar. Onlar 1964-cü ildə **"Sürgündəki türk xalqının milli hüquqları üzrə türk assosisasiyası"nı** təsis edirlər. Bu təşkilat BMT və "Amnesty International" təşkilatı ilə əlaqə qurmağa çalışır ki, onlara öz yurdlarına geri qayıtmaqda yardım etsinlər. 1961-ci ildən 1969-cu ilə qədər Gürcüstana geri qayıtmaq üçün altı cəhd gerçəkləşir, ancaq bu qruplar yenidən deportasiya edilirlər. Sovet hökuməti 1960-cı illərdə Mesxetiya regionuna geri qayıtmağı tələb edən Axısqa türk hərəkatını basdırmaq üçün repressiyaya əl atır. Bu metodlara Axısqa türkü olan aktivistlərin polis nəzarətinə alınmalar, hədə-qorxular və həbslər daxil idi. Bundan başqa, 26 iyul 1968-ci ildə Gürcüstan SSR Kommunist Partiyasının Birinci Katibi Vasil Mjavanadze bəyan edir ki, Axısqa türklərinin qayıtması üçün regionda yetərli yer yoxdur və hər il yalnız 100 ailənin geri qayıtmasına icazə verilir. 1.211 Axısqa türkü Gürcüstana geri qayıdır, lakin onlar Mesxetiya regionundan uzağa, ölkənin qərb torpaqlarına dispersiya edilirlər. 1988-ci ilin iyun ayında etnik qrupun təqribən 200 nümayəndəsi Borjomi rayonunda etiraz aksiyası keçirir və tələb edir ki, öz yurdlarına geri qayıtsınlar. 1989-cu ildə Gürcüstanda yalnız 35 ailə qalır. Eyni zamanda,

Mesxetiya regionuna geri qayıan Axısqa türkləri oranı tərk etməyə vadar edilirlər.

Vəziyyət, formal olaraq ən azından sənəd üzərində, 1980-ci illərdə SSRİ Nazirlər Sovetinin yeni seçilmiş sədri Mixail Qorbaçov dövlətinstalinist keçmişiylə olan bütün əlaqələri kəsmək qərarını alanda dəyişir. SSRİ Ali Soveti 14 noyabr 1989-cu il tarixində bəyan edir ki, Stalin hakimiyyəti dövründə, Axısqa türkləri də daxil olmaqla, etnik qrupların məcburi köçürülməsi "illeqal və kriminal"dır. Boris Yeltsinin rəhbərliyindəki Rusiya SFSR Ali Soveti 26 aprel 1991-ci il tarixində repressiyaya uğramış xalqların təmizə çıxarılması haqqında qanun qəbul edir. Qanunun ikinci maddəsi bütün kütləvi deportasiyaları **"Stalinin diffamasiya və soyqırım siyasəti"** adlandıraraq qınayır. Lakin heç bir halda deportasiya ilə bağlı sənədlərdə Azərbaycan türklərinin adı çəkilmir. Bu isə Azərbaycan türklərinə qarşı həyata keçirilən deporatsiya siyasətinin ayrıca öyrənilməsini zəruri edir.

# ERMƏNİLƏRİN QƏRBİ AZƏRBAYCAN ƏRAZİSİNDƏ KÜTLƏVİ MƏSKUNLAŞMASININ TARİXİ MƏRHƏLƏLƏRİ

Ermənilərin Qafqaza köçürülməsinin əsas ilhamverici ruh atası sayılan I Pyotr 10 noyabr 1724-cü il tarixli fərmanı ilə ermənilərin Qafqaza kütəvi köçünü təmin etmiş oldu. Fərman qəbul edilməmişdən əvvəl ermənilərlə görüşən Rusiya imperatoru I Pyotr general-mayor Kropotova yazırdı: “Erməni xalqı bizdən xahiş etdi ki, onları himayəmizə qəbul edək və əmr edək ki, yeni əldə etdiyimiz İran vilayətlərində məskunlaşmaq üçün əlverişli yerlər ayrılsın; Buna görə də bununla sizə əmr edirik ki, erməni xalqından hər hansı biri Müqəddəs Xaç qalasına çatdıqda dərhal onları həmin qalaya, Sulak, Ağraxanı və Terek çaylarının kənarına, istədikləri yerə aparsınlar məskunlaşa biləcəkləri və digər məsələlərdə onlara hər cür köməklik göstərməli, onları güclü himayə altında saxlamalı və onlarla elə davranmalı ki, onlardan heç bir şikayət çıxmasın. Bu erməni xalqını bizim xüsusi imperiya lütfümüzə və himayəmizə qovuşdurun”.

Nəticədə Rusiya İmperiyasının türk xalqlarının quru sərhədləri arasında bufer zolağı yaratmaq ideyası gerçəkləşdi, ermənilər isə bu fürsətdən istifadə edərək dövlət qurmaq maraqlarını təmin etməyə çalışırdılar.

2013-cü ildə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin sözügedən fərmana münasibətdə işlədiyi bu cümlələr isə çox düşündürücüdür.

V. Putin: “Böyük Rusiya islahatçısı çar I Pyotr fərmanlarından birində belə yazmışdı: “Erməniləri regiona daha çox gəlməyə həvəsləndirmək üçün onları nəvazişlə sığallamaq, rahatlamaq lazımdır”. Üstündən nə qədər keçib ki, 300 il. Deyildi, icra edildi!"

Vladmir Putinin bu fikirləri səsləndirdiyi dönəm Azərbaycan torpaqlarının erməni işğalı altında olduğu və mənasız uzun uzadı danışıqların getdiyi bir dönəm idi. Həmin dövrlərdə Ermənistan prezidentləri müti qul kimi Putinə itaət edir o da Rusiya impe-

riyasının onlara Pyotrdan qalma lütfünü əsirgəmirdi. Sonrakı dönəmlərdə bu siyasətin əksinin şahidi olduq.

Ermənilərin Qafqaza köçürülməsi məsələsi araşdırılarkən tarixdə 200 ilə yaxın fasilələrlə davam etmiş rus-türk müharibələrinə toxunmadan bu məsələni obyektiv qiymətləndirmək mümkün deyil.

Təəssüf ki, rus-türk müharibələri Osmanlı imperiyasının tənəzzülünü əks etdirdi və Rusiyanın sərhədinin və təsirinin Osmanlı ərazisinə tədricən cənub istiqamətində uzanması ilə nəticələndi. Müharibələr 1676–81, 1687, 1689, 1695–96, 1710–12 (Böyük Şimali Müharibənin bir hissəsi), 1735–39, 1768–74, 1787–91, 1806–12, 1828–29, 1853 –56 ( Krım müharibəsi ), 1877-78 və 1914-18-ci illəri əhatə edir. Bu müharibələr nəticəsində Rusiya Avropa sərhədlərini cənubdan Qara dənizə, cənub-qərbdən Prut çayına və cənubdan uzada bildi.

Tarixi Azərbaycan torpaqlarında süni şəkildə yaradılmış Ermənistan dövlətinin ərazisinə ermənilərin kütləvi köçürülməsinin Qərbi Azərbaycan tarixin yüksək səviyyədə araşdırmış tarix üzrə fəlsəfə doktoru, Dövlət Mükafatı laeruatı Nazim Mustafa 5 mərhələyə bölür.

1) ***İrəvan xanlığının işğal edilməsi***
2) ***1905-1906-cı illər qırğınlarının nəticələri***
3) ***1918-1920-ci illər soyqırımı***
4) ***1948-1953-cü illər deportasiyası***
5) ***1988-1989-cu illər deportasiyası***

Tarixçi Nazim Mustafa haqlı olaraq 6-cı mərhələni Qərbi Azərbaycandan olan soydaşlarımızın öz doğma yurdlarına qayıtması mərhələsi hesab edir.

## BİRİNCİ MƏRHƏLƏ. İRƏVAN XANLIĞININ İŞĞAL EDİLMƏSİ

1 oktyabr 1827-ci ildə rus qoşunları İrəvan qalasını işağl etdilər və bu Azərbaycan xanlıqları içərisində ən son işğal olunan xanlıq idi. İrəvan xanlığının süqutundan sonra Rusiya imperiyası Qacarlar (İran) dövləti ilə Osmanlı imperatorluğu arasında xristian bufer zolağı yaradılması məqsədi ilə İrəvan xanlığı ərazisinə 80 min Don kazaklarının köçürülməsini nəzərədə tuturdu. Don kazaklarının İrəvan xanlığı ərazisinə köçürülməsi ilə bağlı layihə artıq Qafqaz canişini general İvan Fyodoroviç Paskeviç tərəfindən çar I Nikolaya təqdim edilmişdir. Ermənilər yaranmış bu tarixi fürsətdən istifadə edərək, Çar Rusiyasına müraciət edərək bildirdilər ki, İrəvan xanlığının ərazisinə Don kazaklarının köçürülməsindən daha yaxşı layihə təklif edirlər. Onlar ermənilərin həmin əraziyə köçürülməsini daha ucuz və səmərəli olacağını bildirirdilər. Beləlilklə, İrəvan xanlığına yaxın olan Osmanlı və İran ərazisindən on minlərlə erməni əhalisinin rahatlıqla bu ərazilərə köçürülməsi təklif edildi. Ermənilərin təklifi daha cəlbedici görsəndiyi üçün İrəvan xanlığının ərazisinə Don kazaklarının köçürülməsi layihəsi baş tutmadı.

Nəhayət, 10 fevral 1828-ci il tarixində bağlanan Türkmənçay müqaviləsi ilə Qacarlar (İran) dövləti ərazisindən 40 mindən (8.400 ailə) artıq ermənini İrəvan, Naxçıvan xanlıqlarının ərazisinə köçürdülər. Köçürülən əhalidən 1300 ailə Qarabağa və Zəngəzura yerləşdirildi. I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində Erməni vilayəti yaradıldı. Təkcə Erməni vilayəti yaradılan ərazidə 1111 kənd mövcud idi. İrəvan xanlığının ərazisində müharibə nəticəsində 310 kənd xaraba qalmışdı. Bu kəndlərdən yalnız 64-də ermənilər yaşayırdı. Bunlar da kilsə ətrafında balaca-balaca kəndlər idi. Bu kəndlərdən yalnız 14-nün adı erməni mənşəli idi.

Həmin dönmələrdə qədim Azərbaycan torpağı olan İrəvan ərazisində yerli əhali yayda yaylağa çıxıb geri qayıdanda evlərində

erməni əhalisinin məskunlaşdığının şahidi olurdu. Nəticədə onlar arasında qarşıdurma yaranırdı. Çar Rusiyası bu üsullarla erməni əhalisinin vasitəsi ilə yerli Azərbaycan türklərini sıxışdırırdılar. Beləliklə, birinci mərhələdə İrəvan xanlığı ərazisinə kütləvi erməni köçü təmin edildi.

## İKİNCİ MƏRHƏLƏ. 1905-1906-CI İL QIRĞINLARININ NƏTİCƏLƏRİ

Rus-türk müharibəsini (1877-1878-ci il) Osmanlıların uduzması nəticəsində Çar Rusiyası Qars və Sürməli (İqdır) ərazilərini tutmuşdur. Berlin Konkresində Şərqi Anadolunun 6 vilayətində erməni muxtariyyətı yaradılması nəzərdə tutulmuşdu.

Erməni quldur dəstələri artıq Şərqi Anadoluda erməni muxtariyyətının yaradılması məqsədi ilə Osmanlı tərkibində hərkətlənmələrə keçdilər və nəticədə 300. 000-ə yaxın erməni Qafqaza köçdü. Bu prosess təxminən 1900-cu illərin əvvələrinə kimi davam etdi. Bu dönəmlərdə Çar rusiyasında inqilabi hərakat genişləndiyi üçün Çar rusiyasının başı öz daxili problemlərinə qarsımışdı. Bütün bunlara baxmayaraq ermənilərin tarixi Azərbaycan torpaqlarında kütləvi məskunlaşmasının ikinici mərhələsi də “uğurla” tamamlandı.

Şübhəsiz ki, Qərbi Azərbaycandan soyadaşlarımızın deportasiyası və ermənilərin burada yerləşdirilməsindən danışarkən 1905-1906-cı illər qırğınlarından danışmamaq mümkün deyil. Araşdırma zamanı təəssüf doğuran hal ilə rastlaşdıq. Sözügedən önəmli tarixi hadisə ciddi şəkildə araşdırılmalıdır. Onu da qeyd edək ki, bu sahədə ilk fundamental elmi araşdırma tarixçi alim, Dövlət Mükafatı laeruatı Nazim Mustafa tərəfindən 2014-cü ildə "1905–1906-cı illərdə İrəvan quberniyasında və Zəngəzur qəzasında ermənilərin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar" adlı dissertasiyası olmuşdur. Sözügedən mövzunun tarixi ədəbiyyatda öz əksini tapması məsələsinə müraciət etsək, Cəfər Cabbarlının erməni-azərbaycanlı müharibəsi dövründə azərbaycanlı

Baxşı və erməni Sonanın məhəbbət hekayəsi üzərində 1931-ci ildə yazdığı “**1905-ci ildə**” pyesi maraqlı bir bədii əsər kimi qiymətləndirilsə də, pyesdə sovet dönəminin hakim ideologiyasının sirayət etdiyini də görməmək mükün deyil. Şübhəsiz ki, bu dəhşətli hadisələrin canlı şahidi olmuş görkəmli Azərbaycan yazıçısı-Məmməd Səid Ordubadinin "Qanlı illər" adlı sənədli əsəri ən gözəl mənbələrdən biridir. O, bu əsərdə problemin kökünə nüfuz etmiş, millətlərarası toqquşmaya və qan tökülməsinə gətirib çıxaran səbəbləri dəqiq göstərə bilmişdir. Qeyd etmək lazımdır ki, M.S.Ordubadinin əsərində əsasən Naxçıvan, İrəvan və Zəngəzur ərazisində baş verən faciələr qələmə alınmışdır. Həmin dövrlərdə Qarabağda baş verən hadislərinin qeydə alınmasında isə iki şəxsin adının çəkilməsini vacib hesab edirik. Ensiklopedik bilgi sahibi olan şair, rəssam, astronom, ədəbiyyatşünas, nəqqaş, tarixçi, xəttat və musiqişünas alim Mir Möhsün Nəvvabın “1905-1906-cı İllərdə erməni-müsəlman davası” və şair Mirzə Rəhim Fənanın “1905-ci il hadisəsi” adlı əsərləri də bu sahədə ciddi mənbədir.

Qayıdaq 1905-1906-cı il qırğınlarının başlanmasına. 2 fevral 1905-ci ildə Bakı da meydanda daşnaklar tərəfindən Ağarza adlı bir nəfər azərbaycanlının vəhşicəsinə qətlə yetirilməsi müsəlmanların qəzəbinə səbəb oldu. Lakin 1905-ci ildə bir nəfər azərbaycanlı məhbusun dindirilməyə aparılarkən yolda erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirilməsi ondan xəbər verirdi ki, ermənilər bu münaqişəyə qabaqcadan çox yaxşı hazırlaşmışdılar. Milli zəmində silahlı qarşıdurmanın aradan qaldırılması üçün heç bir ciddi tədbir görməyən yerli hakimiyyət praktiki olaraq, hadisələrin daha da gərginləşməsində maraqlı idi. 1905–1906-cı illər erməni-türk qarşıdurması zamanı ermənilərin türklərə qarşı amansız, vəhşi münasibəti nəticəsində minlərlə Azərbaycan türkü qanına qəltan edildi. Ermənilər qoca, uşaq, qadın demədən, qarşılarına çıxan hər bir müsəlmanı vəhşicəsinə qətlə yetirdilər.

Bu, ilk növbədə, "Daşnaksutyun"un Azərbaycanda həyata keçirdiyi terrorlarının və xristian güc mərkəzlərinin köməyi ilə ermənilərin "Böyük Ermənistan" mifinin gerçəkləşməsinə doğru

atılmış addımların tərkib hissəsi idi.

Daşnakların Azərbaycan xalqına qarşı törətdikləri qətlləri araşdıran tarixçi Bəxtiyar Nəcəfov yazır: "...burada ermənilərin öz qüvvə və imkanlarını həddindən artıq şişirtmələri, müsəlman əhalisi tərəfindən müqavimətlə qarşılanması və əlbəttə, çarizmə qarşı çıxan qüvvələrin məğlubiyyəti də öz rolunu oynayırdı. Buna müvafiq olaraq, ermənilər və təşkilatlanmış bütün erməni terrorçuları sonrakı illərdə öz taktikalarını dəyişdilər. Lakin döyüş qaydasını bərpa edərək Cənubi Qafqazda təxribatçılıq fəaliyyətlərini davam etdirmək üçün əsas qisasçılıq məqsədlərinə sadiq qaldılar".

1905-ci ildə, **Voronsov-Daşkovun** Qafqazın canişini təyin olunması da Çar Rusiyasının bu hadisələrə riyakar münasibətinin ifadəsi idi. Çar sarayında məharəti ilə ad çıxarmış həmin qraf ermənilərə rəğbəti ilə seçilirdi. Onun arvadı **Liza Qriqoryevna** milliyyətcə erməni idi. Onun köməyi ilə Tiflisdə əsas vəzifələr erməni fırıldaqçılarının əlinə keçmişdi. Təsadüfi deyildi ki, Voronsov-Daşkov erməni kapitalının köməyi ilə Balaxanıda-zəngin neft mədəninə yiyələnmişdi. 1905-ci ildə yeni canişin-Bakıya gələrkən məlum oldu ki, onu neftçilərin tətilləri və fəhlələrin iş şəraiti deyil, öz mədənlərinin qorunması maraqlandırır. O, tətilçiləri ciddi cəzalandırmaqla hədələdikdən sonra Tiflisə qayıtmışdı.

I və II Balkan müharibələri ərəfəsində daşnakların bir sıra təşkilatları yaradılmaqda idi. Bu işdə canişin Voronsov-Daşkov onlara yaxından kömək edirdi. Məhz bu dövrdən başlayaraq qraf V.Daşkov daşnaklarla çar arasında olan münasibətlərin həlli istiqamətində öz üzərinə bir çox öhdəliklər götürməli olmuşdu. Bütün məsələlər çarla aparılan məktublaşmalarda öz əksini tapmışdır. Voronsov-Daşkov dönə-dönə Rusiya hökumətinin və Cənubi Qafqazda erməni icmasının mənafe ümumiliyini qeyd edir, etiqad qardaşlarının-xristianların "vəhşi türklərdən" müdafiəsinin zəruriliyinə diqqət yetirir, yeni Rusiya-Türkiyə müharibəsində ermənilərin Rusiya ordusuna hansı köməyi göstərəcəyini

vurğulayırdı.

Hətta canişin bir az daha irəli gedərək belə hesab edirdi ki, Cənubi Qafqazın erməni əhalisi ilə hökumət arasında baş vermiş münaqişələrin günahkarı rus məmurlarıdır, ilk növbədə Qafqazın sabiq canişini knyaz Qolitsindir.

Qeyd etmək lazımdır ki, Birinci Dünya Müharibəsi ərəfəsində ermənilər çar hökumətinə qarşı loyal münasibət sərgiləməkdə idilər. Əsas məqsəd müharibə başlayacağı təqdirdə çar hökumətinə hərtərəfli dəstək göstəriləcəyini açıq şəkildə bəyan etmək idi. Nəticədə, Tiflisdə "Daşnaksutyun"un “xarici işlər naziri” Zavriyevlə Voronsov-Daşkov arasında intensiv danışıqlar başlandı. Bu danışıqlarda həmişə olduğu, kimi erməni din xadimləri öndə gedirdilər. Yepiskop Mesrop, Samson Arutyunov və A. Xatisov daha çox fəallığı ilə seçilirdilər. Onlar daşnaklar müharibə başlayarsa, bütün qüvvələrini Qafqaz ordusunun sərəncamına verməyi öz öhdələrinə götürdülər. Öz növbəsində Vorontsov-Daşkov ermənilərlə Şərqi Anadolunun, Kilikiyanın vilayətlərindən ibarət “muxtar Ermənistan” yaradılacağını vəd edirdi.

Tiflis danışıqları daha sonra Peterburqda davam etdirildi. Burada ilkin sazişlər işlənib hazırlandı. Bu sazişlər özündə prinsip etibarı ilə iki əsas məsələni əks etdirirdi:

***1. Türkiyə əraziləri hesabına yaradılacaq muxtar Ermənistan;***

***2. Türkiyəyə qarşı müharibə zamanı erməni terrorçu dəstələrinin rus ordusu ilə müttəfiq vuruşması.***

Çar Rusiyasının ermənipərəst siyasəti intensiv şəkildə 1915-ci ildə V.Daşkov canişin vəzifəsindən azad olunanadək davam etdi. Nəticədə "Daşnaksutyun" möhkəmlənərək, öz sıralarını yenidən qurdu, ermənilər Cənubi Qafqazın iqtisadi və siyasi həyatında öz mövqelərini daha da gücləndirdilər.

20 mart 1905-ci ildə isə İrəvanda qırğınlar başladı. 1906-cı ilin oktyabr ayına qədər qırğınlar davam etdi. 1905-1906-cı illərdə İrəvan quberniyasında 150-yə yaxın Azərbaycan kəndini boşaltdılar qırğınlar törətdilər. 10 minə yaxın Azərbaycan türkü qətlə yeti-

rildi. 100.000 Azərbaycan türkü evindən-eşiyindən didərgin salındı.

M.S.Ordubadi: "1905-ci ilin may ayının əvvəllərində Bakı erməni-müsəlman toqquşmasından sonra Naxçıvanda erməni-müsəlman camaatı artıq həyəcanda idilər. Buna nisbət ermənilər əsla qorxmayıb, həmişə müsəlmanlara əziyyət verməkdə idilər. Bir tərəfdən şəhərə belə səs salmışdılar ki, ermənilərdə cürbəcür odlu silahlar olduğundan, müsəlmanlara birdən-birə hücum edəcəklər. Ermənilərdə də belə hallar hər dəqiqə gözlənirdi. Hər vəziyyətdə, erməni siyasətini götür-qoy edəndə elə belə də olmalı idi. Zira, ermənilərin rəyincə, "**bizim əlimizin üstündə Qafqazda gərək əl olmasın**" - deyib, hər tərəfə odlu silah və sair hərbi ləvazimat göndərməyə çalışırdılar... O zamana qədər əsla qara-qorxu görməmiş Naxçıvan müsəlmanları gecələr ermənilərin qorxusundan eşiyə, gündüzlər isə uzaqda olan əmlaka da gedə bilməzdilər. Naxçıvanın ətrafı hər tərəfdən erməni kəndləri ilə əhatə olunduğundan, 6 saat ərzində İrəvandan istədikləri qədər erməni əsgəri gətirməyə gücləri çatdıqlarından daha müsəlmanları şirin dillə dindirmək belə istəmirdilər".

M.S.Ordubadi Naxçıvanda Cəhri və Tunbul kəndlərində baş vermiş qarşudurmalarda məsələləri sakitləşdirmək üçün may ayının 8-də İrəvan vitse-qubernatoru Baranovskı İrəvandan şəhər qlavası Ağamalov ilə, daha bir ay qabaq Peterburqa getmiş şəhər qlavası Cəfərqulu xan Naxçıvanskinin Naxçıvana daxil olmalarını təsvir edir. Yazıçı qeyd edir ki, onların gəlməsini eşitdikdə camaat qapıya tökülüb ermənilərin bu işindən şikayətə başlayırlar. Əvvəlinci şikayətləri: **"Ermənilər bizə nə etdilər isə keçdi, fəqət yenə yığışıb bazara gəlsinlər,"** - demək idi.

Sözügedən görüşdən bir gün sonra isə Cəhri müsəlmanları qubernatorun hüzuruna gəlib bu sözləri şikayət etdilər: **"Bizim kəndin yolları hər tərəfdən erməni əlindədir. Bu səbəbdən təvəqqe edirik, yolları hökumət mühafizəsinə alasınız".** Bu tövr ilə hər tərəfdən müsəlmanlar şikayətə gəlməkdə idilər. Nə fayda ki, hamısı cavabsız qalıb, şikayətçilərə məyusluqdan başqa bir şey

qalmadı. Bu tərəfdən şikayətləri cavabsız qalan müsəlmanları ermənilər cürbəcür söyüşlərlə incidirdilər. M.S. Ordubadi yazır ki, həmin gün naxçıvanlı Əli Hacı Bayramzadə gecə vaxtı yeddi güllə yarası ilə qətlə yetirildi.

Qubernatora şikayət edən cammata isə onun cavabı M.F.Axundovun komediyalarında o sənin atını vurub öldürübdürsə, "sən də get onun atını vur öldür" məntiqindən uzağa getmir. (S.Vəkilov) Bəli, eyniylə Qubernator "əgər onlar sizə atəş açır, siz də tutub onların tapançalarını alınız" cavabını verir. Budur, Rus İmperiyasının Qafqazda qardaşlıq adı ilə 2 yüz il davam edən riyakar siyasəti.

M.S.Ordubadi yazır ki, müharibə vaxtı polis qulluqçusu naçalnik Angil qətlə mane olmayıb "Tez vur, oğlum! tez ol, oğlum!" - deməklə könüllü cavanları cinayətə təşviq etməsini talan vaxtı isə "Tez olunuz! tez aparınız!" - deyib camaatı qızışdırmasını təsvir edir.

Naxçıvanda erməni əhalisinin azlıq təşkil etməsi onların məğlubiyyətinə səbəb oldu. Bu isə İrəvanda yaşayan ermənilərin qıcıqlandırıdı. Artıq İrəvanda qırğınların törədiləcəyi ilə bağlı xəbərlər yaılmağa başlayırdı.

M.S.Ordubadi: "Bu bir də ondan irəli gəlir ki, bu müharibələrdə erməni əsgərləri araq-çaxır, bu kimi spirtli içkilər içməklə, lovğalıq edərək, ara-sıra çıxıb bir güllə boşaldıb erməni saqilərinə **"bir islam vurdum"** deyib, bir rumka konyak tələb etməkdə idilər.

1905-ci il hadisələrinin xronologiyasına, ermənilərin davranışına baxdıqda birmənalı şəkildə erməni xislətinin dəyişməz olduğunu onların yalnız Dəmir Yumruqdan anladığını düşünürsən.

## İRƏVAN HADİSƏLƏRİ VƏ NOVRUZ KAZIM OĞLUNUN ŞÜCAƏTİ

**M.S.Ordubadi yazır ki, Gözəcik kənd əhalisi yaxınlıqdakı** Mənkus adlı islam kəndinə pənah aparırlar. Ermənilərin həmin kəndə hücumuna sinə gərən qoca Novruz Kazım oğlu camaatı

ermənininin qabağından qaçdığını görüb, uca bir yerə qalxıb, "camaat, hara qaçırsınız" deyə aşağıdakı nitqi söyləmişdir: "Oğlanlar hara qaçırsınız? İstəyirsiniz bu qaçmaqla bizi - Qafqaz müsəlmanlarını başqa millətlərin yanında başıaşağı edəsiniz?! Məgər, bu qaçmaqla ermənilər sizi boşlayacaqlar?! ***Xeyr! Xeyr! Bunların qabağından qaçdıqca daha da cürətli olub bizə və bizim ailəmizə heç bir əsrdə insanlara rəva görülməmiş hörmətsizliklər yetirəcəklər. Məgər, bunlar həmən ermənilər deyil ki, bir il əvvəl mən barmağımla hərəkət verəndə az qalırdılar Qırxbulaq mahalından çıxıb qaçsınlar?!*** İndi sizə nə olubdur ki, aciz arvadlara qoşulub qoyun sürüsü kimi bunların qabağından qaçırsınız?! Siz qaçırsınız, qaçın! Mən tənha bu erməni alaylarının qarşısında müdafiə mövqeyində durub can verəcəyəm. Müsəlmanlar! Hər millət gərəkdir öz şən və heysiyyətinə layiq bir tərzdə dünyadan getsin. Məhəmməd peyğəmbərin şəriətinə, millət və islamiyyət yolunda, Allahın bəyəndiyi niyyət və təşəbbüslərinə nəzərən düşmən qabağından qaçmaqla can vermək qəbahətli və rəva hərəkətlərdəndir. Bilirsiniz ki, bizim bu məzarstanımızda yatan babalarımızın sümükləri çıxarılıb kənar kənddə yandırıldıqdan sonra, onların məzarları yerində Ermənistan təşkil ediləcəkdir. Mən axirətdə məsul olmamaq üçün müdafiəyə çalışacağam"

Novruz Kazımoğlunun bu nitqi onun nə qədər cəsur bir şəxsiyyət olduğunun ən bariz nümunəsidir.

Vətənpərvər Novruz Kazım oğlu kəndi boşlamadıqda bir azdan ermənilər tərəfindən nişana alınır. Qohumları Novruz Kazım oğlunu mühasirədən xilas etməyə gəlsələr də, düşmənin çoxluğundan qeyrətli qocanı qurtarmaq mümkün olmur. Novruz Kazım oğlu qoşalülə tüfəngi ilə otağa yaxınlaşan erməni dəstəsindən birini vurub, qalanını geri çəkilməyə məcbur edir. Bu sözlərin hamısı bir ermənininin dilindən eşidilmişdir. Bir az sonra ermənilər yenə hücuma keçirlər. Novruz Kazım oğlu onlardan birini də öldürüb qalanlarını qaçmağa məcbur edir. Gülləsi qurtaran Novruz Kazım oğlu həyəcanlı halda tüfənginə patron doldurarkən ermənilər hücum edir, evin qapısını odlayıb onu əsir alırlar. Kəndin əksər

yerlərini odlayıb, məscidi, minbəri, müqəddəs kitabları və Novruz Kazım oğlunun evini də odlayıb, onu əli bağlı Tirjabat adlı erməni kəndinə aparırlar. Orada min cəfa və əziyyətlə başını kəsirlər. Ermənінin dediyinə görə, Novruz Kazım oğlunun başını kəndin keşişi Ayrapet kəsmişdir. Zira, Gözəcikdə Novruz Kazım oğlunun vurduğu ermənilərin birisi keşişin oğlu imiş. Beləliklə, Novruz Kazım oğlunun başını - "min beş yüz müsəlman sərkərdəsinin başıdır" - deyə, əvvəlcə Aleksandropol, sonra isə Bakı şəhərinə göndərmişlər.

Qeyd etmək lazımdır ki, eynilə I Qarabağ savışında Natiq Qasımovun elədiyi şücaəti yüz il bundan əvvəl Novruz Kazımoğlu etmişdir. Hər iki qəhramanımızın acı taleyi isə eyni olmuşdur.

## ÜÇÜNCÜ MƏRHƏLƏ. 1918-1920-Cİ İLLƏR SOYQIRIMI

1917-ci ildə Çar Rusiyasında baş vermiş bolşevik inqilabı nəticəsində Rus Qoşunları 1918-ci ildə Türkiyə ərazisinin tərk etmək məcburiyyətində qaldı. Ermənilərin Türkiyə ərazisində "Erməni dövləti" qurmaq xülyası baş tutmadı. Bu mərhələdə Şərqi Anadoludan təqribən 300 min erməni gəlib İrəvan quberniyasının ərazisində məskunlaşdı. Onlar Osmanlı ərazisindən cani Andranik Ozanyan başda olmaqla, Azərbaycan ərazisinə daxil olaraq mülki əhaliyə qarşı soqyqırımı cinayəti törətməyə başladılar. O, Ərzurumdan 500 türk-müsəlman kəndinin ərazisini keçərək (Gümrü, Cəlaloğlu, Dilican dərəsi, Qaraqoyunlu dərəsi, Göyçə gölünün sağ sahilindən) 3 iyulda Gorusda özünün qərargahını qurdu. Eyni zamanda Dərələyəz, Naxçıvan Culfa istiqamətində də qırğınlar törətdilər. Ermənilər 2 il müddətində Azərbaycan türklərinə məxsus 600-ə yaxın kənddə mülki əhaliyə qarşı soyqırımı həyata keçirdilər.

Rus dilində Bakıda çap olunan "Kommunist" qəzetinin 15 oktyabr 1920-ci il tarixli (№147) sayında soyqırımla bağlı oxuyuruq:

***Zəngibasarda** 48 kənd tamamilə yandırılmışdır, 150 kişi və

qadın , 400-dən artıq uşaq qətlə yetirilmiş,100 xəstə adam tonqalda yandırılmışdır. 816 qaçqın Arazda boğulmuş və İrana keçən bilən təxminən 160 min nəfər isa ağır durumla üzləşmişdir.

* **Vedibasarda** 118 kənd talan edilərək yandıırlmış, 900 nəfər artileriya atəşindən ölmüşdür, 6 qadın əsir götürlmüş 300 dən çox uşaq və qoca qırılmışdır.

***Dərələyəzdə** 74 kənd viran edilmişdir. Şahtaxtı kəndində və Şərurla üst-üstə 70 kənd yandırlmışdır. Şərurda 810 xəstə yatağında qətlə yetirilmişdir, 144 qadın əsir alınmış , 150 qoca kişi və qadın öldürülmüşdür. Şahtaxtıda 36 uşaq, 14 qoca, 8 qarı, 9 xəstə məhv edilmiş və 3 qadın aparılmışdır.

1920-ci ilin noyabr ayında Ermənistanda Sovet hakimiyyəti qurulanda həmin ərazidə təxminən 12 minə yaxın Azərbaycan türkü qalmışdı.

16 mart 1921-ci il tarixində Rusiya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə Böyük Millət Məclisi (1923-cü ildə qurulacaq Türkiyə Cümhuriyyətinin sələfi) arasında bağlanmış Moskva sülh müqaviləsinin tələblərinin yerinə yetirilməsi çərçivəsində həmin il oktyabr ayının 13-də Azərbaycan, Ermənistan və Gürcüstan ilə Türkiyə arasında Qars şəhərində imzalanan sülh müqaviləsindən sonra (Müqavilə 1922-ci il sentyabr ayının 11-də qüvvəyə minmişdir) təxminən 130 minə yaxın Azərbaycan türkü tarixi torpaqlarımıza qayıda bildilər. Geri qayıdan əhalinin bir çoxu evlərində ermənilərin məskunlaşdığını gördülər. Onların arasında ciddi qarşıdurmalar baş vermişdir.

30-cu illər repressiyası dönəmində ermənilər sərhəd boyu Azərbaycan türklərinin Türkiyə və İranda qohumları olması adı ilə kütləvi şəkildə repressiyaya məruz qoydular. Qərbi Azərbaycanın Ağbaba mahalı Qars müqaviləsinə qədər Osmanlı ərazisi idi. Qars müqaviləsinə əsasən, Ermənistan ərazisinə qatıldı. Əhalinin əksəriyyətinin Osmanlı ərazisində qohumları var idi. Bu isə ermənilər üçün fürsət idi və bundan Azərbaycan türklərinə qarşı ciddi şəkildə istifadə etdilər.

# DÖRDÜNCÜ MƏRHƏLƏ 1948-1953-CÜ İLLƏR DEPORTASİYASI

Deportasiyanı yaradan şəaritə diqqət etsək görərik ki, II Dünya müharibəsindən qələbə ilə çıxan SSRİ Almaniyanın müttəfiqi olmuş Türkiyəyə qarşı torpaq iddiaları irəli sürmüşdür. II Dünya müharibəsinin əvvəlindən Türkiyə Almaniya ilə müttəfiq olsa da, sonda Türkiyə Almaniya ilə əlaqələri kəsdi hətta 1945-ci ilin mart ayında Türkiyə formal olaraq Almaniyaya qarşı müharibə elan etdi. Lakin SSRİ-nin müharibədən qələbə ilə çıxması ermənilər üçün yeni bir fürsət yaratdı. Artıq "İzvestiya" və "Pravda" qəzetlərində erməni və gürcü alimlərinin imzası ilə Qars və Ərdahanın tarixi erməni və gürcü torpaları olması ilə bağlı məqalələr dərc edilirdi. Türkiyənin böyük dövlət adamlarından olan professor Fuat Köprülü (9 dekabr 1950 -20 iyun 1956-cı ilədək Türkiyənin xarici işlər naziri olub) erməni və gürcü alimlərinin əsassız iddialarına mətbuatda əsaslı dəlillərlə cavab verirdi. SSRİ-də artıq ictimai rəyi hazırlayaraq Qars və Ərdahanın SSRİ-yə qatılması üçün zəmin hazırlanırdı.

Artıq buna qədər SSRİ-də Axıska və Krım türkləri və digər xalqlar qarşı sürgün aktları həyata keçirilmişdi. Lakin SSRİ-də yegəanə rəsmi qərarla deportasiya məhz Azərbaycan türklərinə qarşı həyata keçrilən deportasiya oldu. Sözügedən deportasiya ilə bağlı digər bölmədə geniş bəhs edildiyi üçün burada ermənilərin Qərbi Azərbaycan ərazisindən azərbaycanlıların kütləvi köçünün təmin olunmasının bir mərhələsi olmasını qeyd etməklə kifayətlənirik. Onu da qeyd edək ki, bu mərhələdə yüz minə yaxın erməni xarici ölkələrdən köçürülüb gətirərək Sovet Ermənistanına məskunlaşdırıldı. Əvəzində Ermənistanın 26 rayonunun 200 yaşayış məntəqəsindən təqribən yüz minə yaxın Azərbaycan türkü Kür-Araz ovalığına deportasiya edildi.

## BEŞİNCİ MƏRHƏLƏ 1988-Cİ İL DEPORTASİYASI

Hazırkı orta yaş nəsli 1988-1989-cu illərdə Qərbi Azərbaycanda (Ermənistan) Azərbaycan türklərinin deportasiya və soyqırıma məruz qalmasının canlı şahidləriyik. Azərbaycan türklərinin son məcburi köçürülməsi cinayəti də erməni vəhşilikləri ilə müşayət edildi.

Qərbi Azərbaycanın İrəvan şəhəri, Zəngibasar, Zəngəzur, Vedibasar, Dərələyəz, Basarkeçər, Ağbaba, Loru-Pəmpək, Göyçə mahallarında yaşayan sonuncu azərbaycanlılar öz doğma yurdlarından çıxmaq məcburiyyətində qaldılar.

1988-ci ildə Qərbi Azərbaycan ərazisində 261 azərbaycanlı kənd və qəsəbəsi boşaldılıb ki, onlardan da xalis azərbaycanlılar yaşayan kənd və qəsəbələrin sayı 172, azərbaycanlılarla başqa millətlərin yaşadığı qarışıq kənd və qəsəbələrin sayı isə 89-dur.

Bundan başqa, daha 6 şəhərdə digər millətlərlə yanaşı, azərbaycanlılar da yaşamışlar. Bu yaşayış məntəqələrində isə soydaşlarımızın sayı təqribən 49 min 928 ailədə 250 min nəfər olub.

Əsas qaçqınlıq dövrü 1988-ci ilin noyabr-dekabr aylarına təsadüf etdiyindən soydaşlarımızın kolxozlarda olan illik əmək haqları da ermənilərə qalmış, bir çoxları dövlət banklarında olan əmanətlərini götürə bilməmiş, məcbur olub öz geniş bağ-bağçalarını, xüsusi evlərini Azərbaycanda dövlət binasında yaşayan ermənilərin 2-3 otaqlı mənzilləri ilə dəyişməli olmuşlar.

Soydaşlarımızın fərdi təsərrüfatlarındakı əmlak da bütünlüklə ermənilər tərəfindən əvəzi ödənilmədən mənimsənilib. Qaçqın soydaşlarımıza məxsus bu əmlakın dəyəri Azərbaycan Qaçqınlar Cəmiyyətində toplanmış sənədlər əsasında təxmini hesablanaraq müəyyən olunub ki, təxminən ziyan 2,5 milyard ABŞ dolları təşkil edir. Kolxozlarda azərbaycanlılara məxsus olan 43789 baş iribuynuzlu, 454 660 baş xırda buynuzlu mal-qara, çoxsaylı ev quşları, arı ailələri, 170 mədəniyyət evi, 274 məktəb binası, 119 kitabxana, uşaq bağçaları, həkim məntəqələri, məscid binaları, 1381 yardımçı təsərrüfat tikintiləri, 2169 avtomaşın, 1976 traktor, 3132 kənd

təsərrüfat texnikası, minlərlə hektar üzüm və meyvə bağları ermənilərə qaldı. Bunların hamısının dəyəri təxmini hesablamalarla 17,5 milyard ABŞ dolları təşkil edir.

Qaçqınlara dəyən ümumi maddi ziyan 20 milyard ABŞ dolları təşkil edir.

1988-ci ilə kimi Qərbi Azərbaycandakı 261 azərbaycanlı yaşayış məntəqəsinin 500-ə yaxın qəbiristanlığı (bu kəndlərin böyük əksəriyyəti qədim yaşayış məskənləri olduğundan onlarda yeni qəbiristanlıqlarla yanaşı çox vaxt iki, üç, hətta 4–5 köhnə və qədim qəbristanlıq vardı) erməni tapdağı altında qaldı və həmin qəbristanlıqların əksəriyyəti yer üzündən silinib.

Müvafiq sənədlər və şahidlərin verdikləri ifadələr əsasında 1990-cı ildə Azərbaycan Qaçqınlar Cəmiyyətində tərtib edilmiş siyahıya əsasən, 1988–1990-cı illər ərzində Ermənistanda 216 nəfər azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş və ya millətlərarası münaqişə zəminində baş vermiş hadisələr nəticəsində həlak olmuşdur. Həmin siyahıya əsasən, 52 nəfər aldığı xəsarət nəticəsində ölmüş, 34 nəfər işgəncə ilə öldürülmüş, 20 nəfər odlu silahla qətlə yetirilmiş, 15 nəfər yandırılmış, 8 nəfər maşınla vurulmuş, 9 nəfər yollarda qəzaya uğradılmış, 7 nəfər həkim qəsdi nəticəsində, 9 nəfər dəhşətli hisslərdən keçirdiyi infarkt nəticəsində ölmüş, 2 nəfər intihar etmiş, bir nəfər asılmış, 2 nəfər maşın partladılması nəticəsində, bir nəfəri elektrik cərəyanı ilə, bir nəfəri suda boğub öldürmüşdülər, 6 nəfər itkin düşmüş, 20 nəfər xəstəxanadan yoxa çıxmış, 48 nəfər isə dağlarda borana düşüb həlak olmuşlar.

## 1948-1953-Cİ İLLƏR DEPORTASİYASI

Ümummili Lider Heydər Əliyev: ***"SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur".***

Göründüyü kimi böyük dövlət adamı Heydər Əliyev İ.Stalinin Azərbaycan türklərinin deportasiyası ilə bağlı ver-

diyi bu çirkin qərarı tarixi cinayət adlandırmışdır.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 18 dekabr 1997-ci il tarixdə 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Fərman imzalamışdr. Fərmanda deyilir: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrki Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi

qiymət verilməmişdir".

Bu Fərman Azərbaycan milli qanunverciliyimizin tərkib hissəsinə çevrilən yeganə hüquqi sənəddir. Təəssüf uzun müddətli startegi hədəflərə istiqamətlənmiş bu Fərman lazımi formada icra edilməmişdir. Odur ki, otuz ilə yaxın müddətdən sonra cənab Prezident İlham Əliyev yenidən bu mövzuya qayıtmalı oldu.

Qayıdaq 1948-1953-cü illər deportasiyasının həyata keçirildiyi tarixi şərait və ayrı-ayrı çalarlarına.

1948-1953-ci illərdə Qərbi Azərbaycan türklərinin məcburi şəkildə deportasiya edilməsi araşdırılarkən ortalığa çıxan ən diqqət çəkən məqamlardan biri bu deportasiya aktına "könüllülük" donu geyindirilməsidir. Könüllülük məsələsinin gerçək gösərmək üçün hətta Azərbaycan xalqının cəlladı M.Bağırovun adından İ.Stalinə məktub da ünvanlanmışdır.

Azərbaycan Milli Arxiv İdarəsində saxlanan xaricdən gələcək ermənilərin torpaq və yaşayış yerləri ilə təmin edilməsi üçün 130 min azərbaycanlının Ermənistan SSR-dən Azərbaycan SSR-in az məskunlaşmış, pambıqçılıq rayonlarına köçürülməsinə icazə verilməsi barədə Azərbaycan SSR və Ermənistan SSR K(b) P MK birinci katiblərinin SSRİ Nazirlər Sovetinin sədri İosif Stalinə məktubunda deyilir:

**"İ.V.Stalin yoldaşa**

Son illər Azərbaycan və Ermənistan Respublikalarında baş vermiş təsərrüfat dəyişiklikləri nəticəsində meydana çıxmış bir sıra məsələlələr üzrə fikir mübadiləsi etdikdən sonra aşağıdakı təkliflərlə Sizə müraciət edirik.

Mingəçevir sisteminin həyata keçirilməsi zamanı suvarılma nəticəsində yeni torpaq sahələrinin meydana gəlməsi və pambıqçılıq rayonlarının mövcud kolxozlarında işçi qüvvəsinin çatışmaması, habelə pambıq məhsuldarlığının yüksəldilməsi vəzifəsi Azərbaycan SSR- nin bu rayonlardakı əhalisinin artırılması məsələsini ortaya çıxarır.

Ermənistanda yaşayan azərbaycanlı əhalinin 130 min nəfər miqdarında həmin rayonlara köçürülməsi bu məsələnin real həlli ola bilərdi.

Azərbaycanlı əhalinin Ermənistandan Azərbaycana köçürülməsi xarici ölkələrdən öz vətənlərinə qayıdan ermənilərin qəbul edilməsi və yerləşdirilməsi vəzifəsini xeyli asanlaşdırmış olardı.

Azərbaycanlı əhilinin köçürülməsi nəticəsində boşalan torpaqlar və mənzillər Ermənistana qayıdan xarici ermənilər sırasından olan kəndlilərin məskunlaşdırılması üçün istifadə oluna bilərdi.

Bu mülahizələrə əsaslanmaqla Sizin sanksiyanızı xahiş edirik:

Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin Azərbaycan SSR-nin əhalisi az olan pambıqçılıq rayonlarına köçürülməsinə və boşalmış torpaqları və mənzilləri xarici ölkələrdən Ermənistan SSR-ə qayıdan ermənilərin qəbul edilməsi və yerləşdirilməsi üçün istifadə olunmasına;

Azərbaycan SSR və Ermənistan SSR Nazirlər Sovetinə köçürülmə qaydalarının işlənib hazırlanmasına, habelə köçürülmənin həyata keçirilməsinə rəhbərlik edilməsi üçün birgə komissiyanın yaradılmasına icazə verilməsinə;

Bu tədbirlərlə əlaqədar xərclərin İttifaq büdcəsinə götürülməsinə.

***Azərbaycan K(b)P MK ka tibi (M.C.Bağırov)***
***Ermənistan K(b)P MK katibi (Q.A.Arutyunov)***
***"___" dekabr 1947-ci il"***

Milli Arxiv İdarəsində saxlanan bu məktubun nüsxəsində nə tarix nə də imza var. Bu isə məktubun M.Bağırov tərəfindən imzalanmadan onun adından göndərilməsini qənaətini yaradır. Bu isə departasiya ilə bağlı könüllülük prinsipinin yalan olduğunu sübut edir.

**SSRİ rəhbərliyi bu köçə nədən könüllü donu geyindirməyə çalışırdılar?**

Məsələnin hüquqi aspektlərini araşdırarkən maraqlı mənzərə ilə rastlaşmalı olursan.

Gəlin diqqət edək, həmin dövrdə qüvvədə olan SSRİ Konstitusiyası belə bir aktı icra etməyə hüquqi təminat verirdimi? Əlbəttdə yox. Elə bu səbəbdən SSRİ rəhbərliyi məcburi köçürülmə aktını könüllülük pərdəsi altında etməyə çalışırdılar.

5 dekabr 1936-cı ildə qəbul edilmiş SSRİ-nın Konstitusiyası tarixə "Stalin Konstitusiyası" kimi düşmüşdür.

## SOVET SOSİALİST RESPUBLİKALARI BİRLİKİNİN KONSTİTUSİYASI (ƏSAS QANUNU)

**5 dekabr 1936-cı ildə SSRİ Sovetlərinin Fövqəladə VIII qurultayı tərəfindən təsdiq edilmişdir (sonrakı dəyişikliklər və əlavələrlə).**

**Maddə 1.** Sovet Sosialist Respublikaları İttifaqı fəhlə və kəndlilərin sosialist dövlətidir.

**Maddə 2**. SSRİ-nin siyasi əsasını mülkədarların və kapitalistlərin hakimiyyətinin devrilməsi, proletariat diktaturasının zəbt edilməsi nəticəsində böyüyüb möhkəmlənən Fəhlə Xalq Deputatları Sovetləri təşkil edir.

**Maddə 3**. SSRİ-də bütün hakimiyyət zəhmətkeş xalq deputatları Sovetləri tərəfindən təmsil olunan şəhər və kənd zəhmətkeşlərinə məxsusdur.

**Maddə 4.** SSRİ-nin iqtisadi əsasını kapitalist təsərrüfat sisteminin ləğvi, əmək alətləri və istehsal vasitələri üzərində xüsusi mülkiyyətin ləğvi nəticəsində yaranmış sosialist iqtisadi sistemi və istehsal alətləri və vasitələrinə sosialist mülkiyyət təşkil edir. və insanın insan tərəfindən istismarının ləğvi.

**Maddə 5**. SSRİ-də sosialist mülkiyyəti ya dövlət mülkiyyəti (ictimai mülkiyyət), ya da kooperativ-kolxoz mülkiyyəti (fərdi

kolxozların mülkiyyəti, kooperativ birliklərinin mülkiyyəti) formasına malikdir.

**Maddə 6**, eləcə də şəhərlərdə və sənaye mərkəzlərində kommunal müəssisələri və əsas mənzil fondu dövlət mülkiyyətidir, yəni ictimai mülkiyyətdir.

**Maddə 7**. Kolxozlarda və kooperativ təşkilatlarında ictimai müəssisələri öz diri və ölü alətləri, kolxoz və kooperativ təşkilatlarının istehsal etdikləri məhsullar, habelə onların ictimai binaları kolxozların və kooperativ təşkilatlarının sosial, sosialist mülkiyyətini təşkil edir. Hər bir kolxoz həyətində ictimai kolxozdan əldə edilən əsas gəlirdən əlavə, şəxsi istifadə üçün kiçik təsərrüfat torpaq sahəsi və təsərrüfat sahəsində yardımçı təsərrüfatın şəxsi mülkiyyəti, yaşayış evi, məhsuldar mal-qara, ev quşları və xırda kənd təsərrüfatı alətləri - kənd təsərrüfatı artelinin nizamnaməsinə uyğun olaraq.

**Maddə 8.** Kolxozların zəbt etdiyi torpaqlar onlara pulsuz və müddətsiz, yəni əbədi istifadəyə verilir.

**Maddə 9.** SSRİ-də üstünlük təşkil edən təsərrüfat forması olan sosialist təsərrüfat sistemi ilə yanaşı, ayrı-ayrı kəndlilərin və sənətkarların şəxsi əməyinə əsaslanan və başqalarının əməyinin istismarını istisna edən xırda şəxsi təsərrüfatına qanunla yol verilir.

**Maddə 10**. Vətəndaşların əmək gəlirlərinə və əmanətlərinə şəxsi mülkiyyət hüququ, yaşayış binası və yardımçı təsərrüfat, məişət və məişət əşyaları, şəxsi istehlak və rahatlıq əşyaları, habelə vətəndaşların şəxsi əmlakına vərəsəlik hüququ. vətəndaşlar qanunla qorunur.

**Maddə 11.** SSRİ-nin təsərrüfat həyatı dövlət xalq təsərrüfat planı ilə ictimai sərvətin artırılması, zəhmətkeşlərin maddi və mədəni səviyyəsinin durmadan yüksəldilməsi, SSRİ-nin müstəqilliyinin möhkəmləndirilməsi və müdafiə qabiliyyətinin möhkəmləndirilməsi maraqlarına uyğun olaraq müəyyən edilir və istiqamətləndirilir.

**Maddə 12. "İşləməyən yeməz"** prinsipinə əsasən, SSRİ-də əmək əmək qabiliyyətli hər bir vətəndaş üçün borc və şərəf işidir.

SSRİ-də sosializm prinsipi həyata keçirilir: **“hər kəsdən qabiliyyətinə görə, hər kəsə işinə görə”.**

**Maddə 13.** Sovet Sosialist Respublikaları İttifaqı bərabərhüquqlu Sovet Sosialist Respublikalarının könüllü birliyi əsasında yaradılmış ittifaq dövlətidir:

**Maddə 14.** Ali dövlət hakimiyyəti orqanları və hökumət orqanları ilə təmsil olunan Sovet Sosialist Respublikaları İttifaqının yurisdiksiyasına aşağıdakılar tabedir:

a) beynəlxalq münasibətlərdə SSRİ-nin təmsil olunması, SSRİ-nin digər dövlətlərlə müqavilələrinin bağlanması, ratifikasiyası və denonsasiyası, ittifaq respublikalarının xarici dövlətlərlə münasibətlərində ümumi nizamın yaradılması;

b) müharibə və sülh məsələləri;

c) SSRİ-yə yeni respublikaların qəbulu;

q) SSRİ Konstitusiyasına riayət olunmasına nəzarət və müttəfiq respublikaların konstitusiyalarının SSRİ Konstitusiyasına uyğunluğunun təmin edilməsi;

e) ittifaq respublikaları arasında sərhədlərdə dəyişikliklərin təsdiq edilməsi;

g) SSRİ-nin müdafiəsinin təşkili, SSRİ-nin bütün Silahlı Qüvvələrinə rəhbərlik, ittifaq respublikalarının hərbi birləşmələrinin təşkili üçün rəhbər prinsiplərin müəyyən edilməsi;

h) dövlət inhisarı əsasında xarici ticarət;

i) dövlət təhlükəsizliyinin qorunması;

j) SSRİ xalq təsərrüfat planlarının müəyyən edilməsi;

k) SSRİ-nin vahid dövlət büdcəsinin və onun icrası haqqında hesabatın təsdiq edilməsi, ittifaq, respublika və yerli büdcələrin formalaşdırılması üçün daxil olan vergilərin və gəlirlərin müəyyən edilməsi;

k) SSRİ-nin vahid dövlət büdcəsinin və onun icrası haqqında hesabatın təsdiq edilməsi, ittifaq, respublika və yerli büdcələrin formalaşdırılması üçün daxil olan vergilərin və gəlirlərin müəyyən edilməsi;

l) ümumittifaq tabeliyində olan bankların, sənaye və kənd

təsərrüfatı idarə və müəssisələrinin, habelə ticarət müəssisələrinin idarə edilməsi; sənayeyə və ittifaq-respublika tabeliyində tikintiyə ümumi rəhbərlik;

m) ümumittifaq əhəmiyyətli nəqliyyat və rabitəni idarə etmək;

o) pul-kredit sisteminin idarə edilməsi;

o) dövlət sığortasının təşkili;

p) kreditlərin bağlanması və verilməsi;

c) torpaqdan istifadənin, habelə yerin təkindən, meşələrdən və sulardan istifadənin əsas prinsiplərinin müəyyən edilməsi;

r) təhsil və səhiyyə sahəsində əsas prinsiplərin müəyyən edilməsi;

s) xalq təsərrüfat uçotunun vahid sisteminin təşkili;

t) əmək qanunvericiliyinin əsaslarının müəyyən edilməsi;

x) məhkəmə sistemi və məhkəmə icraatı haqqında qanunvericiliyin əsaslarının, mülki və cinayət qanunvericiliyinin əsaslarının müəyyən edilməsi;

v) ittifaq vətəndaşlığı haqqında qanunvericilik; əcnəbilərin hüquqlarına dair qanunvericilik;

w) nikah və ailə haqqında qanunvericiliyin əsaslarının müəyyən edilməsi;

x) ümumittifaq amnistiya aktlarının nəşri.

**Maddə 15.** Müttəfiq respublikaların suverenliyi yalnız SSRİ Konstitusiyasının 14-cü maddəsində göstərilən hüdudlarda məhdudlaşdırılır. Bu hüdudlardan kənarda hər bir ittifaq respublikası dövlət hakimiyyətini müstəqil həyata keçirir. SSRİ ittifaq respublikalarının suveren hüquqlarını qoruyur.

**SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli Qərarı**

**23 dekabr 1947-ci il, Moskva, Kreml.**
**Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında SSRİ Nazirlər Soveti**

**QƏRARA ALIR:**

1948-1950-ci illərdə Ermənistan SSR-dən 100 min kolxozçu və başqa azərbaycanlı əhali könüllülük əsasında Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülsün; onlardan: 10 min nəfər - 1948-ci ildə, 40 min nəfər - 1949-cu ildə və 50 min nəfər - 1950-ci ildə.

**Azərbaycan SSR Nazirlər Sovetinə və Ermənistan SSR Nazirlər Sovetinə tapşırılsın:**

a) kolxozçular və digər azərbaycanlı əhali arasında Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülənlərə dövlətin yaratdığı şərait və verdiyi güzəştlər barədə izahetmə işləri təşkil edilsin;

b) kolxozların köçkün-kolxozçulara, onların yola düşməsinə 10 gün qalmasından gec olmayaraq, qazandıqları əmək günlərinin kolxozların istehsalat planları ilə nəzərdə tutulmuş ölçülərdə haqq-hesabı təmin edilsin;

v) köçkünlərin şəxsi istifadəsində olan bütün əmlakın, mal-qaranın və quşların daşınması təmin edilsin.

Nazirliklərin və baş idarələrin, idarə və müəssisələrin rəhbərlərinə bir vəzifə olaraq tapşırılsın ki, Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçən şəxsləri işdən azad etsinlər.

Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürüləcək azərbaycanlı əhali üçün aşağıdakı güzəştlər müəyyən edilsin:

a) köçürülən hər ailəyə 2 ton ev əşyası və kənd təsərrüfatı heyvanlarını aparması üçün dövlət hesabına pulsuz gediş təmin edilsin;

b) Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürüləcək

kolxozçulara, məcburi süd tədarükü üzrə güzəşt istisna olmaqla, «Kənd təsərrüfatında köçürmə işləri üzrə güzəştlər haqqında» SSRİ Mərkəzi İcraiyyə Komitəsi və SSRİ Xalq Komissarları Sovetinin 1937-ci il 17 noyabr tarixli 115/2043 nömrəli qərarı şamil edilsin;

v) köçmə zamanı köçkünlərin ailələrinə qaytarılmamaq şərti ilə ailə başçısına 1000 manat və ailənin hər bir üzvünə 300 manat məbləğində müavinət verilsin;

q) Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülmüş ailələrin məskunlaşdığı yerlərdə ailə başçısına 1,5 sentner və hər bir ailə üzvünə 0,5 sentner nəğd hesabla ərzaq taxılı satılsın.

Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülən azərbaycanlı əhaliyə, məskunlaşacağı yerlərdə mübadilə qəbzi əsasında həmin miqdarda məhsul və mal-qara almaq hüququnu saxlaması ilə, tərk etdikləri yerlərdə tədarük təşkilatlarına kənd təsərrüfatı məhsullarını (taxıl, kartof), habelə karantin şərtlərinə görə daşınması qadağan edilmiş mal-qaranı təhvil verməsinə icazə verilsin.

**Kənd təsərrüfat banka tapşırılsın;**

a) Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülənlərdən ehtiyacı olanlara ev tikmək və həyətyanı tikinti üçün 20 min rubl məbləğində, kreditin alındığından 3 il sonra başlayaraq 10 il müddətində ödəməklə kredit verilsin;

b) ehtiyacı olan köçkünlərə hər ailəyə, ssuda alındıqdan sonra, üçüncü ilindən başlayaraq ödənilməklə mal-qara almaq üçün 3 min rubl məbləğində uzunmüddətli ssuda verilsin.

**Dəmir Yolları Nazirliyinə bir vəzifə olaraq tapşırılsın:**

a) Ermənistan SSR Nazirlər Sovetinin sifarişləri əsasında azərbaycanlı əhalinin, onların əmlakının və mal-qarasının Azərbaycan SSR-ə daşınması xüsusi düzəldilmiş eşalonla dezinfeksiya edilmiş və avadanlıqla təchiz olunmuş vaqonlarda təmin edilsin;

b) köçkünlərin köçdükləri yerlərdə vaqonlara görə ödəniş tutulmadan Dəmir Yollar Nazirliyinin, Azərbaycan SSR Nazirlər Sovetinin təsdiq etdikləri qrafik üzrə Yollar İdarəsi vaqonların

göndərilməsini həyata keçirsin. Azərbaycanlı əhalinin daşınmasına görə pul hesabı Dəmir Yol İdarəsi tərəfindən təqdim edilmiş, hesabdan mərkəzləşdirilmiş şəkildə həyata keçirilsin.

SSRİ Səhiyyə Nazirliyinə tapşırılsın ki, çıxış yerlərində bütün köçkünlərin tibbi müayinədən keçirilməsini və onlara yol boyunca tibbi-sanitar xidməti göstərilməsini təmin etsin.

Eşalonu müşayiət etmək üçün tibbi personal və lazımi dərman ayrılsın.

SSRİ Maliyyə Nazirliyinə tapşırılsın ki, Azərbaycan SSR-nin 1948-ci il büdcəsində Ermənistan SSR-dən azərbaycanlı əhalinin Azərbaycan SSR-ə köçürülməsini təmin etmək üçün lazımi xərcləri nəzərdə tutsun.

Azərbaycan SSR Nazirlər Sovetinə və Ermənistan SSR Nazirlər Sovetinə tapşırılsın ki, Ermənistan SSR-dən köçürülən əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsini və yerləşdi- rilməsini təmin etmək üçün bu qərarın icrası ilə əlaqədar olaraq bir ay müddətində birgə konkret tədbirlər planı işləyib hazırlasınlar və onlar haqqında SSRİ Nazirlər Sovetinə məlumat versinlər.

Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn erməniləri yerləşdirmək üçün istifadə etsinlər.

**SSRİ Nazirlər Sovetinin sədri: İ.Stalin.**
**SSRİ Nazirlər Soveti İşlər İdarəsinin rəisi: Y.Çadayev**

**SSRİ Nazirlər Soveti**
**10 mart 1948-ci il tarixli Qərar № 7754**

1948-ci il martın 10-da isə həmin qərarın yerinə yetirilməsinə dair tədbirlər planı barədə ikinci qərara imza atılır.

**SSRİ Nazirlər Soveti Qərar № 7754**
**10 mart 1948-ci il , Moskva, Kreml**

Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında SSRİ Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında» 23 dekabr 1947-ci il 4083 N:-li Qərarına əlavə olaraq

**QƏRARA ALIR:**

Azərbaycan SSR-nin Kür-Araz ovalığına tam heyətdə köçürülən kolxozlara köməkçi müəssisələrdən (dəyirmanlar, yarma maşınları, elektrik stansiyaları) və başqa mədəni-məişət tikililəri istisna olmaqla, istifadələrində olan bütün istehsal vasitələrini (kənd təsərrüfatı maşınlarını, inventarı, canlı və mexaniki qoşquları, bütün növdən olan mal-qaranı və quşları, arı ailələrini, nəqliyyat vasitələrini və digər əmlakı, habelə, natural və digər fondları) özləri ilə aparmalarına icazə verilsin.

Müəyyən edilsin ki, kolxozçuları Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülən Ermənistan SSR kolxozları, köçmə anına qədər onların payına düşən daşınar əmlakı (kənd təsərrüfatı maşınlarını, inventarı, canlı və mexaniki qoşquları, bütün növdən olan mal-qaranı və quşları, arı ailələrini, nəqliyyat vasitələrini, natural və digər fondları) köçkünlərin daxil olduğu kolxozlara verir, onların payına düşən əmlak (çoxillik ağaclar, dəyirmanlar, elektrostansiyalar və digər təsərrüfat və məişət tikililəri) payının dəyərini Azərbaycan SSR Nazirlər Sovetinin və Ermənistan SSR

Nazirlər Sovetinin təyin etdiyi vaxtda onların yerləşdikləri kolxozların hesablarına köçürürlər.

Azərbaycan SSR Nazirlər Sovetinə və Ermənistan SSR Nazirlər Sovetinə bir vəzifə olaraq tapşırılsın ki, Ermənistan SSR- dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçən kolxozlar, kolxozçular və digər azərbaycanlı əhali ilə onların Ermənistan SSR-də qoyduqları daşınmaz əmlaka görə bir ay müddətində haqq-hesab qaydalarını müəyyən etsinlər.

Azərbaycan SSR Nazirlər Sovetinə və Ermənistan SSR Nazirlər Sovetinə bir vəzifə olaraq tapşırılsın ki, Ermənistan SSR- dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülən köçkün-kolxozçulara, eyni zamanda fəhlə və xidmətçilərə çıxdıqları yerdə onlara məxsus evləri satmaqda kömək etsinlər.

Azərbaycan SSR Nazirlər Soveti yanındakı Kolxoz təsərrüfatlarının köçürülməsi və əhalinin təxliyəsinin təsərrüfat quruluşu üzrə şöbəsinin Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinə çevrilməsi məqsədəuyğun hesab edilsin.

Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadə İdarəsinə köçürülən kolxozlara və köçürülən kolxozçulara tikinti materiallarının təminatında kömək, eyni zamanda göstərilən köçkünlərin yaxşı yerləşdirilməsi üçün lazım olan köməkçi müəssisələrin tikintisində texniki kömək göstərməsi tapşırılsın.

Azərbaycan SSR Nazirlər Sovetinə və SSRİ Kənd Təsərrüfatı Nazirliyinə «Azərköçürmətinki» kontoru əsasında Kür-Araz ovalığı Suvarılan Torpaqların İstifadəsi İdarəsi tabeliyində «Azərköçürmətikinti» tresti yaratmasına və eyni zamanda həmin trestin nəzdində Salyan, Əli-Bayramlı, Sabirabad və Puşkin məntəqələrində tikinti-quraşdıma kontorları təşkil etməsinə icazə verilsin.

Azərbaycan SSR Nazirlər Sovetinə icazə verilsin:

a) Ermənistan SSR-dən kolxozçular və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürüləcəyi müddətdə Ermənistan SSR-də (Yerevan ş.) nümayəndəliyini təşkil etsin;

b) 1948-ci ildə Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-

Araz ovalığına azərbaycanlı əhalinin köçürülməsi ilə əlaqadar olaraq hazırlıq işlərinin (layihələşdirmə, köməkçi müəssisələrin tikintisi, meşəsənayetəsərrüfatının təşkil edilməsi, nəqliyyat vasitələri, tikinti avadanlıqları və materiallar alınması) həyata keçirmək üçün 1948-ci ildə respublika üzrə mərkəzləşdirilməmiş (limitdənkənar) kapital işləri üçün nəzərdə tutulmuş vəsaitdən 11 mln. rubl xərclənilsin;

v) 1948-ci ildə Molotov vilayətində ağac tədarükü işlərinə və Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadəsi İdarəsinin apardığı işlərə respublikanın kənd əhalisindən 700 nəfərdən ibarət mütəşəkkil yığım həyata keçirilsin.

Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadəsi İdarəsinə icazə verilsin:

a) 1948-ci ildə qurğular, binalar və yardımçı müəssisələrin tikintisi işləri, eyni zamanda köçürülən tikintisinin, Kənd təsərrüfatı bankı ilə razılaşdırılmış smeta-maliyyə haqq-hesabı üzrə daha da genişləndirilməsi üçün hazırlıq tədbirləri həyata keçirilsin;

b) 1948-1950-ci illərdə Molotov vilayətindəki meşə sənayesi təsərrüfatının istehsalat gücü ildə 100 min kubmetr işlək taxta həcmində artırılsın.

SSRİ Meşə Təsərrüfatı Nazirliyi Molotov vilayətinin üçüncü qrup meşələrindəki meşə-xammal bazasını müvafiq olaraq Azərbaycan SSR-nin Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadəsi İdarəsinə müvafiq olaraq təhkim edilsin.

SSRİ Dövlət Təchizat Komitəsinə, Avtomobil və Traktor Sənayesi Nazirliyinə, Maşınqayırma və Cihazqayırma Nazirliyinə, Elektrosənaye Nazirliyinə, SSRİ Ət və Süd Sənayesi Nazirliyinə bir vəzifə olaraq tapşırılsın ki, 1948-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinə Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadə İdarəsi üçün Əlavəyə müvafiq olaraq avadanlıqlar və materiallar göndərsinlər.

Azərbaycan SSR Nazirlər Soveti ilə razılaşdırmaqla Mərkəz ittifaqa bir vəzifə olaraq tapşırılsın ki, Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülən kolxoz və kol-

xozçulara satmaq üçün Azərbaycan SSR-ə tikinti materialları və avtomaşınlar gətirsinlər.

Nəqliyyat Nazirliyinə bir vəzifə olaraq tapşırılsın ki, 1948-ci ildə Azərbaycan SSR-nin Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadə İdarəsi üçün Azərbaycan SSR-nin Lənkəran, Salyan, Saracalar, Saatlı, Qırmızıkənd, Daykənd, Papanin, Yeni Osmanlı, Daşburun, Ucar və Masallı dəmiryol stansiyalarında, dəmir yolunun ixtiyarında olan sahələr hüdudlarında yükboşaltma və rels anbarları üçün yükləmə-boşaltma meydançalarına dalanların çəkilməsi ilə hər biri 600 metr uzunluğunda sahə ayrılmasını təmin etsin.

Göstərilən işlərin həyata keçirilməsi Azərbaycan SSR Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadə İdarəsinə həvalə edilsin.

SSRİ Kənd Təsərrüfatı Nazirliyinə 1948-ci ildə Azərbaycan SSR-nin Nazirlər Soveti üçün Azərbaycan SSR ağac tədarükü təşkilatlarına satmaq üçün at zavodlarında çıxdaş edilmiş 50 at ayırmağa icazə verilsin.

SSRİ Nazirlər Soveti yanında Dövlət ştat komissiyasına tapşırılsın ki, bir ay müddətində Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin, «Azköçürmətikinti» trestinin və onun tikinti-quraşdırma kontorlarının, eyni zamanda Ermənistan SSR Yerevan şəhərindəki Azərbaycan SSR Nazirlər Sovetinin nümayəndəliyinin ştat cədvəlinə baxsın və təsdiq etsin.

**SSRİ Nazirlər Sovetinin sədri İ.Stalin.**
**SSRİ Nazirlər Soveti İşlər İdarəsinin rəisi Y.Çadayev.”**

Könüllük məsləsinə bir daha aydınlıq gətirək. 1918-ci ildə Azərbaycan Cümhuriyyəti erməni qırğınlarının qarşısını almaq məqsədi ilə İrəvanı Ermənistana paytaxt kimi güzəştə getməklə münaqişənin, aradan qaldılmasına olan ümidlər özünü doğurtlmadı. Əksinə ermənilərin iştahası daha da artdı. Xristiian güc mərkəzlərinin türk dünyasına qarşı alət kimi

istifadə etməsindən yararlanan ermənilər Azərbaycanın tarixi torpaqları hesabına özlərinə dövlət qurdular. Bundan sonra isə müxtəlif üsul və vasitələrlə Qarabağı ələ keçirməyə cəhd edən ermənilər davamlı olaraq bu iddialarını davam etdirdilər.

**1945-ci ilin noyabrında Ermənistan Kommunist Partiyası Mərkəzi** Komitəsinin katibi Q. Arutyunov İ. Stalinə məktubla müraciət edərək Qarabağın Ermənistan SSR -ə verilməsi məsələsini qaldırdı. Əgər həmin məsələ müsbət həll olunarsa, onda Qarabağın keçmiş mərkəzi və 1920-ci ildə dağıdılmış Şuşanın bərpası haqqında hazırlanmış əlavə təkliflərin də Mərkəzi hökumətə təqdim olunacağını bildirirdi. Türk düşməni İ.Stalin həmin məktubu G.M.Malenkovun üstünə, o isə öz növbəsində cavab üçün onu Azərbaycan rəhbərliyinə göndərdi. **M.C.Bağırov məktuba cavabında bildirir ki, Azərbaycan həmin təklifə etiraz etmir, bu şərtlə ki, Ermənistan SSR, Gürcüstan SSR və Dağıstan MSSR-də əsasən azərbaycanlılar yaşayan, Azərbaycanla həmsərhəd olan və tarixən Azərbaycanın ayrılmaz hissəsi olmuş ərazilər də onun özünə qaytarılsın.**

İ.Stalin bu iddianın arzuolunmaz nəticələr yaradacağını nəzrə alaraq bu məsələni dayandırır.

Buna qədər digər türk xalqlarına qarşı yönəldilmiş deportasiya və soyqırım (krım və axısqa türklərinə) aktlarından özünə təcürbə toplamış İ.Stalin növbəti hədəf kimi Azərbaycan türklərini seçdi.

Könüllü adı altında 23 dekabr 1947-ci ildə "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin qərarı çıxır. İ. Stalinin imzaladığı heç bir girişsiz, izahsız yalnız birdən -birə qərar hissəsindən başlayan bu sənəd, məzmunundan da göründüyü kimi, çox tələsik hazırlanmışdı. 1948-ci il mart ayının 10-da SSRİ Nazirlər Soveti həmin qərara əlavə olaraq ikinci bir qərar qəbul edir. Özü də köçürmə ilə əlaqədar tədbirlər planı ikinci qərarda ətraflı şərh olunur.

Adətən, belə qərarlar qəbul olunarkən onların qəbulundan əvvəl

yerinə yetirilməsi ilə əlaqədar hazırlıq tədbirləri də görülür.

Azərbaycanda isə bu məsələ ilə əlaqədar bütün hazırlıq işləri yalnız 1948-ci ilin yanvarından, yəni respublikada SSRİ Nazirlər Sovetinin qərarı alındıqdan sonra başlayıb. Respublika Nazirlər Soveti isə bu məsələ ilə əlaqədar ilk gizli qərarını 1948-ci il fevralın 2-də qəbul edib.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarında göstərilirdi ki, 1948-1950-ci illərdə "könüllülük prinsipləri əsasında" Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür- Araz ovlağına köçürülsün. Onlardan 1948-ci ildə 10 min nəfərin, 1949-cu ildə 40 min nəfərin və 1950-ci ildə isə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu.

Azərbaycan SSR və Ermənistan SSR Nazirlər Sovetlərinə tapşırılırdı ki, köçürüləcək əhali arasında köçürmənin güzəştlər haqqında geniş izahat işləri aparılsın. Köçürülənlər ilə onların yola salınmasından ən geci 10 gün qabaq bütün hüsablar aparılsın, qazandıqları əmək günlərinin haqqı ödənilsin, köçənlərin şəxsi istifadəsində olan bütün əmlakın, o cümlədən heyvan və quşların aparılmasına da şərait yaradılsın.

Həmin qərarla Ermənistandan köçürülən azərbaycanlı əhaliyə aşağıdakı "güzəştlər" edilməsi nəzərdə tutulurdu: köçürülən hər ailəyə pulsuz olaraq iki tona yaxın ev əşyası və kənd təsərrüfatı heyvanları aparılması; köçürülən ailələrin ailə başçısına 1000 manat, hər ailə üzvünə isə 300 manat pul yardımı göstərilməsi; köçürülənlər üçün Kür-Araz ovalığında nəqd pulla hər ailə başçısına 1,5 sentner və hər ailə üzvünə isə 0,5 sentner taxıl satın almağa icazə verilməsi. " Kənd təsərrüfatında köçürmə işləri üzrə güzəştlər haqqında" SSRİ Mərkəzi İcraiyyə Komitəsi və SSRİ Xalq Komissarları Sovetinin 1937-ci il 17 noyabr tarixli qərarı Kür-Araz ovalığına köçürülən azərbaycanlı əhaliyə də şamil edilirdi. Maraqlıdır ki, bu qərar məhz 1937-ci ildə Sibir, Qazaxıstan və Uzaq Şərqə köçürülənlərə aid idi Həmin qərara əsasən Ermənistandan köçürülən kolxozçu və digər azərbaycanlı

əhaliyə öz taxıl və kartoflarını Ermənistanda taxıl tədarükü orqanlarına, mal-qaranı isə ət birliklərinə təhvil verməyə icazə verilirdi.

Azərbaycana gəldikdə isə burada onlar yerli taxıl tədarükü orqanlarından və ət birliklərindən müvafiq çəkidə taxıl kartof və mal-qara ala bilərdilər.

Qərarda kənd təsərüffatı banklarına tapşırılırdı ki, Kür-Araz ovalığına köçürülənlərə hər ailəyə ev tikmək üçün 20 min manat, mal-qara almaq üçün isə 3 min manat kredit verilsin. Kreditlərin ödənilməsi onlar verildikdən üç il sonra başlamalı, ev tikmək üçün ayrılmış kredit on il müddətinə, mal-qara almaq üçün ayrılmış kredit isə 5 il müddətinə ödənilməli idi.

SSRİ Nazirlər Soveti SSRİ Dəmir Yolları Nazirliyinə köçürülənlərin daşınmasını təmin etməyi, SSRİ Səhiyyə Nazirliyinə isə köçürülənləri gəldikləri yerdə tam tibbi müayinədən keçirmək, yollarda tibbi kömək göstərmək, SSRİ Maliyyə Nazirliyinə isə Azərbaycan SSR-in büdcəsində köçürmə ilə əlaqədar xərcləri nəzərdə tutmağı tapşırırdı.

Azərbaycan SSR və Ermənistan SSR Nazirlər Sovetlərinə tapşırılırdı ki, köçürmə ilə əlaqədar bir ay müddətində tədbirlər planı hazırlayıb SSRİ Nazirlər Sovetinə məlumat versinlər.

Necə deyərlər, kağız üzərində bütün məsələlər "qanunun aliliyinə" əsaslanır, Sovet vətəndaşlarının bütün hüquqları təmin edilirdi. Gerçəklik necə idi?

Ən vacib məsələlərdən biri SSRİ Dəmir Yolları Nazirliyinin köçürələn şəxsləri sərnişin vaqonlarında deyil yük vaqonlarında heyvanlarla birlikdə köçürülməsi deportasiyanın ən acı təhqiramiz motivlərindən xəbər verir. İkinci Dünya müharibəsindən qələbə ilə çıxmış SSRİ Azərbaycan kimi müharibədə ümumi vətən anlayışına söykənərək qəhrəmanlıqlar göstərmiş canı-qanı nefti ilə müharibənin taleyində müstəsna xidmətləri olmuş bir xalq kimi nədən sürgün edilməli idi? Həm də yük vaqonlarında heyvanlarla birlikdə? Bu idimi SSRİ-nin yaratdığı xalqlar dostluğu sosial bərabərlik prinsiplərinə söykənən dövlət siyasəti?

Əslində bu vəhşi sürgün siyasəti SSRİ-nin insanlara heyvani münasibətinin təzahürü idi.

Tədiqat zamanı topladığmız şəxsi həyat hekayələrinə müraciət edək. Göyçə mahalının Mollalı kəndindən Əli Bayramlının Cəngən kəndində deportasiya edilən Baxış Fətəliyev və onlarla birlikdə köçrülməyə məruz qalmış şəxslər təsdiq edirlər ki, onun atası Həsən Fətəliyevin doğma yurdundan şəxsi mülkiyyətində olan 100-dən artıq qoyunu yük vaqonlarında özləri ilə birlikdə Cəngən kəndində gətiriblər. Lakin qoyunların hamısı qısa müddətdə yerli iqlim şəraitinə uyğunlaşa bilməyib hamısı ölüb.

Digər bir şəxs Şərur-Dərələyəz qəzasının Çivə kəndindən Bərdə rayonun İmirli kəndinə köçürülmüş Hüseyn Seydəliyev bildirir ki, 1951-ci ilin payızında məcburi köçürülmə yerini çatıblar. Altı aydan sonra yaz-yay aylarında insanlar kütləvi şəkildə xəstələndilər Bakıdan gələn tibb işçiləri vaksinlər vursalar da heç bir nəticəsi olmadı və əhalinin ölümünə səbəb oldu.

Digər şəxs Şərur-Dərələyəz qəzasının Sallı kəndindən Bərdə rayonun İmirli kəndinə köçürülmüş Əli Eyvazovun əmisi oğlu Məhəmməd Eyvazov isə iqlim dəyişikliyi nəticəsində dünyasını dəyişmişdir.

Biz burada sadəcə olaraq deportasiya nəticəsində Bərdə rayonunun İmirli kəndinə köçən ümumi Qərbi Azərbaycanlıların kiçik bir qrupunu təşkil edən əhali ilə bağlı bəzi faktları qeyd etdik.Şübhəsiz ki, bu hadisələr kompleks araşdırılarkən ortaya daha ciddi faktlar çıxacaqdır.

Qərbi Azərbaycandan "könüllü" köçürülən əhalinin deportasiyası ilə bağlı araşdırmalar onu göstərir ki, bu sürgün və soyqrım aktı həyata keçirilərkən formal da olsa verilmiş qərara əməl edilməmişdir. Yuxarıda göstərilən faktlardan bəlli olur ki, köçürülmə aktı bütün platformalarda qanuna zidd olaraq həyata keçirilib.

Pozuntuları aşağıdakı kimi dəyərləndirə bilərik.

***1) Köçürülmə SSRİ-nin o cümlədən Ermənistan SSR, Azərbaycan SSR Konstitusiyasına zidd olaraq həyata keçirilib.***

***2) Köçürülmə ilə bağlı verilmiş qərarlara əməl edilməyib.***

***3) Nəzərdə tutulan konpensassiya qismən ödənilib.***

***4) Dəmiryolu Nazirliyi ona verilmiş tapşırığa əməl etmə-yərək əhali heyvanlarla birlikdə yük vaqonlarında daşınıb.***

***5) Nəzərdə tutulmuş mənzil təminatı yerinə yetirilməyib.***

***6) Tibbi xidmət həyata keçirilməyib.***

***7) Əhalinin köçürülməsi nəticəsində SSRİ Konstitusiyası və müttəfiq respublikaların həmin dövrdə qüvvədə olan Konstitu-siyaları ilə vətəndaşlara verilmiş insan hüquq və azadlıqlarının bütün normaları pozulmuşdur.***

Birmənalı şəkildə deyə bilərik ki, həyata keçirilən sürgün aktının ruh atası İosif Stalin etnik baxımdan gürcü millətinə ideoloji baxımdan sosilist ideologiyasına mənsub olmasına baxmayaraq bu məsələdə I Pyotrun siyasətini davam etdirmişdir.

Qərarın bütün mahiyyəti sözgedən qərarın 11-ci maddədə göstərilib. Maddədə deyilir: **“Ermənistan SSR Nazirlər Soveti-nə icazə verilsin ki, azərbaycanlı əhalinin A zərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xa ricdən Ermənis-tana gələn erməniləri yerləşdirmək üçün istifadə etsinlər”.**

Bəli qərarın bütün mahiyyəti bu maddədə gizlənmişdir. Bir tərəfdən türk dünyası arasında xristian bufer zolağı yaratmaq digər tərəfdən isə ermənilərin “Böyük Ermənistan” yaratmaq xülyasına rəvac vermək məqsədi daşıyırdı.

Qeyd etdiyimiz kimi, SSRİ Nazirlər Sovetinin qərarlarından irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün Azərbaycan SSR Nazirlər Soveti 1948-ci ildə 2 fevral 14 aprel tarixlərində xüsusi qərarlar qəbul etdi. Birinci qərarda həmin il Ermənistan SSR-dən köçürüləcək 10 min nəfər əhalini qəbul etmək və yerləşdirmək məsələlərindən bəhs olunurdu. Burada Salyan, Saatlı, Sabirabad, Əli Bayramlı, Puşkin, Ağcabədi və Xıllı rayon icraiyyə

komitələrinə bir vəzifə olaraq tapşırılırdı: 1948-ci il fevralın 15-nə qədər köçürülənlərin yerləşdiriləcəyi kolxozlarda olan boş yaşayış evlərinin təmiri və bərpası üçün tikinti briqadaları yaratmaq; onları lazımı nəqliyyat vasitələri və əmək alətləri ilə təmin etmək; öz yaşayış evlərinin bir hissəsini köçürülənlərə vermək istəyən kolxozçuları müəyyən etmək və uçota götürmək; kolxozlarda Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Kür-Araz ovalığına köçürülməsinin qaydaları, şərtləri, təsərrüfat-siyasi əhəmiyyəti haqqında geniş izahat işləri aparmaq.

Azərbaycan SSR sovxozlar, kənd təsərrüfatı, su təsərrüfatı nazirliklərinə, Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadəsi və Kür-Araz Su Tikintisi idarələrinə tapşırılırdı ki, 1948-ci ilin birinci yarısında köçürülənləri qəbul etmək üçün lazımi yaşayış sahələrinin hazırlanması, sovxozlarda, tikinti kontorlarında, su vuran qurğularda onların işlə təmin olunması üçün hazırlıq işləri görsünlər.

Dövlət Plan Komitəsinə tapşırılırdı ki, kolxoz və sovxozlarda köçürülənlər üçün nəzərdə tutulmuş yaşayış evlərinin təmiri üçün lazımi tikinti materialları ayırsın.

Maraq doğuran məsələlərdən biri də Azərbyacan SSR Maarif Nazirliyinə tapşırılan 1948-1949-cu tədris ili üçün köçürülənlərin yerləşdiriləcəyi rayonlarda məktəblər və uşaq tərb müəssisələri yaratmaq və genişləndirmək tapşırığı idi.

Göstərilən məsələlər necə icra olunurdu? 1951-ci ilin payızında Bərdə rayonu Malenkov adına kolxozun ərazisində yerləşən İmirli kəndinə köçürülən Dərələyəz mahalının Çivə, Sallı, Qozulca Vedibasar mahalının Hortun, Göyçə mahalının Mollalı kəndinin əhalisi nəyin ki təhsil ala bildi hətta, iki il qazmalarda yaşamaq məcburiyyətində qaldılar.

Professor Ataxan Paşayevin arxiv sənədlərinə əsasən hazırladığı “Köçürülmə” kitabında da bu fakt öz təsdiqini tapmışdır.

Yalnız 2 ildən sonra 1953-cü ildə İsa Vəkilovun təşəbbüsü ilə İmirli kəndinin Məscidin binasında ilk ibtidai orta məktəb

yaradılması mükün olmuşdur. Göründüyü kimi bu təşəbüsə belə Azərbaycan höküməti texniki dəstək verməmiş və yeni yaradılmış məktəbi bina ilə təmin etmədiyinə görə onlar məsciddə yerləşmək məcburiyyətində qalmışlar.

Həmçinin qərara əsasən Ticarət Nazirliyi və Azərittifaq isə köçürülənlərə ticarət xidməti göstərmək üçün tədbirlər planı hazırlayıb baxılmaq üçün Nazirlər Sovet inə təqdim etməli idi. Digər məsələlərdə olduğu kimi bu problemin həlində Qərbi Azərbaycandan köçürülmüş əhali taleyin ümidinə buraxılmışdır.

Təssəvür edin ki, normal yaşayışı olan evlərdən zorla köçürülərək qazmalarda yaşamağa məhkum edilmiş əhali adi bir ehtiyaclarını ödəmək üçün yaxın on klometrlik ərazidə heç bir ticarət müəssisəsi olmadığı üçün iyirmi beş kilometrlikdə yerləşən rayon mərkəzinə getməli idilər.

Araşdırma zamanı bəlli oldu ki İmirli kəndinə məskunlaşmış əhali yalnız öz təşəbbüsləri ilə 1953-cü ildə kənddə mağaza aça bilmişlər. Buradan da SSRİ-nın köçürülmə ilə bağlı verdiyi qərarın bütün bəndlərinin icra edilmədiyinin şahidi oluruq.

Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 14 aprel tarixli qərarında isə SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli və 1948-ci il 10 mart tarixli qərarları və bu qərarlardan irəli gələn vəzifələr geniş izah edilir, bunların yerinə yetirilməsi üçün respublikanın ayrı-ayrı təşkilatları qarşısında duran vəzifələr dəqiqləşdirilirdi.

Azərbaycan SSR Nazirlər Soveti 1948-ci il mayın 13-də bu məsələ ilə əlaqədar əlavə qərar, Azərbaycan K/b/P Mərkəzi Komitəsi isə 1948 -ci il aprel ayının 13-də “Ermənistan SSR-dən kolxozçu və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-ə köçürülməsi ilə əlaqədar kütləvi izahat işləri haqqında” qərar qəbul etdi.

Köçürmə işinin təşkilinə 1948-ci ildə Ermənistan SSR-dən azərbaycanlıların köçürüləcəyi rayonların siyahılarının tərtibindən başlandı. Hər rayondan neçə təsərrüfat və nə qədər adam köçürüləcəyi və onların Azərbaycanın hansı rayonlarında yerləşdi-

riləcəyi müəyyənləşdirilirdi. Bunun üçün 1948-ci ilin yanvarında Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan K/b/P Mərkəzi Komitəsinin nümayəndələri Ermənistan SSR-ə ezam olunurdular. Onların qarşısında Ermənistan SSR Nazirlər Soveti ilə birgə köçürmə ilə əlaqədar vahid tədbirlər planı işləyib hazırlamaq, eyni vaxtda Ermənistandan köçürüləcək azərbaycanlılar arasında köçürmənin şərtləri, güzəştləri haqqında izahat işləri aparmaq vəzifələri dururdu.

1948-ci ilin martında isə Azərbaycan SSR Nazirlər Sovetinin sədri T. Quliyev və Azərbaycan K/b/P Mərkəzi Komitəsinin katibi H. Seyidov Ermənistanda oldular. Onlar Ermənistan SSR rəhbərləri ilə azərbaycanlılar yaşayan rayonlara yollanaraq kolxozçular arasında köçürmənin qaydaları və şərtləri haqqında izahat işləri apardılar. Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 13 may tarixli qərarına əsasən, həmin il Ermənistan SSR-in İrəvan şəhərinin Stalin və Spandaryan rayonlarından, habelə Basarkeçər, Vedi, Artaşad, Noyenberyan, Oktenberyan, Zəngibasar və başqa rayonlardan Azərbaycana 2757 təsərrüfatın (12177 nəfərin) köçürülməsi planlaşdırılırdı. Onlardan 6215 nəfərini Kür-Araz ovalığında, 5962 nəfərini isə Azərbaycanın digər rayonlarında yerləşdirmək nəzərdə tutulurdu. Köçürülənlər Bakının Əzizbəyov və Voroşilov rayonlarında, habelə Gədəbəy, Xanlar, Şamxor, Martuni, Səfərəliyev, Qasım İsmayılov, Göyçay, Quba, Bərdə, Ağstafa, Ucar, Ağcabədi, Salyan kənd rayonlarında yerləşdirilməli idi. 1948-ci il iyulun 9-da respublika Nazirlər Sovetinin sədri T. Quliyev, SSRİ Nazirlər Soveti sədrinin müavini V.M.Molotova məktubunda Kür-Araz ovalığında 1948-ci ildə köçürülməsi nəzərdə tutulmuş azərbaycanlı əhalini yerləşdirmək üçün yaşayış binalarının olmamasını nəzərə alaraq, onların bir hissəsini respublikanın başqa rayonlarında yerləşdirməyə razılıq verməyi xahiş edir. Həm də göstərir ki, köçürülən əhalinin bir hissəsi Ermənistanın dağ rayonlarında yaşadığı üçün Kür-Araz ovalığındakı iqlim şəraitinə çətin alışa bilir.

SSRİ Nazirlər Soveti bu xahişə müsbət cavab vermir. Nəticədə

Kür-Araz ovalığına köçürülmüş on minlərlə azərbaycanlı arasında kütləvi ölüm halları baş verir.

Yuxarıda qeyd etdiyimiz kimi bu proses köçürülmənin sonrakı illərində də davam edir.

1948-ci il mayın 18-də respublika Nazirlər Sovetinin sədri T. Quliyev Nazirlər Sovetinin Ermənistan SSR-dəki nümayəndəsinə təcili teleqramında bildirirdi ki, **“mayın 13-də köçürmə planı Azərbaycan SSR Nazirlər Soveti tərəfindən yalnız Qubaya köçürüləcək 52 təsərrüfat və 232 adamın köçürmə vaxtını yazdan payıza keçirmək şərtilə qəbul edildi. Onu razılaşdırmaq üçün Ermənistan SSR Nazirlər Sovetinə təqdim edin. Bu məlumatı təxirəsalmadan köçürülənlərə çatdırın. Köçürmənin həyata keçirilməsi işinə başlayın**”.

Azərbaycan SSR ərazisində azərbaycanlı köçkünləri qəbul etmək üçün Nazirlər Sovetinin göstərişi ilə respublikanın rayonlarına 27 nəfər məsul şəxsdən ibarət nümayəndə göndərildi. Onların vəzifəsi rayonlarda köçürülənləri yerləşdirmək üçün tikililərin vəziyyətini müəyyənləşdirmək idi. Bu məsələ ilə əlaqədar rayon partiya və icraiyyə komitələrinə göndərilmiş məktubda deyilirdi ki, rayonlara göndərilən şəxslərə hərtərəfli şərait yaradılsın ki, onlar həmin rayonlarda olan boş yaşayış binalarına baxsınlar və onlardan yaşayış evləri kimi istifadə edib-etməməyin mümkünlüyünü təyin etsinlər.

Azərbaycan tərəfindən köçürülməyə rəhbərlik edən şəxslərin etnik tərkibi də məsələnin nə qədər acınacaqlı olduğunu göz önündə canlandırmağa imkan verir.

Əvvəlcə bu məsələlərə Azərbaycan SSR Nazirlər Sovetinin şöbə müdiri N.A.Brutens sonra isə R.İ.Sevumyan rəhbərlik edirdi.

Ermənistandan köçürülən əhali arasında təbliğat aparmaq məqsədilə xüsusi briqadalar yaradılaraq Ermənistan SSR-in azərbaycanlılar yaşayan rayonlarına göndərilirdi.

1948-ci il mayın axırlarında SSRİ Nazirlər Sovetindən respubluka Nazirlər Sovetinə zəng edərək köçürməyə hazırlığın

gedişi haqqında məlumat tələb edirlər. İyunun 4-də Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin imzası ilə SSRİ Nazirlər Sovetinə göndərilən məlumatda bildirilirdi ki, köçürmə ilə əlaqədar 1948-ci il may ayının 30-na qədər aşağıdakı işlər görülmüşdür: Köçürmə planını təmin etmək üçün Azərbaycan SSR-in 28 rayonuna inşaatçı-mühəndislər göndərilmiş və onların qarşısında yaşayış üçün yararlı binaları müəyyən edib, təmir işini təşkil etmək vəzifəsi qoyulmuşdur. "Kənd təsərrüfatında köçürmə işləri üzrə güzəştlər haqqında" SSRİ MİK və SSRİ XKS-in 1937-ci il17 noyabr tarixli qərarı Azərbaycan dilinə tərcümə edilərək 4000 nüsxə nəşr olunmuşdur. 25 nəfərdən ibarət qrup bu günlərdə izahat işləri aparmaq üçün Ermənistan SSR-ə yola salınacaq. Mətbəə üsulu ilə Azərbaycan və rus dillərində 7000 nüsxə ərizə-anket, 5000 nüsxə isə köçürmə bileti hazırlanaraq Ermənistan SSR-ə göndərilib və onların doldurulması işinə başlanılıb. Köçürmə xərcləri üçün 1948-ci ilin respublika büdcəsindən 13 milyon manat vəsait ayrılması nəzərdə tutulub. 1948-ci ildə 12177 nəfərin köçürülməsi Ermənistan SSR Nazirlər Soveti ilə razılaşdırılıb.

Azərbaycan SSR Nazirlər Sovetinin kolxoz təsərrüfatlarının köçürülməsi şöbəsi Azərbaycan SSR Nazirlər Soveti yanında köçürmə idarəsinə çevrilmiş, Emənistan SSR-dən kolxozçular və digər azərbaycanlı əhalinin köçürüləcəyi dövr üçün Yerevan şəhərində Azərbaycan SSR Nazirlər Sovetinin Ermənistan SSR-də nümayəndəliyi yaradılıb. Habelə arayışda köçürülənlər üçün tikiləcək evlərin 6 nümunəvi layihəsinin hazırlandığı, tikinti materialları və tikinti işlərini təşkil etmək üçün "Azərköçürmətikinti" trestinin və onun Salyan, Sabirabad, Əli Bayramlı, Puşkin rayonlarında tikinti kontorlarının yaradıldığı və s. haqqında məlumat verilirdi.

Ermənistan SSR-dən Kür-Araz ovalığına ilk köçkünlər 1948-ci il iyunun əvvəllərində gəlir. Azərbaycan SSR Sovxozlar Nazirliyinin həmin il iyunun 19 -da verdiyi məlumatda bildirilirdi ki, qəbul olunan ilk eşalonlarla 44 azərbaycanlı ailəsi gəlmiş,

onlar Jdanov rayonundakı sovxozlarda yerləşdirilmişdir Məlumatda göstərilirdi ki, gələnlər təmir olunmuş mənzillərlə təmin edilir. Onlar özləri ilə lazımi ev əşyaları gətirmiş, sovxozlar onları miçətgən ilə təmin etmiş, istəyənlər üçün bostan sahələri ayrılmış və imkan daxilində onlara to xu m da verilmişdir. Əmək qabiliyyətli əhali işlə təmin edilmişdir. Onlar əsasən bağlarda və bostanlarda işə düzəldilmişlər. Köçürülənlər arasında bir neçə nəfər ixtisaslı traktorçu da var və onlar müvəffəqiyyətlə pambıq tarlalarında kultivasiya işi ilə məşğul olurlar. Məlumatda bildirilirdi ki, bu günlərdə əlavə 23 ailəni qəbul etməyə hazırlaşırıq.

İyulun 29-da respublika Nazirlər Sovetinin müvəkkili Goranboy stansiyasından xəbər verirdi ki, **"iyulin 28-də səhər saat doqquzda 59 vaqondan ibarət eşalon daxil oldu. 101 təsərrüfat, 382 nəfər öz ev əşyaları və heyvanları ilə varid oldu. Qəbul və boşaldılma işləri lazımi qaydada həyata keçirildi. Artıq axşam saat 9-a qədər 98 ailə maşınlara yüklənərək, kolxozlara yola salındı".**

1948-ci il noyabrın 1-nə qədər Ermənistan SSR-dən Azərbaycan SSR-ə 1799 təsərrüfatda birləşən 7747 nəfər adam köçürüldü. Həmin müddətdə Ermənistan SSR-dən Azərbaycana özbaşına 2834 nəfərdən ibarət 429 ailə köçmüşdü. Beləliklə, 1948-ci il noyabrın 1-nə qədər Azərbaycana 2228 təsərrüfatda birləşən 10584 nəfər adam gəlmişdi.

Həmin ilin dekabrında isə Ermənistandan əlavə olaraq 120 təsərrüfatda birləşən 462 nəfər köçür. Onlardan 65 təsərrüfatda birləşən 209 nəfəri Noyanberyan rayonunun Körpülü kəndinin, 64 təsərrüfatda birləşən 253 nəfəri isə Yerevan şəhərinin sakinləri idi.

Azərbaycan SSR Nazirlər Sovetinə, Azərbaycan K/b/P MK-ya verilmiş məlumatlardan görünür ki, bir sıra rayonlara, o cümlədən Tovuz rayonuna köçürülənlər çox soyuq qarşılanmış, onların bir hissəsi tövlələrdə yerləşdirilmişlər. Ona görə də Aşağı Körpülüdən köçürülənlərdən 16 təsərrüfat qonşu Gürcüstan SSR-in Borçalı rayonuna getmiş, 5 təsərrüfat Yuxarı Körpülü kəndinə

qayıtmış, 2 təsərrüfat isə Alaverdi mədənlərində işə düzəlmişdir.

Köçürmənin birinci ili Kür-Araz ovalığında hazır yaşayış evləri, həyətyanı sahələr və suvarılan torpaqlar olmadığı üçün əhalinin bir hissəsi Azərbaycanın boş yaşayış evləri olan rayonlarına köçürülür. Habelə Ermənistan SSR-in bir sıra dağ rayonları sakinlərinin tələbi ilə onlar düzən rayonlarının təbii şəraitinə davam gətirə bilməyəcəkləri üçün onları Azərbaycanın dağ rayonlarına köçürməyi xahiş edir və birinci il buna nail olurlar.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarı ilə 1949-cu ildə Ermənistan SSR-dən Azərbaycana 40 min nəfər azərbaycanlının köçürülməsi planlaşdırılırdı. 1948-ci il köçürməsinin nəticələri göstərdi ki, qırx min nəfər adamı yerləşdirmək mükün deyil.

Belə ki, 1948-ci ildə köçürülən 10 min nəfər nisbətən daha çox mənzil ehtiyatı olduğu bir vaxtda köçürülməsinə, respublikanın müxtəlif rayonlarına paylanmasına baxmayaraq, onların çoxu qaramal tövlələrində yerləşdirilmişdi.

Belə bir şəraitdə 40 min nəfəri Kür-Araz ovalığına köçürmək və yaşayış evləri, həyətyanı sahələrlə təmin etmək praktiki cəhətdən qeyri-mümkün idi. Ona görə də respublika Nazirlər Sovetinin sədri yenidən SSRİ Nazirlər Sovetinə müraciət etməyə məcbur olur. O öz məktubunda bu çətinlikləri nəzərə alaraq, 1949-cu ildə Ermənistan SSR-dən 12 – 15 min əhalinin köçürülməsinə razılıq verməyi xah iş edir. Həm də xah iş edirdi ki, Ermənistan SSR-in dağ rayonlarından köçürülən əhalinin Azərbaycanın iqlim şəraiti əlverişli olan dağ rayonlarına köçürülməsinə, Kür-Araz ovalığına köçürülənlər üçün müəyyən olunmuş güzəştlərin onlara da aid edilməsinə icazə verilsin.

1949-cu ildə Respublika Köçürmə İdarəsi Azərbaycan SSR Nazirlər Sovetinə göndərdiyi məktub və arayışlarda dəfələrlə bildirirdi ki, yaşayış evlərinin çatışmaması nəticəsində Səfərəliyev, Ağcabədi rayonlarına köçürülənlər dözülməz şəraitdə

yaşayırlar. Bəzən bir neçə ailə kiçik bir daxmada daldalanmalı olur, çox vaxt onlar mal-qara ilə bir tövlədə yaşayırlar. Məsələn, Ağcabədi rayonunun T.Quliyev adına kolxozunda üç ailə qapı-pəncərəsi olmayan, təmir edilməmiş, tavanı daman kiçicik bir daxmada yerləşmişdi.

Köçkün Orucəli Əkbərovun ailəsi Səfərəliyev rayonunun Caparidze adına kolxo zunda Həyat Əmrahovanın evində yaşayır. Dekabrın əvvəllərində O. Əkbərovun əşyaları küçəyə atılmış, 5 nəfərdən ibarət ailə qış günündə açıq səma altında gecələməli olmuşdur. Köçkün Həcər Əkbərovanın ailəsi də dəfələrlə küçəyə atılmışdır. 8 nəfər ailə üzvü olan Hüseyn Əliyevi İlyasovun evində bir kiçik otaqda yerləşdirmişlər. Ev sahibi, onun arvadı və uşaqları H. Əliyev gündüz evdə olmayan vaxt uşaqlarını həmin otağa qatıb qapını bağlayır, söyüb təhqir edirdilər. Bu da köçürülənlər arasında haqlı narazılığa səbəb olurdu. Köçürmə idarəsi xəbər verirdi ki, köçkünlərin ərzaq və çoxişlənən mallarla təchizi işi də olduqca acınacaqlı vəziyyətdədir. Köçkünlər çay, qənd, duz, paltar sabunu, neft, lampa və s. çox işlənən mallar ala bilmir, rayon partiya komitələrinin katibləri və icraiyyə komitələrinin rəhbərləri isə onların ehtiyaclarına heç cür diqqət yetirmirlər. Nəticədə, köçürülənlər üçün dözülməz şərait yaranır, onların arasında narazılıqlar artır, dava-qalmaqal olur, bu isə köçürmənin ümumi gedişinə mənfi təsir göstərirdi. Bütün bunları nəzərə alaraq, Ermənistan SSR ilə razılaşdırılaraq 1949 -cu ildə 15713 nəfərin, ya xud 3818 təsərrüfatın köçürülməsi planlaşdırılır. Onlardan 5420 nəfəri yazda, 10293 nəfəri isə payızda köçürülməli idi. Lakin həmin ilin sentyabrına qədər SSRİ Nazirlər Soveti bu planla razılaşmır. SSRİ Nazirlər Soveti yanında Baş Köçürmə İdarəsinin rəisi S. Çeremuşin Respublika Nazirlər Sovetinin sədri T. Quliyevə məktubunda bir daha xatırladır ki, 1949-cu ildə Ermənistan SSR- dən Azərbaycan SSR-ə 40 min azərbaycanlı əhali köçürülməlidir. Həmin ilin 9 ayı ərzində köçürmənin vəziyyəti haqqında SSRİ Nazirlər Sovetinə məlumat vermək üçün hesabat tələb edir.

Bu məsələ ilə əlaqədar respublika Nazirlər Sovetinin sədri T. Quliyev 1949-cu il sentyabrın 21-də yenidən SSRİ Nazirlər Soveti sədrinin müavini G. M. Malenkova müraciət etməli olur. O bildirirdi ki, 90 min adamı və 21 min təsərrüfatı yerləşdirmək üçün ən azı 20 min yaşayış evi tələb olunur. Bununla yanaşı, istehsal binaları, məktəblər, xəstəxanalar, su təchizatı müəssisələri, hamamlar və s. tikintisi də zəruridir. Bunun üçün ən azı 400 milyon manatlıq tikinti-quraşdırma işi görülməlidir. Belə böyük bir işin öhdəsindən isə Azərbaycan Respublikası öz gücü ilə iki il müddətinə gələ bilməz. Bunları nəzərə alaraq, respublika Nazirlər Soveti 1949-cu ildə köçürmə planını 10 min nəfərə endirməyi xahiş edir.

1949-cu ilin oktyabrında Azərbaycan SSR Köçürmə İdarəsi Respublika Nazirlər Sovetinə məlumatında bildirirdi ki, həmin ildə 10 min azərbaycanlının köçürülməsi planlaşdırılıb, oktyabrın 22-nə qədər isə 983 təsərrüfat (4000 nəfər) köçürülmüş, 1500 təsərrüfatı (6000 nəfəri) əhatə edən azərbaycanlılara isə köçürmə bileti verilmişdir. Müvafiq qrafiklər üzrə dəmiryol eşalonlarında yola salınmaq üçün hazırlıq işləri görülmüşdür. İdarə bild irirdi ki, köçürmə planı müvəffəqiyyətlə yerinə yetiriləcək. Lakin Ermənistan SSR-də azərbaycanlı əhalini dəmir yol stansiyalarına gətirmək üçün benzin çatışmır. Köçürmə planının yerinə yetirilməsi, azərbaycanlı əhalinin Ermənistanın dəmir yol stansiyalarına gətirilməsi məqsədilə Azərbaycan SSR öz yanacaq fondundan 60 ton benzin ayırır.

Ermənistan SSR Nazirlər Soveti sədrinin müavini A. Piruzyan həmin il dekabrın 2-də Azərbaycan SSR Nazirlər Soveti sədrinə məktubunda bildirird i ki, 1949-cu il planına görə Ermənistan SSR-dən Azərbaycan 3278 təsərrüfat, ya xud 15276 nəfər köçürülməlidir. Faktiki olaraq 2368 təsərrüfat, yaxud 10595 adam köçürülmüşdür. Plan üzrə köçürmək üçün tam hazır olan 628 təsərrüfat, ya xud 3201 nəfər çətin vəziyyətdə qalır. Onlar oktyabr-noyabr aylarında Azərbaycana köçürülməli idilər. Ona görə də köçkünlər öz evlərini, mal-qara üçün tədarük etdikləri

yemi, qış yanacağını, ərzaq məhsullarını, bəzən isə ev əşyalarını da satmış, demək olar ki, açıq səma altında qalmışlar. Azərbaycan Köçürmə İdarəsi onları bu il köçürmək imkanı olmadığını bildirir. A.Piruzyan isə məktubunda T.Quliyevdən xahiş edir ki, bu işə qarışaraq həmin əhalinin köçürülməsinə köməklik göstərsin.

Ümumiyyətlə, 1949-cu ildə Ermənistan SSR-dən azərbaycanlı əhali kütləvi şəkildə Kür-Araz ovalığındakı Zərdab, Əli Bayramlı, Kürdəmir, Göyçay, Mir Bəşir, Salyan, Sabirabad, Yevlax rayonlarına köçürülür. Yaşayış evlərinin, ictimai binaların, içməli suyun və s. olmaması həmin rayonların rəhbərlərini məcbur edirdi ki, bütün vasitələrdən istifadə edərək köçürülənləri qəbul etməkdən imtina etsinlər. Sənədlərdən aydın olur ki, Ermənistan SSR-dən gəlmiş eşalonlar günlərlə dəmir yol stansiyalarında dayanır, yalnız yuxa rıdan təzyiq onları məcbur edirdi ki, köçürülənləri qəbul etsinlər.

Yevlaxda, Sabirabadda, Ucarda və s. rayonlarda bu cür hallara təsadüf olunurdu. Əgər qəbul edilirdilərsə də köçkünləri yerləşdirməyə yer tapılmır, onlar yerli kolxozçuların evlərinə paylanır, bu da həm gəlmələr, həm də yerli əhali üçün əlavə narahatlıqlar törədir, narazılıqlar yaradırdı. Buna görə də 1949-cu ilin dekabrında respublika Nazirlər Sovetinin sədri T.Quliyev bu məsələ ilə əlaqədar yenidən SSRİ Nazirlər Soveti sədrinin müavini G.M.Malenkova müraciət etməli olur. T.Quliyev öz məktubunda göstərirdi ki, iki il müddətində köçürmə planının qeyri-kafi şəkildə yerinə yetirilməsinin başlıca səbəbi Kür-Araz ovalığına köçürülənlər üçün lazımi yaşayış evlərinin və mədəni-məişət ocaqlarının yaradıla bilməməsidir. 1948-1949-cu illərdə Ermənistan SSR-dən köçürülənlər əsasən yerli kolxozçuları sıxışdıraraq onların evlərinə yerləşdirilmişlər. Artıq respublika orqanlarının və rayon təşkilatlarının bu sahədə imkanları tamamilə tükənmişdir. Yeganə yol yeni evlər tikməklə köçürülənləri qəbul etməkdir. Məktubda göstərilirdi ki, Azərbaycan SSR-in 1950-ci ilin xalq təsərrüfatı planında 3500 təsərrüfatın (15 min nəfərin) köçürülməsi planlaşdırılır. Bunun üçün isə 3500 ev tikilməlidir. Azərbaycan köçürmə tikinti trestinin

və kolxozların illik tikinti imkanlarını nəzərə alaraq, Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürüləcək əhali üçün köçürmə planında dəyişikliklər etmək, 1951-ci ildə 10 min, 1952-ci ildə 20 min, 1953-cü ildə 20 min, 1954-cü ildə isə 15 min adamın köçürülməsini nəzərdə tutmaq xahiş olunurdu.

Ermənistan SSR-dən azərbaycanlı əhalinin köçürülməsi ilə bağlı mübahisə doğuran məsələlərdən biri də oradan köçən əhaliyə verilməli olan ictimai və fərdi təsərrüfatlara məxsus mal-qaranın sayı ilə bağlı idi. Bununla əlaqədar 1949 və 1950-ci illərə aid çoxlu sənədlər qorunub saxlanılır. 1949-cu ilin dekabrında Ermənistan SSR-in köçürmə idarəsinin teleqramında deyilirdi ki, dekabrın 26-na qədər köçənlər özləri ilə 8138 baş qaramal, 19237 baş davar, 312 baş at, 81 baş donuz aparmışlar. Onlardan da guya 5114 baş qaramal, 14824 baş davar, 257 baş at və 81 baş donuz kolxoz təsərrüfatlarının payına düşür.

Azərbaycan köçürmə idarəsinin məlumatına görə isə 1949-cu il dekabrın 1-nə qədər köçənlər özləri ilə cəmi 5019 baş qaramal, 9374 baş davar, 177 baş at gətirmişdilər ki, onlardan da 1677 baş qaramal, 4231 baş davar və 109 baş at ictimai təsərrüfatın payına düşürdü.

Bundan sonra bu məsələ ilə əlaqədar Moskva, Bakı və İrəvan arasında çox intensiv yazışma və teleqramlar mübadiləsi başlanır. Nəhayət, 1950-ci il yanvarın 11-də Ermənistan SSR Nazirlər Sovetinin sədri S.Karapetyan bu məsələni həll etmək üçün şəxsi məktubla öz müavini Astvasaturyanı Bakıya göndərir. Nəticədə, Azərbaycan SSR və Ermənistan SSR Nazirlər Sovetləri sədrlərinin adından SSRİ Nazirlər Sovetinə belə bir teleqram göndərilir ki, 1950-ci ilin 1 yanvarına qədər Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülən əhali özləri ilə ictimai təsərrüfatlardan 4502 baş qaramal, 12720 baş davar, 206 baş at və 66 baş donuz, şəxsi təsərrüfatlardan isə 2607 baş qaramal, 4178 baş davar və 64 baş at gətirmişlər. Teleqramda xahiş olunurdu ki, həmin sayda heyvan Ermənistan SSR-in hesabından çıxarılaraq Azərbaycan SSR-in planına əlavə olunsun.

Köçürülən mal-qaranın sayı belə dəqiqliklə qeydiyyatdan keçirildiyi halda, 1948-1953-cü illərdə Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülmüş azərbaycanlı əhalinin dəqiq uçotu olmamış, köçürülənlərin sayı haqqında respublika Nazirlər Soveti yanında Köçürmə İdarəsinin eyni ildə və hətta eyni ayda verdiyi məlumatlarda onların sayı müxtəlif cür göstərilmişdir. Məsələn, həmin idarə rəisin in SSRİ Nazirlər Soveti yanında Baş Köçürmə İdarəsinə 1952-ci il 25 sentyabr tarixli məktubunda 1948-1952-ci illərdə Ermənistan SSR-dən Azərbaycanın Kür-Araz ovalığına 8082 təsərrüfatın (34513 nəfərin), həmin il sentyabrın 17-də isə respublika Nazirlər Sovetinə yazdığı məlumatda isə 9123 təsərrüfatın (38767 nəfərin) köçürüldüyü göstərilir. Özü də Köçürmə İdarəsi Azərbaycan SSR-ə köçürülən və köçənlərin ümumi sayını deyil, yalnız Kür-Araz ovalığına köçənlərin uçotunu aparmışdır.

1950-ci il yanvarın 10-da Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan K/b/P Mərkəzi Komitəsi “ Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığı rayonlarına köçürülmüş kolxozçuların və digər azərbaycanlı əhalinin təsərrüfat cəhətcə yerləşdirilməsi ilə əlaqədar təxirəsalınmaz tədbirlər haqqında” qərar qəbul edir. Həmin qərarda göstərilirdi ki, 1948-1949-cu illərdə Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına 4674 təsərrüfat (20000 nəfər) köçürülmüşdür. Köçürülənlərdən 1410 ailə yerli sovetlər və kolxozlara mə xsus evlərdə, 3264 ailə isə yerli kolxozçuları sıxışdırmaq hesabına yerləşdirilmişdir. Qərarda köçürülənlər üçün tikinti işlərinin keçirildiyi halda, 1948-1953-cü illərdə Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülmüş azərbaycanlı əhalinin dəqiq uçotu olmamış, köçürülənlərin sayı haqqında respublika Nazirlər Soveti yanında Köçürmə İdarəsinin eyni ildə və hətta eyni ayda verdiyi məlumatlarda onların sayı müxtəlif cür göstərilmişdir. Məsələn, həmin idarə rəisin in SSRİ Nazirlər Soveti yanında Baş Köçürmə İdarəsinə 1952-ci il 25 sentyabr tarixli məktubunda 1948-1952-ci illərdə Ermənistan SSR-dən Azərbaycanın Kür-Araz ovalığına 8082 tə-

sərrüfatın (34513 nəfərin), həmin il sentyabrın 17-də isə respublika Nazirlər Sovetinə yazdığı məlumatda isə 9123 təsərrüfatın (38767 nəfərin) köçürüldüyü göstərilir. Özü də Köçürmə İdarəsi Azərbaycan SSR-ə köçürülən və köçənlərin ümumi sayını deyil, yalnız Kür-Araz ovalığına köçənlərin uçotunu aparmışdır.

1950-ci il yanvarın 10-da Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan

K/b/P Mərkəzi Komitəsi " Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığı rayonlarına köçürülmüş kolxozçuların və digər azərbaycanlı əhalinin təsərrüfat cəhətcə yerləşdirilməsi ilə əlaqədar təxirəsalınmaz tədbirlər haqqında" qərar qəbul edir. Həmin qərarda göstərilirdi ki, 1948-1949-cu illərdə Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına 4674 təsərrüfat (20000 nəfər) köçürülmüşdür. Köçürülənlərdən 1410 ailə yerli sovetlər və kolxozlara məxsus evlərdə, 3264 ailə isə yerli kolxozçuları sıxışdırmaq hesabına yerləşdirilmişdir. Qərarda köçürülənlər üçün tikinti işlərinin Ermənistan SSR-dən yaz köçürülmə planını və həmin il avqustun 25-də isə payız köçürmə planını təsdiq edən iki qərar qəbul edir. Birinci qərarla yazda 1672 təsərrüfatın (6510 nəfərin), payızda isə 1747 təsərrüfatın (7851 nəfərin) köçürülməsi planlaşdırılırdı.

1950–ci ildə köçürmə ilə əlaqədar respublika təşkilatları qarşısında duran başlıca vəzifə köçürülənlər üçün yeni evlər tikmək işinin təşkili idi.

Sənədlərdən göründüyü kimi, 1950–ci il köçürmənin ən ağır ili olmuşdur. Köçürülənləri yerləşdirmək üçün yaşayış evləri yox idi. Azərbaycan Köçürmə Tikinti Tresti və onun rayonlardakı kontorları bu işin öhdəsindən gələ bilmirdi. Məsələn, həmin ilin yanvarında Qaradonludan alınmış teleqramda göstərilirdi ki, **3-cü sutkadır ki, 11 köçkün vaqonu boşalmır.** Həmin ilin noyabrında Ucardan alınmış digər teleqramda deyilirdi ki, **Zərdab rayonuna köçürülmək üçün Ucar stansiyasına gəlmiş 52 ailə bir aydan artıqdır ki, açıq** səma altında gecələyir, vəziyyət çox ağırdır. Köçürülənlərin bir qismi Jdanov rayonunda yerləşdiril-

mələrini xahiş edirdilər. Çünki onların qohum - əqrabaları, həmyerliləri əvvəllər bu rayonuna köçürülmüşdü. Göründüyü kimi, Ermənistanın bir kəndindən gələnlər müxtəlif rayonlara, kəndlərə, kolxoz və sovxozlara paylanırdılar. Bu da onların haqlı narazılığına səbəb olurdu. Onlar müxtəlif kolxozlara səpələnir gətirdikləri ictimai əmlak və mal-qara isə bu və ya digər kolxozda qalırdı.

1950–ci ildə köşürülənlər üçün 3500 ev tikmək planlaşdırılmış, faktiki isə 470 ev tikilmiş, plan 13,4 % yerinə yetirilmişdi. 1488 köçkün ailəsi həyətyanı təsərrüfat sahəsi ilə təmin olunmamışdı. 1950-ci ildə köçürülənlər üçün ev tikmək və mal–qara almaq məqsədilə ayrılmış 19 milyon manat kreditin yalnız 13,9 milyon manatı (73%-i) xə rclənmişdi.

...1950-ci ilin noyabrında Ermənistan SSR–in Zəngibasar rayonu Rəhimabad kəndindəki “Azad” kolxozundan Azərbaycan SSR-in Ağcabədi rayonunun Molotov adına kolxozuna köçürülmüş Əmir İsmayılov 1951-ci il avqustun əvvəllərində yenidən öz doğma kəndinə qayıdır. Avqustun 13-də isə İrəvandan Moskvaya İ.Stalinin adına aşağıdakı məzmunda teleqram göndərir: **“Əziz atamız Stalin! Sizə məlum edirəm ki, bizi 1950–ci ildə Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürdülər. Yenə də geriyə Ermənistana qayıtmalı olduq. O səbəbə ki, Azərbaycanda bizim yaşayışımız üçün şərait yoxdur. Azərbaycanın iqlim şəraiti bizə uyğun deyil. Uşaqlarımız orada tələf oldu, özümüz isə bu günə qədər də xəstəyik. Əziz ata! Sizdən xahiş edirik ki, bizə imkan verəsiniz, yenə də Ermənistan SSR-də yaşayaq”.**

Xalqın müsibətlərinin əsl səbəbkarının adına göndərilmiş bu teleqramın sürəti Moskvadan Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin adına göndərilərək xəbər verilirdi ki, SSRİ Nazirlər Sovetinin tapşırığı ilə Baş Köçürmə İdarəsinin inspektoru V.Nesteroviç həmin ərizəni yerində yoxlamaq məqsədilə Azərbaycana gəlib Ağcabədi rayonunda olacaq, oradan isə Ermənistan SSR-in Zəngibasar rayonuna gedəcək. Ona hərtərəfli

köməklik göstərilməsi tapşırılırdı.

Sənədlərdən görünür ki, V.Nesteroviç Azərbaycan və Ermənistan köçürmə idarələrinin nümayəndələri ilə birlikdə yuxarıda göstərilən rayonlarda olmuşdur. Lakin, həmin yoxlamanın nəticələri barədə arxivdə heç bir sənəd mövcud deyil. (faktlar arxiv məlumatları professor A.Paşayevin "Köçürülmə" kitabından götürülüb ).

1951-ci ildə SSRİ Nazirlər Soveti yanında Baş Köçürmə İdarəsi özünün kollegiya iclaslarında üç dəfə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi vəziyyətini müzakirə etmişdir. Hər dəfə də köçürmə işinin qeyri-qənaətbəxş getdiyi qeyd olunmuşdur. Köçürmə idarəsi kollegiyasının 31 yanvar 1951-ci il tarixli qərarında qeyd olunurdu ki, 1948-1950-ci illərdə Ermənistan SSR-dən köçürülmüş 8110 ailədən 4878-i yaşayış evləri ilə təmin olunma mışdır.

Həmin il aprelin 28-də və avqustun 28-də bu məsələ yenə də SSRİ Nazirlər Soveti yanında Baş Köçürmə İdarəsində müzakirə olunur və köçürmə işinin yarıtmaz vəziyyəti ilə bağlı SSRİ Nazirlər Sovetinə məlumat vermək haqqında qərar qəbul edilir.

Görünür ki, Baş Köçürmə İdarəsinin 1951-ci ildə Azərbaycana köçürmə ilə əlaqədar məsələlərə belə maraq göstərməsi səbəbsiz deyildi. Həmin il Ermənistan SSR-dən Kür-Araz ovalığına köçürülmüş azərbaycanlı əhali arasında geri qayıtma hallarına təsadüf edilirdi. Ermənistan SSR-dən azərbaycanlılar ictimai təsərrüfatları qoyaraq özbaşına Azərbaycana köçərkən Ermənistan SSR rəhbərləri susur, bir dəfə də olsun buna etirazlarını bildirmirdilər. Lakin Kür-Araz ovalığına köçürülmüş azərbaycanlıların öz dədə-baba yurdlarına qayıtması halları müşahidə edilən kimi, Ermənistan SSR rəhbərləri, necə deyərlər, əsl həyəcan təbili çalırdılar. 1951-ci ilin may-iyun aylarında Ermənistan SSR Nazirlər Soveti, onun köçürmə idarəsi, rayon icraiyyə komitələri Azərbaycan SSR Nazirlər Sovetinə, SSRİ Nazirlər Soveti yanında Baş Köçürmə İdarəsinə məktub və teleqramlar göndərərək geri qayıtma halları ilə əlaqədar böyük

hay–küy kampaniyası başlayırlar. Ermənistan SSR köçürmə idarəsinin rəisi mayın 27-də 360 ailənin, Emənistan SSR Nazirlər Sovetinin sədri S.Karapetyan mayın 29-da 376 ailənin, Axta rayon İcraiyyə Komitəsinin sədri isə təkcə Axta rayonuna 117 ailənin qayıtdığını bildirirlər. Onları qorxudan başlıca məsələ qayıdan ailələrin hələ köçürülməmiş ailələr arasında apardıqları təbliğat idi. S.Karapetyan öz teleqramında bildirirdi ki, hökümət tərəfindən müəyyən olunmuş köçürmə qaydalarını pozduqları üçün geri qayıdanları Ermənistan qəbul edə bilməz.

Ermənistan SSR tərəfindən qayıtma ilə əlaqədar qaldırılmış bu qalmaqal nəticəsində Azərbaycan rəhbərliyi Azərbaycan SSR Köçürmə İdarəsindən geri qayıdanlar haqqında arayış tələb edir. Arayış göstərilirdi ki, Ermənistana qayıdan ailələrin sayı S. Karapetyanın teleqramında göstərildiyi kimi, 376 deyil, cəmi 215 arasında geri qayıtma hallarına təsadüf edilirdi. Ermənistan SSR-dən azərbaycanlılar ictimai təsərrüfatları qoyaraq özbaşına Azərbaycana köçərkən Ermənistan SSR rəhbərləri susur, bir dəfə də olsun buna etirazlarını bildirmirdilər. Lakin Kür-Araz ovalığına köçürülmüş azərbaycanlıların öz dədə - baba yurdlarına qayıtması halları müşahidə edilən kimi, Ermənistan SSR rəhbərləri, necə deyərlər, əsl həyəcan təbili çalırdılar. 1951-ci ilin may-iyun aylarında Ermənistan SSR Nazirlər Soveti, onun köçürmə idarəsi, rayon icraiyyə komitələri Azərbaycan SSR Nazirlər Sovetinə, SSRİ Nazirlər Soveti yanında Baş Köçürmə İdarəsinə məktub və teleqramlar göndərərək geri qayıtma halları ilə əlaqədar böyük hay-küy kampaniyası başlayırlar. Ermənistan SSR köçürmə idarəsinin rəisi mayın 27-də 360 ailənin, Emənistan SSR Nazirlər Sovetinin sədri S.Karapetyan mayın 29-da 376 ailənin, Axta rayon İcraiyyə Komitəsinin sədri isə təkcə Axta rayonuna 117 ailənin qayıtdığını bildirirlər. Onları qorxudan başlıca məsələ-qayıdan ailələrin hələ köçürülməmiş ailələr arasında apardıqları təbliğat idi. S.Karapetyan öz teleqramında bildirirdi ki, hökümət tərəfindən müəyyən olunmuş köçürmə qaydalarını pozduqları üçün geri qayıdanları Ermənistan qəbul

edə bilməz.

Ermənistan SSR tərəfindən qayıtma ilə əlaqədar qaldırılmış bu qalmaqal nəticəsində Azərbaycan rəhbərliyi Azərbaycan SSR Köçürmə İdarəsindən geri qayıdanlar haqqında arayış tələb edir. Arayış göstərilirdi ki, Ermənistana qayıdan ailələrin sayı S. Karapetyanın teleqramında göstərildiyi kimi, 376 deyil, cəmi 215–dir. Qeyd edilirdi ki, 1948-1950-ci illərdə Ermənistan SSR-dən cəmi 8018 təsərrüfat (34382 nəfər) köçürülmüşdür. Ermənistan SSR-in Aran rayonlarından Kür-Araz ovalığına köçürülmüş azərbaycanlılar buranın kolxoz və sovxozlarında vicdanla işləyirlər. Ermənistanın Axta, Basarkeçər, Qarabağlar kimi dağ rayonlarından köçürülmüş əhali isə dəfələrlə Kür-Araz düzənliyinin iqliminin onlara düşmədiyindən şikayətlənir, Azərbaycanın dağ rayonlarına köçməyə icazə verilməsini xahiş edirlər. Lakin SSRİ Nazirlər Sovetinin qərarında yalnız Kür-Araz ovalığına köçürmək nəzərdə tutulduğu üçün onların tələbləri yerinə yetirilmir. Arayışda göstərilirdi ki, Azərbaycanın dağ rayonlarına köçməyə icazə verilərsə, onda onları bir neçə günün içərisində Azərbaycana qaytarmaq olar. Lakin onların qeyri-qanuni tələbi yerinə yetirilərsə, bu, gələcəkdə köçürmə işinə mənfi təsir göstərə bilər. Çünki Azərbaycana köçürülmək üçün əsasən dağ rayonlarının əhalisi qalıb. Əgər indikilərə güzəştə gedilsə, onlar da dağ rayonlarına köçürülmələrini tələb edə bilərlər.

S. Karapetyanın 29 may tarixli teleqramı ilə əlaqədar olaraq, Azərbaycan SSR Nazirlər Soveti həmin il iyunun 7-də xüsusi qərar qəbul edir. Bu məsələnin Nazirlər Sovetində müzakirəsi zamanı azərbaycanlıların geri qayıtması əsl faciə kimi qarşılanır. Bütün günahlar Azərbaycan Köçürmə İdarəsi rəhbərlərinin üzərinə qoyulur, bu hadisəyə siyasi qiymət verilərək onlar siyasi kütlükdə ittiham olunurlar.

Respublika Nazirlər Sovetinin qərarı ilə N.Allahverdiyevin rəhbərliyi altında Azərbaycan SSR Köçürmə İdarəsinin işçiləri həmin ilin iyun-iyul aylarında Ermənistana gedib orada yerli

rayon icraiyyə komitələri ilə birlikdə geri qayıdanların siyahısını dəqiqləşdirirlər. Müəyyən olunur ki, 1951-ci il iyunun 1-nə qədər 376 təsərrüfat deyil, cəmi 217 təsərrüfat (872 nəfər) geri qayıtmışdır. Köşürmə İdarəsi işçilərinin respublika Nazirlər Sovetinə təqdim etdiyi arayışda göstərilirdi ki, S.Karapetyanın teleqramındakı rəqəmlərə köçürmə zamanı, həbsdə, ordu sıralarında olmuş, düzgün olmayaraq, köçürmə siyahısına salınmış adamlar da daxildir. Arayışda göstərilirdi ki, təkcə onların yoxladıqları rayonlarda 1948-1950–ci illərdə 1000 təsərrüfatdan yuxarı azərbaycanlı ailəsi ictimai əmlakına toxun madan Ermənistan SSR-ni tərk etmiş, Azərbaycanın müxtəlif rayonlarına köçmüşlər.

Əvvəlki illərdə olduğu kimi, 1951-ci ildə də köçürmə məsələsi Azərbaycan SSR Nazirlər Sovetinin diqqət mərkəzində olmuşdur. Həmin il oktyabrın 11-də Nazirlər Soveti “Ermənistan SSR-dən köçürülənlərin təsərrüfat cəhətdən yerləşdirilməsi və 1951-ci il payız köçürmə planının yerinə yetirilməsinin gedişi haqqında” qərar qəbul etmişdir. Qərarda göstərilirdi ki, 195 -ci ilin 9 ayı ərzində 3400 yeni ev tikilərək köçürülənlərə təhvil verilməli idi. Lakin cəmi 2231 ev tikilmiş, t ikinti planı 65,7 % yerinə yetirilmişdi.

## KOLXOZÇULAR VƏ DİGƏR AZƏRBAYCANLILAR

Sözügedən deportasiyanın ən maraq doğuran nüanslarından biri də qərarda qeyd edilən kolxozçular və digər azərbaycanlılar məsələsidir. SSRİ Nazirlər Sovetinin Ermənistan SSR-dən azərbaycanlı kolxozçuların köçürülməsi ilə birlikdə digər azərbaycanlılar deyilən şəxslər kimdir bəs?

1951-ci ildə cəmi 1500 təsərrüfatın Ermənistan SSR-dən Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi planlaşdırılmışdı. ***Köçürülməsi nəzərdə tutulan 400 ailə İrəvandan olan müəllimlər, müxtəlif idarə işçiləri, redaksiya əməkdaşları, həkimlər, evdar qadınlar və başqaları idi. Onların ixtisaslarına uyğun Kür-Araz ovalığının pambıqçılıq rayonlarında iş olmadığı üçün***

***Ermənistan SSR Köçürmə İdarəsi 1951-ci il köçürmə planından 400 təssərrüfatı çıxaraq 1100 təsərrüfatı köçürməyi təklif edir.***

1951-ci ilin yazında 300 ailənin köçürülməsi planlaşdırılmış, əslində isə 311 ailə köçürülərək, plan 103,6% yerinə yetirilmişdi. 1952-ci il yanvarın 17-də Azərbaycan SSRİ Nazirlər Soveti "1952-ci ildə Azərbaycan SSR-ə köçürmə planı və köçürülənlər üçün yaşayış evlərinin hazırlanması haqqında" qərar qəbul edir. Qərarda göstərilirdi ki, 1951-ci il köçürülməsi üçün yaşayış evlərinin tikilməsi işi qeyri-qənaətbəxş şəkildə aparılmışdır. Planda 1100 təsərrüfatın köçürülməsi nəzərdə tutulmuş, əslində isə 909 təsərrüfat köçürülmüş, köçürmə planı 82,6% yerinə yetirilmişdir. 1951-ci ilin planında 5000 yaşayış evinin tikintisi planlaşdırılmış, əslində isə 3704 ev t ikilib istifadəyə verilmiş, paln 74,1% yerinə yetirilmişdir.

Qərarda 1952-ci ildə Kür –Araz ovalığına 1200 təsərrüfatın köçürülməsi planlaşdırılırdı. Həmin ildə köçürülənlər üçün 2500 yaşayış evi tikmək nəzərdə tutulurdu. Əlbəttə, illər keçdikcə köçürmə idarəsinin köçürmənin təşkili ilə əlaqədar təcrübəsi də artırdı. Köçürülənlər üçün tikilən evlərin sayı çoxalır, yeni qəsəbələr salınır, kəndlərin görkəmi dəyişirdi. Bununla yanaşı, köçürülənlər üçün hələ də lazım olan şərait yaradılmamışdı. İçməli su, mənzil-məişət, səhiyyə və mədəni xidmətin səviyyəsi olduqca aşağı idi.

Ermənistan SSR-in Vedi rayonundan Ağdaş rayonu Qoşaqovaq kəndinə köçürülmüş 24 ailə adından İzzət Əliyev, İbrahim Allahverdiyev, Cavad Cavadov, Yolçu Əliyev və başqalarının 1953-cü il aprelin 3-də Azərbaycan SSR Nazirlər Sovetinə yazdıqları ərizədə o xuyuruq: **"Biz 1952-ci ilin oktyabrında Ermənistan SSR-in Vedi rayonundan köçüb Ağdaş rayonunagəlmişik. Yeni köçüb gəlmiş 24 ev yararsız, təmirə ehtiyacı olan darısqal binalarda yerləşdirmişlər. Gələrkən bizə yazda yeni yaşayış binalarının tikiləcəyini vəd etdikləri halda, hələ də biz ev sahibləri ilə gündə qalmaqal salmaqla**

**həmin evlərdə yaşayırıq. Ev sahibləri bizə verilən evlərdən tezliklə çıxmağı tələb edirlər. 15-16 kvadratmetr sahəsi olan evdə 10-12 nəfər qalırıq... Rayon sahibləri yeni köçüb gələn kolxozçuların kənddən çıxıb getməsinə çalışırlar**" (A.Paşayev "Köçürülmə").

Sənədlərdən göründüyü kimi, "Köçürmətikinti" trestinin tikdiyi evlərin çoxu çiy kərpicdən olub, divarları saman qatılmış palçıqla suvanırdı. Yeraltı suların daha çox üzdə olduğu Kür–Araz ovalığında tikilmiş belə binalar hədsiz dərəcədə davamsız olur, yaz vaxtları tezliklə nəm çəkərək üçüb dağılırdı. Bu cür binalrın bir tərəfdən əlverişli olmaması, digər tərəfdən isə çox baha başa gəlməsi köçürülənlərin ciddi narazılığına səbəb olurdu. 1952-ci ildə respublika Nazirlər Soveti tərəfindən SSRİ Nazirlər Sovetinə yazılmış məktubda bildirilirdi ki, nümunəvi layihələr əsasında tikilən evlərin ikiotaqlı və 25,7 kvadratmetr olması, köməkçi tikililərin (tövlə, evdamı, ayaqyolu və s.) yoxluğu, tikintin in baha başa gəlməsi köçkünləri narazı salır. Onlar həmin evləri qəbul etməkdən imtina edirlər. Kolxozçuların bu evlərdən imtina etməsi nəticəsində kolxozlar banklara 17 milyon manata qədər pul borclu qalıblar. Bütün bunları nəzərə alaraq respublika Nazirlər Soveti İttifaq hökümətindən xahiş edirdi ki, yaranmış şəraiti nəzərə alaraq tikilmiş evlərin qiymətinin 50%-i kolxozçulara güzəştə gedilsin.1952-ci ildə Ermənistan SSR-dən köçürmə planı 124,6% yerinə yetirilir. Köçürülənlər üçün evlər tikilməsi planı isə 80.6% ödənilir.

1953-cü il fevralın 5-də respublika Nazirlər Soveti "1953 –cü ildə Azərbaycan SSR-də köçürmə planı və köçürülənlər üçün yaşayış evləri hazırlamaq haqqında" qərar qəbul edir.

5 mart 1953-cü ildə SSRİ Nazirlər Sovetinin sədri türk düşməni İosif Stalin ölümündən sonra deportasiyanın intensivliyi aşağı düşdü. Geri qayıdanların isə dinamikası artmağa başladı. Ermənistan SSR rəhbərləri buna qəti etirazlarını bildirirlər.

1954-cü ilin aprelində Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin nümayəndə heyəti başda nazir müavini Möhsün

Poladov olmaqla Ermənistan SSR-in azərbaycanlılar yaşayan rayonlarını gəzir, onların geri qayıtması səbəblərini araşdırırlar. Onlar öz məlumatlarında göstərirdilər ki, geri qayıtmağın başlıca səbəbi Kür-Araz ovalığında köçürülənlər üçün lazımi şəraitin olmaması, Ermənistanın dağ rayonlarından köçürülən azərbaycanlıların bu yerlərin iqliminə uyğunlaşa bilməməsidir. Onların məlumatına görə, 1954-cü ilin aprelinə qədər 1155 təsərrüfat geriyə, özlərinin əvvəlki yerlərinə qayıtmışlar.

Arayışda geriyə qayıtmanın qarşısına almaq üçün konkret təkliflər irəli sürülürdü. Bu təkliflər sırasında Azərbaycan SSR-in Kür-Araz ovalığında onlar üçün əlverişli şərait yaradılması, Ermənistan SSR-ə dönənləri orada yenidən məskunlaşmağa qoymamaq, özləri üçün yeni evlər tikməyə, həyatyanı təsərrüfat yaratmağa icazə verməmək və sairə təklif olunurdu.

1954-cü ilin mayında və sentyabrında azərbaycanlı əhalinin köçürüldüyü rayonların icraiyyə komitələrinin sədrlərinə və rayon partiya komitələri katiblərinə respublika partiya və hökümət rəhbərlərinin imzası ilə göndərilmiş məktubda həmin rayonlara köçürülənlərin Azərbaycan SSR-in başqa rayonlarına getməsini və Ermənistan SSR-ə qayıtmasının tezliklə qarşısını almaq tapşırılırdı. Məktubda göstərilirdi ki, bu günə qədər Kür-Araz ovalığına köçürülmüş ailələrdən 1000-dən çoxu özləri üçün yaşayış evi ala bilməmiş, hələ də yerli kolxozçuların evlərində yaşayırlar. Bərdə rayonunun Malenkov adına kolxozunda isə onlar yeraltı qazmalarda daldalanırlar. Məktubda deyilirdi ki, onlar üçün mənzil-məişət şəraiti yaradılmalı, içməli su ilə təmin olunmalı, köçürülənlərə səhiyyə xidməti kökündən yaxşılaşdırılmalı, Kür-Araz ovalığına köçürülənləri dəqiq siyahısı tərtib edilməlidir.

Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirinin 1954-cü il oktyabrın 14-də Azərbaycan KP MK-yə və respublika Nazirlər Sovetinə yazdığı məktubunda göstərilirdi ki, **1948-1953-cü illərdə Ermənistan SSR-dən respublikanın Kür- Araz ovalığına 11.914 təsərrüfat (53. 000 nəfər) köçürülmüşdür.**

Azərbaycana köçürülənlərin sayı ilə əlaqədar bir məsələyə də xüsusi diqqət yetirmək lazımdır. Sənədlərdən aydın olur ki, həmin illərdə rəsmi köçürmə ilə yanaşı, köçürülən yerlərə getmək istəməyənlər, yaxud Ermənistanda yaradılmış dözülməz şəraitdən, təhqirlərdən canını qurtarıb Azərbaycana pənah gətirənlər də az olmamışdır. Onlar kötləvi surətdə Azərbaycanın müxtəlif rayonlarına, əsasən isə Ermənistanla sərhəd olan Gədəbəy, Tovuz, Şamxor, Zəngilan və b. rayonlarına köçmüşlər. Ermənistanda məharətlə pərdələnmiş təqiblərdən baş götürüb qaçanları Azərbaycanda da gülərüzlə qarşılamırdılar. Sənədlər bu faktı açıq-aşkar sübut edir. "Kommunist beynəlmiləlçiliyi" mövqeyində sədaqətlə dayanan respublika rəhbərliyi onları incitmiş, qayıtmaq istəyənlərə mane olmuş və onları yalnız SSRİ Nazirlər Sovetinin qərarında nəzərdə tutulan Kür-Araz ovalığı rayonlarına getməyə məcbur etmişlər.

## PLANDANKƏNAR KÖÇÜRÜLMƏLƏR

Azərbaycan türklərinin Qərbi Azərbaycandan məcburi şəkildə Kür-Araz ovalığına köçürülməsindən ruhlanan ermənilərin əhaliyə qarşı təzyiqi daha da artırdı. Nəticədə təlaşlanan əhali kortəbii şəkildə köçməyə məcbur olurdu.

Ermənistan SSR Basarkeçər rayonu Zod kəndinin sakini Bala Hacıyev 1948-ci ilin fevralında Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin qəbulunda olmuş və öz kəndliləri adından xahiş etmişdir ki, 100 ailənin Azərbaycanın Xanlar rayonuna köçməsinə icazə versin. Onların xahişi yerinə yetirilmiş və həmin 100 ailə Xanlar rayonuna köçmüşdür.

1948-ci il aprelin 20-də Respublika Nazirlər Sovetinin əməkdaşı A. Bıxovski Nazirlər Sovetinin sədrinə verdiyi məlumatda bildirirdi ki, Ermənistan SSR-in Qəmərli rayonunun Sabunçu kəndindəki "Zəhmət" kolxozunun üzvü Kazım Məmmədov Nazirlər Sovetinə müraciət edərək onunla birlikdə Sabunçu kəndindən 10 ailənin, qonşu Qaraqoyunlu kəndindən isə 6 ailənin, cəmi

51 nəfərin, o cümlədən 27 nəfər əmək qabiliyyətli sakinin Ermənistan SSR-dən Azərbaycana köçərək, hazırda Tovuz rayonunun Nizami kolxozunda yaşadığını yazmışdır. K.Məmmədov göstərirdi ki, aprelin 4-də onların kəndinə İrəvan şəhərindən **Balabəy Martirosyan və Hüseyn Məmmədov** gəlib bildirmişlər ki, azərbaycanlı əhali öz evlərini və əmlaklarını sataraq Azərbaycan SSR-ə köçməlidirlər. Kəndin sakinlərindən çoxu öz evlərini dəyər-dəyməzinə satmış və hazırda evsiz-eşıksiz qalmışlar.

Habelə həmin ailələrə məxsus mal-qaranı da dabaq xəstəliyi bəhanəsi ilə aparmağa qoymamış, satmağa məcbur etmişlər. K.Məmmədov respublika hökumətinə müraciət edərək onların Tovuz rayonunda məskunlaşmasına razılıq verməyi xahiş etmişdir.

Başqa bir məktubda Vedi rayonunun Avşar kənd sakini Mircəlal Məmmədov xah iş edirdi ki, Ermənistan SSR-də sement zavodunda işlədiyi üçün ona Tovuz sement zavodunda işləməyə icazə verilsin.

Sonrakı illərdə də azərbaycanlıların Ermənistan SSR ərazisindən Azərbaycanın ayrı-ayrı rayonlarına özbaşına köçməsi davam etmişdir. 1949-cu ilin aprelində Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan SSR Ali Sovetinin deputatı, hərbi qulluqçu, əslən Ermənistan SSR-in Kirovakan rayonunun Gözəldərə kəndindən olan Xıdır Mustafayev respublika Nazirlər Sovetinə göndərdiyi məktubunda yazırdı ki, köçürmə idarəsinin razılığı ilə anasını və qardaşlarını Xanlar rayonuna köçürmək istəmişdir. Rəsmi razılıq olmasına baxmayaraq, Xanlar Rayon İcraiyyə Komitəsinin sədri Atanesov Xanlar şəhərində xeyli boş mənzil ola-ola, onlara zirzəmiləri və yararsız daxmaları təklif etmişdir. X. Mustafayev isə öz məktubunda xahiş etmişdir ki, onun ailəsinə yararlı mənzil verilsin.

Həmin il aprelin 27-də Azərbaycan K/b/P Na xçıvan Vilayət Komitəsinin katibi Y.Yusifov Azərbaycan K/b/P Mərkəzi Komitəsinə məktubla birgə Ermənistan SSR Zəngibasar rayonu Elyas kəndindən kolxozçuların ümumi iclasının protokolunu da göndərir. Məktubda qeyd olunur ki, 220 nəfər lokxoz üzvünün iştirakı ilə keçən iclas Naxçıvan MSSR rəhbər orqanlarına üz

tutub bu kolxoza daxil olan 150 təsərrüfatı Naxçıvan Muxtar Respublikasında yerləşdirməyi xahiş edir. Kolxozşuların qəbul etdikləri qərarda deyilirdi: ***“Kolxozumuz varlı kolxozdur. Belə bir kolxozu kəndlərə dağıtmaq yaxşı deyil. Bütün kolxozun bir yerə köçməsi təsərrüfatımızın iqtidarını pozmaq. Noraşen rayonunun iqlimi və suyu da bizə düşür. Orada tezliklə əkin əkə bilərik. Qoşqu qüvvəmiz və toxumumuz var. Naxçıvan MSSR Ali Sovetindən və Nazirlər Sovetindən xahiş edilsin ki, bizim kolxozun üzvlərinin Noraşen rayonunun Şəngiley və Dərəkənd kəndlərinə köçməsinə icazə versinlər”.***

Y.Yusifov AK/b/P MK-dan xahiş edirdi ki, həmin təsərrüfatların və əlavə 150 təsərrüfatın da (cəmi 300 təsərrüfat) Noraşen rayonunda qəbuluna icazə verilsin.

1949-cu ilin sentyabrında Sisian rayonunun Şəki kəndinin kolxozçuları da Azərbaycan SSR Nazirlər Sovetinə göndərdikləri ərizədə onlara Naxçıvan MSSR- in Şahbuz rayonuna köçməyə icazə verilməsini xahiş edirlər. Elə həmin vaxt Ermənistan SSR Axta rayonu S.Ağamalıoğlu adına kolxozun üzvləri də respublika Nazirlər Sovetindən Azərbaycan SSR-ə köçməyə icazə verməsini xah iş edirlər. Bu ərizələrə cavab olaraq respublika Köçürmə İdarəsi bildirir ki, Şahbuz rayonu Kür-Araz ovalığına daxil olmadığı üçün Şəki kəndinin sakinləri oraya dövlət tərəfindən mütəşəkkil şəkildə köçürülə bilməzlər. Axta rayonu Ağamalıoğlu kolxozunun sakinlərini isə Kür-Araz ovalığında istədikləri yerə köçürmək imkanı var.

1949-cu il noyabrın 23-də Vedi Rayon Soveti İcraiyyə Komitəsinin sədri

A. Məmmədov Ermənistan SSR Nazirlər Sovetinin sədri S.Karapetyana bildirirdi ki, 1948-1949-cu illərdə təkcə Vedi rayonundan 700-dən yuxarı azərbaycanlı təsərrüfatı özbaşına Azərbaycanın müxtəlif rayonlarına köçmüşlər. O yazırdı ki, təkcə son beş gündə əlavə 75 təsərrüfat da Vedini tərk edərək özbaşına Azərbaycana getmiş və bu cür gedənlərin sayı gündən-günə artmaqdadır. 1948-c i ildə Kür-Araz ovalığına da xil olmayan

Gədəbəy, Qazax, Şamxor, Səfərəliyev, Kirovabad, Xanlar, Quba, Dəstəfur, Bakının Maştağa və Əzizbəyov rayonlarına köçürülmüş əhali üçün SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarında nəzərdə tutulan güzəştli şərtlərdən istifadə haqqında Azərbaycan SSR Nazirlər Sovetinin xah işinə baxmayaraq, İttifaq hökuməti razılıq verməmişdir. Bu da həmin rayonlara köçürülmüş əhalinin həyat şəraitini daha dözülməz etmişdir. Lakin buna baxmayaraq, onlar Kür-Araz ovalığının ilan mələyən düzlərinə getməmişlər.

1950-ci ilin fevralında respublika Köçürmə İdarəsi Naxçıvan Vilayət Partiya Komitəsi və Nazirlər Sovetinin 1950-ci ilin yazında 500 təsərrüfatın Ermənistan SSR-dən Noraşen rayonuna köçürülməsinə icazə vermək barədəki xahişinə cavab olaraq bildirirdi ki, hazırda rəs mən yalnız Kür-A raz ovalığına köçürmədən danışılmasına baxmayaraq, Naxçıvan MSSR Ermənistan SSR-in Qarabağlar, Vedi, Artaşat rayonlarından özbaşına gələn azərbaycanlı əhalini qəbul edir. Onların arasında Kür-Araz ovalığına köçürmə bileti olanlar da vardır. Köçürmə İdarəsi Naxçıvan MSSR rəhbərliyini xəbərdar edirdi ki, gələcəkdə bu cür hallara yol verməsin.

Ermənistan SSR-dən köçürülən azərbaycanlı əhalinin Kür-Araz ovalığına deyil, Azərbaycanın digər rayonlarına kütləvi surətdə özbaşına köçməsinin qarşısını almaq məqsədilə 1950-ci ilin martında Azərbaycan SSR Nazirlər Sovetinin sədri və Azərbaycan KP MK katibinin imzası ilə rayon icraiyyə komitələri sədrlərinə və rayon partiya komitələri katiblərinə xüsusi məktub göndərilir. Məktubda göstərilirdi ki, Qazax, Tovuz, Ağstafa, Şamxor, Gədəbəy, Xanlar, Dəstəfur, Mirbəşir, Bərdə, Ağdam və başqa ryonların rəhbərləri Ermənistan SSR-dən özbaşına gələn azərbaycanlı əhalini qəbul edirlər. Bu isə Ermənistan SSR-dən köçürülən əhalinin işçi qüvvəsini lazımi rayonlarda yerləşdirməyə imkan vermir. Məktubda Ermənistan SSR-dən özbaşına gələn azərbaycanlıların Kür-Araz ovalığına daxil olmayan rayonlarda qəbulunu dayandırmaq tələb olunurdu.

Köçürmə İdarəsinin məlumatında göstərilirdi ki, tam olmayan məlumata görə, 1949-cu ildə Ermənistan SSR-dən Azərbaycana özbaşına 4396 nəfəri birləşdirən 856 ailə köçmüşdür. 1949-cu ildə Şamxor rayonuna 215 təsərrüfat (1173 nəfər), Gədəbəyə 77 təsərrüfat (427 nəfər), Qazağa 86 təsərrüfat (425 nəfər) və s. köçmüşdür. Ermənistan SSR-dən azərbaycanlı əhalinin Azərbaycana kütləvi şəkildə köçməsi halları sonrakı illərdə də davam etmişdir. Köçürmə İdarəsinin məlumatlarının birində göstərilir ki, nümayəndələrin gəzdiyi bir neçə rayondan təkcə 1948-1950-ci illərdə mindən yuxarı ailə özbaşına Azərbaycana köçmüşdür. ***Bütün bunlar nəzərə alınarsa, şübhəsizdir ki, 1948-1953-cü illərdə Ermənistan SSR-dən 100 min nəfərdən yuxarı azərbaycanlı köçürülmüş və ya köçməyə məcbur olmuş dur.***

Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin nümayəndəsi Əbdürəhmanov, DQMV İcraiyyə Komitəsi sədrinin müavini Kərimov, Vilayət Daxili İşlər İdarəsi rəisinin müavini Venediktov və Vilayət Partiya Komitəsi kənd təsərrüfatı şöbəsi müdirinin müavini Süleymanyanın iştirakı ilə Ermənistan SSR-dən DQMV Martuni rayonuna köçürülmüş azərbaycanlı əhalinin yerləşdirilməsi haqqında 1949-cu il yanvarın 15-də aparılmış yoxlamadan sonra Stepanakertdə (Xankəndində) tərtib olunmuş arayışda göstərilirdi ki, 1948-ci ilin avqustunda Ermənistan SSR-dən DQMV-in Martuni rayonuna 131 təsərrüfat (570 nəfər) gəlmişdir. Onlardan 86 təsərrüfat (355 nəfər) Qişi, 17 təsərrüfat (82 nəfər) Güney-Çartaz və 25 təsərrüfat (120 nəfər) Xunuşnak kəndlərində yerləşdirilmişlər. Göstərilirdi ki, köçürülənlər üçün son dərəcə dözülməz şərait yaradılıb. Martuni Rayon Xalq Maarif şöbəsinin müdiri Ulubabyan "gəlmə" azərbaycanlılara həqarətlə baxır, onların uşaqlarının təhsilə cəlb olunması üçün heç bir tədbir görmür, hətta buna mane olurdu. Güney-Çartaz kəndində heç bir səbəb olmadan azərbaycanlı müəlliməni Azərbaycan dili dərsi deməkdən kənar edərək, bu işi müvafiq ixtisası olmayan məktəb müdirinə tapşırır. Xunuşnak kəndinə köçürülmüş uşaqlar həmin kənddə Azərbaycan qrupu olmadığı üçün qarlı-şa xtalı

günlərdə Qişi kəndinə gedib-gəlməyə məcbur olurlar. Köçürülənlərin əksəriyyəti işlə və həyətyanı torpaq sahələri ilə təmin edilmirlər: Çoxuşaqlı ailələrin vəziyyəti xüsusilə dözülməz idi: 8 uşaq anası Qəmər Abbasovanın, 6 uşaq anası Kübra Babayevanın və başqalarının bir əmək günü belə yox idi: Yoxlama günü bu ailələrin heç birində yeməyə ərzaq olmamışdır. Arayışda göstərilirdi ki, Ermənistandan gələnlər əsasən uçuq daxmalarda yerləşdirilmişlər. Onlara ev tikmək üçün ayrılan tikinti materialları Horadiz stansiyasında yatıb qalır. Rayon rəhbərliyi, rayon İcraiyyə Komitəsinin sədri Əmirxanyan, rayon Partiya Komitəsinin katibi Baxşıyan köçürülənlərin şikayətlərinə etinasız yanaşır, onların həyat şəraitini ya xşılaşdırmaq üçün heç bir tədbir görmürlər.

Lakin bu yoxlamanın da heç bir xeyri olmur. Köçkünlər respublika hökumətinə müraciət etməyə məcbur olurlar.

## LƏMBƏLİLƏRİN GERİ QAYITMASI

1954-cü ilin aprelində Azərbaycan SSR kənd təsərrüfatı nazirinin müavini Möhsün Poladovun Ermənistan SSR-ə ezamiyyətdən sonra respublika Nazirlər Sovetinə yazdığı məlumatda bildirilir ki, 1949-cu ildə Ermənistan SSR Nazirlər Sovetinin sədri S.Karapetyanın qanunsuz göstərişi ilə Ləmbəli kəndindəki azərbaycanlılar yaşayan kolxoz ləğv olunaraq heç bir əsas olmadan kənddə subtropik bitkilər sovxozu yaradılır və oradakı 225 azərbaycanlı ailəsi zorla çıxarılır. 1949-cu il dekabrında Ləmbəlidən qovulmuş azərbaycanlılar Gürcüstan SSR-in azərbaycanlılar yaşayan kəndlərinə sığınırlar. Lakin burada da onlar gürcülərin "sürpriz" münasibəti ilə rastlaşırlar. Bir neçə gün sonra Gürcüstan SSR yerli hakimiyyət orqanlarının göstərişi ilə ləmbəlilər Gürcüstan ərazisindən çıxarılırlar. Onlar geriyə, öz kəndlərinə qayıtmağa cəhd edirlər S.Karapetyanın göstərişi ilə onlar Ləmbəliyə buraxılmayaraq, Basarkeçər rayonuna göndərilirlər.

Ləmbəlilərin evləri isə bura köçürülən erməni ailələri arasında paylanır. Həmin müddətdə Ləmbəlidəki azərbaycanlı qəbiristanlıqlarını da dağıdaraq, oranın daşlarından yeni binaların tikintisində istifadə edirlər. Məzarlıqları dağıtmaq erməni xalqının köhnə şakəridir. İşğal altında olan bütün Azərbaycan yaşayış məntəqələrində yüzlərlə qəristanlıqlar dağıdılıb məhv edilmişdir.

Ləmbəlilər Basarkeçərdən geri qayıdaraq Ermənistanla Gürcüstan sərhəddində, Ləmbəliyə yaxın bir yerdə özlərinə yeraltı qazmalarda yaşayırlar. 1954-cü ilin əvvəllərinə qədər onlar beləcə məşəqqətli ömür sürür, amma zorakılığa tabe olmurlar. Stalinin ölümündən sonra ləmbəlilər Moskvaya, SSRİ Nazirlər Sovetinin yeni sədri G.M.Malenkova dalbadal məktub, ərizə və teleqramlarla müraciət edərək zorla əllərindən alınmış evlərinin geri qaytarılmasını tələb edirlər. Ləmbəlilərin mübarizəsi qarşısında Ermənistan rəhbərləri və yerli hakimiyyət orqanlarının nümayəndələri güzəştə getməyə məcbur olurlar. Ləmbəlilərə sovxozun tikdirdiyi binalarda yaşamağı və sovxozda fəhlə işləməyi təklif edirlər. Ləmbəlilərsə bu təklifi qəti rədd edir və öz evlərini qaytarmağı tələb edirlər. SSRİ Nazirlər Sovetinin göstərişi ilə SSRİ Kənd Təsərrüfatı Nazirliyi Baş Köçürmə İdarəsi rəisinin müavini başda olmaqla xüsusi komissiya yerdə vəziyyətlə tanış olmaq üçün Ləmbəliyə gəlir. Ətraflı yoxlamadan sonra onların qaldırdıqları bütün məsələlər faktlarla təsdiqlənir. Komissiya ləmbəlilərin tələblərini haqlı sayır. Komissiya Ermənistan SSR rəhbərliyinin qanunsuzluqlara yol verməsi barədə Ermənistan KP MK-nın birinci katibi Tovmasyana məlumat verir. Fakt qarşısında qalan Tovmasyan və Ermənistan KP MK **“Ləmbəlidə evlərin keçmiş sahiblərinə qaytarılması və onların sovxozda işə qəbul edilməsi barədə”** qərar qəbul etməyə məcbur olur. Beləliklə dörd ildən yuxarı gərgin mübarizə nəticəsində ləmbəlilər qalib gəlirlər.

**Qeyd:** Kitabın bu bölməsində Prof. A.Paşayevin “Köçürülmə” kitabından geniş şəkildə istifadə edilmişdir.

# AZƏRBAYCAN DİLLİ TƏDRİS MÜƏSSİSƏLƏRİNİN DƏ KÖÇÜRÜLMƏSİ

Azərbaycanlıların bir hissəsinin köçürdükdən sonra ermənilər gələcək köçürülmələr üçün əvvəlcədən şəarit yaradır və təməllər atırdılar.

"Kür-Araz ovalığı rayonlarını işçi qüvvəsi ilə təmin etmək" bəhanəsi altında Yerevanda yaşayan azərbaycanlılarla bərabər Azərbaycan dilində olan pedaqoji məktəb və onun 200 tələbəsi də Xanlar rayonuna, Yerevan Pedaqoji İnstitutunun Azərbaycan bölməsi isə Bakıya köçürülüb Azərbaycan Dövlət Pedaqoji İnstitutuna birləşdirildi. Onlarda dərs deyən müəllimlər ya Xanlara, ya da Bakıya köçürüldü. Ermənistan SSR-dəki Azərbaycan dilli tədris müəssisələri ya bağlanır, ya da Azərbaycana köçürülürdülər.

**Araşdırma predmeti olan 1948-1953-cü illər deportasiyasının qurbanı olmuş və bərdə rayonunun imirli kəndində məskunlaşmaış şəxslərin əksəriyyətinin Şərur-Dərələyəz mahalından köçməsini nəzərə alaraq:**

## DƏRƏLƏYƏZ MAHALI ÜZRƏ KAMERAL SİYAHIYA ÜMUMİ İZAHATINI TƏQDİM EDİRİK:

### Mahalın yerləşdiyi yer və ərazisi

Dərələyəz mahalı Naxçıvan qəzasının şimal hissəsində yerləşməklə, şimalda İrəvan və Qarabağ qəzaları, şərqdə Qarabağ qəzası, cənubda Xok, Məvazixatun və Naxçıvan mahalları (***Məvazixatun mahalına Cəhri və ətrafındakı kəndlər aid idi-Nazir Əhmədli***), qərbdə İrəvan qəzası ilə həmsərhəddir. Dərələyəz mahalının şimaldan cənuba ən uzun məsafəsi, Martiros kəndindən Səlimin karvansarayına qədər təxminən 40 verst, şərqdən qərbə uzunluğu, yəni Gümüşxana kəndindən Çanaxçı kəndinə qədər olan məsafə 50 verstdir. Beləliklə, mahalın ümumi ərazisi təxminən 2 min kv. verst təşkil edir.

**Meşələri**

Mahalda çoxlu meşə var, aralarında düz oduncaqlılar da çoxdur. Bütün dərələr və çay sahilləri meşə ilə örtülsə də, təəssüf ki, onu quru yolla Naxçıvana daşımaq üçün yol yoxdur.

**Biçənək və örüş yerləri**

Biçənək və otlaqlar Dərələyəz mahalının ən böyük hissəsini tutur. Qarabağ qəzasının əhalisi də hər il yayda buraya 20 mindən artıq qoyun yaylağa gətirirlər.

**Çayları**

Şimal-şərqdən başlayıb cənub-qərb istiqamətində bütün Dərələyəz mahalından axan Arpa çayı Məmməd Rza Dizəsi kəndindən aşağıda İrəvan qəzasına daxil olur, burada Şərur mahalını qidalandırıb Ərəb Yengicə və Qarahəsənli kəndləri arasında Araza tökülür. Axarı boyu Arpa çayına bir çox çaylar da

tökülür ki, başlıcası bunlardır: a) Sağ sahildən Ələyəz və Dorani çaylarının da qarışdığı Kotanlı çayı və Qoytul çayı; b) Sol tərəfdən Köçbək çayı, Martiros çayı, Əyər çayı və Həmzə Əli Dizəsi çayı.

**Göllər**

Martiros kəndinin şimal-şərqində yerli bulaqların toplandığı iki balaca göl var. Martiros çayı mənbəyini bu göllərdən götürür.

**Mineral suları**

Bilək kəndinin yaxınlığında, Arpa çayın suvardığı gözəl vadidə, Sanyer deyilən yerdə bir neçə bulaq birləşib Qırxbulaq irmağını (***xırda çayını-Nazir Əhmədli***) əmələ gətirir. Arpa çayına tökülən yerdə isti və turş suyu olan bulaqlar var, temperaturu 25 dərəcədən yüksdir. Burada Şah Abbas zamanına aid edilən daş vanna var. Hazırda vannanın tavanı tökülüb. Baxmayaraq ki, bulaqların suyu indiyə qədər də tədqiq olunmayıb, yerli camaatın dəfələrlə apardığı təcrübələr sübut edir ki, bu su bir çox xəstəlikləri müalicə edir. Cəhridən və Gümüşxanadan keçərək Naxçıvan şəhərindən Qarabağa gedən karvan yolu ilə buraya gəlmək əlverişlidir.

Əyər kəndinin 4 verstliyində dəmir qarışığı olan mineral turş su var.

**Dağları**

Dərələyəz dağları Qarabağ dağlarına qovuşaraq tamlıq təşkil edir. Bu dağların baş silsiləsi şimal-şərqdən cənub-qərbə doğru uzanaraq Yaycı kəndindən aşağıda Arpa çayın sahillərində bitir. Başqa bir dağ silsiləsi Qarabağ sərhəddi ilə cənub-şərqdə başlayıb Naxçıvan mahalına daxil olur. Üçüncü dağ silsiləsi şimaldan cənuba doğru Məvazixatun mahalına qədər uzanır. Beləliklə, dağlar bütün Dərələyəz mahalını əhatə edir, axar sulara istiqamət verir və dərələr əmələ gətirir. Mahalın kəndlərinin çoxu həmin dərələrdə yerləşir.

**İqlimi**

Mahalı bütün istiqamətlərdə kəsən dağlar onun iqlimini yayda da sərin edir. Yalnız Qoytul çayın Arpa çayına töküldüyü yerin qərbində və Keşişkənd, Əyər və Həmzə Əli Dizə kəndlərinin ətrafında iqlim istidir. Lakin bütün dağlar və sıx çəmənlər buranı

sərinləşdirməklə heyvandarlıq üçün çox əlverişli edir. Bəzi zirvələrdə bütün yay qar qalır, bəzən hətta təzə qar da yağır. Bir dəfə iyul ayının sonlarında köçərilərin yanına getdiyim vaxt xeyli qalınlıqda qar yağdı. Buranın qışı vilayətin başqa mahallarından daha mülayim keçir, çünki dağlar mahalı bütün qış boyu şimaldan əsən sərt küləklərdən qoruyur.

**Məşğuliyyət**

a) Taxılçılıq: buğda, arpa, darı, paxla, noxud, mərci, tütün, kətan, çətənə, gənəgərçək, bostan bitkiləri, tərəvəz becərilir. Mahalın qərb hissəsində böyük çəltik və pambıq sahələri var.

b) Bağçılıq: Dərələyəz mahalında 122 günlük əkin sahəsi olan 144 üzüm bağı var, 45 xalvar üzüm verir **(*18 ton-Nazir Əhmədli*)**. 17 günlük əkin sahəsi olan 22 meyvə bağı 19. xalvar müxtəlif meyvə və 68 min qoz verir. Bundan başqa bir çox yerlərdə cır meyvə bağları var.

## Heyvanat aləmi

Heyvandarlıq

Cədvəl 1.

| | Türklərdə | Yerli Türklərdə | Gəlmə ermənilərdə | Cəmi |
|---|---|---|---|---|
| Kəl | 50 | 32 | 307 | 389 |
| Öküz | 3.721 | 146 | 1.343 | 5.210 |
| İnək | 3.437 | 109 | 961 | 4.507 |
| Buzov | 1.699 | 76 | 601 | 2.376 |
| Qoyun | 17.438 | 335 | 2.187 | 19.960 |
| Keçi | 7.496 | 403 | 2.010 | 9.909 |
| At | 997 | 72 | 400 | 1.469 |
| Eşşək | 288 | 10 | 114 | 412 |
| Qatır | 2 | 0 | 0 | 2 |
| Cəmi | 35.128 | 1.183 | 7.923 | 44.234 |

**b) Vəhşi heyvanlar**

Meşəli dərələrdə qarışqayeyən ayılar növündən olan xeyli ayı yaşayır və yerli əhaliyə heç bir ziyan vermir. Mahalın şimal-qərb hissəsində xeyli vəhşi donuz (qaban) yaşayır və bəzi hallarda əkin sahələrinə böyük ziyan verirlər.

**c) Arıçılıq**

Mahalda 153 arı ailəsi var.

**Faydalı qazıntılar**

Gümüşxana kəndinin yaxınlığında qurğuşun filizi var, əvvəllər emal olunub. Yerli adamların dediyinə görə, burada gümüş filizi də var.

Aynazur kəndinin yaxınlığında tərkibində silisium olan daşlar var və əhali ondan tüfəng üçün çaxmaqdaşı düzəldir.

**Müəssisələri**

Cəmi 182 dəyirman var, 52-i işlək, 130-u yararsız vəziyyətdədir.
Bəzirxana var, 2-i işlək, 2-i yararsız vəziyyətdədir.
2 boyaqxana, 2 uçuq karvansara var.

**Cədvəl 2 Xüsusi sənətlər**

| | Türklərdə | Ermənilərdə | Cəmi |
|---|---|---|---|
| Tacir | 0 | 1 | 1 |
| Çərçi | 0 | 3 | 3 |
| Səyyar satıcı | 0 | 1 | 1 |
| Boyaqçı | 0 | 5 | 5 |
| Toxucu | 3 | 303 | 306 |
| Dərzi | 0 | 3 | 3 |
| Keçəçi | 0 | 20 | 20 |
| Bərbər | 3 | 0 | 3 |
| Çilingər | 0 | 3 | 3 |
| Dülgər | 0 | 23 | 23 |
| Dəmirçi | 0 | 10 | 10 |
| Dəyirmançı | 0 | 4 | 4 |
| Serebryak | 0 | 11 | 11 |
| Pinəçi | 0 | 1 | 1 |
| Ayaqqabı tikən | 0 | 4 | 4 |
| Xarrat | 1 | 0 | 1 |
| Tənəkəçi | 0 | 1 | 1 |
| Nalbənd | 0 | 1 | 1 |
| musiqiçi | 0 | 4 | 4 |

**Dövlət (xəzinə) əmlakı**

İran hökumətinin son dövrlərində Dərələyəz mahalı bütün kəndləri ilə birlikdə qaçaq gürcü şahzadəsi Aleksandra (***İsgəndərə- Nazir Əhmədli)*** titul kimi verilmişdi. O isə mahalın bütün gəlirindən istifadə edərək yanındakı sultanlara göstərdikləri xidmətin əvəzində bəzi kəndlərin gəlirindən cüzi pay vermişdir. Burada rus idarəçiliyinin qurulduğu birinci ildə bir çox kəndlər sultanların

əlində qalmış və onlar həmin gəlirlərdən əvvəlki kimi istifadə etmişlər. Nəticədə Dərələyəz mahalının digər sakinləri və polkovnik Ehsan xanın yaxın adamları görəndə ki onlar zəbt etdikləri dövlət torpaqlarından arxayınlıqla istifadə edirlər, hərəkətə keçib həmin yolla onlar da ərazilər zəbt etmişlər. Bundan 100 və daha çox il Əvvəl Dərələyəzdə yaşamış adamların adına olan möhürləri basaraq saxta sənədlər düzəltmişlər. Asan yolla mülk əldə etmək fürsətini heç vaxt əldən qaçırmayan ermənilər bu yolla həmin kəndləri ələ keçirənlərdən həmin kəndləri cüzi qiymətlə satın almışlar. Beləliklə, Dərələyəz mahalında mülkədarlar əmələ gəlmişdir. Naxçıvan naibi polkovnik Ehsan xan bunu görə-görə nəinki mane olmamış, hətta belə halların bir qismindən öz xeyri üçün yararlanmış, bəzi hallarda isə Naxçıvan qəzasının başqa yerlərində ən məhsuldar suvarılan torpaqları ələ keçirtməsini açıb-ağartmasınlar deyə onlara göz yummuşdur.

**Vergilər**

İran hökumətinin vaxtında pul şəklində Dərələyəz mahalından 2 min tümən vergi alınırdı. Axura, Yaycı, Həmzə Əli Dizə, Aşağı və Yuxarı Danzik, Xaçik, Arpa və Aynazur kəndləri 42,25 xalvar **(17 ton-** ***Nazir Əhmədli*****)** taxıl verirdi. Həmin vergi indiki əkinlərlə müqayisədə cüzi olub. Lakin çox güman ki, Dərələyəz mahalı şahzadə Aleksandra əlavə pul da verib.

Arpa çayın sahilindəki indiki çəltik və pambıq tarlaları (Qoytul kəndindən başlayaraq ondan aşağıdakı Həmzə Əli Dizəsinə qədər ərazi) əvvəlkindən 3 dəfə artıq vergi verə bilər.

**Yollar**

Dərələyəz mahalındakı əsas karvan yolu olan Naxçıvandan Qarabağa gedən yol Məvazixatun mahalından keçərək üzüyuxarı istiqamətdə dağılmış Quşibilək kəndinə qədər gedir. Digər yol Məvazixatun mahalından sola dönərək Keşişkəndə, sonra Səlim karvansarayından keçərək Göyçə mahalına gedir, oradan Dilican dərəsinə dönür. Bundan başqa, müxtəlif kənd yolları bu mahalı müxtəlif istiqamətlərdə kəsir. Lakin qış vaxtlarında bu yolların əksəriyyəti keçilməz olur.

**Qədim abidələr**

Mahal qədim abidələrin xarabalıqları ilə doludur, amma salamat qalanlar Naxçıvan qəzasının başqa yerlərinə görə daha çoxdur. Salamat qalan binalardan diqqət çəkənlər çöl daşından örtüyü də olan Səlimin karvansarayı, Ələyəz kəndi yaxınlığındakı 2 monastr, Martiros yaxınlığında bütöv qayada oyulmuş kilsə, Ərdəpin və Ələyəz kəndləri arasında bir neçə əsr bundan əvvəl yüksək təpə üzərində tikilmiş və kifayət qədər salamat olan qaladır.

**Faydalı təkliflər**

1. Dərələyəz mahalının qərb hissəsi İrandan köçürülən ermənilərlə, şərq hissəsi isə Qarabağdan gələn müsəlmanlarla məskunlaşdırılıb. Bu iki xalq heç cür yanaşı yaşaya bilmir, çünki tez-tez heyvan və at oğurluğu olur. Ona görə də mahalın orta hissəsi və bol sulu gözəl Gülüdüz düzənliyi boş qalıb. Hazırda ermənilər və müsəlmanların içərisində xüsusi seçilmiş başçılar var, lakin birbaşa rəhbərlik yoxdur. Çünki Dərələyəzin hazırkı Mirbölüyü, polkovnik Ehsan xanın qardaşı Mehdi ağa yalnız Mirbölük adını daşıyır. Ona görə də çox yaxşı olardı ki, Dərələyəz mahalında rus məmurlardan ayrıca pristav olsun. Çünki Naxçıvan polis idarəsinin uzaqlığı və nəqliyyat çətinliyi (xüsusən qış vaxtı) burada asayişin qorunmasına ciddi nəzarət etməyə kifayət etmir. Əgər ehtimal edilən məmur yaşayış yeri kimi isti mineral suyun olduğu massivi seçsə, nəinki ətrafdakı xaraba kəndlər, eləcə də geniş Gülüdüz düzənliyi əhali ilə dolar. Həm də hər il mineral suya gələnlər olar. Hazırda isə bu su tamam istifadəsiz qalmışdır, çünki ətrafdakı 40 verstlik ərazidə demək olar ki, heç kim yaşamır.

2.Naxçıvan qəzasının cənub hissəsi meşə örtüyündən tamamilə məhrumdur və onun çatışmaması Naxçıvan şəhərində ciddi şəkildə hiss olunur. Halbuki, Dərələyəz mahalındakı bol meşələr istifadəsiz qalmışdır. Ona görə də, daşqınlar vaxtı Arpa çayın suyunun ən çoxaldığı zaman meşə materiallarının bu çayla axıdılmasını sınamaq çox faydalı olar. Meşənin bol olduğu Hors kəndində onu tədarük edib Qoytul kəndindən başlayaraq Arpa çayı ilə üzüaşağı axıdıb Araz çayı ilə Abbasabad qalasına aparmaq olar.

**Quberniya katibi Vladimir Zolotnitski**
(1831-ci və 1842-ci illər)
**DƏRƏLƏYƏZ MAHALININ ƏHALİSİ. 1831-ci il.**
**ƏHALİ**
**Müsəlmanlar**
1001 ailə, 2.411 kişi, 2.172 qadın, cəmi 4.583 nəfər
**Yerli ermənilər**
58 ailə, 141 kişi, 147 qadın, cəmi 288 nəfər
**İrandan köçürülən ermənilər**
507 ailə, 1.453 kişi, 1.293 qadın, cəmi 2.746 nəfər
**Türkiyədən köçürülən ermənilər**
8 ailə, 17 kişi, 10 qadın, cəmi 27 nəfər.
**Bütün Dərələyəzin əhalisi**
1.574 ailə, 4.075 kişi, 3661 qadın, cəmi 7736 nəfər.

# DƏRƏLƏYƏZ MAHALININ KAMERAL SİYAHIYA ALINMASI TARİXİ MƏNBƏ KİMİ

Tədqiqatçı alim Nazir Əhmədli “Dərələyəz mahalının kameral təsviri” adlı kitabı fundamental tarixi əhəmiyyət daşıyan əsər olmaqla bərabər həm də müstəsna əhəmiyyətli bir mənbədir. Kitabda “Dərələyəz” toponiminin etimologiyası ilə bağlı maraqlı fikirlər yer almışdır. Kitabda qədim oğuz türk yurdu olan Qərbi Azərbaycanın tarixin qədim dövrlərdən kameral təsvirin araşdırma predmeti olan XIX əsrin birinci və ikinci yarısına qədərki dövrlərini tarixi və etnosiyasi konteksdə dəyərləndirilmişdir. Qərbi Azərbaycan toponimləri ilə bağlı fransız mənşəli rus alimi, İvan İvanoviç Şopenin irəli sürdüyü konsepsiyaya üstünlük verməsi müqayisəli-tarixi təhlil metodologiyası və digər elmi nəzəri aspektlərdən düzgün əsaslandırılmışdır.

“Dərələyəz” adına inzibati-ərazi vahidi kimi ilk dəfə “Şərəfnamə” əsərində rast gəlinməsi və tarixi ilə bağlı tarixi mənbələrdən örnəklərin verilməsi əsərin elmi dəyərini bir daha artırmış olur.

N.Əhmədli mövzuya aid “Naxçıvan sancağının müfəssəl dəftəri” və “İrəvan əyalətinin icmal dəftəri” adı müxtəlif vaxtlarda çap olunmuş mənbələrdən irəli sürülmüş elmi fikirləri əsaslandırılmasında istifadə edir. Dərələyəzin etno-siyasi mənzərəsinin dərində öyrənilməsi baxımından sözügedən tədqiqat əsəri çox mühüm mənbə rolu oynayır. Müəllif ön sözdə Dərələyəz mahalında yaşayan ayrı-ayrı tayfaların etnik mənşəyi ilə bağlı maraqlı fikirlər irəli sürür. Bu mənada Dərləyəz mahalında böyük kütləyə malik olan Qaraçorlu tayfasının etnik mənşəyinin araşdırılması ilə bağlı müxtəlif tarixi mənbələrə istinadən onların məhz türk mənşəli olmasına dair əsaslı fikirləri dərin elmi məzmun kəsb edir.

Müəllif fikrini əsaslandırmaq üçün Qarabağ ərazisində məskunlaşmış Qaraçorlu tayfasının Nadir Şah Əfşar dönəminə qədər yarımmüstəqil həyat tərzi sürməsi vurğulayaraq, tarixi mənbələrdə Qaraçorlularla Osmanlı dönəmində hətta müstəqil subyekt kimi

ayrıca saziş bağlanması məlumatları da tarixi konteksdə maraq doğurur. Nadir Şah Əfşara sui-qəsdən sonra Qarabağ xanına tabelik göstərməkdən boyun qaçıran bu tayfaların bir hissəsinin bu səbəbdən Dərələyəz mahalına köçməsinə səbəb olmasını vurğulayır.

Dərələyəz mahalının kameral siyahısının hazırlanması məsələsinə aydınlıq gətirən N.Əhmədli Türkmənçay müqaviləsindən sonra işğalçı rus ordusunun komandanı general İ.F.Paskeviçin xahişi ilə fransız əsilli rus tarixçisi Rusiya tərəfindən işğal edilmiş Naxçıvan və İrəvan xanlığının yerində yaradılmış erməni vilayətində tədqiqat aparılması və əhalinin etnoqrafiyasını sosial-iqdisadi vəziyyətini araşdırilması tapşırığı çərçivəsində hazırlanan kameral təsvirin bir nüsxəsi Ermənistan Milli Arxivində saxlanılmaqdadır. Müəllif əsərdə İ.Şopenin tarixi fikirlərini vasitəsiz nitq kimi oxucuya təqdim etməklə onu düşünməyə məcbur edir. İ.Şopen: **"Erməni vilayətinin Rusiya İmperiyasına birləşdirildiyi dövrün vəziyyətini təsvir edən bu kitab bir sıra invertarları özündə cəmləşdirib. Bu kitabın köməyi ilə gələcəkdə daimi müqayisə edib deyəcəklər nəyimiz var imiş, indi nəyimiz var. Qoy bu vilayətin sakinləri bu kitabı əllərində tutduqları vaxt daimi öz keçmişlərini yaşadıqları dövrlə müqayisə etsinlər"**

Dərələyəzin kameral təsvir məzmununa görə İ.Şopenin yuxarıdakı fikirlərini tam təsdiq etməklə əhalinin say tərkibi, etnik-dini mənsubiyyəti, yerli sakin olub-olmamsı, orta ömür həddi, yerli idarəçilər, ailə və nigah münasibətləri konteksində çox zəngin araşdırma materialları təqdim edir. Maraqlı araşdırma predmeti olan bu əsər mötəbər ilkin mənbə rolu oynayır.

Əsər saxta erməni tarixşünaslığının ermənilərin Qərbi Azərbaycan ərazisində yerli əhali olması ilə bağlı əsassız fikirlərini darmadağın edir. Kameral siyahıya almaının tarixi əhəmiyyətini qeyd etməklə bərabər milli səviyyədə də nəsillərin tarixinə işıq salmaqla "milli aristokratiyanı" da günəş işığına çıxarır. Özlərinə bəyli, xanlı təxəllüs götürən şəxslər öz soy-kökləri ilə tanış olmaq

və cəmiyyətə təqdim olunmaq həqiqəti ilə üz-üzə qalırlar. N.Əhmədlinin Azərbaycanın böyük coğrafiyasını əhatə edən (Qazax, İrəvan, Dərələyəz, Göyçə, Şəmşədin, Vedibasar, Şərur) kameral təsvirləri çox mühüm tarixi mənbədir. Bu tədqiqat əsərləri Qərbi Azərbaycanın tarixi türk torpağı olmasını təsdiq edir. Özlərini dünyada mədəniyyət oğrusu kimi tanıdan, saxta tarixşünaslıq yaradan erməni "tarixçilər" bu mənbəni təkzib etmək iqtidarında deyillər. Dəyərli ziyalımız, milli vətənpərvər Nazir Əhmədli bu əsəri ilə Azərbaycan tarixi qarşısında mühüm bir vəzifəni yerinə yetirmişdir. Qərbi Azərbaycan tarixini tədqiq edən hər bir şəxsin bu mənbədən yararlanması zəruridir. 1948-1953-ci illlər deportasiyasının əsas kütləsinin böyük bir hissəsini təşkil edən Dərələyəz mahalının Çivə, Sallı, Qozulca kəndlərinin tarixi əhalisinin etnik, milli tərkibi və s. məziyyətlərinin öyrənilməsində əvəzsiz mənbə olan Kameral siyahıdan bu kitabda geniş istifadə edilməklə tarixi həqiqətlərə aydınlıq gətirilmişdir.

## DƏRƏLƏYƏZ MAHALI, ÇİVƏ KƏNDİ

**Çivə -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 20 km qərbdə, Arpaçayın sağ qolu olan Yelpin çayının hər iki sahilində, dəniz səviyyəsindən 1250 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 57), Qafqazın 5 verstlik xəritəsində (348, s. 284) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 29, 1873-cü ildə 294, 1886-cı ildə 431, 1897-ci ildə 689, 1904-cü ildə 562, 1914-cü ildə 612, 1916-cı ildə 758, 1919-cu ildə 1200 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92-93, 162-163). 1919-cu ilin axırlarında kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, əhalisi - azərbaycanlılar deportasiya olunmuşdur. Kənd sakinlərindən sağ qalanlar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra ata-baba yurdlarına dönə bilmişlər. Burada 1922-ci ildə 391 azərbaycanlı, 1926-cı ildə 367 azərbaycanlı, 94 erməni, 1931-ci ildə 367 nəfər azərbaycanlı, 221 erməni yaşamışdır (415, s. 92-93, 162-163). Ermənilər burada kütləvi şəkildə 1926-cı ildən məskunlaşıblar. SSRİ hökumətinin qərarı ilə 1948-1950-ci illərdə bu kəndin əhalisi də zorla Azərbaycana köçürülmüşdür. 1953-cü ildən sonra onların bir hissəsi yenidən kəndə qayıtsa da, 1988-ci ilin noyabr ayında kənddə yaşayan azərbaycanlılar Ermənistan dövləti tərəfindən deportasiya edilmişdir (211, s. 203). Hazırda burada yalnız ermənilər yaşayır. Toponim yivə türk tayfa adının (399, I, s. 56) fonetik forması olan "çivə" etnonimi əsasında yaranmışdır. Türk dillərində y~ç paralelləri geniş şəkildə özünü göstərir (70, s. 529; 87, s. 170). "Yarğan", "hündür qaya", "dik sahil" mənalarında işlənən "yar", "çar" sözlərindəki (339, s. 607, 650) y~ç səs- əvəzlənməsi buna aydın misaldır. Hazırda erməni dilində rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Çiva" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s.

164). Coğrafi koordinatları: 39°46' şm. e., 45°08' ş. u.

Qərbi Azərbaycanın digər əksər kəndləri kimi Çivə kəndinin əhalisi də 1949-1953-ci illərdə deportasiya məruz qaldılar.

"Çivə" kəndinin adı qədim türk tayfalarından birinin adından götürülmüşdür. XI əsrin böyük türkoloqu Mahmud Kaşğari özünün məşhur "Divani-lüğət-it-türk" əsərində oğuzların 24 tayfası içərisində "Yivə" etnoniminin də adını çəkir.[1]

Akademik A.S.Sumbatzadə yazır ki, Azərbaycan toponimiyasında oğuz tayfalarından indiyədək qorunub saxlanılanlarından biri də "Yivə" tayfasıdır.[2] Akademik Budaq Budaqov yazır ki, Ermənistanda bu tayfa Cuva kəndi adında qalmışdır.[3] Başqa bir mənbədə isə "Çivə" adının "Çuvya" forması ilə paralel işləndiyi göstərilir.[4]

Şərur-Dərələyəz qəzasına daxil olan və Dərələyəzin Keşkənd (Yeğeqnadzor) rayonunda yerləşən Çivə kəndi çox qədim kəndlərdən biridir və burada son dövrlərə qədər həmişə azərbaycanlılar yaşamışdır. 1590-cı və 1727-ci ilə aid tarixi mənbələrdə göstərilir ki, həmin illərdə Çivə kəndinin 4,349 ağça gəliri olmuşdur.[5]

Bizim apardığımız araşdırmalar göstərir ki, "Çive" toponimi "Yivə" tayfasının adıdır və bunlar, əsasən, paralel şəkildə işlənmişdir. Burada sadəcə olaraq "y" səsi "ç" səsinə keçmişdir ki, belə səs dəyişmələri (y-ç dəyişməsi) türk dillərində qanunauyğun bir haldır. Məs., geyim-keçim. Türkoloq F.Cəlilov göstərir ki, y-ç paralelliyi (y-ç) türk dillərində geniş şəkildə yayılmışdır.[6]

Roza Eyvazova isə bir qədər də irəli gedərək türk dillərində c-y-ç paralelliyi haqqında məlumat verir və göstərir ki, Əfqanıstan

---

[1] Mahmud Kaşğari. "Divani-lüğət-it-türk". Ankara, 1939.

[2] А.С.Сумбатзаде. Азербайджанцы-этногенез и формирование народов. Баку, 1990, с.148

[3] B.Budaqov. Türk uluslarının yer yaddaşı. Bakı, 1994, səh.184.

[4] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, s.367.

[5] Z.Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996, səh.57. Z.Bünyadov və H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.271-272.

[6] F.Cəlilov. Azərbaycan dilinin morfonologiyası. Bakı, 1988, s.52.

ərazisində Car coğrafi adına Yar-Çar formasında da təsadüf olunur.[7]

Bu etnotoponimin arealına gəldikdə qeyd etmək lazımdır ki, "Yivə" etnonimi Türkiyədə də vardır.[8]

Çivə kəndində qalan bir neçə azərbaycanlı ailəsi isə (Abbasov Eldar Abbas oğlunun, Camalova Zeynəb İsmayıl qızının, Hüseynov Nemət Əli oğlunun, Cəfərov Məcid Məmməd oğlunun ailələri) 1988-ci ildə zorla ermənilər tərəfindən kənddən çıxarıldı.

**Sahə, örüş, kövşən adları**

1.Kötüklü
2. Ağı
3. Zərdə dərə
4. Pəyə dərə
5. Baş yol
6. Qara ponça
7. Kol içi
8. Qozulca dağının yolu
9. Dal ağ yarğan
10. Bəy torpağı
11. Arpa çayının qırağı
12. Sarı yeri
13. Sarılıx
14. Əynəzir yolu
15. Qayanın dibi
16. Hörük yeri
17. Sultanın yeri
18. Ağ daş
19. Qumluq
20. Tülkü dəlləyi
21. Ködüklü

**Dərə, arxac adları**

---

[7] Bax: Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, 1995, s.170

[8] B.Budaqov. Türk uluslarının yer yaddaşı. Bakı, 1994, səh 180, 184, 196, 197.

1. Zərdə dərə
2. Pəyə dərə
3. Baş dağın döşü
4. Civə dərəsi
5. Şorru dərə
6. Uçuğun başı (arxac)
7. Ağıl
8. Məmi arxacı
9. Qırmızı qaya
10. Göyğalı

**Qaya, çınqıl, gab adları eşin suyu**

1. Qırmızı qaya
2. Sal qaya
3. Göy kab (qaya keçidi)
4. Baş dağın çölü
5. Baş dağın döşü
6. Çınqıllıq

**Yol və cığır adları**

1. Heşin yolu
2. Qozulca yolu
3. İrind yolu
4. Arpa kənd yolu
5. İrəvan yolu
6. Danzik yolu
7. Ardaraz yolu
8. Günnüt yolu
9. Zərdə dərə və Pəyə dərə yolu
10. Qırmızıdərə yolu
11. Ovçu yolu

**Biçənək adları**
1. Qara parça
2. Çivə bəyinin yoncalığı
3.Kol içi yoncalığı (Çivə ilə Arpanın arasında)
4. Ağ yer
5.Ağ yer yoncalığı
6. Yoncalıq
7. Ağyerlər biçənəyi

**Yurd, ağıl adları**
1. Didivan yurdu
2. Çivə bəylərinin yaylağı
3. Çivə yurdu
4. At ağılı

**Çay, bulaq, göl, kəhriz, arx adları**
1. Çivə çayı
2. Daş bulaq
3. Qara parça bulağı .
4. Mələyoğlu bulağı
5. Soyux bulaq
6. Kol içi bulağı
7. Heşin yolu bulağı //Heşin suyu
8. Qozulca yolu bulağı
9. Baş kəhriz
10. Aşağı kəhriz
11. Kora bulaq
12. Göy bulaq
13.Məcidli bulaq
14. Həsən kişinin bulağı
15. Yuxarı kəhriz
16. Quzey arx
17. Ağ yarğan arxi

**Məscid adları**

1. Aşağı məscid
2. Yuxarı məscid

**Abidə, kənd adları**

1. Xaraba kənd
2. Köhnə kənd

**Yal, dağ, aşırım adları**

1.Baş dağ
2. Qozulca dağı
3. Heşin yalı
4. Dində yalı
5. Əyricə dağı
6. Didivan dağı

**Çivə kəndindən (1941-1945-ci il) İkinci Dünya müharibəsində iştirak edənlər;**

Seyidəliyev İsa Həsən oğlu, Tənifəyev Məhəmməd, Nurəliyev Bilal İsa oğlu, Fərzəliyev Bilal, Tağıyev Hüseyn Məhəmməd oğlu, Tağıyev İbrahim Məhəmməd oğlu, Cəfərov Bəşir Musa oğlu

Fərzəliyev Məhəmmədəli, Məmmədov Rza Əsgər oğlu, Hüseynov İbrahim İsmayıl oğlu, İmamquliyev Hüseyn, Nurəliyev Qasım (bu şəxslər müharibədə həlak olublar)

Cəlalov İbrahim Cəlil oğlu, Vəkilov Mahmud Yusif oğlu, Piralıyev Həsən Hüseyn oğlu, Məmmədov Hüseyn Əsgər oğlu, Məmmədov Süleyman Əsgər oğlu, Məmmədov Abdulla Əsgər oğlu, Məmmədov Hüseyn Kəlba Məhəmməd oğlu, Sadıqov Hüseyn, Quliyev Məhəmmədəli, Vəliyev Məhəmməd Bəhlul oğlu

Hüseynov Məmiş Kəlbə İsmayıl oğlu, İbrahimov Əli Həsən oğlu, Qənbərov Əhməd Kəblə Məhəmməd oğlu, Pirəliyev Fəzil Hüseyn oğlu, Qənbərov Məhəmmədtağı, Məhəmməd Mələk oğlu, Məmmədov Lətif Ələkbər oğlu Fərzəliyev Məcid (bu şəxslər

müharibədən sonra vətənə qayıdıblar)

**Qeyd:** Professor Həsən Mirzəyevin "Qərbi Azərbaycan Dərələyəz mahalı" adlı kitabından götürülən bu məlumatları topladığı informatorların da adını olduğu kimi veririk.

**İnformatorlar:** Çivə kəndində doğulub boya-başa çatan, bura yaxşı bələd olan aşağıdakı şəxslər vermişlər: Məhəmməd Əli Həsən oğlu, Abbasov Əhməd Hacı Abbas oğlu, İbrahimov Tofiq Həsən oğlu, Ələkbərov Nazim Vəli oğlu

**Kameral siyahıya almaya əsasən Yuxarı Danzik kəndindən Çivə kəndinə köçən ailələr. (Dərələyəz mahalının kameral təsviri 1831 Yuxarı Danzik kəndi (səh. 61)** Əlizaman Səfi oğlu 50 y; arvadı Zeynəb 30 y; oğlu Hüseyn 15 y; 2 qızı var: Bəyixan 7 y; Qızxanım 4 y. Əlihüseyn Hüseyn oğlu 30 y; arvadı Zöhrə 25 y; oğlu Məmmədbağır 3 y(ölüb).

**Aşaği Danzik kəndindən çivə kəndinə köçən ailə** Həsən Rəsul oğlu 30 y; arvadı Fatma 28 y; qızı Zöhrəbanu 1 y.

## ÇİVƏ KƏNDİ, 1831-Cİ İL
## KAMERAL SİYAHIYA ALINMASI

Kəndxuda Məmmədhüseyn İmamqulu oğlu 40 y; arvadı Zöhrə 30 y; oğlu Ələkbər 5 y; qızı Fatmanisə 4 y. 2.İmamqulu Mərdan oğlu 55 y(ölüb); arvadı Durbibi 35 y; Məcnun Mərdan oğlu 80 (ölüb); arvadı Zöhrə 40 y; oğlu Məhəmməd 25 y.(ölüb). 2 qızı var: Hürü 17 y; Şərəbanu 12 y. Hümbətalı Mövlamverdi oğlu 37 y; arvadı Səkinə 37 y; oğlu Şıxəli 17 y; qızı Zeynəb 2 y. Hüseyn Məhəmməd oğlu 50 y. (ölüb). Arvadı Xədicə 40 y; oğlu Həsən 15 y. (ölüb); qızı Səkinə 6 y.

İmamqulu Əlihətəm oğlu 40 y, arvadı Fatma 25 y; oğlu Həsən 7 y. 7. Sadıq Məhəmməd oğlu 35 y (ölüb); arvadı Səkinə 20 y; qızı

Zeynəb 5 y. Şahgəldi Qasım oğlu 25 y (ölüb). Məmmədrza Hüseyn oğlu 40 y(ölüb); arvadı Xədicəbanu 30 y; oğlu Rza 10 y. (Qarabağa köçüblər, hansı kəndə getdikləri məlum deyil).

## YAYCI KƏNDİ, 1842-Cİ İL
## KAMERAL SİYAHIYA ALINMASI

**1857-ci ildə Çivə kəndinə köçən ailələrin siyahısı.**
İmamverdi Allahverdi oğlu 38 y; oğlanları: Allahverdi 14 y; Əhməd 10 y Ələkbər Mürşüdqulu oğlu 25 y. Darbaz Kərbəlayi Pirəli oğlu 45 y; oğlanları: Şahbaz 15 y; Qasım 11 y. Nəcəf Kərbəlayi Pirəli oğlu 36 y. Sərdar Süleyman oğlu 37 y. Məhəmməd Lütvəli oğlu 22 y; Mərdəli Əti oğlu 50 y; oğlu Məhəmməd 12 y. Məşədi Alməmməd Pirməmməd oğlu 47 y; oğlanları: Şirməmməd 12 y; Şıxməmməd 6 y. Qələndər İsgəndər oğlu 20 y.

## ÇİVƏ KƏNDİ, 1842-Cİ İL
## KAMERAL SİYAHIYA ALINMASI

Əhalisi şiə olmaqla oturaq həyat tərzi sürürlər. Kənd Naxçıvan sakini Həsənalı Sultana məxsusdur, taxılın 30-dan 4 hissəsi ona çatır.

25 ailədən 6-sı dövlət torpaqları olan Qozluca kəndinə köçməyə razılıq verdi.

Qəza mərkəzinə 78, nahiyə mərkəzinə 12 verstdir, karvan yolları rahatdır. Naxçıvan və İrəvan şəhərlərinə gedən yollar əlverişlidir.

Əkinçiliklə məşğul olurlar, kasıb dolanırlar. Torpaqları daşlı-gillidir, amma taxılçılığa yararlıdır.

Meşəsi yoxdur, Hors meşəsindən istifadə edirlər. Torpaqları 14 verstdir, onun 100 xalvarı əkinə yararlıdır, amma 10 xalvarına su çatır. Əkin yerlərinin ətrafında və kəndə yaxın yerlərdə xeyli biçənəklər var.

Buğda, arpa, darı, pambıq, bağ və bostan bitkiləri əkirlər.

Kənddə 3 yararsız və gündə 15 batman dən üyüdən 1 işlək dəyirman, 20 öküz, 27inək, 87 qoyun, 48 keçi var, at yoxdur.

**Tatarlar:**

1.Məmmədhüseyn İmamqulu oğlu 50 y; oğlanları: Ələkbər 15 y; Məmməd 8 y.

**1857-ci ildə Ağkilsə kəndinə aid ediliblər.**

2. Məmmədalı Macalı oğlu 35 y; oğlu Abbasqulu 6 y.

3. Hümbətalı Mövlamverdi oğlu 47 y; oğlanları: Şıxəli 26 y; Pirəli 8 y.

4. İmamqulu Əlihətəm oğlu 52 y; oğlanları: Həsən 19 y; Hüseyn 5 y.

3 erməni ailəsinin siyahısı.

**1 il əvvəl Yuxarı Danzik kəndindən gələnlər:**

1.Əlihüseyn Hüseyn oğlu 45 y; oğlu Tağı 8 y.

2. Hüseyn Cəfər oğlu 30 y.

3. Həsən Rəsul oğlu 42 y; oğlu Həsənalı 5 y.

**3 il əvvəl Qozluca kəndindən gələnlər: kürdlərin Zilan calari -mıqıranlı tayfası**

4. Yüzbaşı Abdal oğlu 52 y; oğlanları: Məho 27 y; Maqso 22 y; Heydo 20 y; Raşo və Həsən 14 y (əkizdirlər).

**7 il əvvəl Qarabağın Kəlbəcər kəndindən gələnlər:**

5.Cəfər İmam oğlu 40 y; oğlanları: Rəhim 8 y; İsmayıl 4 y; İbrahim 2 y.

**1857-ci ildə Ağkilsə kəndinə aid ediliblər.**

6.Mehdi Həsənalı Sultan oğlu 2 y (anasının himayəsindədir).

7. Fərzalı Bünyad oğlu 45 y.

**Yaddan çıxan tatarlar:**

1.Vəliməmməd Əliqulu oğlu 28 y; oğlanları: Hüseynalı 3 y; Həsənalı 1 y.

**1857-ci ildən Ağkilsə kəndinə aid ediliblər.**

2. Hüseyn Məmi oğlu 30 y; oğlu Məmməd 2 y; qardaşı Ağaməd 9 y; Şahməmməd 5 y.

3.Hüseyn Məmmədhüseyn oğlu 25 y; qardaşları: Məmməd 10 y; Qurban 7 y.

4. Zal Həsənxan oğlu 30 y; oğlu Əli 2 y.

5. Qasımhəsən Qasım oğlu 8 y(ölüb).

6. Əlverdi Macum oğlu 16 y; qardaşı Tarverdi 5 y.

7. Kəndxuda Rüstəm Həsənxan oğlu 40 y; oğlu Çaharqulu 5 y; qardaşı Tarverdi 20 y

**İmzalar**: Kəndxuda Rüstəm Həsənxan oğlu; Əlihüseyn Hüseyn oğlu; Hüseyn Məmi oğlu

**Yaycı kəndindən Çivə kəndinə köçənlər.**

Bünyadəli Orucməmməd oğlu 30 y. Şıxəli İxlas oğlu 25 y.

İbrahim Hətəm oğlu 20 y. Baba İbrahim oğlu 45 y.

Ələsgər İbrahim oğlu 25 y. Mahir Haxverdi oğlu 45 y; oğlu Xudaverdi 4 y. Qədiməli Haxverdi oğlu 35 y. Məhəmməd İmamqulu oğlu 20 y. Abbas İsmayıl oğlu 20 y. İsmayıl Əli oğlu 46 y; oğlanları: Fərzalı 8 y; İmirzalı 5 y. Şirməmməd Əhməd oğlu (anasının himayəsindədir) 12 y. Hüseynalı Məmmədqulu oğlu 15 y. Həsən Məmmədvəli oğlu 27 y.

# ÇİVƏ KƏNDİNDƏN ÇIXAN GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR

## Şərur-Dərləyəz qəzasının naibi Hüseynəli Sultan Vəkilov

Çivə kəndinin tarixi və görkəmli şəxsiyyətləri barədə danışarkən tarixi sənədlərdə Çivə kəndinin sahibi kimi adıkeçən vəkilovlar nəsilinin Naxçıvanda yaşayan məhək daşı Hüseynalı Sultan Dostəli Sultan oğlunun barəsində danışılması zəruridir. Hüseynalı Sultan Dostəli Sultan oğlu Naxçıvan xanlığının Şərur-Dərələyəz qəzasının Naibi olmuşdur. Yəni Naxçıvan xanından sonra qəzanın idarəçiliyi ona məxsus idi. Sonradan isə Çivə kəndinin idarəçiliyi Hüseynalı Sultanın oğlu Həsənalı Sultana keçmişdir. Bu ailə Azərbaycan tarixində müstəsna xidmətləri olan vəkilovlar nəslinə mənsubdur.

## Həsənalı Sultan Hüseynalı Sultan oğlu Vəkilov

Həsənalı Sultan Vəkilovun mənsub olduğu vəkilovlar nəsli əsasən Qazax sultanlığı və İrəvan xanlığı Şərur-Dərələyəz qəzası ərazisində məskunlaşmışlar. Vəkilovlar nəsli Azərbaycan xalqının tarixinə Azərbaycanın ilk xalq şairi Səməd Vurğun, xalq şairi Vaqif Səmədoğlu, xalq yazıçısı Yusif Səmədoğlu, xalq qəhrəmanı Balo bəy Vəkilov, görkəmli dövlət xadimi Mehdixan Vəkilov, Azərbaycanın Təbriz şəhərindəki konsulluğun qurucusu, ilk baş konsul, diplomat Cavanşir Vəkilov, Cümhuriyyət Parlamentinin üzvü, 23 yaşında isə daxili işlər naziri işləmiş Mustafa bəy Nadir bəy oğlu Vəkilov, İstiqlal bəyannaməsinin mətninin müəllifi, Cümhuriyyət Parlamentinin ən gənc deputatı Rəhim bəy Vəkilov, Azərbaycanın ilk həkimi Məmmədrza ağa Vəkilov, Azərbaycanın ilk və yeganə topoqrafiya generalı, Azərbaycanın siyasi xəritəsinin müəllifi İbrahim ağa Vəkilov, SSRİ Qaz Sənayesi nazirinin müavini Telman Vəkilov, professor Vaqif Vəkilov, vergilər naziri olmuş Şöhrət Vəkilov, əməkdar mühəndis Ramiz Vəkilov, səhiyyə naziri Fəxri Vəkilov, tədarük naziri Qəzənfər Vəkilov, görkəmli iqtisadçı İbrahim Xəlil oğlu Vəkilov (Məmmədov), dünya şöhrətli

jurnalist Leyla Vəkilli, ilk hüquq professoru Mustafa ağa Məhəmməd ağa oğlu Vəkilov, ilk uşaq evinin yaradıcısı Badisəba xanım Vəkilova-Köçərli, ilk qadın kimya elmləri doktoru Fatma xanım Vəkilova, general-polkovnik Azərbaycan Ordusunun Baş Qərargah rəisi Kərim Vəliyev, ilk kənd qız məktəbinin yaradıcısı Mədinə xanım Vəkilova-Qiyasbəyli və b. şəxslər bəxş etmişdir. Qazax Nahiyəsinin Kameral təsvirində (Nazir Əhmədli, Bakı, "Elm və Təhsil" 428 s.) vəkilovlar nəslinə aid olan 25 mülkədar ailəsi qeydə alınmışıdr. İrəvan şəhərində məskunlaşan vəkilovlar-dan olan Hacı Cəfər bəy İrəvan şəhərində məscid tikdirmişdir. Onların İrəvanda Təlmə bağları, dəyirmanları, çörək dükanları olmuşdur. Şəhərin küçələirndən biri "Vəkilovski ulitsa" adlanmışdır. Sonralar ermənilər küçənin adını dəyişdirərək "Qnuni" adlandırmışlar.

Həsənalı Sultan Vəkilov da bu nəslinin Şərur-Dərələyəz ərazisində yaşayan nümayəndələrindəndir. Həsənalı Sultan Vəkilov XIX əsrin ikici yarsında Şərur-Dərələyəz qəzasının ən böyük mülkədarı olmuşdur (ifadə araşdırıcı Ənvər Çingizoğluya məxsusdur). Qəza ərazisində onlarla kənd ona məxsus olmuşdur.

## Xalq qəhrəmanı, Çivə taborunun komandanı Balo bəy Vəkilov



1918-1920-ci illəri Azərbaycan xalqının ən ziddiyətli tarixi dönəmlərindən hesab etmək olar. Mart soyqırımları fonunda Azərbaycan xalqı öz müstəqil Cümhuriyyətini elan etmişdi. Həmin dönəmlərdə Türkiyə Azərbaycanda sülh yaratmaq məqsədi ilə ermənilərlə danışıqlar aparırdı. Ermənilər isə İrəvan şəhərini onlara paytaxt kimi verilməsini tələb edirdilər.

Daşnakların lideri Andranik Ozanyanın Türkiyənin Şərqi Anadolu hissəsində məğlubiyyətə uğrayaraq çıxarılmış qoşunları Azərbaycan ərazisinə daxil olmuşdu. Azərbaycanın yeganə müttəfiqi olan Türkiyə özü çox ağır durumda idi. Belə bir dönəmdə Azərbaycanın ən layiqli övladları öz könüllü müdafiə dəstələrini yaradaraq doğma yurdlarının müdafiəsinə qalxdılar. Belə şəxsiyyətlərdən biri də Şərur-Dərələyəz qəzasında yerləşən Çivə taborunun komandanı, xalq qəhrəmanı Balo bəy Vəkilov idi. Həmin vaxtı onun cəmi 20 yaşı var idi.

Şərur-Dərələyəz qəzasının naibi Hüseynalı Sultan Vəkilovun nəvəsi Balo bəy Cəlil bəy oğlu Vəkilov 1898-ci il Şərur-Dərələyəz qəzasının Civə kəndində doğulub. İlk təhsilini Çivə kəndində "Şah Abbas mədrəsəsində" alıb. Uşaq yaşlarında (1905-1907) erməni-müsəlman qırğınlarının şahidi olub. Onda ermənilərə qarşı amansız nifrət yaranıb. 1918-ci il hadisələri başlayandan Balo bəy ermənilərin elə ilk hücumlarından sonra silaha sarılır. Könüllülərdən ibarət güclü müdafiə dəstəsi yaradır. Dəstədə Əhməd bəy (Amo), İsmayıl bəy, Əli bəy, Hüseyn bəy, Qafar bəy, Paşa bəy, Yusif bəy, Kərbəlayı Əşrəf bəy, Kərbəlayi Firudin bəy vəkilovlar və kəndin əhalisinin əksəriyyəti ermənilərə qarşı vuruşurdu. Qüvvələrin qeyri-bərabər olmasına baxmayaraq, kəndin camaatı igidliklə

vuruşur, ermənilərin bütün hücumlarını dəf edir, onlara sarsıdıcı zərbələr vururdu. Döyüşlərdə Balo bəy xüsusilə şücaət göstərirdi. O, həm də mahir atıcı idi. Müasirləri "Balo bəy abbasını göydə vurur" - deyərək onun atıcılıqda xüsusi bacarığı olduğunu qeyd edirdilər.

Ermənilərin hücumlarından birində Balo bəy və Əhməd bəy, Kərbəlayi Əşrəf bəy öz döyüş dostları ilə birlikdə böyük bir kötüyün içini oyub oraya çoxlu miqdarda barıt doldururlar. Sonra həmin kötüyü partladırlar. Ermənilər gurultunu eşidib vahimələnirlər. Elə başa düşürlər ki, Çivəyə Türkiyədən top gətiriblər. Ermənilər qorxaraq böyük bir ərazini qoyub qaçırlar.

Sonralar ermənilər Çivəni bir neçə dəfə mühasirəyə alırlar. Ancaq müdafiəçilərin müqavimətini qıra bilmirlər. Ağır döyüşlərdən sonra Dərələyəzin müdafiəçiləri Çivə ətrafına yığışırlar. Bu zaman Vedibasar istiqamətində də qızğın döyüşlər gedirdi. Orada müdafiəçilərə Abbasqulu bəy Şadlinski başçılıq edirdi. Qüvvələr nisbətinin kəskin dəyişməsi ilə əlaqədar Dərələyəzin, Naxçıvanın (o cümlədən Vedibasarın) əhalisi geri çəkilməli olur. Balo bəy Vəkilov və Çivə müdafiəçiləri də Naxçıvanın bütün əhalisi ilə birlikdə Arazın o tayına - Cənubi Azərbaycana üz tutur.

Yeri gəlmişkən onu da qeyd edək ki, mərhum tarixçi alim Əli Əliyev özü bu hadisələrin canlı şahidi olmuş və "Biz əzablı bir ömür yaşadıq" xatirə memuarında Balo bəy Vəkilov və Çivə müdafiəçilərinin Cənubi Azərbaycana keçməsini təsvir etmişdir.

Çox keçmir ki, müdafiəçilər yenidən geri qayıdır. Bu zaman Balo bəyin əmisi Məşhədi Həsən bəy bu hadisələrin ağırlığına, xalqın faciəli vəziyyətinə dözmür, Naxçıvan şəhərində vəfat edir. Balo bəy geri qayıdandan sonra Bakıya gedir, Məhəmməd Əmin Rəsulzadə ilə görüşür. Məhəmməd Əmin Rəsulzadə ona öz kəndlərinə qayıtmağı məsləhət görür.

Bu dövrdə Dərələyəzin əhalisinin bir hissəsi Qarabağa köçür. Balo bəy və Çivə müdafiəçiləri isə öz kəndlərinə qayıdır. Yenidən döyüşlər şiddətlənir. Bu döyüşlərdə Balo bəy və müdafiəçilər özlərini məğlubedilməz qəhrəman kimi göstərirlər. Ermənilər Balo

bəy və Abbasqulu bəy Şadlinskinin başına mükafat təyin edirlər. Lakin yenə də bu igidləri öldürmək azğın düşmənə qismət olmur.

Bu dövrdə Müsavat partiyasının bölgə üzrə dayaq dəstəsinin sədri Abbas bəy Vəkilov da ciddi fəallıq göstərmişdir. Onu da qeyd edək ki, Çivə müsavatçılarının taleyi də o biri müsavatçılatr kimi faciəli oldu. Onların əksəriyyəti 30-cu illərin repressiya qurbanlarına çevrildilər.

23 aylıq Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinə 1920-ci ilin aprelin 28-də son qoyuldu. Azərbaycan Sovet hakimiyyəti quruldu. Sonra Naxçıvan da sovetləşdi. 1923-cü ildə imperiya siyasətinin və yerli bolşeviklərin köməyi ilə əhalisi yalnız Azərbaycan türklərindən ibarət olan Çivə kəndi Ermənistanın inzibati ərazi bölgüsünə qatıldı. Balo bəy, onun mənsub olduğu nəsil repressiyalara, təqib və təzyiqlərə məruz qaldı. Onların bütün mülkiyyəti evləri, torpaq sahələri, bağları əllərindən alınıb kolxoza verildi.

Balo bəy və qardaşı İsmayıl bəy ermənilərin və bolşeviklərin təqib və təzyiqləri altında kəndi tərk etməli oldular. Vəkilovların bir hissəsi 37-ci il faciəsinin qurbanlarına dönür. Balo bəy Vəkilov isə qardaşı İsmayıl bəylə birlikdə Naxçıvan ətrafındakı kəndlərdə gizlin yaşayır. Sonra isə Naxçıvanda məskunlaşırlar. 30-cu illərin ağır repressiyalarında Balo bəyin də adı repressiya olunanların siyahısına salınır. Lakin Balo bəyə olan xalq sevgisi onun gizlənməklə repressiyadan xilas olmasına kömək edir.

Lakin Naxçıvanda olan vəzifəli ermənilərə Balo bəyin sağ qalması ağır gəlirdi. Böyük Vətən müharibəsi başlayanda ermənilər Balo bəyi müharibəyə göndərməyə cəhd etsələr də, onun yaşının çoxluğu ermənilərin murdar niyyətini həyata keçirməyə mane olur.

1943-cü ildə Balo bəy Naxçıvanda dükan işlədir. Balo bəy burada da ermənilərin hiyləsindən xilas ola bilmir. Ermənilərin şahidliyi ilə Balo bəyin guya ticarətdə etdiyi saxtakarlığa görə həbsinə nail olurlar. Məhkəmə hətta Balo bəy haqqında ölüm hökmü çıxarır, lakin hökm icra edilmir. Balo bəy iki il həbsdə olur.

Sonra isə Naxçıvan MR Nazirlər Sovetində işləyən əmisi oğlu İlyas Vəkilovun köməyi ilə həbsdən azad olur.

Balo bəy Vəkilov 1982-ci il tarixdə Naxçıvan şəhərində vəfat edib.

Balo bəy Vəkilov Kəngərli nəslinin nümayəndəsi olan Dostuxanım Sultan bəy qızı Qoçəlibəyova ilə ailə qurmuşdur. Onun bu nikahdan Tofiq və Güşvər adlı iki övladı doğulmuşdur. Qızı Güşvər xanım atasını və o hadisələri xatırlayarkən aşağıdakıları deyib:

"Bizim bütün ömrümüz fırtınalardan, təlatümlərdən keçib. Ata nəslim əsilzadə olub. Sovet dövründə coğrafiyasına görə Qazax-İrəvan, Naxçıvan-Dərbənd və digər yerləri əhatə edən Vəkilovlar nəsli ağır repressiyalara məruz qalıb. Ana nəslim də əsilzadə olub. Anam Dostu xanım Kəngərli nəslindəndir. Bibim Xanım məşhur maarifpərvər Tağı bəy Səfiyevin həyat yoldaşı olmuşdur. O biri bibim Münəvvər xanım isə Abbasqulu bəy Şadlinskinin əmisi oğlu Rzaqulu bəy Şadlinskinin həyat yoldaşı olmuşdur".

# İLYAS VƏKİLOV
# GÖRKƏMLİ DÖVLƏT XADİMİ



Görkəmli dövlət xadimi, iqtisadçı alim İlyas Vəkilovun həyatı və ictimai-siyasi fəaliyyəti Azərbaycan tarixinin Çar Rusiyası, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR kimi bir-biri ilə ziddiyət təşkil edən üç dövrü əhatə edir.

Onun doğum tarixi 1905-ci il olmaqla Çar Rusiyası dönəminə, uşaqlıq dövrü Azərbaycan Cümhuriyyəti, sonrakı fəaliyyəti isə Sovet Azərbaycanı zamanına təsadüf etmişdir.

Özünəməxsus xarakterik cizgiləri olan İlyas Vəkilov müxtəlif formasiyalarda yaşasa da, heç vaxt öz kimliyindən imtina etməmişdir. Mənsub olduğu nəsilin Qazax Sultanlığı, İrəvan Xanlığı və Şərur-Dərələyəz qəzasında böyük mülklərə və idarəetmə hüququna malik olmaları səbəbi ilə sovetləşmə dönəmində bu soydan olanlar ağır repressiyalara məruz qalmış və bir çoxları öz soyadını dəyişməklə repressiyadan qurtulmağa çalışmışlar. Lakin öz soykökünə bağlı olan İlyas Vəkilov böyük bir sevgi ilə bu soyadı daşımağa davam etmişdir.

Beləliklə: İlyas Sultan bəy oğlu oğlu Vəkilov 20 mart 1905-ci il tarixdə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olmuşdur. İlk təhsilini Çivə kəndindəki Şah Abbas mədrəsəsində (sinif yoldaşları Həsən Abışov, Abdulla Məmmədov (Molla Abdulla), Həsən Xəlilov(Usta Həsən) ) almışdır.

Bundan sonra 1923-cü il tarixdə Bakıda hərbi məktəbdə ali təhsilə yiyələnərək bölük komandiri rütbəsi almışdır (1927). Sonra Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığında xüsusi şöbə rəisinin müavini və rəisi işləmişdir (1927–1929).

Moskva Kommunist Tərbiyəsi Akademiyasında təhsilini

(1929–1931) başa vurduqdan sonra Azərbaycan SSR Dövlət Plan Komitəsi sistemində işləmiş (1931–1935), ixtisısını artırmaq üçün Moskvada Ümumittifaq Plan Akademiyasında təhsilini davam etdirmişdir (1935–1938). Naxçıvan MSSR Xalq Komissarları Sovetinin sədri olmuş (1938–1949), otuz ilə yaxın müddətdə (1949-1986-cı il) Bakı Şəhər Soveti plan komissiyasının sədri işləmişdir.

İlyas Vəkilov "Oktyabr inqilabı", "Şərəf nişanı" ordenləri, "Qafqazın müdafiəsi uğrunda" medalı, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanları ilə təltif edilmişdir. Dəfələrlə Bakı Şəhər Sovetinin deputatı və İcraiyyə Komitəsinin üzvü, Azərbaycan KP Bakı Komitəsinin üzvü seçilmişdir.

İlyas Vəkilov 2 iyun 1987 il tarixində Bakı şəhərində vəfat etmişdir. Dəfn komissiyasına professor Abbas Zamanov rəhbərlik etmişdir.

İlyas Vəkilovun mənsub olduğu vəkilovlar nəslinin Azərbaycanın tarixində müstəsna xidmətləri olmuşdur.

İlyas Vəkilov hər iki tərəfdən əsilzadə nəslinə mənsubdur. İlyas Vəkilovun atası Sultan bəy Şərur-Dərələyəz qəzasının naibi olmuş Hüseynəli Sultanın oğlu Həsənalı Sultan Vəkilovun oğludur.

Anası Şirin xanım Səfiyeva Şərurun ən köklü ailələrindən olan Səfiyevlər ailəsindədir. Şirin xanımın mənsub olduğu Səfiyevlər nəsli Azərbaycan xalqına Abo Fətəli bəy Düdənginski, görkəmli maarifçi Tağı bəy Səfiyev, dünya şöhrətli rəssam İbrahim Səfi və başqa şəxsləri bəxş etmişdir.

İlyas Vəkilovun Ümummili lider Heydər Əliyevlə yaxın münasibətləri olmuşdur. İlyas Vəkilovun bacısı Sara xanım Vəkilovanın nəvəsi diplomat Həsən Zeynalov Ümummili lider Heydər Əliyevlə görkəmli dövlət xadimi İlyas Vəkilovun yaxın münasibətləri haqqında "Diplomatın tale yolu" əsərində qeyd edir: "İlyas Vəkilov 1940-cı illərdə Naxçıvan Muxtar Respublikasının Nazirlər Sovetində rəhbər vəzifə tutarkən o zaman bacarıqlı və məsuliyyətli gənc kadr olan Heydər Əliyevi xüsusi xidmət orqanlarına qəbul edilməsi ilə bağlı təqdimat vermişdir. Heydər Əliyev ömrünün sonuna qədər

İlyas Vəkilovla əlaqələrini kəsməmiş və ona ağsaqqal kimi dərin hörmət və ehtiram bəsləmişdir".

İlyas Vəkilovun tərcümeyi-halını araşdırarkən onun müxtəlif istiqamətdə olan maraqlı fəaliyyətləri ilə rastlaşdıq. İlyas Vəkilov daim dövlət vəzifələrində çalışmasına baxmayaraq, həyatda həmişə elm adamları ilə yaxın dostluq münasibəti olmuşdur. Onun ən yaxın dostları akademik Yusif Məmmədəliyev, professor Abbas Zamanov, xalq şairi Səməd Vurğun, professor Mehdixan Vəkilov və b. olmuşdur.

Azərbaycan elm tarixinə öz töhfəsini verən İlyas Vəkilovun yazdığı dərsliklər barədə danışarkən təbii ki, tariximizin bir parçası olan SSRİ dönəmindən bəhs etməyə bilmərik. Etiraf etmək lazımdır ki, Azərbaycan elm tarixinin vacib bir komponenti də SSRİ dönəmidir. SSRİ-nin qurulduğu ilk dönəmdə "SSRİ-də kütləvi savadsızlığın aradan qaldırılması" Dövlət Proqramı çərçivəsində sovet adamlarının minimum icbari orta təhsillin verilməsi proqramı 100 faiz icra edilmişdir. Şübhəsiz ki, savadsığılığın aradan qaldırılmasında dərsliklər mühüm rol oynayır. İlyas Vəkilov da Azərbaycan elm tarixinə iki dərslik bəxş edib.

İlyas Vəkilov 1926-cı il tarixində 21 yaşında iki dərslik yazmışdır. Dərsliklər riyaziyyat və ana dili fənlərini əhatə etməklə bu cür adlanır:

**1. "Savad və az-savadlılar məktəbində riyaziyyat dərsləri rəhbəri"**

**2. "Savad məktəblərində ana dili dərsləri rəhbəri"**

Dərsliklər Siyasi Maarif İdarəsi tərəfindən 1926-cı ildə nəşr edilmişdir. Dərsliklər latın qrafikasında yazılmışdır. Təbii ki, dərsliklər o dövrün reallıqlarına və əhalinin savad səviyyəsinə uyğun olaraq sadə və anlaşılan bir dildə qələmə alınmışdır. Kitabların adından da görünür ki, həmin dövr üçün əhali savad səviyyəsinə görə iki kateqoriyaya ayrılmışdır: savad və az-savad səviyyəsi.

İlyas Vəkilovun müəllifi olduğu riyaziyyat dərsliyi savad və az-savad səviyyəsində, ana dili dərsliyi isə savad səviyyəsində olan

əhali qrupu üçün nəzərdə tutulmuşdur.

Görkəmli dövlət xadimi İlyas Vəkilov şair təbiətli şəxs olmaqla bədii yaradıcılıqla da məşğul olmuş, "Didəvan" adlı irihəcmli poema yazmışdır. Səməd Vurğunla yaxın ünsiyyəti olan İlyas Vəkilov hətta onun tərəfindən Yazıcılar Birliyinə üzv olmaq təklifi alsa da, bu təklifi təbəssümlə qarşılamış və "Əmioğlu, mən dövlət adamıyam, məndən şair olmaz" söyləmişdir.

İ.Vəkilovun yaxın qohumu İsa Vəkilov öz xatirələrində "Didəvan" poemasını şəxsən ona oxumasını və ondan poema barəsində fikirlərini soruşmasını qeyd etmişdir. Qeyd etməliyəm ki, İlyas Vəkilov poyeziyaya ədəbiyyata bağlı bir adam olmuşdur.

İlyas Vəkilodan danışarkən onun tədiqatçısı polkovnik Kamil Dərələyəzli (Məmmədovun) adını çəkmək yerinə düşərdi. Dərələyəzlə bağlı bir neçə sanballı kitabın müəllifi olan K.Dərləyəzli İlyas Vəkilovun şəxsi işini arxivdən əldə etmiş, onun yazdığı dəsrlikləri ilk dəfə üzə çıxarmışdır. İlyas Vəkilova olan böyük sevgisini belə ifadə edir: "İlyas Vəkilovu heç vaxt görməsəm də ona qarşı xüsusi sevgim var. Onu özümün mənəvi atası ustadı hesab edirəm"

Mərhum professor Həsən Mirzəyev isə onun barəsində bunları söyləyir: "Ermənistanda Sovet hökuməti qurulduqdan sonra şovinist rəhbərlər bu bəy ailələrini incitməyə başlamış, bir çoxunu kulak çıxartmış, bir çoxunu müxtəlif bəhanələrlə siyasi məhbus kimi tutub sürgün etmiş və güllələmişlər. Yerdə qalanları isə qaçıb hərəsi bir yana dağılmışdır. Bu ailədən olan, Sultan bəyin oğlu İlyas Vəkilov isə 1930-cu illərdə Moskvaya getmiş, orada oxuyub qayıtdıqdan sonra Naxçıvan Nazirlər Soveti sədrinin müavini işləmiş, bundan sonra isə Bakıya gəlib 30 il fasiləsiz olaraq Bakı şəhər İcra Hakimiyyətində Plan komitəsinin sədri vəzifəsində çalışmış, böyük nüfuz sahibi olmuşdur. "Qırmızı Oktyabr" və digər orden və medallarla təltif olunmuş, İqtisad elmlər namizədi, dosent elmi adını almışdır. O, şair təbiətli bir adam olmuş və çoxlu şerlər yazmışdır. Abbas Zamanov, Mehdixan Vəkilovla yaxın dost və həmsöhbət olmuşdur. Çox vaxt yay mövsümündə Dərələyəzə

gedər, orada gənclik illərini yada salar, qohumlarını, dostlarını yoxlayardı.

Çivə kəndində Vəkilovlardan olan Hacı Mahmud bəy Dərələyəzin Güneyvəng kəndindən Alməyətli tayfasının yetirməsi qlava Ağayarın bacısı Əzət xanımı almış və xeyli övladları olmuşdur. Əzət xanım mənim nənəm (atamın anası) Ballının doğma xalasıdır.

Hacı Mahmud bəyin və Əzət xanımın qızı Zivər xanım bu yaxınlara kimi Bakıda yaşayırdı. Lakin bir xeyli vaxtdır ki, dünyasını dəyişmişdir. Zivər xanımın və əri Balo bəyin qızı Zərri xanım hal-hazırda Bakıda yaşayır".

Professor Həsən Mirzəyevin atası Dərələyəz mahalının hörmətli kişilərindən olan İbrahim Mirzəlinin İlyas Vəkilova həsr etdiyi "İlyas" şeri maraq doğurduğu üçün burada oxuculara həmin şeri təqdim etməyi zəruri hesab edirəm. Qeyd edim ki, həmin şeir əski əlifba ilə qeydə alınmış onu İbrahim Mirzəlinin nəvəsi professor Mahirə Nağıqızı latın qrafikasına çevirərək bizə təqdim etmişdir. Buradan dəyərli ziyalımız Mahirə xanıma öz təşəkürümüzü bildiririk.

## İLYAS

Vətən Dərələyəz səni gözləyir,
Bir də doğma yurda qonaq gəl, İlyas.
Lalı- nərgiz dağ çəməni bəzəyir,
Bu cənnət məkana qonaq gəl, İlyas!

Deməyəsiz bura uzaq səfərdi,
Vəkilov adları dildə əzbərdi,
Mən adın bildiyim xeyli nəfərdi,
Sən bütün nəsillə qonaq gəl, İlyas!

Sən gələndə elə yayılar ətir,
Sənin həsrətini vilayət çəkir,
Gələndə özünlə qənd-çayın gətir,
Bu minvalla bizə qonaq gəl, İlyas!

Arzum budur yaxın olsun uzaqlar,
Şəfa tapar bu məkanda qonaqlar,
Abi-kövsər suyu sərin bulaqlar,
Onlar ki, söyləyir qonaq gəl, İlyas!

Vətənə gəl, getmə bizdən uzağa,
Məcnun kimi salma məni sorağa,
Dost- tanışı gətir Yastı bulağa,
El-oba istəyir qonaq gəl, İlyas!

Həmid qardaşımdı, Raya qızımdı,
Sultan ümidimdi, iki gözümdü.
Mirzəlioğlu deyir axır sözümdü,
Onlaranan bərabər qonaq gəl, İlyas

## Həsənalısultan bəy Vəkilov - Azərbaycanın ilk hüquqşünaslarından

Həsənalısultan bəy Məhəmməd bəy oğlu Vəkilov 1887-ci ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində doğulub (babasının adını daşıyır). Babası Həsənalı Sultan Dərləyəz mahalının ən böyük mülkədarı olub. Dərləyəzin onlarla kəndi onların idarəçiliyində olub. Həsənalı Sultanın atası Hüseynalı Sultan Şərur-Dərələyəz qəzasının naibi olub.



*Həsənalısultan bəy Vəkilov və həyat yoldaşı Sofiya xanım*

Həsənalısultan bəy Vəkilov ibtidai təhsilini İrəvan gimnaziyasında almış, sonra isə Xarkov Dövlət Universitetində hüquq fakültəsini bitirmişdi. Bundan sonra Qafqaza qayıdıb, Tbilisidə yaşayıb və elə burada da gürcü qızı Mariya ilə ailə qurmuşdu. Sovetlər Birliyi möhkəmləndikdən sonra Türkiyəyə mühacirət edib. Həyat yoldaşı Mariya onunla getməkdən imtina edir.

Türkiyədə Krım tatarı Sofiya ilə tanış olur və evlənir. Həyat yoldaşı ilə birlikdə Parisə köçürlər, burada qızı - Leyla Vəkilli anadan olub.

Leyla Vəkilli: «Mənim uşaqlığım Vətən haqqında hekayələrlə keçib. Atamın Azərbaycandan çox sayda dostu var idi. Mən rus dilində də danışıram. Atam belə istəyirdi, rus dili və rus ədəbiyyatı onun çox xoşuna gəlirdi. Hər cümə axşamı Azərbaycanlı ailələr bizim evimizdə toplaşırdılar, eləcə də nənəm Şirin Səfiyevanın əmisi oğlu - Türkiyənin görkəmli rəssamı İbrahim Safi. Beləliklə Azərbaycanda baş verənlərlə bağlı uzun müzakirələr başlanırdı. Hətta nə baş verdiyini bilməsələr də söhbət etməyə mövzu tapırdılar...»

## Leyla Vəkilli dünyaşöhrətli jurnalist



Leyla Həsanalı-sultan bəy qızı Vəkilli 12 fevral 1932-ci ildə Parisdə dünyaya gəlib. Sonra atası Azərbaycanın ilk hüquqşünaslarından olan Həsənalı-sultan bəy ilə birlikdə yenidən Türkiyəyə İstanbul şəhərinə köçüblər. Leyla Vəkilli 1952-ci ildə İstanbulda Fransız Liseyində təhsil alıb. Sarbon Universitetinin sosiologiya fakultəsini bitirib. Sonradan Fransada jurnalist kimi fəaliyyətə başlayıb. Dünyada 184 ölkədə bürosu olan "Sipa-Press" Agentliyində çalışıb. Jurnalistlik fəaliyyəti ilə bağlı dünyanın bir çox ölkələrində fəaliyyət göstərib. O, cümlədən Afrika, Latın Amerikası, Fələstin, Nikaraqua və Əlcəzairdə olub. Əlcəzairdə avtomobil qəzasında ağır yaralanıb. Əlcəzairdə Argentinalı marksist-inqilabçı və siyasətçi Ernesto Çe Gevara ilə 3 saatlıq görüşdə iştirak edib. 1962-ci ildə Fransada Nazim Hikmətlə görüşüb. Fransada Türk Film Festivalının qurucularından olub.

Leyla Vəkilli Fransada cap olunan "DEFİ" jurnalının baş redaktoru olub. 1996-cı ilədək Parisdə yaşayıb. Həmin il Türkiyəyə, Bodrumun Muğla şəhərinin Türkbükü bölgəsinə köçüb. 26 noyabr 2017-ci il tarixdə dünyasını dəyişib. Leyla Vəkilli iqtisadçı və dövlət xadimi, İlyas Vəkilovun qardaşı qızıdır.

## Hacı Mahmud bəy Vəkilov

Şərur-Dərələyəz qəzasında kömrük rəisi vəzifəsində çalışıb. Araşdırcı Ənvər Çingizoğlu Hacı Mahmud bəy Vəkilovun Qafqaz caninşininə yazdığı məktubları araşdırarkən onun mahalın nüfuzlu şəxslərindən biri kimi xarakterizə etmişdir. Hacı Mahmud bəy Həcc ziyarətinə səfərində İran ərazisindən keçərkən bir şəxsin vergi ödəyə bilmədiyi üçün dar ağacından asıldığının şahidi olur. O, müraciət edərək həmin şəxsin borcunu ödəyir və onun azad edir. Bu hadisə unudlub gedir. Təxminən 20 ildən sonra bir şəxs İrandan gəlib Hacı Mahmud bəyi tapır və bildirir ki, o həyatını xilas etdiyi adamdır. Minnətdarlıq məqsədi ilə həmin şəxs Hacı Mahmud bəyə tərlan atı və qızıl quş gətirir. Hacı Mahmud bəy nə qədər etiraz etsə də həmin şəxs bunu qəbul etmir. Hədiyyələri Hacı Mahmud bəyə verir. Hacı Mahmud bəyin nəvəsi (Yusif bəy Vəkilovun oğlu) Mahmud Vəkilov kiçik yasalarında alından həmin qızıl quş yaralamışdır. Mahmud Vəkilov bu sətirlərin müəllifinə alnındakı izi göstərərək “bax bu həmin məhşur qızıl quşun izidir” söyləmişdir.

## Teymur bəy Vəkilov

Teymur bəy Hacı Mahmud bəy oğlu Vəkilov Şərur-Dərələyəz qəzasının Çivə kəndində doğulmuşdur. İlk təhsilini Çivə kəndində mədrəsədə almış. Sonra Moskva İmperator Universiteteinin hüquq fakültəsini bitirmişdir. Moskva Bələdiyyə rəisinin qızı ilə evlənmiş. İrəvan şəhərinin tanınmış vəkillərindən olmuşdur. Eçməzdində andlı iclasçı (1914) kimi də çalışmışdır. Azərbaycanın ilk hüquqşünaslarındandır.

## Abbas bəy Hüseyn bəy oğlu Vəkilov

Azərbaycanın ilk hüquqşünaslarındandır. O, 1887-1890-ci illərdə Baş Noraşen kəndində böyük mütəfəkkir Cəlil Məmmədquluzadənin şagirdi olmuşdur. Sonralar İrəvan gimnaziyasında təhsil almışdır. Kiyev Dövlət Universitetinin hüquq fakultəsinin məzunu olmuşdur. Musavat Partiyasının üzvü olmuşdur.Sovet Hakimiyyəti qurulduqdan sonra musavatçı kimi güllələnmişdir.

## Qəzənfər Sultan bəy oğlu Vəkilov

Sultan bəy Vəkilovun ailəsində böyüyən Qəzənfər Vəkilov ali təhsilli iqtisadçı olmuş, bir müddət Azərbaycan SSRİ-nin Tədarük naziri vəzifəsini tutmuşdur.

## Hüseyn bəy Vəkilov

Çivə ərazisində 1918-1920-ci illərdə hərbi əsirlərin dəyişdirlməsinə rəhbərlik etmişdir. Oğlu Həmid Vəkilovun qızı Zərifə Vəkilova uzun illər mühüm dövlət vəzifələrində çalışmışdır.

## XALQ QƏHRƏMANIN OĞLU TOFİQ BƏY VƏKİLOV



Tofiq Vəkilov 1929-cu ildə Naxçıvan şəhərində Xalq qəhrəmanı Balo bəy Vəkilovun ailəsində doğulub. Naxçıvanda tibb məktəbini bitirdikdən sonra iki il tibb sahəsində çalışıb. 1949-1953-cü illərdə Azərbaycan Dövlət Xalq Təsərüfatı İnstitunda təhsil alıb. Bir müddət Naxçıvan MSSR plan komitəsində məsul vəzifədə, 1962-1964-cü ildə Ordubad Rayonunun birinci katibi vəzifəsini daşıyıb. Ordubad rayonunun infrastrukturunun inkişafında kəndlərin elektrikləşdirilməsində xüsusi rol oynayıb. 1964-1967-ci illərdə Naxçıvan şəhər Partiya Komitəsinin birinci katibi vəzifəsinə təyin edilib. 1967-ci ildə Naxçıvan MSSR Ali Sovetinin Reyasət Heyətinin katibi vəzifəsinə təyin edilir. Xəstəliklə əlaqədar bir müddət Bakıda Respublika Müalicə Komissiyasında müailcə almışdır. Professor Fatma Vəkilovanın oğlu rejissor Yalçın Əəfndiyev bu barədə soyləyir. Anam professor Fatma Vəkilova xəstəxanaya Tofiq Vəkilovun yanına tez-tez dəyirdi evdə çox ürək ağrısı ilə danışırdı. Bir gün çox böyük həyacanla gəlib söylədi ki, Tofiq dünyasını dəyişib. Tofiq Vəkilov 6 oktyabr 1967-ci ildə 38 yaşında dünyasını dəyişib Naxçıvan şəhər qəbristanlığında dəfn edilmişdir.

## Ermənilərə qarşı vuruşan mücahid İsmayıl bəy Vəkilov



1918-1920-ci illərdə Şərur-Dərləyəz qəzasında Andranikin qoşunlarına qarşı təşkil olunmuş Çivə taborunun əsas fəallarından biri. 1900-cü ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində doğulub. Xalq qəhrəmanı Balo bəy Vəkilovun qardaşıdır. İlk təhsilini Çivə kəndində Şah Abbas Mədrəsəsində alıb. Kiçik yaşlarından 1905-1907-ci illər qırğının şahidi olub. 1918-ci ildə Andarnikin qoşunları Naxçıvan-İrəvan ərazilərində qırğınlar törədərkən Xalq Qəhrəmanı Balo bəy Vəkilovun başçılığı ilə yaradılan Çivə taborunun əsas fəallarından olub. Ermənilərlə döyüşdə Balo bəy Vəkilovun ən yaxın silahdaşlarından biri kimi iştirak edib. 1918-1920-ci illərdə müvəqqəti olaraq Balo bəy Vəkilovun dəstəsi ilə bilrlikdə İrana keçmək məcburiyyətində qalıb. Sonra isə Çivə kəndinə qayıdıblar. Sovet Hakimiyyəti qurulduqdan sonra Balo bəy və qardaşı İsmayıl bəy Vəkilov kəndi tərk etmək məcburiyyətində qalmışlar. Sonra Xalq qəhrəmanı Balo bəy Vəkilov və qardaşı İsmayıl bəy Naxçıvan ətrafından bir müddət Cəhri kəndində yaşamışlar İsmayıl bəy Vəkilov bir müddət Cəhri kəndində müəllimlliklə məşğul olmuşdur. Sonra hər iki qardaş Naxçıvan şəhərinə məskunlaşmışlar. İsmayıl bəy Vəkilov Əliabad kəndində uzun illər müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. Qardaşı Balo bəy ermənilər tərəfindən şərlənərək tutulmuş ailəsi azyaşlı uşaqları Tofiq bəy və Küşvər xanım bir müddət əmiləri İsmayıl bəyin himayəsində qalmışdır. İsmayıl bəyin müəllimlik fəaliyyəti Qırmızı Əmək bayrağı ordeni ilə mukafatlandırılmışdır. İsmayıl bəy Vəkilov 1980-ci ildə Naxçıvan şəhərində dünyasını dəyişmiş və şəhər qəbristanlığında dəfn edilmişdir.

## REPRESİYA QURBANIN OĞLU

Vəkilov (Sultanov) Həsən Əli bəy oğlu 01.01.1936-cı il tarixdə Naxçıvan MR-nın Şərur Rayonu, Danzik kəndində anadan olub.

Həsən Vəkilov repressiyya dönmələrində Vəkilovlar nəslinə qarşı aparılan ağır represiya vaxtı babası Sultan bəy Vəkilovun adını özünə soyad kimi Sultanov soyadını götürmüşdür.

Həsən Vəkilov (Sultanov) İbtidai təhsilini Danzik kənd Orta məktəbində alıb.1943-1945-ci illərdə Ordubad pedaqoji Texnikumunu bitimişdir. Bundan sonra Şərur Rayonu Danzik kəndində orta məktəbdə ibtidai sinif müəllimi kimi 4 il çalışıb.

12 iyul 1963-cü il tarixdə Lenin adına Pedaqoji İnstitutunu, 1968-ci ildə isə Bakı Dövlət Universitetinin hüquq fakultəsini Qırmızı diplomla bitimişdir.

16 fevral 1972-ci il tarixdə Azərbaycan SSR-nin Baş Prokurluğunun əmri (№37) ilə prokurorluq orqanına xidmətə qəbul edilmişdir.

Azərbaycan SSR-nin Baş Prokurluğunun 28.07.1972-ci il tarixli əmri (№230) ilə Naxçıvan MSSR-in Baş Prokurorluğunun baş müstəntiqi vəzifəsinə qəbul edilmişdir.

Təltifləri

1) 27.01.1974-cü il tarixdə Azərbaycan SSR Baş Prokuroru Abbas Zamanovun (№131) əmri ilə nümunəvi xidmətinə görə Qızıl Qol saatı ilə təltif edilib.

2) 15 may 1996-cı il tarixdə Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Reyasət Heyətinin qərarı (Qərar №4) ilə Azərbaycan Vəkilliyinin 78-ci ildönümü ilə bağlı "İnsan hüquqlarının müdafiəsindəki xidmətlərinə görə" ona fəxri hüquq doktoru adı verilmişdir.

14.09.1976-cı il tarixdən Azərbaycan SSR-nin Vəkillər Kollegiyasının Reyasət Heyətinin üzvlüyünə qəbul olmuşdur. 1977-ci il tarixdən Saaatlı Rayon Hüquq Məsləhətxanasının (əmr №5) müdiri vəzifəsinə təyin edilib. 06 may 1983-cü il tarixdən Bakı

Şəhəri 3 saylı Hüquq Məsləhətxanasının müdiri olmuşdur. 2004-2011-ci illərdə isə 13 saylı Hüquq Məsləhətxanasının müdiri vəzifəsində çalışmışdır.

Atası vəkilovlar nəslinin məhək daşlarından biri Vəkilov Əli bəy Sultan bəy oğlu 1937-ci ildə bəy nəsli olduğu üçün Qazaxıstana sürgün edilmək adı ilə aparılaraq Ermənistan SSR ərazisində güllələnmişdir.

Görkəmli hüquqşünas Vəkilov (Sultanov) Həsən Əli bəy oğlu 27 iyun 2020-ci il tarixdə dünyasını dəyişmişdir.

## ÇİVƏLİ AŞIQ ƏLİ

Zəngin folklor mühiti olan Çivə kəndinin yetişdirməsi olan Aşıq Əli klassik aşıq sənətinin bütün incəliklərinə vaqif olmuş ustad aşıq olmuşdur. Aşıq Əli təxminən XIX əsrin sonu, XX əsrin əvvəllərində Dərələyəzin Çivə kəndində doğulmuşdur. O, uşaq vaxtından saz çalmağı öyrənmiş və məlahətli səsi ilə məclislər keçirmişdir. Arvadı Səlbi xanım sinədəftər bir qadın olmuş və ərinin bu sənətə yiyələnməsində maraqlı olmuşdur. Aşıq Əlinin Səlbi xanımdan dörd oğlu (Müzəffər. Qəzənfər, Səfər, Qəfər), bir qızı (Zinhar) olmuşdur. Aşıq Əli erməni-müsəlman davasından sonra Çivə kəndindən Yaycı kəndinə köçüb orada yaşayır və aşıqlıq sənətini burada da davam etdirir. Bir gün Aşıq Əlinin ailə həyatında təsadüf nəticəsində baş vermiş faciə onun dəlilik dərəcəsinə çamasına və ölümünə səbəb olur. Onun sənətini 2 oğlu davam etdirir. Təəsüf ki Aşıq Əlinin şeir çələngindən bu kitabda nümunələr təqdim edə bilmədik. Bu nəcib işi aşıq ədəbiyyatının araşdırmaçılarının üzərinə qoyuruq.

## DƏRƏLƏYƏZ MAHALI, SALLI KƏNDİ

Sallı Keşkənd (Yeğeqnadzor) rayonunda azərbaycanlı kəndidir. Bu kənd Səlim gədiyindən gələn çayın, Dərələyəzdən Göyçəyə (Qaranlığa) gedən magistral yolun üstündə yerləşir.[9]

1831-ci ildə kənddə 77 nəfər, 1873-cü ildə 422 nəfər, 1886-cı ildə 560 nəfər, 1897- ci ildə 668 nəfər, 1904-cü ildə 624 nəfər, 1914-cü ildə 675 nəfər, 1916-cı ildə 678 nəfər azərbaycanlı əhali olmuşdur.[10] 1918-ci ildə daşnak quldur dəstəsinin başçısı Yapon və polkovnik Doluxanov bu kəndin əhalisinə divan tutmuş və əksəriyyətini qırmışlar. Salamat qalanlar pərən-pərən olmuş, hərəsi bir tərəfə qaçmışdır. 1922-ci ildə kəndə cəmi 147 nəfər qayıtmış, bu kənddə məskunlaşan ermənilərlə birgə yaşamağa məcbur olmuşlar. 1926-cı ildə bu kənddə azərbaycanlıların sayı 204, 1931-ci ildə 242 olmuşdur. Son illərdə bu rəqəm xeyli artmışdır.[11]

1948-1953-cü illərdə azərbaycanlılar rayonun başqa kəndləri kimi, bu kənddən də deportasiya olunmuş, Salyan rayonuna göndərilmişdir. Burada əhalinin bir hissəsi iqlimə uyğunlaşa bilmədiyi üçün Bərdənin İmirli kəndinə gəlmiş və orada da bəziləri yenidən doğma Sallıya qayıtmışdır. Nəhayət, 1988-ci ildə burada

---

[9] Mirzəyev H. Sallı toponimi, Dil məsələlərinə dair tematik toplu, Ne 1, Bakı 1998, s.91-94; Mirzəyev H. Sallı və Civə kəndlərində tayfalar, kəhriz, bulaq və yer-yurd adları haqqında, Filologiya məsələlərinə dair tematik toplu, No 1-2, Bakı, 2001, s.68-70.

[10] Статическое описание Нахичеванской провинции СПб, 1833, стр. 166-167; И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615-616; Свод статистических данных о населе нии Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, стр. Ne974; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 346-396, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 245; Həsən Mirzəyev. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz. Bakı, 1997, səh.239-242.

[11] Bax: Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh.364-365. 4. Yenə orada, səh.365.

yaşayan azərbaycanlıların var-dövləti əlindən alınmış və kənddən qovulmuşlar. İndi həmin kəndin əhalisi Azərbaycanın müxtəlif bölgələrinə səpələnmişlər.

"Bu qədim azərbaycanlı kəndində X-XII əsrlərə aid tarixi abidələr, Alban kilsələri vardır".[12]

Sallı kəndi aşıq və şairlər diyarı olmuşdur. "Cəlili" saz havasını yaradan, Aşıq Alının şagirdi Aşıq Cəlil, Aşıq Qulu, Şair Rzaqulu, Aşıq Mirzalı, Dələk Xələf, şair Alhüseyn, şair Təhməz, Alı, Əsəd, şair Məhəmməd (Aşıq Cəlilin qardaşı), şair Məhəmmədəli, nüfuzlu el ağsaqqalı, şair, adlı-sanlı hüquqşünas, filoloq, polkovnik Rəhman Mustafayevin atası Aşıq Bəhman və bir çox aşıqlar Sallıda yetişmişdir.[13]

Tarix, coğrafiya və dilçiliyə dair mənbələrdən aydın olur ki, Salli toponimi türklərə məxsus "Sal" tayfasının adından götürülmüşdür. 1590-cı illər haqqında məlumat olan "İrəvan əyalətinin icmal dəftəri"ndə Sallı kəndi "Şayi" formasında da qeydə alınmış və göstərilmişdir ki, 1590-cı ildə bu kəndin 3.620 ağça gəliri olmuşdur. 1727-ci ili əks etdirən mənbədə göstərilir ki, Sallı kəndinin 3.620, Salçı kəndinin isə 2.999 ağça gəliri vardır.[14]

Bu mənbədə "Salçı" adında kənd də qeydə alınmış və bunun 2000 ağça gəliri olduğu göstərilmişdir. Fikrimizcə, bu təbii bir haldır, çünki Azərbaycan dilində tarixən -çı şəkilçisi müasir dilimizdəki -lı şəkilçisini də əvəz etmiş və bu son dövrlərə qədər öz izini saxlamışdır. Mirzə İbrahimovun "Kəndçi qızı" ("Kəndli qızı") buna canlı sübutdur.

Məşhur türkoloq N.A.Baskakov yazır ki, "Sal" tayfasının adı ilə "Salur" ("Salor", "Samur") tayfasının adı eyni mənşəlidir.[15]

Roza Eyvazovanın fikrincə, Çində Salarlar (Salorlar) tayfası

---

[12] Yenə orada, səh. 365.

[13] Qulu Kəngərli. Erməni lobbisi. Azərbaycan faciəsi. Bakı, 1992, səh.6.

[14] Ziya Bünyadov və Hüsaməddin Məmmədov. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s.59, 60; Ziya Bünyadov və Hüsaməddin Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997, səh.35-36.

[15] Н.А.Баскаков. Введение в изучение тюркских языков, М., 1969, с.13.

vardır və bu Qaraman və Akman qəbilələrinin birləşməsindən yaranmışdır.[16] O, başqa bir yerdə yazır: "Biz Əfqanıstan ərazisindəki Çol, Çar, Sul, Sur coğrafi adlarını və "Sal", "Sar" tərkibli toponimləri eyni semantik mənalı, müxtəlif fonetik variantlı türk mənşəli adlar sayırıq".[17]

Məşhur tarixçi, böyük və yorulmaz tədqiqatçı Qiyasəddin Qeybullayev də Sal tayfası haqqında məlumat vermiş və göstərmişdir ki, Sallar VI əsrin ortalarında avarlarla döyüşmüşlər. Müəllif Salyan toponimini də sal tayfa adı ilə bağlayır.[18] O yazır: Sal tayfası Hun tayfalarındandır. Salar, Salor, Salur, Salcaq etnonimləri də Sal sözündəndir.[19]

Müəllif başqa bir əsərində yazır ki, bu etnonim keçən əsrdə Gürcüstanda "Salieti", Dağıstanda "Salian", Ermənistanın iki yerində "Sallı", Şimali Qafqazda "Sal çayı", "Sal çölü" formasında özünü mühafizə edib saxlamışdır.[20]

A.Qurbanov yazır ki, "Sal" tayfasının adı Oğuz səlcuqlarının Salqur (Salor) tayfasının adı ilə, şübhəsiz ki, eyni mənşəlidir.[21] Geniş areala malik olan Sal tayfasının müəyyən hissəsi Zaqafqaziyada yaşayır. Azərbaycandakı Salyan, Ermənistandakı Sallı, Gürcüstandakı Salieti (Sal-eti) toponimləri Sal tayfasının adı ilə bağlıdır.[22] O, N.A.Baskakova əsaslanaraq göstərir ki, uyğurların 35 minlik bir hissəsi indi də Salar adlanır.[23]

V.A.Nikonov yazır: Don çayının sol qollarından birinin adı Sal çayı adlanır.[24] V.O.Bondalov da Sal sözünün türk mənşəli ad olduğunu və bunun hidronim kimi işləndiyini göstərir.[25]

---

[16] Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, 1995, s.96.
[17] Yenə orada, səh 78, 95, 133.
[18] Г.А.Гейбуллаев. Топонимия Азербайджана, Баку, 1986, с.40.
[19] Г.А.Гейбуллаев. К этногенезу азербайджанцев. Баку, 1991, с.56.
[20] Г.А.Гейбуллаев. Топонимия Азербайджана. Баку, 1986, с.39-40.
[21] A.Qurbanov. Azərbaycan dilinin onomalogiyası, Bakı, 1988, s.368
[22] A.Qurbanov. Azərbaycan dilinin onomalogiyası, Bakı, 1988, səh.369.
[23] Yenə orada, səh. 368.
[24] В.А. Никонов. Краткий топонимический словарь. М., 1966, с.364.
[25] В.О.Бондалов. Русская ономастика. М., 1983, с.196

Krım ərazisində 4 adda Sala və Kiçik Sala, Şamaxıda Salar (Saler), Qazaxda Salaoğlu adında kəndlərin olması, "Kitabi-Dədə Qorqud"da Salur Qazan adının işlənməsi də göstərir ki, Sal sözü geniş ərazidə yayılan ən qədim türk tayfalarından birinin adıdır.

Yeri gəlmişkən qeyd edim ki, Sal sözü ilə bağlı xalq arasında bir bayatı da vardır.

Mən aşıq Sala dağlar,
Gün çıxdı Sala dağlar.
Tutaydım yar əlindən,
Çıxaydım Sala dağlar.

Sallı kəndinin yer-yurd adları haqqında əldə etdiyim məlumat aşağıdakılardır. Gələcək nəsillər mən toplaya bilmədiyim onomastik vahidləri toplayıb bura əlavə etməlidir.

**Tayfa adları**
1. Kəntərlilər tayfası
2. Çərəli tayfası
3. Saralı tayfası
4. Yeməzdi tayfası
5. Ayrımlılar tayfası
6. Mehralılar tayfası
7. Bəyişlər tayfası

**Məhəllə adları**
1. Yeməzdi məhləsi
2. Ayrıllılar məhləsi
3. Çərəli məhləsi

**Yer adları**
1. Şəyəldi güneyi
2. Tap
3. Şorrar
4. Quşxana yeri

5. Qayənin altı
6. Qanqallı yer
7. İt qırılan yer
8.Məmməd gedən yer
9. Bəylik yeri
10. Göyürkə
11. Almalıq
12. Şamlıx
13. Eşşək güneyi
14. Qancıq ölən
15. İlgək itən
16. Qojanın qəbri
17. Çərəli yerləri
18. Qarağat yerləri
19.Dərə yerləri
20. Üzümlük
21.Dolayılar
22. Quşxana yoxuşu
23.Paşa bağı
24. Qurd təpəsi
25. Qurqan başı

**Qaya adları**
1. Ballı qaya
2. Sarı qaya

**Dərə adları**
1. Bəhmənin dərəsi
2. Quru dərə
3. Söyüdlü dərə
4. Qazax dərə
5. Fındıqlı dərə

**Yol adları**
1. Səbətkeçməz
2. Baş yol
3. Selim yolu

**Yaylaq, yurd, dağ adları**
1. Bəyəli yurdu

**Kaha adları**
1. Zeynal kaha
2. Qozlu kaha

**Bulaq və çay adları**
1. Navlı bulaq
2. Almazın bulağı
3. Qazı bulağı
4. Mərdanın bulağı
5. Qulunun bulağı
6. Qilbə bulağı
7. Xanım bulağı
8. Gümüş bulaq
9. Pırt-pırt bulaq
10. Sallı çayı

## Sallı kəndindən 1941-1945-ci ildə müharibədə iştirak edənlər

Muxtar Bayramov - qəhrəmanlıqla həlak olmuşdur. Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilmiş, naməlum səbəbdən verilməmişdir. Sallı kənd 7- illik məktəbi onun adını daşıyırdı. Bu ad azərbaycanlılar 1949-cu ildə Sallıdan deportasiya ediləndən sonra məktəbə verilmişdir.

Mirzəyev Pirəli, Pənahov Nəbi, Kərimov Şahsuvar, Keçəl Eylas, Kamil Alcəfər oğlu, İsmayıl Kəlbəli oğlu (bu şəxslər müharibədə həlak olmuşlar) Mirzəyev Hüseyn, Bayramov

Fətəli,Fərzəliyev Məcid, Mustafayev İbrahim, Mustafayev Alışan, Mehrəliyev Möhbalı, Hüseynov Eylas, Mehrəliyev Mürsəl, Vəliyev Qurban Məmmədov Şamo, Məmmədov Nəcəf, Məmmədov Allahverən, Kərimov Zülfüqar, Fətullayev Usub, Hüseynov Qiyas,Rüstəmov Lətif, Sərxanov Surxay, Hüseynov Mirzəhüseyn, Dımı Məhəmməd

**Qeyd:** Professor Həsən Mirzəyevin "Qərbi Azərbaycan Dərələyəz mahalı" adlı kitabından götürülən bu məlumatları topladığı informatorların da adını olduğu kimi veririk.

**İnformatorlar:** Sallı kəndinin onomastik vahidləri haqqında 20 il bundan öncə dünyasını dəyişən sinədəftər, canlı ensiklopediya, el ağsaqqalı **Həziyev İman** 63 yaşında olarkən mənə xeyli məlumat vermişdir. Bundan başqa, həmin kənddə anadan olan hüquqşünas, filoloq, polis polkovniki **Rəhman Mustafayev** və 20 il bu kənddə həkim işləyən Qovuşuq kənd sakini **Səməndər Fərzəliyev** də bu kəndin toponimləri və 1941-1945-ci illərdə müharibəyə gedənlər haqqında məlumat vermişdir.

## SALLI KƏNDİ, 1831-Cİ İL
## KAMERAL SIYAHIYA ALINMASI

**Bərgüşad tayfası**

1. Kəndxuda Xudayar Mahmud oğlu 25 y; arvadı Sənəm 26 y; 2 qızı var: Səkinə 6 y; Qızbəsti 3 y; qardaşı oğlu Mahmud Məhəmməd oğlu 12 y(ölüb); anası Ağasultan 50 y.

2. Bəyməmməd Gülməmməd oğlu 15 y; qardaşı Vəliməmməd 7 y (ölüb); bacısı Hürüzad 12 y; anası Nənəqız 35 y.

3. Haxverdi Abdulla oğlu 50 y; arvadı Hürü 40 y; oğlu Talıb 20 y; (onun arvadı Səlbi 15 y).

4. Məhəmməd Məhərrəm oğlu 18 y(ölüb); 2 bacısı var: Nənəxanım 14 y; Pəri 4 y; anası Bacıqız 40 y.

5. Şükür Haxverdi oğlu 25 y; arvadı Hürü 20 y; qızı Fatma 4 y; qardaşı Allahverdi 7 y; anası Hənifə 40 y.

6. Məmmədalı Məmmədalı oğlu 40 y; arvadı Nənəxanım 40 y; oğlu Şaban 18 y; 3 qızı var: Bacıqız 10 y; Yetər 9 y; Amanyetər 5 y.

**Qarabağa köçüblər.**

7. Mahmud Alı oğlu 30 y; arvadı Reyhan 30 y; 2 oğlu var: Qurbanəli 8 y; Mehralı 1 y(ölüb); 2 qızı var: Mələk 9 y; Hürü 5 y.

8. Köçəli Hüseynalı oğlu 30 y; arvadı Gülşah 20 y; oğlu Hüseynalı 1 y; qardaşı Həzrətqulu 7 y; anası Fəxrinisə 60 y.

9. Təhmiraz Məhəmməd oğlu 30 y; arvadı Hürüzad 15 y.

10. Həsən Zeynalabdin oğlu 30 y; arvadı Sona 30 y, qızı Fatma 4 y; anası Yetər 70 y.

11. Bayraməli Səhləli oğlu 30 y; arvadı Qızyetər 25 y; oğlu Nəcəf 5 y; 2 qızı var: Şahxanım 7 y; Allahyetər 4 y; anası Arzuxan 70 y.

12. Həsən Nəzəralı oğlu 30 y; arvadı Səlbinaz 25 y; 2 qızı var: Hürü 7 y; Pəri 1 y.

13. Oruc Nəzəralı oğlu 40 y; arvadı Mələk 35 y; oğlu Məmmədhüseyn 20 y.

14. Molla İsmayıl Əli oğlu 40 y; arvadı Zöhrəbanu 20 y; oğlu

Mirzalı 5 y; 2 qızı var: Səfiyəbanu 3 y; Cahanbanu 1 y.

**Püsyanlı kürdlərin babalı tayfası**:

15. Məmmədalı Sarıxan oğlu 50 y(ölüb); arvadı Fatma 40 y; oğlu Cəfərqulu 20 y(ölüb); (onun arvadı Səkinə 15 y; oğlu Bayramqulu 1 y; ölüb).

16. Mustafa Məmmədalı oğlu 30 y; arvadı Gözəl 22 y; oğlu Həsənqulu 10 y; qızı Əminə 9 9 y.

**Qarabağın Püsyan kəndinə köçüblər**

**Qaraçorluların təhməzli tayfası**

17. Pənah Məmmədhüseyn oğlu 40 y; arvadı Xanxanım 60 y; oğlu Qulu 15 y; qızı Ağaxanım 9 y.

**Qarabağın Püsyan kəndinə köçüblər.**

Sallı kəndində 17 ailə, 33 kişi, 44 qadın, cəmi 77 adam yaşayır.

Bu kənd Səlimçayın yaxınlığında yerləşir. Ərazisi 14 verstdir, onun 20 xalvarı əkinə yararlı suvarılan torpaqdır. Çay və bulaqların suyundan istifadə edirlər. Az miqdar ot biçirlər, lakin ətraf dağlar əlverişli otlaqlardır

Buğda, arpa və darı əkirlər.

Kənddə 75 öküz, 73 inək, 45 buzov, 522 qoyun, 253 keçi, 26 at, 11 ulaq var.

Kənd xəzinəyə məxsusdur.

## SALLI KƏNDİ, 1842-Cİ İL KAMERAL SIYAHIYA ALINMASI

**Bərgüşad tayfası:**

1. Xudaqulu Mahmud oğlu 48 y;
2. Bəyməhəmməd Gülməmməd oğlu 27 y;
3. Haxverdi Abdulla oğlu 62 y; oğlu Talıb 32 y;
4. Şükür Haxverdi oğlu 36 y; oğlu Məhəmməd 7; qardaşı Allahverdi 19 y;
5. Məmmədalı Məmmədalı oğlu 52 y.
6. Mahmud Alı oğlu 45 y; oğlu Qurbanəli 20 y; 7. Köçəli Hüseynalı oğlu 41 y; qardaşı Həzrətqulu 19 y;
8. Bayraməli Səfalı oğlu 42 y; oğlu Nəcəf 17 y;
9. Molla İsmayıl Alı oğlu 52 y; oğlu Həsənalı 7 y;

**Şadmanlı tayfası:**

**5 il qabaq Qurdqulaq kəndindən gələn**

1. Hüseynqulu Hümbətalı oğlu 30 y; oğlu Məhəmməd 4 y;

**3 il əvvəl İrəvan qəzasının Çağan kəndindən gələn**

2. Alməmməd Mustafa oğlu 20 y;

**2 il qabaq Qarabağ qəzasının Darabas kəndindən gələn**

3. Məmmədhüseyn Rəsul oğlu 30 y;

**3 il əvvəl Ətyeməz kəndindən gələn**

4. Xıdır Hüseyn oğlu 25 y; oğlu Hüseyn 5 y;

**2 il qabaq Naxçıvan qəzasının Xalxal kəndindən gələn**

5. Kazım Hüseynalı oğlu 22 y;

**3 il əvvəl Keçili kəndindən gələn**

5. Kəndxuda Nəbi Kərbəlayi Fətəli oğlu 40 y; oğlu Abbasqulu 4 y;

**Yaddan çıxanlar:**

1.Mahmud Xudayar oğlu 26 y; 2. Mustafa Məhəmməd oğlu 25 y;

İslam dininin şiə məzhəbinə mənsubdurlar. 14 Naxçıvan xalvarı əkin var, 18 Naxçıvan xalvarı buğda, 23 Naxçıvan xalvarı arpa əkirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 85, nahiyə mərkəzinə 14 verstdir.

Əkinçilik və xalçaçılıqla məşğul olurlar. Dolanışıqları yaxşıdır.

Torpağı daşlı-gillidir. Öz meşəsi olmadığına görə, 5 verst məsafədə yerləşən Hors meşəsindən istifadə edirlər.

14 verst torpağı var, onun 20 xalvarı əkinə yararlıdır. Çay və bulaq suyundan istifadə edirlər.

Biçənəkləri az olsa da, ətraf dağlar yaxşı örüş yeridir. Buğda, arpa və darı əkirlər.

Kənddə 16 at, 120 iribuynuzlu, 257 xırdabuynuzlu heyvan var.

**İmzalar**: Xanasanlı tayfasını icma başçısı Əlihüseyn Məşədi Alməmməd oğlu (möhür); kəndxuda Nəbi Kərbəlayi Fətəli oğlu; Bayraməli Səfalı oğlu;

# GÖYÇƏ MAHALININ MOLLALI KƏNDİ

Bərdə rayonunun İmirli kəndində məskunlaşmış əhalinin tərkib hissəsini təşkil edən Göyçə mahalının Mollalı kəndinin tarixi dərin tədqiqat tələb edir. Əslən Göyçə mahalından olan araşdırıcı Salman Vilayət oğlu “Oğuz elinin müqəddəs ocağı” adlı kitabında Mollalı kəndinin tarixi haqqında maraqlı faktlar təqdim edir. O, yazır: “İndiki Martuni şəhərindən 19 kilometr şərqdə yerləşmiş Mollalı kəndi şimaldan Alçalı, şimal-şərqdən Qamışlı, şərqdən Çamırlı, cənub-şərqdən Gödəkbulaq və Yuxarı Zağalı, qərbdən Aşağı Gözəldərə və Gözəldərə, cənubdan isə Dərələyəz mahalının Sallı kəndləri ilə həmsərhəd olub. Relyefinə görə təbii səngərqala mahiyyəti daşıyan kənd üç tərəfdən dağlarla, bir tərəfdən isə dərin yarğanla əhatələnmişdi. Sıldırım qayalıq olan yarğanın dibindəki dərəyə yalnız bir cığırla düşmək mümkün idi. Oğuz türklərinin bu yurdda binələşməsinin tarixini öyrənmək üçün ciddi əmək sərf etmiş iqtisadçı alim Hacı Abbas Alıyevin və tədqiqatçı-jurnalist Qurban Əzizovun araşdırmalarına görə, Mollalının ilk sakinləri olmuş Hacınəsiblilər və Yekəalılar (Əzizuşağı) tayfaları XII əsrdə Türkiyənin İğdır mahalının Axura kəndindən köç edərək Araz sahilindəki Novruzlu kəndinə (Ermənistanın Qəmərli rayonu ərazisində), az müddət sonra isə indiki Qazax rayonunun Şıxlı kəndinə gəliblər. O zaman Şıxlının tez-tez gürcü basqınlarına məruz qalması tayfa ağsaqqallarını daha təhlükəsiz yerlər axtarmaq zərurəti ilə üzləşdirib və onlar Göyçə mahalındakı bu yeri bəyənərək, öz tayfalarını burada məskunlaşdırıblar. Beləliklə də, XIV əsrin əvvəllərindən başlayaraq bu oba da oğuz türklərinin Göyçədəki yurd yerlərindən biri olub və kənd onu binələşdirən tayfanın ağsaqqalının şərəfinə əvvəlcə "Yekəalılar", sonradan isə rəsmən bu kəndin bəyi olmuş Dünyamalı bəyin atası Molla Ali Sultanın şərəfinə "Mollalı" adlandırılıb. 1728-ci il tarixli "İrəvan əyalətinin icial dəftəri"nin 118-ci səhifəsində kənd məhz Yekəalıca kimi təqdim olunub. Həmin səhifədəki qeydlərdən o da bəlli olur ki, kəndin əhalisi osmanlıların şiələrə münasibətindən ehtiyatlanaraq müvəqqəti də olsa kəndi tərk edibmiş və kəndin ərazisi sahibsiz yer qismində sultanın mülkiyyətinə daxil edilibmiş. XVIII

əsrin ortalarında osmanlılar Qafqazdakı mövqelərini itirdikdən sonra kənd İrəvan xanlığının Göyçə mahalının inzibati bölgüsünə daxil edilmiş və 1800-cü ilə dair sənədlərdə Mollalı adı ilə təqdim olunmuşdur. 1828-ci ilə dair sənədlərdə, yəni İran-Rusiya, Türkiyə-Rusiya müharibələri zamanı erməni-rus hərbi birləşmələrinin Göyçə hövzəsində dağıtdıqları və erməni vilayətinin idarəçiliyinə verilərkən yaşayış üçün yararlı sayılan kəndlər barədə İ. Şopen tərəfindən ermənilərə istinadən hazırlanmış məlumat-siyahılarda Mollalı kəndinin adına rast gəlinmir".

S.Vilayət oğlunun fikrinə görə Mollalı kəndinin İ.Şopenin siyahısından kənarda qalması erməni məkirinin nəticəsi idi. Kameral təsvirlərin mahir bilicisi N.Əhmədlinin fikirincə İ.Şopenin məqsədi heç bir əhalinin bu siyahıdan kənarda qalmaması idiki bu əhali vergiyə cəlb edilsin. Lakin Osmanlı sultanlığı Azərbaycan ərazisini tutduqdan sonra şiə məhzəbinə mənsub olan bəzi kəndlər köçüb başqa-başqa ərazilərə gediblər. Eyni zamnada Mollalı kəndinin adı Alçalı, Qəfərli və.s adlara dəyişildiyinə görə bu cür problemlər ortaya çıxa bilərdi.

S.Vilayətoğlu yazır: "1873-cü ilin rəsmi statistikasında Mollalı kəndinin 232 nəfər türk sakini olduğu göstərilir. 1914-cü ildə Mollalıda əhalinin sayı artaraq 278 nəfərə (73 təsərrüfat) çatmışdı ki, bu fakt da erməni mənbələrində təsbitlənib. Beləcə, rəsmi sənədlərdən də göründüyü kimi, qədim tarixi olan bu kənd XIX əsrin əvvəllərində yaşadığı faciələrə baxmayaraq XX əsrin əvvəllərində də Göyçənin iri və abad yaşayış məskənlərindən biri imiş. Odur ki, 1918-ci ildə Göyçədə həyata keçirilən soyqırımı zamanı hədəfə ilk düşən kəndlərdən biri də Mollalı oldu. Amma ermənilərin gözləntilərinə rəğmən Mollalı sadəcə təslim olmadı; döyüşərək şəhid düşdü. Daşnak qoşunları Gödəkbulaq və Yuxarı Zağalı kəndləri istiqamətindən hücuma keçdikləri, Gözəldərə istiqaməti isə artıq ermənilərin nəzarətində olduğu üçün Mollalının digər türk kəndləri ilə əlaqəsi demək olar ki, kəsilmişdi. Kəndə yeganə kömək Çamırlıdan gəlirdi: təkcə Çamırlının yox, ümumən Göyçənin nüfuzlu şəxsiyyəti olan Hacı Nağının oğulları Həsən və Mustafanın başçılıq

etdiyi özünümüdafiə dəstəsi Mollalı fədailərinə silah və sursatla kömək etsə də, canlı qüvvə ilə yardım imkanında deyildilər. Çünki azsaylı dəstələri öz kəndlərinin müdafiəsində dayanmaq, gecəli-gündüzlü davam edən aramsız hücumların qarşısını almaq məcburiyyətində idi. Belə bir şəraitdə Hacınəsibli Cəlil İsmayılovun başçılıq etdiyi Mollalı müdafiəçilərinin nizami daşnak ordusuna uzunmüddətli müqaviməti təbii ki, mümkünsüz idi. Odur ki, kənd ağsaqqallarının ümumi iradəsi ilə 1918-ci ilin dekabrında Mollalı əhalisi Züldağ aşırımı ilə Dərələyəzə, oradan isə Şərura və Türkiyəyə üz tutdu. Qarlı aşırımlarda uşaqların və qocaların böyük əksəriyyəti qırıldı. 1922-ci ildə sovet hökumətinin çağırışından və təhlükəsizlik barədə zəmanətindən sonra doğma yurda qayıdan mollalıların sayı cəmi 170 nəfər, yəni 1914-cü ildəki əhalinin yarısından da az idi; başqa sözlə, əhalinin bir qismi Türkiyədən qayıtmamış, bir qismi Azərbaycanın müxtəlif regionlarına üz tutmuşdu. Kəndə isə o zamana qədər əlliyə yaxın erməni ailəsi köçürülmüşdü və beləliklə də 1922-ci ildə Mollalı, əhalisinin etnik tərkibinə görə qarışıq yaşayış məntəqələrinin siyahısına düşdü. Buna baxmayaraq, kənddə türklərin sözü hakim mövqedə idi. Kəndin ilk sovet rəhbəri də yekəalılar nəslindən İsə Əzizoğlu idi. Sonradan o Martuninin ən iri yaşayış məntəqələrindən olan Gözəldərənin revkomu və Zakfederasiyanın Mərkəzi İcraiyyə Komitəsinin üzvü də oldu. XX əsrin 30-cu illərində İsə Əzizoğlu 1918-ci ildə ermənilər tərəfindən Basarkeçər nahiyəsində dağıdılmış, sonradan bərpa edilməyən Göysu kəndinə köçdü və qısa zamanda bu kəndi abadlaşdırmağa müvəffəq oldu. 1930-cu il sentyabrın 9-da Ermənistanda tətbiq edilən bölgüyə əsasən Mollalı türklərin əksəriyyət təşkil etdiyi Basarkeçər rayonundan çıxarılaraq, etnik balansın ermənilərin xeyrinə olduğu Martuni rayonunun inzibati bölgüsünə daxil edildi. Kəndin ilk kolxoz sədri seçkilərində vaxtilə Mollalı özünümüdafiəçilərinə başçılıq etmiş Cəlil İsmayılovun fikri əsas kimi qəbul edilib və onun təkidi ilə Məhərrəm Fətəliyev (oğlanları Rəfi və İsmixan deportasiyadan sonra Bərdə rayonunun İmirli kəndinə köçüblər) sədr təyin olunub. Kənd partiya özəyinin katibi də türk olub: Fatma İsmayılova. Digər

məsul vəzifələrdə də əsasən türklər çalışıb. Kəndin baytar həkimi Cəlil kişinin oğlu Surxay, ambardarı Həmid Abbasov idi. Bir sözlə, özünün üçüncü həyatını yaşadığı müddətdə, 1922-1949-cu illər aralığındakı 27 il ərzində Mollalıda sayca ermənilər çoxluq təşkil etsələr də, əsas söz sahibi türklər olublar və buna görə Mollalı camaatı Cəlil İsmayılova minnətdar olub. İşlərin bu cür gedişi 1918-ci ildə Andraniklə vuruşmuş bir adamın, Cəlil İsmayılovun az qala tam erməniləşdirilmiş Martuni kimi bir rayonda at oynatması Ermənistan rəhbərliyindəki daşnakları ciddi şəkildə narahat edirdi. Onunla açıq mübarizəyə girişməyə risk etmirdilər. Çünki Cəlil qoçaq olduğu qədər də tədbirli idi və qanunlara ciddi şəkildə riayət etdiyindən onu ləkələməklə aradan götürmək sadəcə mümkün deyildi. Hər hansı başqa vasitə isə türklərin ayağa qalxması ilə nəticələnə bilərdi. Yeganə çıxış yolu onu dövlətin əli ilə uzaqlaşdırmaq idi ki, ermənilər bu qəbil ilk fürsətdən yetərincə yararlandılar”.

S.Vilayətoğlunun fikirincə erməni mənbəlrində Mollalı toponimi Alçalı kəndinin əvvəlki adı kimi təsniflənir. Əslində isə həm Mollalı, həm də Alçalı 1950-ci ilə qədər müstəqil ərazi vahidləri kimi paralel mövcud olublar. Azərbaycan tarixşünaslarını çaşdıran məqam isə ermənilərin 1922-ci ildə yenidən bərpa olunmuş Mollalının adını qeyri-rəsmi olaraq "Yuxarı Alçalı" kimi səsləndirmələri faktı olub.1949-cu ildə Mollalının əzəli sahiblərini deportasiya etdikdən az sonra, 1950-ci ilin martında buradakı erməniləri də Vedi rayonunda boşaldılmış türk kəndlərinə köçürdü. Elə həmin il Ermənistan SSR Ali Sovetinin qərarı ilə Mollalı kəndi bir inzibati vahid kimi ləğv edildi və ərazisi Alçalı kolxozunun (*erməni mənbələrində Aşağı Alçalı kimi təsniflənən və sonradan Ardzvanist adlandırılan qədim türk kəndi*) sərəncamına verildi.

Bərdə rayonunun İmirli kəndində yaşayan Mollalı kənd sakinlərindən 1941-ci ildə doğulmuş Ələddin Novruzovun sənədlərində kəndin adı Alçalı kimi göstərilmişdir. Odur ki, bu məsələ ciddi şəkildə araşdırılmalı və Mollalı, Alçalı məsələsinə aydınlıq gətirilməlidir.

# MOLLALININ TANINMIŞ ŞƏXLƏRİ

## İsmayılov Surxay Cəlil oğlu.

1926 -cı ildə anadan olmuş, 1939-cu ildə Mollalı kənd yediillik məktəbini, 1942-ci ildə İrəvan Kənd Təsərrüfatı Texnikumunu bitirmiş, 1945-1948-ci illərdə hərbi xidmətdə olmuş, 1949-cu il repressiyaları zamanı kənd əhalisinin mütəşəkkil qaydada köçürülməsi, kompakt şəkildə yerləşməsi, kolxozun varidatının qorunub saxlanması yönündə müstəsna xidmətlər göstərmişdir. 1949-cu ildən etibarən Əli-Bayramlı rayonunun Muğangəncəli kəndində məskunlaşan Surxay Cəliloğlu öz işgüzarlığı, prinsipiallığı sayəsində çox qısa müddətdə rayon rəhbərliyinin diqqətini çəkərək 1950-ci ildə Partiya Komitəsinin kənd təsərrüfatı şöbəsinə təlimatçı təyin olunub. 1954-cü ildə Gəncədə kənd təsərrüfatı rəhbərlərinin ikillik hazırlıq kursuna göndərilən Surxay Cəliloğlu təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra bir sıra təsərrüfatlarda məsul vəzifələrdə çalışmış, paralel olaraq Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında təhsil almışdır. Hansı sahəyə göndərilməsindən asılı olmayaraq, o qısa müddətdə işlərdə ciddi dönüş yaratmış və bu qabiliyyəti ilə respublika rəhbərliyinin diqqətini cəlb etmişdir. 1969-cu ildə Azərbaycan SSR-in o zamankı sovxozlar nazri Əziz Əzizovun şəxsi göstərişi ilə Surxay İsmayılov Sabirabad rayonunun geri qalmış təsərrüfatlarından olan 6 nömrəli sovxoza direktor təyin olunub və özünün yüksək təşkilatçılıq qabiliyyətini bir daha təsdiqləyərək, 1974-cü ildə Neftçala rayon Aqrar Sənaye Birliyinin baş aqronomu təyin olunub. Harada işləməsindən asılı olmayaraq həmişə prinsipial vətəndaş mövqeyi, ədalətli rəhbər imici və bacarıqlı mütəxəssis keyfiyyəti ilə seçilən Surxay Cəliloğlu bütün həyatını doğma Azərbaycanın tərəqqisinə sərf etməklə yanaşı, hələ lap erkən gəncliyindən üzərinə düşmüş bir missiyanı- Molalı camaatının ağsaqqalı olmaq missiyasını da şərəflə yerinə yetirmişdir.

**Əzizov Qurban İsə oğlu**.

1932-ci ildə Göyçə Mahalının Mollalı kəndində anadan olmuş, Pedoqoji Məktəbi, Gəncə Kənd Təsərrüfatı İnstitutunu və Bakı Ali Partiya Məktəbini bitirmiş, uzun illər Basarkeçər rayon Partiya Komitəsində çalışmış, müxtəlif dövrlərdə Göysu və Zod təsərrüfatlarına rəhbərlik etmiş, Ermənistan KP MK-nın orqanı olan "Sovet Ermənistanı" qəzetinin Sevan, Kamo, Martuni, Vardenis, Krasnoselo, İcevan, Dilican rayonları üzrə xüsusi müxbiri işləmişdir. 1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Günəş kəndinə köçmüşdür.

**Alıyev Abbas İsmayıl oğlu**

25 may 1938-ci il tarixində anadan olmuş, valideynləri 1948-ci il deportasiyaları zamanı Azərbaycana köçdükləri üçün orta təhsilini Şəmkir stansiyasındakı məktəbdə tamamlamış, Saratov Ali Hərbi Məktəbini və Bakı Dövlət Universitetini bitirmişdir. 1966-cı ildən Gəncə Kənd Təsərrüfatı Akademiyasında müəllim işləyir. Ərəb, yunan, ingilis və rus dillərini bilir. 1988-ci ildə Həcc ziyarətində olub. İqtisad elmləri namizədi, dosentdir.

**İsmayılov İlqar Surxay oğlu**

1965-ci ildə Salyan rayonunun Qaraçala kəndində anadan olmuş, 1993- cü ildə Bakı Dövlət Universitetinin hüquq fakultəsini bitirmişdir. 1992-ci ildə könüllülər sırasında Qarabağ uğrunda döyüşmüşdür. 1998-ci ildən ədliyyə sistemində çalışır. Hazırda Bakı Ağır Cinayətlər Məhkəməsinin İcra və Probasiya şöbəsinin rəisidir.

## İsmayılov İlham Surxay oğlu



1 may 1960-cı ildə (1948-ci il deportasiyasından sonra məskunlaşdığı) Salyan rayonunun Qaraçala kəndində anadan olmuş, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirmiş, əmək fəaliyyətinə fəhləlikdən başlayaraq Salyan rayon İcra Hakimiyyəti başçısının müavini vəzifəsinə qədər yüksəlmişdir. 1994-1998-ci illərdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Pambıq emalı və satışı" idarəsinin rəis müavini işləmişdir. 1988-ci ildən müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğuldur. "Klassik-A" şirkətinin baş direktoru, Respublika Sahibkarlar Şurasının üzvü, "Simurq" Milli Mükafat Fondunun "Məsuliyyətli və mübariz Azərbaycan vətəndaşı" mükafatının laureatıdır.

Tanınmış ictimai xadim İlham İsmayılovun Türk dünyasıyla bağlı fəaliyyəti qürurvericidir.

## HACINƏSİBLİ CƏLİL KİŞİ

Göyçə mahalının Mollalı kəndində sovet höküməti qurulduqdan sonra Hacınəsibli Cəlilin atası Süleyman kişinin torpaqları, mal-heyvanları əllərindən alındı. Yerli bolşeviklər Cəlildən yanıqlı olan erməni danosbazları NKVD-yə Cəlil haqqında qalaq-qalaq ərizələr yazır, nəyin bahasına olur olsun, onu aradan götürməyə çalışırdılar. Buna görə də Cəlil tez-tez sorğu-suala çəkilirdi.

Cəlil kişinin nəvəsi tanınmış ictimai xadim İlham İsmayılov: “Cəlil babamın Türklərlə birgə ermənilərə qarşı vuruşduğu və göstərdiyi şücaətə görə Osmanlı dövlətindən medal və beşaçılan tüfənglə mükafatlandırıldığını ermənilər yaxşı bilirdi. Bu haqda təhlükəsizlik orqanlarına şikayətlər etmişdilər. Babam deyirdi ki, beşaçılanı yağlı əskiyə büküb at tövləsində güc çatmayan iri bir daşın altında gizlətmişdi. Bu haqda əmimgil bilsə də, Sovet döv-

rünün basqısından ehtiyatlanan, onlara dillə desək "kulak" babam ömrünün sonuna yaxın Mollalının axarlı-baxarlı, meşəli-dağlı, buz bulaqlı, aşıb daşanda isti kababın ətrindən, dadından, dadlı nemətlərin dadından məst olub, şiri-nərə dönən, dost yolunda bütün vardövlətini verməyə hazır olan oğullardan danışarkən kövrəlirdi. Qədim Göyçə üçün burnunun ucu göynəyirdi. Fatma nənəm danışırdı ki, NKVD-nin atlıları sübh tezdən qapımıza gəldilər. Cəlili aparacaqlarını söylədilər. Cəlil:-min hektarla torpağımızı əlimizdən aldınız, mal-heyvanlarımızı könüllü olaraq kolxoza verdik, indi məndən nə istəyirsiniz? Cəlil bu sözləri deyib atlıların qabağına düşəndə arxaya, biz tərəfə baxdı. Gözləri səyriyirdi, əsəbindən tir-tir əsirdi, elə bu vaxt dodaqları çartladı, verdiyim dəsmalla qanını sildi, titrək səslə, salamat qalın, balalarım əmanəti deyərək yola düşdü.

Maraqlıdır ki, Cəlil kişi çoxlu varı-dövləti, sürü-sürü qoyunları, hektarlarla torpaq sahəsi olub. Təzə yaranan Ermənistan dövlətinin arxivlərində ən yaxşı vergi ödəyicisi kimi tanınıb. Bu haqda babamın daşdan keçən sənədləri var. Ermənilər bu sənədləri babamı şübhəli şəxs qismində "qolçomaq" tanıtdırmaq üçün çox güman ki, babamgil öz ata-baba torpaqları Göyçədən qovularkən Azərbaycana göndərmişdir. Onlar bununla Cəlili Sovet hökumətinə yararsız adam olduğunu demək istəyirdilər”.

Qeyd etmək lazımdır ki, Hacınəsibli Cəlil kişinin həyat və fəaliyyətinin ciddi araşdırmağa ehtiyac var.

## KAZIM QARABƏKİR PAŞA İLƏ GÖRÜŞƏN GÖYÇƏLİ AŞIQ MƏHƏRRƏM

Aşıq ədəbiyyatının müxtəlif janrlarında Qoşma, Çığalı təcniz, Divani, müxəmməs janrında gözəl ədəbiyyat nümunələri yaradn Alçalı (Mollalı) Aşıq Məhərrəm Mollalı kəndinin nə qədər zəngin folklor mühiti olduğunun bariz nümunəsidir. Alçalı (Mollalı) Aşıq Məhərrəmin yuxarıda göstərilən janırlarda müxtəlif aşıq şerlərini professor Qara Namazov "El çələngi" (xalq şeirindən seçmələr)

toplusunda vermişdir.

Aşıq ədəbiyyatı antalogiyalarında Aşıq Məhərrəm haqqında verilən məlumatlara deyilir: "1825-ci ildə Göyçə mahalının Alçalı kəndində dünyaya göz açmışdır. Aşıq Alıya şəyirdlik etmiş, xalq arasında kamil sənətkar kimi hörmət qazanmışdır. Aşıq Məhərrəm 1910-cu ildə dünyasını dəyişmişdir".

Araşdırmalar göstərir ki, Alçalı Aşıq Məhərrəmlə bağlı yuxarıda verilən məlumatlar həqiqəti əks elətdirmir. Belə ki, 1949-cu ildə Göyçə mahalında əvvəlcə Əli Bayramlıya sonra isə çətinliklə Bərdə rayon İmirli kəndinə köçürülmüş Mollalı camaatı arasında onun qohumları yaşayır. Bu şəxslərdən biri Alı Novruzovun nəvəsi ali təhsilli fizika müəllimi İlyasov Kərəm Köçəri oğlu 90-cı illərin əvvəllərində Türkiyədə müəllimlik fəaliyyəti ilə məşğul olarkən Aşıq Məhərrəmlə bağlı axtarışlar edib. K. İlyasov Ərzurum, İqdır, Kars şəhərlərini gəzərək Alçalı Aşıq Məhərrəmin izinə düşə bilib.

Kərəm İlyasov araşdırmalar nəticəsində Aşıq Məhərrəmin uzun illər Türkiyənin Qars şəhərində yaşadığını müəyyən edə bilmişdir. O, Aşıq Məhərrəmin yaxın qohumlarını o cümlədən doğma bacısını tapıb onlardan Ustad haqqında məlumatlar əldə edib.

Kərəm İlyasov: "Türkiyədə yaşayan qohumlarımızdan əldə etdiyim məlumatlara görə Aşıq Məhərrəm 1918-ci il qırğınlarından xilas olmaq üçün 2 qardaşı (qardaşlarından birnin adı Əşrəf olub digər qardaşın adını dəqiqləşdirmək mükün olmadı) 4 oğlu ilə birlikdə Mollalı kəndindən Dərələyəz mahalı üzərindən Türkiyə keçərkən yolda faciə ilə qarşılaşıb. Dərələyəz mahalından keçərkən onun 4 oğlu ermənilər tərəfindən qətlə yetirilib. Bu faciədən sonra onlar 3 qardaş Türkiyənin Qars bölgəsinə gəlib çıxıblar".

Onu da qeyd edək ki, Türkiyədə milli mücadilə hərkatının geniş vüsət aldığı bu dönəmlərdə hərbi sərkərdə Kazım Qarabəkir Paşa Qars vilayətinə gələrkən Aşıq Məhərrəm onunla görüşüb. Aşıq Məhərrəmin Paşam gavurun əlindən Sizə sığınmışıq amma burada da halımız pərişandı dolanışığımız yoxdu deyə bildirmişdir. Ordu komandanlarından biri olan Kazım Qarabəkir Paşa Aşıq Məhərəm və qadaşlarına dəyirman tikilib verilməsinə göstəriş

verib. Bundan sonra Aşıq Məhərəm və qardaşlarının dolanışıqları təmin edilib. Aşıq Məhərrərm altmışıncı illərə qədər həmin bölgədə özanlıq edib böyük ad-san qazanıb.Azərbaycan Aşıq ədəbiyyatına Alçalı Aşıq Məhərərm kimi adıkeçən şəxsin Alçalı təxəllüsü də mübahisə doğurur. Çünki Aşıq Məhərrəm yaşadığı kəndin adı əvvələr Mollalı olmuşdur o həmin kənddən çıxdıqdan bir neçə il sonra kəndin adı dəyişdirilərək Alçalı olmuşdur. Odur ki Aşıq Məhərrəmin Alçalı təxəllüsü götürməsi inandırıcı və məntiqli deyil. Göyçə aşıq mühitinin parlaq simalarından olan Aşıq Məhərəmin yaradıcılığı və şəxsi həyatının ciddi tədqiqata ehtiyacı var.

Aşıq Məhərrəmin şeir çələngindən nümunələr:

**Gəlmədi**

Ey gözəl, səni təhrində
Huri, qılman gəlmədi;
Yıxdın könlümün evini,
Oldu viran, gəlmədi;
Açılsın mah camalın,
Qoy olsun bayram günü;
Cümlə cahan həsrət çəkir
Mahi-ruhan gəlmədi.

Düşdü eşqin ataşına,
Yandı səməndər kimi;
Söz sinədə cuşa gəldi,
Cəm oldu dəftər kimi;
Heç mahalda ustad yoxdu.
Aşıq Ələsgər kimi;
Yüz yerdən qətrə oynadı,
Belə ümman gəlmədi.

Məhərrəməm, əzbərimdi
Sirri-sübhan ibtida;
Ondan münkir olan kimsə.
Məhşərdə tapmaz cada;
Müxənnətə bel bağladım.
Zəhmətim getdi bada;
Bağlandı namərd kisəsi,,
Daha dövran gəlmədi.

**Çəkirəm**

Ay hazarat, qulaq verin,
Görün, nə bəla çəkirəm:
İki arvadın əlindən
Qazamat, qala çəkirəm;
Qədd əyilir, bel bükülür,
«Əlif»i «dal"a çəkirəm;
Dərdi qanmaza demərəm,
Mən əhli-hala çəkirəm.

Dedim ki, xoşbəxt olaram,
Mən də alaram birini;
Yrxıldım dul arvada,
Qanmadım acı-şirini;
İstəyirəm söhbət edəm,
Öyür əvvəlki ərini;
Olmaz bəlaya düşmüşəm,
Sübhədək nala çəkirəm.

Getdim gördüm, böyük arvad
Kiçiyə çox kəsim satır;
Kiçiyi böyügə deyir:
Eşşəkdən törəmiş qatır;
Səsləri düşüb aləmə,

Bir-birinə şıllaq atır;
Mətləbi yazdım dəftərə,
Özgə mahala çəkirəm.

Necə ki cavan idim,
Gəlmirdi mənim eynimə;
Dedim, alım iki gözəl,
Paltarım salar çiynimə.
Yetişdim doxsan sinnimə,
Təqsirim allam boynuma;
Asqırıram, öskürürəm,
Hərdənbir dala çəkirəm.

Məhərrəməm, nə deyim
Bu dünyanın kəc işinə;
Aqillər, ürəfalar
Gərəkdir bunu düşünə;
Huş verib, guş tuturam
Çarxı-fələk gərdişinə;
Hikmətə sirr qalmışam,
İndi kamala çəkirəm.

## Çəp

Sən dənizsən, məi dəryayam,
Sən özünü bilmə çəp;
Çin-çin eylə şahmar zülfün,
Yar, boynuna salma çəp;
Sinən çarsı, məmən dükan,
Müştəriyəm bazarda;
Sən satgıian, qoy mən alım,
Mənim ilə olma çəp.

Şahi-cahan, mərdi-sultan,
Ərənlərin sərvəri,
İsmi Əli, özü vəli,
Yəni yerin ləngəri;
Əntərə çaldı qılıncı,
Fəth eylədi Xeybəri;
Möminlərə irəhbərdi,
O xəyala dalma çəp.

Ey Məhərrəm, sidq-dillə
Sığın ağan Heydara;
Haqqı bil, mövlaiı tanı,
Qalma aciz, avara.
Şahi-Mərdan sayəsində
Haçan gəlsən bazara,
Vur, çalxansın, qat bəhrini,,
Girdabında qalma çəp.

## Mən evlənməz idim

Vallahi, bilsəydim işi,
Adı mən evlənməz idim;
Gər biləydim ki, budu
Dadı, mən evlənməz idim.
Edəcəm qəmli könli-şadı
Mən evlənməz idim;
Olacam arvadın arvadı
Mən evlənməz idim.

Dedim, birini də alım,
Qoy, iki arvadım ola;
Birisi dərdə şərik,
Birisi övradım ola;
İkisindən törəyə,
Bir neçə övladım ola;
Gər biləydim, belə bicadı,
Mən evlənməz idim.

Nə bilim, təzə gələn
Köhnəyə hədyan deyəçək;
Köhnə də təzəyə «heyvan
Qızı, heyvan» deyəcək;
Oturub bir-birinə
Min çürə böhtan deyəcək;
Gələcək qonşu, qohum, yadı,
Mən evlənməz idim.

Nə bilim, Zalxa dua
Yazdıraçaq at nalına;
Eşidənlər yanacaq
Mən fağırın əhvalına;
Söyəcək hər ikisi
Mən yazığın saqqalına;
Deyəcəklər: ifritdi, qocadı,
Mən evlənməz idim.

## Tərsi tərsinə

Dağlar al geyinib, ellər qırmızı,
Hüsnün zinət verir tərsi-tərsinə.
Aşıq deyər, qəddi tər,
Lıbası tər, qəddi tər.
Bu gün bir hikmət gördüm -
Mürdəsində qədd itər.
Qoy söykənsin köynəyinə qəddi tər,
Sinən tərdi, köynək tərsi-tərsinə.

Mərd igidlər çörək verər, hey alı,
Namərd sənsən, çörək səndən həyalı.
Aşıq deyər, həyalı,
Gözəl gəzər həyalı.
Bədəsil əsil olmaz,
Əsil olan həyalı.
Yornuq maral otlar, gəzər hey yalı,
Ülkər ovçusundan tərsi-tərsinə.

Məhərrəm, aç gözün həyat içində,
Dolan, gəz cahanı həyat içində.
Aşıq həyat içində,
Xalın həyat içində.
Bir canlıdı, bir cansız,
On baş həyat içində.
Qapısız-bacasız həyat içində,
Götürüb qoyarlar: tərsi-tərsinə.

## Yana yana

Bir üzügülməzin, bəxtiküskünün,
Ağladım dərdinə ha yana-yana.
Aşıq deyər ha yana,
Qəlbin oda ha yana.
Yaxşı dostu unutma,
Canın oda ha yana.
Çəksən də zəhmətin qədirbilməzin,
Axırda qalarsan ha yana-yana.

Ağanın hökmü ilə dərya dayandı,
Suya qərq olana dərya da yandı.
Aşıq deyər nə yandı,
Nə yandırdı, nə yandı.
Kərəm oldu eşq əhli,
Axır oda nə yandı.
Məcnunu öldürdü Leyli həsrəti,
Eşqi sinəsində ha yana-yana.

Məhərrəm, qəlbini üzən nə qandı?
Düşünməzlər bu dünyadan nə qandı?
Aşıq deyər nə qandı,
Nə yaradı, nə qandı.
Ağıllı yüz ad dedi,
Qanmaz ondan nə qandı?
Bir gün olar bu dünyadan köçərsən,
Ağlıyar dostların ha yana-yana.

## Bulaqlar

Mən bilirəm, zimistanın qəhrindən
Ağ niqab örtübsən üzə, bulaqlar!
Yaşılbaş sonalar tərk olub səndən,
Həsrətsən gəlinə, qıza, bulaqlar!

Cənnətül-məvadan olmusan təyyar,
Üstündə gəşt eylər cümlə ərənlər
Sənə bəxş eyləyib bir pərvərdigar,
Qüdrət yeygisindən təzə bulaqlar.

Üstündə çəm olar türfə gözəllər,
Ağ sürüynən ətrafını bəzəllər.
Mərd iyidlər ağır xonlar düzəllər,
Xanlar mehman gələr sizə, bulaqlar!

Qarlı dağlar alçaqlanmaz, ucalmaz,
Ləşgər çəkib xotkar ondan bac almaz.
Səndən içən hicran çəkib qoçalmaz,
Yetirsə də sinni yüzə, bulaqlar!

Məhərrəm arzular, gəlsin baharın,
Ərisin girmələr, tökülsün qarın,
Dad versin dahanda Abi-Kövsərin,
Olsun içənlərə məzə, bulaqlar!

# DƏRƏLƏYƏZ MAHALININ QOZULCA KƏNDİ

Qozulca kəndi Dərələyəz mahalında ən qədim kəndlərdən biridir və Yeğeqnadzor (Keşkənd) rayonunun ərazisindədir. Bu kənd Qoytul, Çive, Heşin, Ardaraz, Almalı kəndlərinin yaxınlığında yerləşir.

Tarixi və statistik mənbələrdən məlum olur ki, Qozluca kəndində 1831-ci ildə 60 nəfər, 1873-cü ildə 342 nəfər, 1886-cı ildə 549 nəfər, 1897-ci ildə 630 nəfər, 1904-cü ildə 647 nəfər, 1914-cü ildə 711 nəfər, 1916-cı ildə 371 nəfər azərbaycanlı yaşamışdır.[26]

1918-ci ildə şovinist daşnak hökumətinin, erməni millətçilərinin, Andranikin, Yaponun quldur dəstəsinin köməyi ilə Ardaraz kəndi dağıdılıb yandırılmışdır. Buradakı əhalinin çoxunu ermənilər işgəncə verə-verə öldürmüş, damlara doldurub od vurmuş və kəndi yerlə-yeksan etmişlər. Əhali pərən-pərən düşüb hərəsi bir yana qaçmışdır. Qaçanların əksəriyyəti isə Şərura, Naxçıvana pənah aparmışlar.

1922-ci ildə kəndə cəmi 92 nəfər qayıtmışdır. Ermənilər əvvəlcə onları öz kəndlərinə buraxmamışlar. Lakin sonralar zaman-zaman sağ qalanlar, qaçqın düşənlər öz kəndlərində - Qozulcada məskunlaşmağa başlamışlar. 1930-1940- cı illərdə burada azərbaycanlıların sayı çoxalmış, kəndin məktəbi, klubu geniş şəkildə fəaliyyət göstərmişdir. Belə bir faktı da demək lazımdır ki, bu kənd Nikolay dövründə 15 kəndin (Ağkilsə, Əynəzur, Almalı, Ardaraz, Arpa, Vartenis, Gənəli, Heşin, Kömürlü, Namazlı, Rind, Çive, Yelpin, Ertiş) mərkəzi olmuş və qlava həmişə bu kənddə oturmuşdur. Mərkəz hesab olunan bu kend son dövrlərdə də mərkəz

---

[26] И.Шопен. Исторические памятники состояние армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852, стр. 615; Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, № 1042; Z.Korkodyan. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931), Yerevan, 1932, səh. 92; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh. 357, H.Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, səh. 245; Историческая география За подного Азербайджана, Баку, 1998, стр. 139.

kəndlərdən birinə çevrilmişdir.

Lakin ermənilər başqa kəndlər kimi bu kəndin də inkişafının qarşısını almışlar. Belə ki, 1948-1953-cü illər deportasiyası dövründə bu kəndi də köçürməyi qərara almışlar. 1949-cu ildə bu kəndi Azərbaycanın isti yerlərinə, Saatlıya, İmişliyə, Sabirabada, Salyana deportasiya etmişlər. Kənd camaatının bir qismi isə Şərur rayonunun Oğlanqala, Dizə və digər kəndlərində qalmağa nail ola bilmişlər. Bir sözlə, Qozulca kəndinin əhalisi də öz doğma yurdundan qovulub pərən-pərən olmuşdur.

Qozulca sözünün mənşəyinə gəldikdə demək lazımdır ki, bu söz həmin kəndin relyefi ilə bağlı əmələ gələn toponimdir. Belə ki, bu kənd iki uca dağın və bir uca qayanın arasında yerləşir. Şimaldan Topdağı, şimal-şərqdən Yalyurd dağı, şərqdən isə uca, sıldırım, Laçın qaya ilə əhatə edilmişdir. Ona görə də səhər saat 10-a, 11-ə qədər bu kəndin üstünə gün düşmür. Axşamüstünə yaxın vaxtda da bura gün düşmür. Çünki bu uca dağlar və qayalıq günün qabağını kəsir. Ona görə də bura digər kəndlərə nisbətən kölgəli və soyuq olur. Bir sözlə, bu kəndin yeri quzeydir. Fikrimizcə, bu ad da elə həmin kəndin relyefinə görə verilmişdir.[27]

Dilçiliyə dair qədim mənbələrdən, həmçinin "Qədim türk dilinin lüğəti"ndən məlum olur ki, tarixən dağın gün düşməyən hissəsinə, günəşin az düşdüyü yerə "quz" deyilmişdir: "Quz" часть горы, не освещаемая солнцем гора, не освещаемая солнцем" (МК 1325).[28]

Görünür, müəyyən müddət keçdikdən sonra, "quz" sözü həmin mənanı tədricən itirmiş və ona məkan bildirən -lu (-ul) və kiçiltmə bildirən -ca şəkilçisi artırılmışdır.

Tarixi mənbələrdən belə bir fakt da məlumdur ki, türk dillərində sait səslər bir-birini əvəz edə bilir. "Qədim türk dili lüğəti"ndəki "qoz-quz", "quzan-qozan", "quzi-qozi" sözlərini, S.E.Malovun "Qədim türk yazılı abidələri" kitabındakı "qızıl-гузул", "гору

---

[2] Mirzəyev H. Qozluca kəndi və onun onomastik vahidləri, Filologiya məsələlərinə dair tematik toplu, No 3-4, Bakı, 2001, s.106-213.
[28] Древнетюрский словарь. Ленинград. 1969, с.475.

ягненОК" (quzu), V.V.Radlovun "Опьт сло- варя тıоркских наречий" adlı kitabındakı "qor-qör", "qözəl-qüzəl", "qözqü- (güzgü)" sözləri. G.V.Sevortanın "Türk dillərinin etimoloji lüğəti"ndəki "qoz- qöz", "qüz-qöz" sözlərini və buradakı dəyişmələri buna misal göstərmək olar.[29]

Qeyd etmək lazımdır ki, yuxarıda haqqında danışdığımız "quz" sözünün izləri dilimizdə indi də qalmaqdadır. "Quzey" (gün az düşən yer) sözü, "quzulamaq" sözü (nəmlikdən divarın,müəyyən tikilinin, torpağın quzulanması, yəni tökülməsi, dağılması, yaş olması, nəm olması) buna canlı misaldır. Fikrimizcə, dilimizdəki "güz" (küz-payız), "güzəm" (payız yunu), "güzdük" (payızda əkilən taxıl) sözləri də həmin "quz" sözü ilə bir məna yuvasından nəşət etmişdir, formalaşmışdır.

Qozulca sözünün mənşəyindən bir daha aydın olur ki, bu kəndin tarixi çox qədim dövrlərə gedib çıxır. Deməli,türk xalqlarının bu yerdə məskunlaşması və bu kəndin belə adlanması Azərbaycan xalqının tarixi ilə, bu yerlərdə onların lap qədim dövrdən məskunlaşması ilə bağlıdır.

## QOZULCA KƏNDİNDƏ OLAN ONOMASTİK VAHİDLƏR

**Tayfalar:**

1. Kalba Qəmbər tayfası
2. Məmmədqulular
3. Tatlar
4. Təkəçilər tayfası
5. Fərzalılar tayfası
6. Seyidlər tayfası
7. Məhərrəmlər tayfası

---

29 . Древнетюркский словарь. Ленинград, 1969, стр.475; 462, С.Е.Малов. Памятники древнетюркской письменности. Москва, 1951, стр.414, 417; В.В.Радлов "Опыть словаря тюркских наречий" том II, часть II, С.Петербург, 1899, стр. 1584, 1588, 1610; Э.В.Севор- тян. Этимологический словарь тюркских языков. В-Д., Москва, 1980, стр.60-61; Статис тическое описание Нахичеванской провинции, Санкт-Петербург, 1833, стр. 174-175.

**Məhəllələr**

1. Sağ məhəllə
2. Aşağı məhəllə
3. Təkəçilər məhəlləsi
4. Məmmədqulular məhəlləsi
5. Fərzalılar məhəlləsi

**Dağ adları**

1. Top dağı
2. Yalyurd dağı
3. Qılınc dağı
4. Başkaha dağı
5. Tarlı dərə dağı
6. Pələngdərəsi dağı
7. Ağ şırran dağı
8. Uçuq dağ

**Dərə adları**

1. Hacı dərəsi
2. Kaha dərəsi
3. Güllü dərə
4. Şorru dərə

**Kaha adları**

1. Dirəkli kaha (insan yaşayıb, qayasında alban əlifbası ilə yazı olub. 500-ə qədər qoyun tutur)
2. Zağan yuvası kahası
3. Əsəd kahası (tatların kahası)
4. Baş kaha (iri mağara, 100 qoyun tutur)

**Yer, kövşən, yamac, arxac, bağça adları**

1. Armudlu düz
2. Çərək daşı (böyük qayadır)
3. Gölyeri
4. Məhəmməd yeri (əkin yeri)
5. Biçənək yamacı
6. İydəlik
7. Bağlar
8. Qırmızı qaya (arxac)
9. Güllü gədik
10. Kalba Tağı bağçası
11. Daş nov (qədim yaşayış məskəni olub)
12. Dörd tək yer[30]
13. Söyütdü
14. Ülgür yer[31]
15. Sallana

---

[30] Bu yerə ondan ötəri Dörd tək yer deyirmişlər ki, kəndin arasında bölünən torpaq dörd tayfa arasında bölüşdürülmüş və arada bir tək yer qalırmış.

[31] Ülkər ulduzu çıxanda işığı yerə vurduğu üçün həmin yer Ülgür yer adlanır

**Yaylaq adları**

1. Boynu yoğun yaylaq[32]
2. Vəlibəy yaylağı
3. Siçanlı yaylağı
4. Qara göllər[33]
5. Payız yurdu[34]
6. Mahmıtdı yurdu[35]
7. Yal yurt[36]

**Meşə adı**

1. Qızıl gül meşəsi

**Çay və bulaq adları**

1. Qızlar bulağı
2. Şadman bulağı
3. Temo bulağı
4. Eylas bulağı
5. Qara bulaq

**1937-ci ildə siyasi məhbus olanlar (repressiya qurbanları)**

1. Məhərrəmov Həşim (qayıtmayıb)
2. Məhərrəmov Həbib (qayıtmayıb)
3. Quliyev Həmzə (qayıtmayıb)

---

[32] Bu yaylaq ondan ötrü belə adlanıbmış ki, dağın dibi nazik dərə, çuxur və s. getdikcə dağ genişlənir, yəni yoğunlayır.

[33] Gölə qara su axdığı üçün belə adlanır.
[34] Camaat payız gələndə bu yurda düşərlərmiş.
[35] Mahmıtdılar düşərmiş.
[36] Bu yurd dağın yalında yerləşir.

## 1941-1945-ci il Böyük Vətən müharibəsi iştirakçıları

Xuduyev İbrahim Hümbətalı oğlu, Xuduyev İsa Hümbətalı oğlu, Qəmbərov Məcid Əhməd oğlu,Çoban Məhəmməd, Xıdırov Yusif Nəbi oğlu, Hüseynqulunun qardaşı Budaq, Seyidov Mirağa Seyid Ağəli oğlu, Keçəl İsmayıl (bu şəxslər müharibədə həlak olublar) Quliyev Məhəmmədəli Nəcəf oğlu, Xuduyev Firudun Hümbətalı oğlu, Quliyev Şadman, Quliyev Həbib, Pəno Musa, Molla Məhəmməd, Məhərrəmov Nəriman, İbrahimov Şadman Musa oğlu,Tağıyev Hidayət (Sarı Hidayət), Xıdıroğlu Vəli Xıdıroğlu Əli, Keçəl Müseyib, Soğansatan İsmayıl, Seyidov Əbülfəz, Seyidov Mirməcid, Seyidov Mirqasım, Nəcəfov Əli Məhəmməd oğlu, Dadaşov Abdulla Abbas oğlu, Quliyev İsmayıl Cəfər oğlu, Çoban Müseyibin oğlu İsmayıl, Xıdıroğlu Vəli Xıdır oğlu, Xıdırov Əli Xıdır oğlu, Qənbərov Müseyib Əbdülkərim oğlu (bu şəxslər müharibədən vətənə dönmüşdür)

## Qozulca kəndindən olan seyidlər

Seyid Əli ağa (Qoca Seyid) ocağı, Seyidov Mir Hadı, Seyidov Mir Məcid, Seyidov Əbülfəz, Seyidov Yusif, Seyidov Mir Səmeh, Seyidov Mir Abbas, Seyidov Ağəli, Seyidov Mirməhəmməd, Seyidov Mirqasım, Seyidov Mir Nəzir

## Qozluca kəndindən olan adlı-sanlı adamlar

Qeyd etmək lazımdır ki, Qozulca kəndindən həm qədim, həm də sonrakı dövrlərdə xeyli adlı-sanlı, tanınmış-seçilən adamlar olmuşdur ki, bunlardan bəzilərinin adını çəkmək gələcək nəsillər üçün, Dərələyəzi tədqiq edəcək adamlar üçün faydalıdır:

Kalbay Tağı, Kalbay Tağı oğlu Kalbay Qənbər, Kalbay Qənbər oğlu Qlava Sadıx (20 il 16 kəndin qlavası olmuşdur), Kalbay Qənbər oğlu Xudu kişi (anti-sovet görüşlərinə görə Sibirə sürgün edilmişdir), Kalbay Qənbər oğlu Qurban ( ermənilərlə mübarizədə

şücaət göstərib) Kalbay Qənbər oğlu Hacı Səfəralı, Abdulkarim Qurban oğlu (Nikolay dövründə uryadnik işləyib), Hacı Səfəralı oğlu Kalbay Nəcəfalı, Xudu oğlu Hacı Əli , Qənbərov Məhəmməd Əbdülkərim oğlu (el ağsaqqalı olub), Quliyev Məhəmmədəli Nəcəf oğlu, Xıdıroğlu Nəbi (igid, döyüşkən adam olub), Qənbərov Məcid Əhməd oğlu , Kərimov Hüseyn Məhəmməd oğlu, Kərimov Vəli Məhəmməd oğlu, Qəmbərov İsmayıl Hacı Əli oğlu, Səfərov Hüseyn Abdulla oğlu (kolxoz sədri işləyib), İbrahimov Şadman Musa oğlu (kolxoz və sovet sədri işləyib), Nəcəfov Əli Məhəmməd oğlu, Xıdıroğlu Nəbi (igid adam olub) və b.

## Qozluca kəndində kolxoz sədri işləmiş adamlar

1. Quliyev Qasım Nəcəf oğlu - kolxoz sədri
2. İsmayılov Rza Şahrza oğlu - kolxoz sədri
3. Tağıyev Hidayət (Sarı Hidayət) - kolxoz sədri
4. Xıdıroğlu Əli - kolxoz sədri

## Qozluca kəndindən yetişən alimlər və hüquqşünaslar

Əhmədov İdris Məcid oğlu - kimya elmləri doktoru, professor, Türkiyədə işləyir. Əhmədov Əhməd Məcid oğlu - kimya elmləri namizədi, Az.EA üzvi sintez institutunda çalışır.

Nəcəfova Raya Əli qızı - kimya elmləri namizədi,

Əliyev Nurəddin İsmayıl oğlu - biologiya elmləri namizədi, dosent;

Hüquqşünaslar. İsa Nəcəfov, Əli Kərimov, Ənvər Quliyev, Xanlar Quliyev, Tofiq Kərimov Əhməd Qənbərov

**Professor Həsən Mirzəyevin "Qərbi Azərbaycan Dərələyəz mahalı" adlı kitabından götürülən bu məlumatları topladığı informatorun adını olduğu kimi veririk**

**İnformator:** Kərimov Əli Məhəmməd oğlu - hüquqşünas

## QULİYEV ƏNVƏR MƏHƏMMƏDƏLİ OĞLU



Əslən Dərələyəz mahalının Qozulca kəndindən olan Quliyev Ənvər Məhəmmədəli oğlu 1953-cü il mart ayının 25-də, Bərdə rayonu İmirli kəndində doğulub. 1971-ci ildə BDU-nun hüquq fakultəsinə qəbul olmuşdur. 1976-cı ildə, Ucar rayon milis idarəsinə müstəntiq, 1980-ci ildə rəis müavini,1984-cü ildə rəis təyin olunmuş, 1990-cı ilə qədər Ucar rayonunda, 1990-92- ci illərdə Bərdə rayon milis şöbəsində rəis,1993- cü ildə, DİN-də şöbə müdürü, 1994-cü ildə, Qusar rayon polis rəisi,1995- ci ilin yanvar ayından 2001-ci ilə qədər Sumqayıt Şəhər Polis İdraəsinin rəisi, daha sonra yenidən Ucar rayon polis şöbəsinin rəisi vəzifəsində çalışmışdır. Çox ləyaqətli, ədalətli insan olan Ənvər müəllim, işlədiyi bütün rayonlarda camaatın rəğbətini qazanmış, əsil hüquqşunas kimi insanların hüquqlarını müdafiə etmişdir. Ənvər müəllim Azərbaycanın polis tarixində, adı hörmətlə çəkilən polislərdəndir.

## Məmmədov Həbib Süleyman oğlu

1898-ci ildə Qozulca kəndində anadan olub. 1918-ci ildə ildən Şərur rayonu Mahmudkən kəndində yaşamışdır. 1920-ci il “Qırmızı tabor”un sıralarında ermənilərə qarşı vuruşmuşdur. 7 iyul 1934-cü ildə 15 № li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.

## Tağıyev Hidayət Abbas oğlu

1913-cü ildə Ermənistan Respublikası Exeqnazor rayonunun Qozulca kəndində anadan olub.

Orta məktəbi bitirdikdən sonra 1935-ci ildə Naxçıvan Kənd Təsərrüfatı

Texnikomunun aqronomiya şöbəsinə daxil olub və 1937-ci ildə bitirib.

1937-1940-cı illərdə Ermənistan Respublikası Exeqnazor rayonunun Gədikvəng kəndində müəllim işləyib.

1940-cı ildə hərbi xidmətə çağırılıb və Böyük Vətən Müharibəsinin başlaması ilə 1942-ci ilə qədər döyüşlərdə iştirak edib. 1942-ci ilin sentyabr ayında cəbhədə yaralandığı üçün ordudan tərxis olunub.

1942-1945-ci illərdə Ermənistan Respublikası Exeqnazor rayonunun Qozulca kəndində kolxoz sədri işləyib.

1945-1949-cu illərdə həmin rayonun Çivə kəndində kolxoz sədri işləyib.

1949-1953-cü illərdə həmin rayonun Ələyəz kəndində Baş aqronom işləyib.

1953-cü ildə Azərbaycan Respublikası Naxçıvan MSSR-in Noraşen

rayonuna (indiki Şərur rayonu) köçmüşük.

1953-1956-cı illərdə Noraşen rayonunun Təzəkənd kəndində kolxoz sədri işləmişdir.

1956-1960-cı illərdə həmin rayonda Təchizat Idarəsinin sədri olmuşdur.

1960-1966-cı illərdə Noraşen rayon Taxıl Tədarükü İdarəsinin müdiri olmuşdur. 1966-1969-cu illərdə Noraşem rayon Peşə məktəbinin direktor müavini olmuşdur.

1969-1971-ci illərdə Oğlanqala kəndində kolxoz sədrinin müavini olmuşdur. 1980-ci il sentyabr ayının 02-i vəfat edib.

## Əliyev Hüseyn İsrafil oğlu



Əslən Şərur-Dərələyəz qəzasının Qozulca kəndindədindir. O, 02 aprel 1961-ci ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Oğlanqala kəndində anadan olub.1978-ci ildə orta məktəbi bitirdikdən sona Rusiya Federasiyası Moskva və Ryazan şəhərlərində təhsil alıb. Ali təhsilli Hüquqşunasdır. 1990-cı ilədək Rusiya Federasiyasının Sverdlovski vilayətinin İvdel şəhərində xüsusi rejimli cəzaçəkmə müəssisəsində zabit kimi xidmət edib, Lakin milli münasibətlərin pozulması və Sovetlər birliyinin dağılması səbəbindən yenidən doğma vətəni Azərbaycana qayıdıb. 1993-cü ildən Ədliyyə Nazirliyinin məhkəmə qərarlarının icrası baş idarəsində fəaliyyətini davam etdirərək Naxçıvan şəhər məhkəməsində İcra şöbəsinin rəisi vəzifəsində xidmət edib.

1995- ci ildən 2003-cü ilədək Ədliyyə Nazirliyi Penitensiar xidmətinin 8 saylı MTCÇM-də rəis vəzifəsində xidmət edib. 2003-cü ildən 2013-cü ilədək isə 2 saylı Gəncə İstintaq təcridxanasında rəis müavini və ƏN. PX-in baş idarəsində Hüquq şöbəsində baş inspektor vəzifəsində çalışıb. Ədliyyə polkovnik leytenantıdır, 2013-cü ildən təqaütdədir. Ailəlidir, üç övladı var. Hazırda “Dinçer və Çarçıoğlu” Birgə Müəssisəsində Hüquqşunas olaraq çalışır.



**Nəcəfov İsa Əli oğlu**

Əslən Şərur-Dərələyəz qəzasının Qozulca kəndindədindir. O, 28 mart 1952-ci ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Oğlanqala kəndində anadan olub. 1970-1972-ci illərdə Sovet Ordusunda hərbi xidmətdən keçmişdir. 1979-cu ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.

Əmək fəaliyyətinə 1979-cu ildən başlamışdır. Həmin ildən 1993-cü ilədək Azərbaycan Respublikası Prokurorluq orqanlarında müstəntiq, mühüm işlər üzrə müstəntiq, prokuror köməkçisi, şöbə prokuroru, idarə prokuroru vəzifələrində çalışmışdır. 1993-cü ildən 1995-ci ilədək Naxçıvan Muxtar Respublikasının Prokuroru, 1995-ci ildən 2000-ci ilədək Azərbaycan Respublikası Baş Prokurorunun birinci müavini vəzifələrində işləmişdir.

22 mart 2002-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin Qərarı ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə təyin edilmişdir.

06 aprel 2012-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin Qərarı ilə yenidən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə təyin edilmişdir.

10 iyul 2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikasının məhkəmə hakimiyyəti orqanlarında səmərəli fəaliyyətinə görə "Əməkdar hüquqşünas" fəxri adı verilmişdir.

04 aprel 2022-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikasının məhkəmə hakimiyyəti orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

İki kitab müəllifidir. Yaxın Şərqin və Yunanıstanın tanınmış filosofları: M.T.Siseronun, Platonun, Ə.H.Qəzzalinin, Eynəlgüzad

Həmadinin, Əl- Fərabinin, Mənsur Həllacın, Sərrac Tusinin, Əl-Kindinin, İbn-Sinanın və b. ərəb, fars, yunan və rus dilində olan əsərlərinin azərbaycan dilinə tərcümə və nəşr olunmasını təşkil etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 27 may 2019-cu il tarixli Sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilmişdir.

Ailəlidir, iki övladı var.

# QOZLUCA KƏNDİ, 1831-Cİ İL KAMERAL SİYAHIYA ALINMASI

**Kürdlərin Zilan-cəlali miqirqanlı tayfası**

1. Yüzbaşı Abdul oğlu 40 y; arvadı Zeynəb 35 y; 5 oğlu var: Məho 17 y; Makso 11 y; Heydo 8 y; Raşo 4 y, Həsən 4 y (əkizlər); 2 qızı var: Xatun 12 y; Mədinə 9 y

**Ailə Dərələyəzin Çivə kəndinə köçüb.**

2. Təhmuraz Abdalov 30 y; arvadı Gözəl 25 y; oğlu Mahmud 7 y; qızı Zeynəb 3 y.

3. Hüseynxan Məmmədalı oğlu 60 y; arvadı Zeynəb 45 y; 5 oğlu var: Zeynalabdin 30 y(ölüb); (onun arvadı Şərəbanu 20 y); Hüseynqulu 25 y; Qasım 15 y; Məhərrəm 11 y; Ələsgər 8 y(ölüb).

**Ailə Qarabağa köçüb. Hansı kəndə getdikləri məlum deyil**.

**Qaraçorluların həsənanlı tayfası:**

4. Kəndxuda Həsən Hüseyn oğlu 30 y; arvadı Yaxşıxanım 28 y; 3 oğlu var: İsmayıl 10; Hüseyn 7 y; Cəfər 5 y; 2 qızı var: Səlbi 4 y; Xatun 1 y.

**Ailə Qarabağa köçüb.**

5. Cəfər Şamo oğlu 20 y; arvadı Gülüstan 18 y; oğlu Səfər 2 y.

6. Mustafa Hüseyn oğlu 25 y; arvadı Nənəxanım 18 y; 2 qızı var: Güllü 4 y; Qızxanım 1.y.

7. Hüseyn Abbas oğlu 45 y; arvadı Sənəm 30 y; 3 oğlu var: Nəcəf 10 y; Məmmədalı 6 y; Tahirverdi 1 y; 2 qızı var: Mələk 4 y; Tükəzban 3 y.

8. Həsən Şahin oğlu 35 y; arvadı Nənəpəri 25 y; 2 oğlu var: Abbas 10 y; Şahbaz 3 y; qızı Sənəm 2 y.

9. Şahnəzər Cəfər oğlu 40 y, arvadı Xəzəl 40 y; oğlu Qafar 15 y.(onun arvadı Fatma 14 y.)

10. Hüseyn Məhərrəm oğlu 25 y; arvadı Şahpəri 25 y; oğlu Allahqulu 4 y; qızı Xəzəl 1 y.

11. İsgəndər Hüseyn oğlu 30 y; arvadı Xanım 22 y; 2 oğlu var: Məmmədbağır 7 y; Əbdülkərim 3 y; qızı Bahar 4 y.

**Dərələyəz mahalının kameral təsviri**

Qozluca kəndində 11 ailə, 35 kişi, 25 qadın, cəmi 60 adam yaşayır.

Bu kənd Aynazur kəndindən 6 verst şimalda, dağlarda yerləşir. Ərazisi 14 verstdir, ondan 2 xalvan suvarılandır, xeyli dəmyə ərazi var. Aşıq bulağın suyundan istifadə edirlər. Dərələrdən ot biçirlər. Buğda, arpa, darı və tərəvəz əkirlər.

Kənddə 113 öküz, 95 inək, 42 buzov, 966 qoyun 506 keçi, 31 at var.

Kənd xəzinəyə məxsusdur, 1 yararsız dəyirman və xristian monastrının xarabalıqları var.

## QOZLUCA KƏNDİ, 1842-Cİ İL KAMERAL SİYAHIYA ALINMASI

**Calanlı, miqir-qanlı tayfası**

1. Həsənxan Məmmədalı oğlu 70 yaşında; oğlanları Hüseynqulu 35 y; (onun oğlu İmamverdi 3 y); Məhərrəm 22 y.

**Yaddan çıxan tatarlar**

2. Abdulla Kəlbi oğlu 40 y; oğlu Mirzə 10 y; qardaşı Əsəd 25 y;

3. Kəndxuda Dini Məhəmməd oğlu 39 y; oğlu Fərəc 5 y; Bu ailə 1857-ci ildə Ağkilsə kəndinə köçmüş və yenidən geri qayıtmışdır.

4. Osman Molla Həsən oğlu 50 y; oğlanları: İso 22 y; Abdu 15 y.

5. Qəmbər Nağı oğlu 25y; oğlu Niftalı 5 y;

**Bu ailə də 1857-ci ildə Ağkilsə kəndinə köçmüş və yenidən qayıtmışdır.**

6. Gülməmməd Məlikməmməd oğlu 33 y; oğlu Fərzalı 15 y;

7. Məmmədyar Mirzə oğlu 50 y; oğlu Mirzə 15 y;

8.Qurbanəli Selim oğlu 30 y; qardaşı Sali 20 y;

9. Darbaz Xudo oğlu 25 y; oğlu Nabo 3 y;

10. Adıgözəl Tano oğlu 30 y(kordur);

İslam dininin şiə məzhəbinə mənsub olmaqla oturaq həyat tərzi

sürürlər. Kəndin 5 Naxçıvan xalvarı əkini var, ildə 6 Naxçıvan xalvarı buğda, 4 Naxçıvan xalvarı arpa biçirlər. Kənd xəzinəyə mənsubdur. Qəza mərkəzinə **(Naxçıvan şəhəri)** qədər olan məsafə 80, nahiyə mərkəzinə **(Keşişkənd kəndi)** 18 verstdir.

Əkinçiliklə məşğul olurlar, dərələrdə örüş yerləri çoxdur. Dolanışıq ortababdır. Torpaqları daşlı və gillidir, meşəsi yoxdur. Ərazisi 14 verstdir, onun 2 xalvarı əkinə yararlı suvarılan torpaqdır, dəmyə əkin yeri çoxdur. Aşıq bulağının suyundan istifadə edirlər.

Buğda, arpa və darı əkirlər. Kənddə 1 işlək və bir yararsız dəyirman var.

Kənddə 10 at, 55 iribuynuzlu, 78 xırda buynuzlu heyvan var.

**İmzalar**: Kəndxuda Dini Məlikməmməd oğlu; Əsəd Kəlbi oğlu; Qurbanəli Məhəmməd oğlu.

# ŞƏXSİ HƏYAT HEKAYƏLƏRİ VƏ BİOQRAFİK MƏLUMATLAR

## ŞƏXSİ HƏYAT HEKAYƏLƏRİN MƏNƏVİ-PSİXOLOJİ VƏ HÜQUQİ ASPEKTLƏRİ

Qərbi Azərbaycanın Şərur-Dərələyəz Mahalının Çivə, Sallı, Qozulca, Vedibasar mahalının Hortun, Göyçə mahalının Mollalı (Alçalı) kəndlərinin deportasiya edilərək Bərdə rayonun İmirli (Əmirli) kəndində məskunlaşan insanların həyatı ilə bağlı topladığımız şəxsi hekayələr çox böyük ictimai məzmun daşıyır. Hər bir insanın şəxsi hekayəsi nisgillərlə zəngindir. Onları dinlədikcə, Sovetlər Birliyinin Azərbaycan türklərinə yaşatdığı dəhşətli mənzərərlərlə rastlaşırsan. Birinci növbədə diqqətimizi cəlb edən dağlıq ərazilərdən Arana köçürülən əhalinin iqlimə uyğunlaşmaması və nəticədə faciələrlə qarşılaşmasıdır. Göyçə mahalının Mollalı (Alçalı) kəndindən əvvəlcə Əli Bayramlının (Şirvanın) Cəngan kəndinə köçürülmüş hazırda İmirli (Əmirli) kəndində yaşayan Baxış Fətəliyevin şəxsi hekayəsini yazarkən söylədiyi hadisəni həyacansız dinləmək mümkün deyildir. Göyçə mahalının əsrarəngiz gözəlliyindən Kür ətrafı ilan mələyən çöllüklərində yiyəsiz buraxılmış Mollalı camaatının gənc qızları Rübabə, Cəvahir, Sarıtel yerli şəraitə uyğunlaşa bilməyərək Kürdə boğulublar. Rübabə və Cəvahiri xilas etmək mükün olmayıb. Sarıtel xanımı isə çətinliklə xilas edə biliblər. Bu gənc xanımlar hərəsi bir ocağın işığını yandıran gələcəyin anaları idi. Bu talelər yarımçıq qaldı. Bu məcburi köçürülmə neçə-necə cəvahirlər, rübabələrin taleyini yarımçıq qoydu.

Bundan başqa Dərələyəz mahalının Sallı kəndindən deportasiya edilən Əli (doktor) Eyvazovun əmisi oğlu Məhəmməd də yerli iqlimə uyğunlaşa bilmədiyi üçün dünyasını dəyişib.

Yerli iqlimə uyğunlaşa bilməyən ailələrdən biri də Musa Alıyevin ailəsidir ki, bu ailə də Çivə kəndindən Bərdəyə deportasiya edildikdən sonra iqlimə uyğunlaşa bilmədiyi üçün geri Çivə

kəndində qayıdıb. Sonra orada təzyiqlərə məruz qaldığı üçün yenidən İmirli kəndinə qayıdıblar. Lakin heç cür iqlimə uyğunlaşa bilmədikləri üçün Şəkiyə köçməli olmuşlar. Bütün bu köçlər hər dəfə əsəb gərginliyi, mənəvi-psixoloji sıxıntı, əzab-əziyyət, var-dövlətin itirilməsi hesabına başa gəlib.

Dərələyəzin Qozulca kəndindən Bərdə rayonun Kələntərli kəndinə köçən Bayram Məmmədovun qaradaşı Rza Məmmədovun həyat yoldaşı Küşvər xanım iqlim şəraitinə uyğunalşa bilmədiyi üçün bronxit xəstliyinə tutulub. Bundan sonra onlar Qozulca kəndinə qayıtmaq istəslər də yerli hökümət buna mane olub. Həkim isə xəstə xanımın heç olmasa öz yaşadığı yerə yaxın bir yerə köçməyini məsləhət bilib. Bundan sonra onlar Şərur rayonun Dizə kəndinə köçmək məcburiyyətində qalıblar.

Çivə kəndindən əvvəlcə İmirliyə köçən ailələrdən biri də mənim mənsub olduğum Vəkilovlar ailəsidir. Böyük əmim İsa Vəkilovun ailə başçılığı ilə İmirliyə köçən ailəmiz heç cür yerli iqlimə uyğunlaşa bilmədikləri üçün nənəm Şəhrəbanu xanım və atam Mustafa Vəkilov yenidən Çivə kəndində qayıtmalı olublar. Ailənin bir neçə üzvü Bərdədə, iki üzvü isə başqa respublikada yaşamalı olurlar. Geri qayıdanda ermənilərin həyətimizdə arı salxladıqları bəlli olur. Kənddə az sayda qalmış Azərbaycan türklərinin dəstəyi ilə ailəmiz yenidən öz köhnə evlərinə yerləşə bilirlər. Lakin, bu da çox çəkmir. Çivə kəndində ailəmiz 1968-ci ilə qədər dözüb yaşaya bilir. 1968-ci ildə böyük qardaşım Əhməd Vəkilovun yeddi yaşının tamam olmasına iki ay qalmasını əsas gətirən ermənilər onu orta məktəbə qəbul etməkdən imtina edirlər. Hansı ki, həmin yaşda olan erməniləri çox rahatlıqla orta məktəbə götürürdülər. Nəhayət, ailəmiz yenidən Bərdə rayonunun İmirli kəndinə köçməli olur. Təbii ki, köçürülmələr nəticəsində insanlar illərlə öyrəşdiyi məişətindən yurd-yuvasından çıxmaqla mənəvi-psixoloji sarsıntılar yaşayır. Ən əsası isə ulularının məzarını qoyub getməli olurlar. Atam Mustafa Vəkilov öz atası Əhməd bəy Vəkilovun başdaşını düzəltmək üçün Gözəldərə yaylağından ağır bir çaylaq daşı gətirib öz əlləri ilə oyaraq baş daşının üstünü yazması ailə üzvülərimizin

yaddaşında qalan ən nisgilli xatirələrdəndir. Bu nisgilin ən acı sonluğu isə o məzarı ulu babalarımızın vətəni olan Çivə kəndində ermənilərin ümidinə buraxıb gəlmək idi. Təəssüf ki, biz hamımız bu acı nisgili yaşamalı olduq. Bəli, Rus imperiyasının Türk dünyasına qarşı apardığı etnik təmizləmə siyasəti nəticəsində biz öz yaxınlarımızın ulularımızın məzaranı ziyarət etməkdən məhrum olduq. Budur deportasiyaya məruz qalmış bütün ailələrin yaşadığı ortaq mənəvi-psixoloji acı. Bu acıya nə ilə mələm olmaq olar? Ritorik sualın yaratdığı duyğu böhranının yaddaşımıza buraxdığı təbəddülatları araşdıracaq psixoloq tapmaq mümkün deyil. Türk xalqları öz keçmişinə bağlı, "keçmişinə hörmət edən" keçmişini yaşadan, keçmişi ilə qurür duyan bir xalqdır. Bu mənada öz doğmalarının məzarını ziyarət edə bilməmək, onların məzarına bir dəstə gül qoyub öz ehtiramını bildirə bilməməyin acısını yalnız yaşayan bilər.

Şəxsi həyat hekayələrinin toplanması zamanı diqqəti cəlb edən məsələlərdən biri də insanların məişət şəraiti ilə bağlı oldu. Onlar Qərbi Azərbaycanda illərlə minbir əziyyətlə qurduqları ev-eşiyi tərk edərək Bərdənin İmirli kəndində iki ilə yaxın qazmalarda yaşamaq məcburiyyətində qaldılar. Hətta, bəzi hallarda heyvanlarla birlikdə qalmaq məcburiyyətini belə yaşadılar.

Şəxsi hekayələr araşdırılarkən maraqlı bir halla qarşılaşdıq. İmirli kənd orta məktəbinin ən gözəl nümunəvi müəllimlərindən biri olan Dürdanə (Durna müəllimə) 25 yanvar 1948-ci il tarixində Dərələyəz mahalının Çivə kəndində doğulsa da, 3 yaşına qədər ona doğum şəhadətnaməsi almaq mükün olmamışdır. İlk baxışda sadəcə bir texniki məsələ kimi görünən bu problem yalnız digər şəxsi hekayələrdə rastlaşdığımız üçün bu məsələnin təsadüfi hal olmadığı qənaətini möhkəmləndirdi. Belə ki, türk düşməni Stalinin mənfur qərarının qəbul edildiyini bilən ermənilər yeni doğulmuş körpələrə doğum şəhadətnaməsini məqsədyönlü şəkildə vermidilər. Dürdanə İbrahim qızı Calalova yalnız Bərdəyə deportasiya edildikdən sonra doğum şəhadətnaməsi ala bilmişdir. Nəticə etibarı ilə bu durumda olan şəxslərin doğum yeri Ermənistan deyil

Azərbaycan yazılmışdır.

Şəxsi hekayələrini qeydə aldığımız şəxslərin taleləri bir-birinə çox oxşayır. Bu insanlar hamısı eyni kədər-nisgili yaşayıblar. Onlar şəxsi əşyalarını, yurd-yuvalarını, əzizlərinin məzarlarını düşmən tapdağında qoyub gəliblər. Onların hər biri gəldikləri yerdə uşaqkən bir neçə orta məktəb dəyişməli olublar. Kiçik yaşlı uşaqların 2-3 ildən bir yeni mühitə alışmasının psixoloji çətinliklərini bu insanların hamısı yaşayıb. Bu səbəbdən onların əksəriyyətinin ya tam orta təhsili başa vura bilməsi, yaxud ali təhsil alması mümkün olmayıb. İmirli kənd orta məktəbinin sabit fəaliyyət göstərdiyi dövrlərin göstəriciləri onu deməyə əsas verir ki, bu əhali sabit həyat şəraitində böyük uğurlara imza ata bilərmiş. Lakin qeyri-sabit həyat şəraiti və köçmələr buna mane olub. Şəxsi hekayələr əhalinin yalnız bir hissəsini əhatə etdiyi üçün gələcəkdə tədqiqatları daha da dərinləşdirilcək köçmələrin yaratdığı sarsıntıların daha dərin qatlarını öyrənmək mümkündür. Şəxsi hekayələrin toplanması zamanı siyasi baxımdan mühüm əhəmiyyət kəsb edən daha bir faktla rastlaşdıq. Azərbaycan SSR Kommunist Partiyasının Birinci Katibi Əbdürrəhman Vəzirovun hakimiyyəti dövründə İmirli kəndində yaşayan əhalinin əksəriyyətindən köç biletləri yığılmışdır.

Qısa xatırlatma: Heç kimə sirr deyil ki, M.S.Qarbaçov SSRİ Kommunist Partiyası Siyasi Bürosunun üzvü böyük dövlət adamı azərbaycanlıların Kremldə son qalası (ifadə Xalq şairi Bəxtiyar Vahabzadəyə məxsusdur) Heydər Əliyevin istefasına nail olduqdan bir neçə gün sonra Azərbaycana qarşı ermənilər tərəfindən irəli sürülmüş ərazi iddialarına loyal münasibət bəsləyirdi. M.S.Qarbaçov Qafqazda öz ermənipərəst siyasətini maneəsiz həyata keçirmək üçün Ermənistanda SSR-yə öz komsomolçu kadrı Suren Qurgenoviç Harutyunyanı rəhbər təyin etdikdən sonra Azərbaycan SSR-yə digər komsomolçu kadrı Əbdürrəhman Vəzirovu təyin etdi. Bu ərəfələrdə qədim türk yurdu Qərbi Azərbaycanın Hamamlı (Spitak) bölgəsində zəlzələ baş verdi.Bu proseslərdə Ə.Vəzirov özünü çox səriştəsiz bir rəhbər kimi apardı erməni-azərbaycan

xalqlarının dostluq şüarları adı altında yüzlərlə insanların faciəvi ölümünə səbəb oldu. Qərbi Azərbaycandan deportasiya edilmiş Azərbaycan türklərinin köç biletlərinin yığılması da şübhəsiz ki, bu tarixi həqiqətlərin ört-basdır edilməsinə xidmət edirdi.

Şəxsi hekayələri ictimai məzmununa görə aşağıdakı kateqoriyalara ayıra bilərik.

1) Yaxın ailə üzvlərinin məzarlarının düşmən tapdağında qalmasının mənəvi-psixoloji sarsıntıları.
2) İllərlə topladıqları şəxsi mülkiyyətlərinin dağıdılması.
3) Köçmə zamanı ailə üzvlərinin həlak olması.
4) Köçmə zamanı şəxsi mülkiyyətlərinin (mal-qara) yolda tələf olması.
5) Dağlıq ərazilərdən gələn şəxslərin aran şəraitinə uyğunlaşa bilməməsi nəticəsində ölməsi (suda boğulması) xəstləlik tapması və s.
6) Orta təhsil almaq üçün bir-birindən on kilometrlərlə aralı olan kəndlərdə iki-üç ildən bir orta məktəbi dəyişdirməklə təhsilin keyfiyyətinin aşağı düşməsi nəticəsində təhsil hüququnun gerçəkləşdirilə bilməməsi.
7) Başqa-başqa mühitlərdə oxumaqla mənəvi-psixoloji uyğunsuzluq və psixoloji komlekslərin yaranması.

Şübhəsiz ki, şəxsi hekayələrin ictimai məzmununu əks etdirən bu təsnifatlar ilkin yanaşmanın məhsuludur. Gələcəkdə tədqiqatçılar bu məsələlərin hüquqi və psixoloji aspektlərini dərindən öyrənərək daha dəqiq təsnifatlaşdıracaqlar.

## MƏHŞUR SINIQÇI NƏSİB MÜƏLLİM



İmirli kəndindən söz düşəndə həmişə bir sualla rastlaşırıq, Sizin kənddə bir sınıqçı var, Nəsib müəllim onu tanıyırsan? Bir əsrə yaxın vaxtdır ki, bu ailə insanlara təmənnasız xidmət edib. Nəsib müəllimin atası Həsən Calalov sınıq-çıxıq məsələsində İmirlidə və ətraf kəndlərdə hər kəsə təmənasız yardım edib. Nəsib müəllim isə uzun illər bu nəcib işi davam etdirir. Bu ailənin haqqı ödənməz. Nəsib müəllim kəndimizin fəxridir. Biz də şanslıyıq ki, Nəsib müəllim kimi idman müəllimiz olub. Nəsib müəllim həm də idmanı kəndimizə sevdirən bir şəxs olub. Həmişə qəlbimdən keçirdi ki, Nəsib müəllimin xidmətləri haqqında bir kitab hazırlayım. Hələlik arzumu bu kiçik məqalə ilə yerinə yetririrəm.

Nəsib müəllimin nəsli vaxtilə Şərurun Düdəngə kəndində Dərələyzin Çivə kəndinə köçmüş oradan isə Bərdə rayonunun İmirli kəndinə deportasiya olunmuşdur. Nəsib müəllimin səciyyəvi xüsusiyyətləri onun qəribəlikləri ilə başlayır. Onun mənsub olduğu nəsil ovçuluq həvəskarıdır. Nəsib müəllim isə balıq tutmağı xoşlayır. Elə bir gün olmaz ki, Azərbaycanın müxtəlif bölgələrindən Nəsib müəllimin dalınca sınıq-çıxıq düzəltmək üçün kimsə gəlməsin. Xəstələri qəbul edib yardım etmək bu insanın missiyasına çevrilib. Belə bir hadisə kəndə artıq folklorlaşıb. Nəsib müəllim Şərəfli gölündə (qonşu kəndin ərazisində) balıq tuturmuş. Bir nəfər də vəzifəli şəxs yaxın adamını gətiribmiş ki, Nəsib müəllim onun sınıq yerlərini düzəltsin. Bu adam Nəsib müəllimin evindən onun harda olduğunu soruşub. Evdən onun Şərəfli gölündə balıq tutduğunu söyləyirlər. Həmin şəxs gəlib Nəsib müəllimin Şərəfli gölündə böyük zövqlə balıq tutduğunu görür. Vəzifəli şəxs Nəsib müəllimə deyir ki, Siz Allah buradan nə qədər balıq tutacaqsınızsa

mən onun on qatını alaram, gedək bizi xəstəmizə bax. Nəsib müəllim "Sən ömründə balıq tutubsan?" deyə soruşur. Vəzifəli şəxs, xeyir cavabını verəndə Nəsib müəllim: "Ə, sən nə bədbəxt adamsan" deyir. Sonra isə həmin şəxsə balıq tutmağın onun üçün xobbi olduğunu başa salır. Nəsib müəllimin sınıqçılığı öyrənməsinin maraqlı tarixçəsinə isə özü işıq salır: "1918-1920-ci illərdə Çivə caamatı İrana keçmək məcburiyyətində qalanda Xəlil əmimə İranda bir nəfər təklif edir ki, gəl sənə sınıqçılıq peşəsini öyrədim, gözəl sənətdir. Xəlil əmim də həmin şəxsdən sınıqçılıq peşəsini öyrənib. Ondan sonra atam Xəlil əmimdən, mən isə atamdan öyrənmişəm".

Nəsib Calalovun bioqrafıq məlumatları.

**Calalov Nəsib Həsən oğlu**

16 yanvar 1947-ci ildə Şərur-Dərləyəz qəzasının Çivə kəndində anadan olub. 1951-ci ildə 90 ailə ilə birlikdə Çivədən yük vaqonlarında deportasiya edilərək əvvəlcə Yevlaxa, sonra isə Bərdə rayonun İmirli kəndinə gəliblər. 2 ilə yaxın qazmalarda yaşayıblar. 1953-ci ildə kəndin məscidinin həyətində orta ibtidai məktəb fəaliyyətə başlayıb. Həmin ibtidai məktəbin ilk şaidrdlərindən olub. Məktəbdə İsa Vəkilov, Balabəy müəllim, Şabı müəllimə, Səməndər müəllim ilk müəllimlər olublar. Nəsib Calalov İmirli məktəbindən sonra 3 il Şahvəllər kəndində sonra isə Ağdam rayonunun Xındırstan kəndində Q.Zakir adına orta məktəbdə orta təhsilini başa vurub. Sonra isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutnu bitirb. 1968-2012-ci illərdə İmirli kəndində idman müəllimi kimi çalışıb. 2005-2007-ci il tarixində Bərdə "Pamıqçı" və ABN Futbol Klublarının həkimi kimi çalışıb.

## Fətəliyev Baxış Həsən oğlu



1940-cı ildə Göyçə mahalının (Martuni rayonu) Mollalı (Alçalı) kəndində anadan olub. 1947-ci ilin sentyabrında Mollalıda birinci sinfə gedib. B.Fətəliyev bildirir ki, Mollalı kənd orta məktəbində Kamil Hüseynov, Salman Novruzov, Qəndab Abbasova, Məhyəddin Fətəliyev, Balabəy Nəsibov dərs deyirdilər. O, 2-ci sinfə kimi Mollalıda oxuyub. 1949-cu ildə Mollalı kəndindən təxminən on ailə deportasiya edilərək Əli Bayramlı rayonun Cəngən kəndinə getməli olublar. 1951-ci ilədək orada yaşayıblar.

B.Fətəliyev: "3-cü sinfi Muğan Gəncəli kəndində davam etdim. Orada iqlimə uyğunlaşa bilmədik. Çox böyük çətinliklə köç biletlərimizi dəyişdirib Bərdə rayonunun İmirli kəndinə köçdük. Sonra 7-ci sinfə kimi Şahvəllər kəndində oxudum. 1955-ci ildə Ağdam Mexanikiləşmə Texnikumuna daxil olmuşam. 1959-cu ildə Texnikumu bitirib, 1963-cü ildək 3 il kolxozda işlədim. 1963, 1969-cu illərdə Gəncə Kənd Təsərrüfatı İnstitutunda ali təhsil almışam. 1963-cü ildən 1970-ci ilədək Bərdə rayonu Su Melorasya İdarəsində, Qarabağ Tikinti İdarəsində baş mexanik, kalon rəisi işləmişəm. 1970-ci ildə Bərdə rayon Partiya Komitəsinin qərarı ilə Bərdə rayonun 4 Nömrəli Mexanikiləşdirmə İdarəsinin rəsi təyin olundum. 1977-ci ildə Bərdə rayonun Maşın Meliorasiya Stansiyasının direktoru təyin olundum. 1977-ci ildən Bərdə Kommunist Partiaysı Bürosunun qərarı ilə E.Telman adına kolxozun sədri işlədim".

B.Fətəliyev 1981-ci ildə Bərdə rayon Yol İdarəsinin müdiri, 1985-ci ildə 4 nömrəli Beton Məmulatları zavodunun müdiri vəzifəsində işləyib. "Əməkdə igidliyə görə" medal, "Qırmızı əmək bayrağı" ordeni ilə təltif olunub. 2 çağırış rayon sovetinin deputatı olub. Hazırda Bərdə rayonun İmirli (Əmirli) kəndində yaşayır.

B.Fətəliyev Mollalı kəndindin tarixi haqqında belə söyləyir: "Kəndimizin əhalisi Türkiyənin Axura kəndindən Əvvəlcə Zəngibasara gəliblər orada bir kənddə məskunlaşıblar. Kənddə su qıtlığı olduğundan axtara-axtara Göyçə mahalının **Mollalı** (kəndin adı müxtəlif vaxtlarda **Qəfərli, Alçalı adlandırılıb)** kəndini yurd yeri seçiblər. Mollalı dağ yeri olub. Kəndin əvvəlcə əhalisi yalnız Azərbaycan türklərindən ibarət olub. Sonra otuzuncu illərdə ermənilər də gəlməyə başlayıb. 1947-ci ildə isə Livan ermənilərinin kütləvi köçü başlayıb, yalnız bundan sonra kənd əhalisinin 50 faizi erməni 50 faizi isə müsəlman oldu".

B.Fətəliyev bildirir ki, əvvəlcə kənddə ermənilərdən kimsə öləndə bizə deyirdilər ki, Siz bizim bişirdiyimiz yeməkləri yemirsiniz, gəlin yeməkləri siz müsəlman qaydasında bişirin biz də yeyək, siz də. Belə də olurdu. Onu da qeyd edim ki, yağış yağanda ermənilərin ayaq izlərini murdar bir ünsür kimi qaşıyıb götürürdülər.

Mollalıya Livan erməniləri gəldikdən sonra isə münasibətlər tamam pozuldu və gərginləşməyə başladı. 1947-ci ildə artıq İ.Stalinin qərarı çıxdı. 1949-cu ilin dekabr ayında kəndi yığıb iclas etdilər bildirdilər ki siz köçməlisiniz.

B.Fətəliyev köç hadisəsini belə xatırlayır: "1949-cu ilin dekabr ayında qarlı-yağışlı, dumanlı bir gündə bizi apardılar İrəvan . Bir gün qaldıqdan sonra yük vaqonlarına mindirib Əli Bayramlının Cəngən kəndinə gətirdilər. Adamları böldülər yerli adamların evlərinə. Atam Həsən kişi Mollalıdan 100 qoyun gətirmişdi. Cəngən kəndində qoyunlar hamısı istiyə düşüb. Kəndimizin 3 cavan gəlini Rübabə, Cəvahir (Məhərrəm əmimin qızı) Sarıtel Kürdə boğuldular. Rübabə ilə Cəvahiri xilas etmək mümkün olmadı ancaq Sarıteli çətinliklə xilas etdilər. Biz artıq başa düşdük ki, bu iqlimdə yaşaya bilməyəcəyik. Mollalı kəndinin sakinləri Fətəliyev Məhyəddin, Hüseynov Kamil, Həsənov Fərzalı, Abbasov Həmid, və s. Bakıya köç komissiyasına bildiridilər ki, biz bu şəraitdə yaşaya bilmirik. Köç komissiyasından bildirdilər ki, siz gedib özünüz yer müəyyənləşdirin biz sizə həmin yerə köçməyə yardım

edərik. Biz Bərdə rayonunun İmirli kəndində öz həmyerlilərimizin olduğunu bilib buranı uyğun gördük və buraya köçdük. 1952-ci ildə köç komissiyasının razılığı ilə kolxoza daxil olduq”.

B.Fətəliyevin ən böyük arzusu dünyaya göz açdığı doğma Mollalı kəndinə qayıtmaqdır.

## Sadıqov Yunis Cabbar oğlu



03 mart 1935-ci ildə Şərur-Dərləyəz qəzasının Çivə kəndində doğulub. 1951-ci ilədək Çivə kəndidə yaşayıb. 3 il Çivə kəndində ibtidai məktəbə gedib. 8 yaşında atası Cabbar kişini və anası Fatma xanımı itirib. Çivədə Mahmud Vəkilov, İsa Vəkilov, Səriyyə Xəlilova, Əhməd Abbasov, Abbas Abbasov və b. orta məktəbdə dərs demələrini xatırlayır. Çivə kəndində kiçik yaşlarında hodaxçılıq (çütçü yanındaköməkçi) edib. 1951-ci ilin noyabr-dekabr ayında İmirli kəndinə deportasiya ediliblər. İbtidai təhsilini Xanərəb kəndində 2 il davam etdirdikdən sonra 6-7-ci sinifləri Şahvəlllər kəndində oxuyub. Orta məktəbi Ağdam rayonunun Xındırıstan kəndində başa vurub. Qazaxstanın Karkanda vilayətində, Pedaqoji İnstituta qəbul olunub. Sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutuna köçürülüb. 50 ilə yaxın İmirli kənd orta məktəbində müəllim işləyib. Hazırda İmirli kəndində yaşayır. Ən böyük arzusu Çivə kəndinə qayıtmaqdır.

**Fətəliyev Qiyas Həsən oğlu**.

8 oktyabr 1946-cı ildə Göyçə mahalının Mollalı kəndində doğulub. Orta təhsilini Mollalı kəndində alıb. 1949-cu ilin dekabr ayında Göyçə mahalının Mollalı kəndindən ailəsi ilə birlikdə Əli Bayramlı rayonunun Cəngən kəndinə deportasiya olunmuşdur. Əli Bayramlı rayonunda iqlimə və şəraitə uyğunlaşa bilmədikləri üçün 30 ailə ilə birlikdə 1952-ci ildə köç biletində Bərdə rayonu İmirli (Əmirli) kəndinə Dərələyəz mahalından deportasiya olunmuş şəxslərlərlə birlikdə yaşamaq üçün məskunlaşmışlar. Orta təhsilini Ağdam rayonunun Xındırıstan kəndində başa vurmuşdur.

Bir müddət Bakıda Neft-Qaz Çıxartma İdarəsində fəhlə işləmişdir. 1966-1971-ci illərdə Azərbaycan Kənd Təsərüfatı İnstitutunun Aqronumluq fakültəsində ali təhsil almışdır. Bərdə rayonu "Telman" adına kolxozda təsərrüfat briqadiri, aqronom, uzun müddət baş aqronom və sədr müavini işləmişdir.

1986-cı ildə "Yeni həyat" kolxozunun sədri təyin olunmuş, 1990-cı illədək həmin vəzifədə çalışmışıdr. 1991-ci ildən İmirli kəndində "Gəray Əsədov" adına kolxozda aqronom kimi fəaliyyət göstərmişdir. 1993-1996-cı il tarixlərdə İmirli (Əmirli) kənd icra nümayəndəsi vəzifəsində çalışmışdır.

**Vəkilov Musa Əhməd bəy oğlu**



1928-ci ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. Şərur-Dərələyəz qəzasının naibi olmuş Hüseynalı Sultanın oğlu olan qəzanın ən böyük mülkədarı Həsənalı Sultanın ailəsindəndir. İlk orta təhsilini Çivə kəndində alıb. 1951-ci ildə ailəsi ilə birlikdə Çivə kəndindən yük vaqonlarında məcburi deportasiya olunaraq əvvəlcə Yevlaxa, sonra isə Bərdə rayonu Həsənqaya kəndinə, bir müddətdən sonra isə İmirli kəndinə gəliblər. İmirli kəndinin infrastrukturunun formalaşmasında yaxından iştirak edib. Bir müddət kənddə dəyirmanı işlədib. Sonra isə sənətkarlıqla məşğul olub. Qeyri-adi dərəcədə sənətkarlıq qabiliyyətinə malik insan olub. Vaxtıilə atası Əhməd bəy Vəkilovdan Çivə kəndində öyrəndiyi diş çəkmək işini (atasından qalma diş çəkən kəlbətinlə) bir müddət İmirli kəndində davam etdirib. Ömrünün sonuna qədər silah ustası kimi fəaliyyət göstərib. Dini əqidəsinə görə Bərdəyə sürgün edilmiş Molla Əsgərin (Əliyev) qızı Püstə xanımla ailə qurub. 26 oktyabr 2010-cu ildə İmirli kəndində dünyasını dəyişib.

**Vəkilov Əhəd Əhməd bəy oğlu**



1942-ci ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. Şərur-Dərələyəz qəzasının naibi olmuş Hüseynalı Sultanın oğlu olan və qəzanın ən böyük mülkədarı Həsənalı Sultanın ailəsindəndir. İlk orta təhsilini Çivə kəndində alıb. 2-ci sinfə kimi orada oxuyub. 1951-ci ildə ailəsi ilə birlikdə Çivə kəndindən yük vaqonlarında məcburi deportasiya olunaraq əvvəlcə Yevlaxa sonra isə Bərdə rayonun Həsənqaya kəndinə köçüb. Burada bir müddət qaldıqdan sonra İmirli kəndində gəliblər. 3-cü sinfi Bərdə rayonun İmirli kəndində davam edib. Sonra bir müddət Xanərəb, Şahvələr kəndlərində təhsil alıb. Orta təhsilini Ağdam rayonun Xındırstan kəndində başa vurub. İstehsalat təlimini qurtarmaq haqqında şəhadətnamə almışdır. 1963-1966-cı illərdə Moskva ətrafında hərbi xidmətdə olub. 1975-ci ildə Kənd Təsərrüfatı Universitetinin aqronomluq fakültəsini bitirib. Bütün həyatı boyu sənətkarlıqla məşğul olub. Hazırda İmirli kəndində yaşayır. Ən böyük arzusu Çivə kəndinə qayıtmaqdır.

**Vəkilov Məhəmməd Əhməd bəy oğlu**



1937-ci ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. Şərur-Dərələyəz qəzasının naibi olmuş Hüseynalı Sultanın oğlu olan və qəzanın ən böyük mülkədarı Həsənalı Sultanın ailəsindəndir. 1951-ci ildə ailəsi ilə birlikdə Çivə kəndindən yük vaqonlarında məcburi deportasiya olunaraq əvvəlcə Yevlaxa sonra isə Bərdə rayonun Həsənqaya kəndinə gediblər və bir müddətdən sonra İmirli kəndində gəliblər. İlk orta təhsilini İmirli kəndində alıb. Sonra isə Şahvəllər kəndində orta təhsilini davam etdirib. Sonra Bakı şəhərinə köçüb. İnşaat Texnikumunu bitirib. Uzun illər yol idarələrində mühəndis kimi çalışıb. İmirli kəndindən Şəfiqə Hüseynova ilə ailə qurub. 11 fevral 1981-ci ildə Bakı şəhərində dünyasını dəyişib.

## Eyvazov Qulam Eyvaz oğlu




11 noyabr 1928-ci ildə Şərur-Dərələyəz qəzasının Sallı kəndində anadan olub. İlk orta təhsilini Sallı kəndində alıb. 9-10-cu sinifləri Qovuşuq kəndində oxuyub. 1952-ci ildə Bərdə rayonunun İmirli kəndinə deportasiya olunub. Burada təhsilini davam etdirib. Ağdam Mexanizasiya Texnikumunu bitirib. Pambıqçı-mexanizator, briqadir və s. vəzifələrdə çalışıb. Müxtəlif mukafat və medallarla layiq görülüb. Həyat yoldaşı Eyvazova (İbrahimova) Zəhra Musa qızı 1941-ci ildə Qərbi Azərbaycanın Qarakilsə rayonunun Ərəfsə (dəyişdirilmiş adı Arevis) kəndində anadan olub. 1970-ci ildə ailə qurublar və 6 övladları olub. Qulam Eyvazov 9 avqust 2023-cü ildə İmirli kəndində dünyasını dəyişib.

Köç haqqında mərhum Qulam Eyvazovun söylədiklərindən: “7-ci sinifdə oxuyurdum. Hələ köç məsələsi yox idi. Azərbaycandan bizim kəndə nümayəndə gəldi. Dedi ki, bizi köçürdəcəklər. Mən hərbi xidmətdə olanda atamdan məktub aldım. Atam yazırdı ki, onları Salyan rayonuna köçürüblər. Həmin vaxt Dərələyəz mahalından Gülüdüzü, Şişqaya, Qalaser, Ayısəsi, Sallı, Ağkənd, Hors və digər kəndlərindən minlərlə ailə Salyan rayonu ərazisinə köçürülmüşdü. Sonrakı məktubda isə atam yazmışdı ki, Salyana yox, Bərdənin İmirli kəndinə gəlim. Çünki Sallıdan olan ailələrin bir qismi Bərdənin İmirli kəndinə gəlmişdi. Beləcə, o vaxtdan İmirlidə yaşamağa başladıq”.

Təəssüf ki, Qulam Eyvazov öz doğma yurdunu görmədən dünyasını dəyişdi.

**Vəkilov Ənvər Paşa bəy oğlu**



1933-cü ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində Paşa bəy Vəkilovun ailəsində doğlub. Şərur-Dərələyəz qəzasının naibi olmuş Hüseynalı Sultanın oğlu olan qəzanın ən böyük mülkədarı Həsənalı Sultanın nəslindəndir. 7 yaşından işləməyə başlayıb. 1951-ci ildə Bərdə rayonunun İmirli kəndinə deportasiya edilib. Sonra Yevlax şəhərinə köçüb. 1966-cı ildə Quliyeva Solmaz Səlim qızı ilə ailə qurub. Bu nigahdan Heyran, Səadət, Paşa, Məhsəti, Tofiq adında övladları doğulub. Ənvər Vəkilovun peşəsi dərzi olub.

Oğlu Paşa Vəkilov: "Atam bəy ailəsindən olduğuna və Vəkilov soyadını daşıdığına görə daimi təqiblərə məruz qalıb. Buna görə müxtəlif yerlərdə yaşamağa məcbur olmuşuq. 1978-ci ildə bir il Xaçmazda yaşadıq. 1979-cu ildə qayıtdıq Dərələyəzə Gülüdüzü kəndinə sonra bir müddət Terp kəndində yaşamışıq. 1985-ci ildə isə Bakıya köçmüşük. Bundan sonra Bakıda yaşadıq".

Ənvər Vəkilov 8 iyul 2007-ci ildə Bakıda dünyasını dəyişib.

**Eyvazov Əli Binnət oğlu**

Dərələyəzin Sallı kəndindən deportasiya olunan Əli (həkim) Eyvazov həmin dövrü belə xatırlayır: **"Soyuq aylarda bizi Noraşen stansiyasına gətirdilər, yük vaqonlarına yığıb Salyan rayonun Kürqaraqaşlı kəndinə apardılar. Oranın havasına, suyuna uyğunlaşmaq çətin olduğundan çox adam həlak oldu. Əmim oğlu Məhəmməd də bu səbəbdən dünyasını dəyişdi. 3-4 aydan sonra Bərdə rayonun İmirli kəndinə köçdük. Köçürülən əhaliyə yaşamaq üçün heç bir şərait yaratmamışdılar. Çətin günlər idi. Yerdən qazma pəyələr düzəldib ağır vəziyyətdə yaşamağa başladıq."**

## Elyasov Köçəri Kərəm oğlu

1928-ci ildə Şərur-Dərələyəz qəzasının Sallı kəndində anadan olub. 8 illik orta təhsil alıb. 1948-ci ildə ailəsi ilə birlikdə Ermənistan SSR-dən deportasiya olunub və Azərbaycan SSR-nin Salyan rayonunun Qaraağacı kəndində məskunlaşıb. 1950-ci ildə Yevlax rayonunun Hürüuşağı kəndinə gəliblər. 1955-ci ildə isə Bərdə rayonu İmirli (Əmirli) kəndinə köç ediblər. Uzun illər bu kənddə traktorçu kimi fəaliyyət göstərib. 2005-ci ildə vəfat edib.

## Elyasova Göyçək Alı qızı

1938-ci ildə Göyçə mahalının Alçalı kəndində anadan olub. Orta ibtidai təhsil ala bilməyib. 1948-ci ildə ailəsilə birlikdə yaşadıqları yerdən didərgin düşüb, əvvəl Azərbaycan SSR-nin Sabirabad rayonu Cəngən kəndində məskunlaşıb. Sonra Bərdə rayonu İmirli (Əmirli) kəndinə gəlib. Uzun illər kolxozda pambıqçı kimi çalışıb. Hazırda (Əmirli) kəndində yaşayır.

## Elyasova Gülnisə Kərəm qızı

1930-cu ildə Şərur-Dərələyəz qəzasının Salılı kəndində anadan olub. Orta ibtidai təhsil ala bilməyib. 1948-ci ildə ailəsi ilə birlikdə Ermənistan SSR-dən deportasiya olunub və Azərbaycan SSR-nin Salyan rayonunun Qaraağacı kəndində məskunlaşıblar. 1950-ci ildə Yevlax rayonunun Hürüuşağı kəndinə gəliblər. 1955-ci ildə Bərdə rayonu İmirli (Əmirli) kəndinə köç ediblər. Ailə həyatı qurduqdan sonra Naxçıvan MR-nın Şərur rayonunda yaşayıb. 2020-ci ildə vəfat edib.

## Elyasova Minə Məhərrəm qızı

1895-ci ildə Şərur-Dərələyəz qəzasının Horbadeğ kəndində anadan olub. Orta ibtidai təhsil ala bilməyib. Sallı kəndindən olan Kərəm Elyasovla ailə qurduqdan sonra həmin kəndə köçüb. 1948-ci ildə ailəsi ilə birlikdə Ermənistan SSR-dən deportasiya olunub və Azərbaycan SSR Salyan rayonunun Qaraağacı kəndində məskunlaşıblar. 1950-ci ildə Yevlax rayonunun Hürüuşağı kəndinə gəliblər. 1955-ci ildə isə Bərdə rayonu İmirli (Əmirli) kəndinə köç ediblər. 1986-cı ildə İmirli kəndində vəfat edib.

## Ələkbər Hüseynov

Şərur-Dərləyəz qəzasının Çivə kəndində yaşayıb. Övladları Musa (1936), Xədicə (1928), Siqili (1930), Tamam (1934). Ailənin əksər üzvləri 1951-ci ildə Çivə kəndindən Bərdə rayonunun İmirli kəndində deporatsiya ediliblər.

## Hüseynov İsa Ələkbər oğlu

1925-ci ildə Şərur-Dərələyəz qəzasının Civə kəndində anadan olub. İlk ibtidai təhsilini Çivə kəndində alıb. 1944-cü ildə Xəlilova Zeynəb Həsən qızı ilə ailə qurmuşdur. Bu nigahdan Civə kəndində 3 övladı dünyaya gəlmişdir. Lətifə (1946), Əntiqə (1948) Şəfiqə (1951). 1951-ci ildə yaşadıqları Çivə kəndindən yük vaqonlarında Bərdə rayonun İmirli kəndində deportasiya ediliblər.

## Vəkilov Mahmud Yusif bəy oğlu



1923-cü ildə Çivə kəndində Hacı Mahmud bəy Vəkilovun oğlu Yusif bəyin ailəsində anadan olub. Şərur-Dərələyəz qəzasının naibi olmuş Hüseynalı Sultanın oğlu olan qəzanın ən böyük mülkədarı Həsənalı Sultanın nəslindəndir. İlk ibtidai təhsilini Çivədə alıb. Çivədə və Naxçıvanın digər bölgələrində uzun illər müəllimliklə məşğul olub. Xəlilova Səriyyə Həsən qızı (1928) ilə ailə qurub. Hər ikisi birlikdə kənddə müəllimlik fəaliyyətini davam etdiriblər. Çivə kəndində övladları Raziyə (1946), İbrahim (1948), Yusif (1951) doğulub. Sonra Mahmud Vəkilov 1941-ci ildə II Dünya müharibəsinə gedib. Baş leytenant kimi müharibədə iştirak edib.

Çivə kəndində Mahmud Vəkilov həvəskarlardan ibarət truppa yaradaraq Cəfər Cabbarlının "Sevil" pyesini səhnələşdiriblər. Mahmud Vəkilov özü Balaş rolunda həyat yoldaşı Səriyyə Vəkilova Sevil obrazında qardaşı Kamil Vəkilov isə Gündüz rolunu ifa edirlərmiş. Vəkilovlardan ibarət həvəskar truppa hətta başqa kəndlərə gedib dram əsərlərini səhnələşdirirmişlər.

M.Vəkilov 1951-ci ildə ailəsi ilə birlikdə Bərdə rayonu İmirli kəndində deporatsiya edilib. Burada İbrahim, Yusif, Maqsudə, Lütfiyyə, Oktay adlı övladları doğulub. Bir müddətdən sonra Bakı şəhərinə köçüb. Müxtəlif dövlət orqanlarında məsul vəzifələrdə çalışıb. Azərbaycanın ilk sahibkarlarından biri olub. Ömrünün sonuna qədər Bakıda yaşayıb.

## Vəkilov Kamil Yusif bəy oğlu

1928-ci ildə Çivə kəndində Hacı Mahmud bəy Vəkilovun oğlu Yusif bəyin ailəsində anadan olub. Şərur-Dərələyəz qəzasının naibi olmuş Hüseynalı Sultanın oğlu olan qəzanın ən böyük mülkədarı Həsənalı Sultanın nəslindəndir. İlk ibtidai təhsilini Çivədə alıb. 1951-ci ildə ailəsi ilə birlikdə Bərdə rayonun İmirli kəndinə deportasiya edilib. Ağdam Kənd Təsərüfatı Texnikumunun aqronomluq fakültəsini bitirib. Bir müddət İmirli kəndindən Bərdə rayonuna Fayton sürməklə öz güzəranını qurmuşdur.

Uzun illər Bərdə rayonunun İmirli kəndində pambıqçılıq sahəsində aqronom, briqadir vəzifələrində çalşıb. 15 mart 2008-ci ildə İmirli kəndində dünyasını dəyişib.

## Novruzov Ələddin Əbdüləli oğlu



**30 oktaybr 1941-ci ildə Göyçə mahalının Alçalı (Mollalı) kəndində doğulub.** 1949-cu ilin dekabr ayında Alçalı (Mollalı) kəndinin əhalisini İrəvanda yük vaqonlarına mindirib Əli Bayramlının Cəngən kəndinə gətiriblər. Kənd əhalisi heç cür yerli iqlimə uyğunlaşa bilməyib. Alçalı (Mollalı) kəndinin sakinləri Fətəliyev Məhyəddin, Hüseynov Kamil, Həsənov Fərzalı, Abbasov Həmid, və b Bakıya köç komissiyasına bildiridilər ki, biz bu şəraitdə yaşaya bilmirik. Bundan sonra kənd əhalisinin köç bileti Bərdə rayonunun İmirli kəndinə dəyişdirilib. 1952-ci ildə İmirli kəndinə köçüblər. Ələddin Novruzov orta təhsilini İmirlidə və Bərdənin digər kəndlərində başa vurub. 1961-1966-ci illərdə Gəncə İnşaat Texnikumunda inşaat texniki ixtisası üzrə təhsil alıb. 30 dekabr 1974-cü ildə Fərzəliyeva Gülsüm Musa qızı ilə ailə qurub. 1986-1990-cı illərdə Azərbaycan Pedaqoji İnstitutunda əmək təlimi üzrə ali təhsil alıb. Uzun illər İmirli orta məktəbində əmək təlimi müəllimi kimi fəaliyyət göstərib. Şagirdlərin yaddaşında nümunəvi müəllim kimi qalıb.

İmirli kəndində dünyasını dəyişib.

## Calalova Dürdanə İbrahim qızı



25 yanvar 1948-ci ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. 3 yaşına qədər Çivə kəndində yaşayıblar. 3yaşına kimi doğum şəhadətnaməsi ala bilməyib. Bu hal deportasiya prosesinin əvvəlcədən planlaşdırılmasının göstəricisi idi. D.Calalova 1951-ci ildə ailəsi ilə birlikdə Noraşen stansiyasından yük vaqonlarında əvvəlcə Yevlax stansiyasına sonra isə Bərdə rayonun İmirli kəndinə gəliblər. Durdanə Calalova anasının qucağında zorla öz doğma evlərindən qovulduqdan sonra ac-susuz, qorxu dolu uzun bir yola çıxacağından bir daha evlərinə qayıtmayacaqlarından xəbərsiz idi. Azərbaycana çatdıqdan sonra digər Çivə əhalisi kimi onun da ailəsini əvvəlcə Bərdə rayon Kətəlparaq kəndində məskunlaşdırsalar da, digər kənd əhalisi kimi onlar da İmirli kəndinə köç etmişdir. Sonra gəldikləri yerə öyrəşməyə çalışırdılar. Yeraltı qazmalarda yaşıyırdılar. Yayı yola verə bilsələr də, qışda vəziyyət daha da çətinləşirdi. Yeraltı qazmalarda istilik problemi ən çətini idi. Hətta bəzən camaat ev heyvanları ilə birlikdə yatırdılar ki, otağın hərarəti daha çox olsun. Bu kimi çətinliklərin ardı-arası kəsilmirdi. Dürdanə Calalova 1955-ci ildə İmirli kəndində 1-ci sinfə daxil olmuşdur. 1959-1962-ci illərdə 5-7-ci sinf təhsilini Bərdə rayon Şahvəllər kəndində davam etdirib. Bu şəkildə təhsil almaq nə qədər yorucu olsa da başqa yol olmadığı üçün buna qatlaşırdılar. 1963-cü ildə 8-ci sinfi Xanərəb kəndində bitirib. Bundan sonra, 1964-65-ci illərdə Ağdam rayonu Kolanı kəndində tam orta məktəbi bitirib. 10 il ərzində 4 ayrı kənddə təhsilini davam etdirməyinə baxmayaraq orta məktəbi əla qiymətlərlə bitirib. 1966-cı ildə Şuşa Pedaqoji məktəbinin İbtidai sinif müəllimliyinə daxil olmuşdur. İmirli kəndində ilk oxuyan qadın olmuşdur. 1968-ci ildə məktəbi qırmızı diplomla bitirib. 15

avqust 1968-ci ildə Bərdə rayon Əmirli kəndində sinif müəllimi kimi fəaliyyətə başlamışdır.

Müəllimliyə başladıqdan bəri, uşaqlarla yaratdığı ünsiyyətdən, keçdiyi dərslərin keyyfiyəti ilə, uşaqlara aşıladığı təlim-tərbiyə ilə həmişə nümunəvi müəllim olmuşdur. 46 il müəllimlik vəzifəsini şərəflə yerinə yetirdikdən sonra 2 iyun 2014-cü ildə təqaüd yaşına çatdığı üçün əmək müqaviləsinə xitam verilib. 25 yanvar 2020-ci ildə İmirli kəndində dünyasını dəyişib.

## Calalov İbrahim Cəlil oğlu



1911-ci ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. 1918-20-ci illərdə, erməni-daşnaq quldur dəstələrinin hücumu zamanı ailəsi ilə birgə qaçqınlıq həyatı yaşayıb. 1928-ci ildə Çivə kənd yeddiillik məktəbinin 1-ci sinfinə daxil olub. 1935-ci ildə 7-ci sinfi bitirdikdən sonra, İliç adına kolxozda kolxozçu kimi əmək fəaliyyətinə başlayıb. 1937-ci ildən Çivə kənd sovetinin katibi işləyib. 1941-ci ildə Böyük Vətən müharibəsi başlayanda orduya çağrılıb. Şimali Qafqazdan başlayan ağır döyüş yolu keçib. Mozdok, Nalçik uğrunda döyüşlərlə bərabər, Ukrayina, Belarusiya cəbhələrində vuruşub. Krım yarmadasının, Pribaltika respublikalarının azad olunmasımda şücaət göstərib. Dörd dəfə yaralanıb, sonuncu dəfə 1944-cü ildə Riqa uğrunda gedən döyüşlərdə kürəyindən ağır yaralanıb. Eyni zamanda sağ böyründən qəlpə yarsı alıb. Ölmüş əsgərlərin içindən təsadüf nəticəsində tapılaraq hospitala yerləşdirilib. Özü söyləyərmiş ki, ağrıların şiddətindən üç ay hardan yaralandığımı bilmədim. 6 ay hospitalda müalicə olunub. Baltik dənizi sahillərində ağır döyüşlərdə iştirak edib. 1946-cı ildə "Keniqsberqin alınmasına görə" medalı ilə təltif edilib. Müharibə

qurtardıqdan bir il sonra, yəni 1946-cı ildə təxliyə olunub. Böyük Vətən müharibəsində igidliyə görə, birinci və ikinci dərəcəli orden və medallarla təltif olunub. 1946-cı ildə ata-baba yurdu Çivəyə qayıdaraq, İliç adına kolxozda mühasib işləyib. 1951-ci ildə könüllü adı altında Stalinin köçürülmə siyasəti, bir müharibə iştirakçısı kimi ondan və ailəsindəndən də yan keçmir, onlar Bərdə rayon İmirli kəndində məskunlaşırlar. 1952-ci ildən 1980-ci illərin sonlarına qədər İmirli kəndində təsərrüfat briqada başçısı işləyir. 1970-80-ci illərdə "Qırmızı Əmək Bayrağı" ordeni, bir neçə dəfə Əmək Veteranı ordenləri, Böyük Vətən müharibəsinin yubiley medalları ilə təltif olunub.1970-ci ildə pambıq planını 150% yerinə yetirdiyinə görə ona " Moskviç" markalı maşın hədiyyə olunub. Ömrünün sonuna qədər İmirli kəndində yaşayıb.

## Calalov Cabbar Cəlil oğlu

Şərur-Dərələyəz qəzasının Çivə kəndindən deportasiya olunan Cabbar (müəllim) Calalov deportasiya barəsində bildirir: “Bizi öz yurdumuzdan könüllü adı ilə köçürdürdülər. Biz köçən kimi isə kəndimizə, evimizə Suriyadan, Livandan gətirilən erməni ailələrini yerləşdirirdilər. Bizi vaqonlarla Ələtə, oradan isə Yevlaxa gətirdilər. Yevlaxdan isə hər kəndə 15-20 ailə olmaqla paylaşdırdılar. Biz isə Sovet hökumətinin qaçaq hərəkatına qarşı mübarizə zamanı dağıdılmış və əhalisi didərgin salınmış İmirli kəndinə gəldik. Yerdən qazma tikib iki il orada yaşadıq. Çətinliklərimiz çox oldu. Sonrakı illərdə ev tikdik, kənd təsərrüfatı ilə məşğul olmağa, pambıq, taxıl becərməyə başladıq”.

## Cəfərov Əhməd Ələkbər oğlu

1947-ci ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. 4 yaşında ailəsi ilə birlikdə Bərdə rayonun İmirli kəndinə deportasiya edilib. İlk orta təhsilini İmirli kəndində sonra isə Şahvəllər və Xındırstan kəndlərində davam etdirib. Gəncə Pedaqoji İnstitutunu bitirib. Uzun illər İmirli kənd orta məktəbində müəllim kimi fəaliyyət göstərib.

**Cəfərov Calal Məmməd oğlu**

1936-cı ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində doğlub. 1944-cü ildə Şərur rayonun Düdəngə kəndinə köçüb. İlk orta təhsilini Düdəngədə alıb. 1953-cü ildə Bərdə rayonunun İmirli kəndinə deportasiya edilib. Uzun illər Telman adına kolxozunda dəmirçi işləyib. El arasında ona Dəmirçi Calal da deyiblər. 2018-ci ildə Bərdə rayonun İmirli kəndində dünyasını dəyişib.

**Cəfərov Ələkbər Məmməd oğlu**

1925-ci ildə Şərur-Dərələyəz Qəzasının Çivə kəndində anadan olub. 1944-cü ildə Şərur rayonun Düdəngə kəndinə köçüb. İlk orta təhsilini Düdəngədə alıb. 1953-cü ildə Bərdə rayonunun İmirli kəndinə deportasiya edilib. Bundan sonra İmirli kəndində yaşayıb. 1999-cu ildə dünyasını dəyişib.

**Abbasov Bakir Əhməd oğlu**

26 yanvar 1956-cı ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. 1963-1970-ci illərdə Çivədə yeddiillik orta məktəbi bitirib. Sonra Qovşuq kəndində tam orta məktəbi başa vurub. 1974-cü ildə İrəvanda Texnikuma qəbul olub. Hərbi xidmətə çağırıldığı üçün təhsili yarımçıq qalıb. 1975-1978-ci ildə hərbi xidmətdə olub. Hərbi xidmətdən sonra 1978-ci ildə Çelyabinskidə Ali Partiya məktəbini bitirib. Hazırda Bakı şəhərində yaşayır.

## Məmmədov Bayram Həbib oğlu



21 mart 1935-ci ildə Şərur-Dərələyəz qəzasının Qozulca kəndində anadan olub. 1942-ci ildə Əli Nəcəfovun təşkil etdiyi orta məktəbin birinci sinfinə gedib. B.Məmmədov: "Qardaşım Rzanın həyat yoldaşı Küşvər klub müdiri idi. Mən balaca olsam da qardaşım Rza ilə klubda keçirilən iclaslara gedirdim. İkinci sinifdə oxuyurdum. 1943-cü ildə bir gün sahə müvəkkili Markosyan klubda iclas edib bildirdi ki, camaat oxumalıdır. Qadınlar gündüz gedib kolxozda işləsinlər, gecə isə məktəbdə hərf öyrənsinlər. Bundan sonra Musa müəllimin evinin 2 otağını məktəb etdilər. Kəndçimiz İsa Qəmbərov məktəbin direktoru və müəllim təyin edildi. Heşinli Camal kişi kolxoz sədri idi. Onun qızı Güləndam da bizim kənddə müəllimə işlədi. Mən 4-cü sinfə qədər Qozulcada təhsil aldım. Sonra isə Şərur rayonun Dizə kəndində gecə məktəbində 10 illik orta məktəbi bitirdim".

Sonra ermənilər kənddə iclas edərək qərara gəlirlər ki, kəndin savadlı adamlarını kənddən uzaqlaşdırmaq lazımdır. Beləliklə, Şadman İbrahimovu Çivə kəndinə, Alı müəllimi Ələyəz kəndinə, Məhəmməd Qəmbərovu isə Gülüdüzünə sədr vəzifəsinə təyin etdilər. Qozulca kəndinə isə Heşin kəndindən Əmirqulu Müseyib oğlunu sədr, Həsən Mamoş oğlunu isə katib təyin etdilər.

B.Məmmədov: "Biz balaca uşaq idik, erməni uşaqlarından İskarbin Xaçik oğlu və Papaz Sereqon bizə deyirdilər ki, atamız deyir ki, bu zonada 3 böyük kənd var. Qozulca, Ələyəz, Qovşuq, əgər bu kəndləri çıxartsaq qalanlarını çıxartmaq asan olacaq.

1946-cı ildə Qozulca kəndi ilə Çivə kəndini birləşdirib bir kolxoz edirlər. Armik kolxoz sədri təyin edildi. 1948-ci ildə ermənilər Qozulcada iclas etdilər. Onlar İ.Stalinin qərarını əsas gətirərək bildirdilər ki, Azərbaycanın boş torpaqları çoxdu biz isə

burada əziyyət çəkirik. Siz kənddən iki nəfər təyin edin gedib Azərbaycandan yer bəyənsin və köçün gedin ora. Qozulcadan Pəno Musa və Hüseynquluya hərəsinə 200 rubl pul verib Azərbaycana yola saldılar. B.Məmmədov: "Adışəkilən şəxslər gedib Bərdə rayonunun Kələntərli kəndini bəyəniblər. Ailə başçısına min rubl, ailə üzvlərinə isə üç yüz rubl pul verdilər. Bizi 60 vaqon əhalini Noraşendə heyvanlarımızla birlikdə yük vaqonlarına mindirib Yevlaxa yola saldılar. Yolda mal-qaranın çoxu öldü. Sonra bizi Bərdə rayonunun Kələntərli kəndinə gətirdilər əhalinin yarısını "Kolxozun pambıq Şulqasına" yarısını isə orta məktəbə boşaldılar. Bir müddətdən sonra qardaşımın aravadı Küşvər xanım Bərdənin havasına uyğunlaşa bilmədi və bronxit xəstəliyinə tutuldu. Həkim tövsiyə etdi ki, siz ancaq öz yerinizə qayıtsanız orada Küşvər xanım sağala bilər. Biz Qozulcaya geri qaytımaq istəsək də hökümət icazə vermədi. Sonra həkim bildirdi ki, heç olmasa həmin əraziyə yaxın bir yerə köçün və biz bundan sonra Şərur rayonun Dizə kəndinə köçdük. Orada orta təhsilimizi davam etdirdik. Sonra isə Bakıya köçdük. Ən böyük arzum Qozulcaya qayıtmaqdır".

## Nürəliyev Oruc Həsən oğlu

Şərur-Dərələyəz qəzasının Çivə kəndində yaşayıb. Əhməd bəy Vəkilovun qızı Sidiqə xanımla ailə qurub. Bu nigahdan onların Əzət (1926), Nuriddin (1928-2004), Məhəmmədəli (1930-1990), Dilarə (1938-1992), Yaqub (1941-2018) övladları anadan olub. Uşaqlar kiçik yaşlarında ata-analarını itirdikdən sonra bir müddət qohumları Əli Nurəliyevin (həyat yoldaşı Şeyda xanım) himayəsində qalıblar. Sonra ailə üzvləri ilə birlikdə 1951-ci ildə Bərdə rayonunun İmirli kəndinə deportasiya ediliblər. Bir müddət İmirlidə yaşayıblar. Oğlu Məhəmmədəli Nürəliyev gənc yaşlarından kolxozda əmək fəaliyyətinə başlayıb. 1990-cı ildə İmirli kəndində dünyasını dəyişib.

## Qənbərov Əhməd Məhəmməd oğlu



20 may 1924-cü ildə Bərdə rayonunun Həsənqaya kəndində doğulub. Əslən Şərur-Dərələyəz mahalının Çivə kəndindəndir. Atası Məhəmməd Qənbərov 1918-1920-ci illər hadisələrindən sonra Bərdə rayonuna köçüb. Sonra yenidən Çivə kəndində qayıdıblar. Atası Məhəmməd Qənbərov bir müddət Çivə kəndində sovet sədri işləyib. Ona qarşı olan təzyiqlərdən yenə Bərdə rayonuna köçməli olub.

Əhməd Qəmbərov1941-ci ildə Böyük Vətən müharibəsinə gedib. 1942-ci ildə yaralanaraq geri dönüb. Göstərdiyi xidmətlərə görə müxtəlif medallarla təltif edilib. 1951-ci ildə ailəsi ilə birlikdə yük vaqonlarında əvvəlcə Yevlax, sonra Bərdə rayonunun İmirli kəndində məskunlaşıblar. Əhməd Qənbərov 1955-ci ildə işləmək məqsədi ilə Yevlaxın Salahlı kəndində məskunlaşıb. Nəhayət 1958-ci ildə yenidən Bərdə rayonunun İmirli kəndinə köçüblər. O, kəndin sayılıb-seçilən ağsaqqallarından biri olub. 16 oktyabr 1994-cü ildə İmirli kəndində ağır xəstəlikdən sonra dünyasını dəyişib.

## Qənbərov Mirzə Əhməd oğlu



14 fevral 1956-cı ildə Yevlax şəhərinin Salahlı kəndində anadan olub. Əslən Şərur-Dərələyəz mahalının Çivə kəndindəndir. 1958-ci ildə ailəsi ilə birlikdə Bərdə rayonunun İmirli kəndinə köçüb. Orta məktəbi İmirli (Əmirli) kənd orta məktəbində oxuyub. 1974-1977-ci illərdə Ukraynada hərbi xidmətdə olub. Əsgərlikdən qayıdandan sonra Yevlaxda diş texnikliyini öyrənib və İmirli kəndində ömrünün sonunadək diş həkimi işləyib. Ailəli olub, 4 qızı və bir oğlu dünyaya gəlib. 18 sentaybr 2016-cı ildə İmirli kəndində dünyasını dəyişib.

## Nürəliyev İmran İsa oğlu



1937-ci ildə Şərur-Dərləyəz qəzasının Çivə kəndində anadan olub. İlk təhsilini Çivədə alıb. İmran Nurəliyev: "1951-ci ildə Çivə kəndində yerli hökümət iclas edib bildirdilər ki, buradan köçməlisiniz. Əgər indi köçsəniz dövlət hesabına köçəcəksiniz. Lakin sonraya qalsa öz hesabınıza köçəcəksiniz".

1951-ci ilin payızında Məmmədağı Qəmbərov, Calal Abbasov, Qasım Abbasov, Əlkbər Abbasovla (dayıları). Birlikdə dogma kəndlərindən deportasiya edilərək yük vaqonlarında əvvəlcə Yevlaxa, sonra isə Bərdə rayonun Xanərəb kəndinə köçürülüblər. Bir qış Xanərəb kəndində qaldıqdan sonra İmirli kəndinə qayıdıblar. Sonra orta təhsilini bir müddət İmirlidə, Şahvələr, Xanərəb kəndlərində davam etdirib. Əbdürəhman Vəzirovun hakimiyyəti dönəmində köç biletlərini yığıblar.

**Abbasov Rəşid Əli oğlu**



03.04.1965-ci il Bərdə rayonu İmirli kəndində anadan olub. Əslən Şərur-Dərələyəz qəzasının Çivə kəndindəndir. 1971-ci ildə Əmiri kənd orta məktəbinə gedib. 8-ci sinifə kimi burada təhsil alıb. 9-10-cu sinfləri Bakı şəhərində 5 nömrəli kimya-biologiya təmayüllü internat məktəbində oxuyub. 1983-1985-ci illərdə Almaniyada həqiqi hərbi xidmətdə olub. Əmək fəaliyyətinə 1985-1995-ci illərdə Material Ehtiyatları Nazirliyində fəhlə, sahə rəisi, böyük əmtəəşünas, 16.02.1995-ci ildə Kənd Təsərrüfatı Nazirliyi Aparatında İdarə rəisinin müavini kimi işə başlayıb. 08.08.1995-ci ildən 18.08.1998-ci ilə kimi Respublika Aqrar-Sənaye Əmtəə Birjasının rəhbəri, 1999-2002-ci illərdə Nazirliyin Aparatında İdarə rəisinin müavini, 2002-2005-ci illərdə 7 rayonu əhatə edən Ərazi Kənd Təsərrüfatı İdarəsinin rəisi, 2005-2011-ci illərdə Respublika Baytarlıq Xidmətinin rəis müavini, Respublika Baş Baytar Müfəttişinin müavini (Baytarlıq Xidmətinin yüksək rütbəsini daşımışdır) 2011-2012-ci illərdə Bakı şəhəri Baytarlıq İdarəsinin rəisi, 2012-2014-cü illərdə Nazirliyin Aparatında şöbə müdiri, 2015-2016-cı illərdə Pirallahı rayonu İcra Hakimiyyətində işləmişdir. 2018-ci ildən Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyində baş məsləhətçisi vəzifəsində çalışmaqdadır.

## Vəkilova Svetlana İsa qızı

Atası İsa Vəkilov ailəsi ilə birlikdə Şərur-Dərələyəz qəzasının Çivə kəndindən Bərdə rayonunun İmirli kəndinə deportasiya edilib. 20 aprel 1952-ci il Bərdə rayonun Həsənqaya kəndində anadan olub. 1953-cü ildə əmisi Mustafa Vəkilov və nənəsi Şəhrəbanu xanımla Çivə kəndində geri qayıdıblar. 1958-ci ilə kimi Çivə kəndində yaşayıb, sonra yenidən Bərdə rayonunun İmirli kəndində qayıdıb. İmirli kəndində Səməndər Fətəliyevin sinfində ilk ibtidai təhsil alıb.İkinci sinifdən sonra atası ilə birlikdə Bərdə rayonuna köçüblər. Azərbaycan Dövlət Pedaqoji İnstitutunu Azərbaycan dili və ədəbiyyat ixtisası üzrə bitirib. Uzun illər Bakıda müəllim işləyib. Hazırda Bakı şəhərində yaşayır.

## Abbasov Valeh Calal oğlu

1 mart 1951-ci İldə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. Anadan olandan 7 ay sonra Bərdə rayonuna deportasiya ediliblər. Atası Calal Abbasov, əmiləri Ələkbər, Yaqub, Qasım, anası Leyla xanım, nənəsi Nigar xanım, bibiləri Məleykə, Leyla, Cavanşirlə birlikdə deportasiya olunublar. İllərlə tolpladıqları var-dövlətləri Çivədə qalıb. Bababası Əli Abbasov vaxtilə kənddə sayılıb-seçilən, varlı kişilərdən biri olduğu üçün "kulaq" ediblər. Məleykə bibisinin həyat yoldaşı Hüseyn Əliyev İkinci Dünya müharibəsinə gedib geri qayıtmayıb. Onun Nadir adında bir övladı qalıb. Valeh Abbasov: "O vaxt bizi yük vaqonlarına yığıb Yevlaxa gətiriblər oradan da İmirli kəndinə gəlmişik. Kənd camaatı qazma qazıb iki ilə yaxın qazmalarda yaşadılar. O, vaxt körpə uşaq olmuşuq. Hətta birinci kəndə gələndə qazma da yox idi, qonşu Xanərəb kəndində Məmmədqulu kişi bizi öz evlərində qonaq etdi. Sonra İmirlidə qazma qazıb bir müddət orada yaşadıq". Valeh Abbasov sonra Bakı şəhərinə köçüb, hazırda Bakıda yaşayır.

## Novruzova Familə Salman qızı



15 mart 1957-ci il Bərdə rayonunun İmirli kəndində anadan olub. Həmin kəndin orta məktəbində 10 illik tam orta təhsilini başa vurduqdan sonra Gəncə Pedaqoji məktəbini bitirib. Əslən Qərbi Azərbaycanın Göyçə mahalının Mollalı (Alçalı) kəndindəndir. Atası Novruzov Salman İsmayıl oğlu İkinci Dünya müharibəsi iştirakçısı olub. Uzun illər pedaqoji fəaliyyətlə məşğul olub. Anası Novruzova Mahmənzər Əli qızı Qərbi Azərbaycanın Basarkeçər rayonun Göysu kəndindəndir. Ailə 1949-cu ildə Göyçə mahalından əvvəlcə Əli Bayramlıya sonra isə Bərdəyə köçüblər. Familə xanım 1989-cu ildə "Bərdə" qezetində korrektor vəzifəsində işləmişdir. 1991-ci ildə Xocalıda müəllimlik fəaliyyətinə başlayıb. Xocalının Qaladərəsi ibtidai orta məktəbində sinif müəlimi işləmişdir. Xocalıya erməni hücumları başlayanda könüllü olaraq müharibəyə qatılıb. Azərbaycan Ordusunun ilk döyüşçü xanımı kimi silahlı qüvvələr tarixinə düşüb. Şair Zəki İslam onun haqqında belə yazmışdır.

Eşitmişdim görməmişdim üzünü
Familə Fərmanlı budu üz-üzə
Şairədi, müəllimdi, əsgərdir,
Döyüşçüdür, veterandır yüz-yüzə
Cəmi üç ay olub müəllim sevinci
Zəmanə ayırıb məktəbdən gənci
Başda papaq, döşdə nişan birinci,
Döyüş səngərində durub üz-üzə.

Familə Fərmanlı 1992-ci ildə yanvar ayının 25-dən 26-sına keçən gecə döyüşçü yoldaşlarına hərbi sursat və ərzaq aparan zaman Xocalı aeroportuna düşmənin atdığı mərmi partlayışından ağır kantuziya almışdır, səhər saat 6 radələrində komandiri Tofiq Hüseynov onu Xocalı aeroportunda kantuziya aldığı yerdən götürüb atası Mir Siyab kişinin evinə aparmış və ilk tibbi yardım göstərilmişdir. Yanvar ayının 28-də son dəfə Xocalı şəhərindən çıxmış vertoliotla Ağdama gətirilmişdir. Ordan isə komandiri onu Bərdə xəstəxanasına yola salmışdır. Bir müddət müalicə aldıqdan və biraz yaxşılaşdıqdan sonra Ağdam aeropotuna gələrək komandiri ilə son dəfə görüşmüş və Familə isə Xocalıya getmək istədiyini bildirəndə Tofiq Hüseynov razı olmamışdır "Mən səni son dəfə Xocalıda qan içində donmuş halda görəndə inanmırdımkı sən sağalacaqsan. Sən tabora lazım olan hərbi sursatı al bizə göndər, bu bizə yetərlidir".

Amma çox təəssüflər olsun ki, Familə hərbi zavodların birindən aldığı 2 ədəd minamyotu və 18 ədəd mərmini Xocalıya göndərə bilmədi. 1992-ci il fevralın 25-dən 26-sına keçən gecə Xocalı soyqırımı baş verdi. Familə Salman qızı həmin silahları sonradan xidmət etdiyi Eldar Bağırov adına tabora təhvil vermişdir. Xocalıda şəhid olanların Ağdama gətirilən tanınmaz hala salınmış, başı-qolu kəsilmiş cəsədləri üzərində and içmiş və bundan sonra xidmətini Ağdamda davam etdirmişdir. F.Fərmanlı düşmənin yaşadığı Aranzəmin, Pircamal və Naxçivanik kəndlərindən qovulmasında iştirak etmişdir. Soyuq səngərdə səhhəti pisləşmiş onu təcili tibbi yardımla Ağdam səhra Hospitalına aparmışlar. Sonra isə vertolyatla Bakı-Zabrat aeroportuna yola salınmışdır. Oradan isə Biləcəri Dəmiryol xəstəxanasına yerləşdirilmişdir. Müalicə olunduqdan sonra hərbi hissəyə geri dönmüş, 1996-cı ilədək hərbi xidmətdə olmuşdur. Gizir rütbəsində II qrup əlil kimi təqaüdə çıxan Familə Fərmanlı 2020-ci ildə Bakı şəhərində dünyasını dəyişib.

## Calalov Sultan İbrahim oğlu

1950-ci ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. 1 yaşında ailəsi ilə birlikdə Bərdə rayonun İmirli kəndinə deportasiya edilib. 1957-ci ildə İmirlidə 1-ci sinifə gedib. 1967-ci ildə orta məktəbi bitirib. 1968-1970-ci illərdə Bakı Maliyyə-İqtisadiyyat Texnikumunda Bank mühasibi ixtisası üzrə təhsil alıb. 1970-ci ildə Dövlət Bankının Bərdə şöbəsində işə başlayıb. 1971-1976-cı illərdə Xalq Təsərrüfatı İnstitutunun maliyyə-kredit fakültəsində qiyabi təhsil alıb. 1981-ci ildə Azərbaycanda ən yaxşı bank iqtisadçısı olması ilə bağlı Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanına layiq görülüb. 1985-ci ildən 1993-cü ilə qədər Dövlət Bankının Bərdə şöbəsində müdir müavini vəzifəsində işləyib. 1993-cü ildən 2006-cı ilə kimi bir neçə Səhmdar Kommersiya Banklarının müdiri vəzifəsində çalışıb. 2001-ci ildən hal-hazıra kimi "Savalan” Xeyriyyə cəmiyyətinin rəhbəri vəzifəsini daşıyır. Sultan Calalov həm də müxtəlif mövzularda şeirlər yazır. Ən böyük arzusu Çivə kəndində qayıtmaqdr.

**Pirməmmədli Səməd Abbas oğlu**



17 mart 1948-ci il tarixdə Qərbi Azərbaycanın Dərələyəz mahalının Çivə kəndində anadan olmuşdur. İ.Stalinin qərarı ilə Qərbi Azərbaycandan Azərbaycan türklərinin deportasiya edilməsi nəticəsində Səməd Pirməmmədli, atası Abbas, nənəsi Şəhrəbanu və anası Xanım, bacısı Bilqeyis, dayıları Cabbar və Zülfüqarla birlikdə Şərur rayonunun Düdəngə kəndinə köç etmişlər. Bir neçə il Düdəngə kəndində yaşadıqdan sonra atası Abbas müəllimlə birlikdə Çivə camaatının kompakt yaşadığı Bərdə rayonunun İmirli kəndində məskunlaşıb. 1951-ci ildə 3 yaşında anası Məhərrəmova xanım Kazım qızı avtomobil qəzasında həyatını itirmişdir. Onu da qeyd edək ki, Səməd Pirməmmədlinin anası Gəncəli Musa pəvlavanın nəslindəndir. Səməd Pirməmmədli nənəsi Şəhrəbanu və dayısı Cabbarın himayəsində böyümüşdür. İlk orta təhsilini Bərdə rayonu İmirli kəndində bitirmişdir. Sonra isə peşə məktəbində tam orta təhsilini başa vurmuşdur. 1968-ci ildə yenidən doğulduğu Dərələyəz mahalına qayıdaraq bir neçə il orta məktəbdə müəllim işləmişdir. Bundan sonra 1971-ci ildə Bakıya gəlmişdir. İki ilə yaxın Bakı şəhərində müxtəlif işlərdə işləmişdir. 1973-1976-cı illərdə Bakı Yerli Sənaye Texnoloji Texnikumunun Faydalı qazıntı yataqlarının açıq istismarı fakültəsində dağ mexaniki ixtisası üzrə təhsil almışdır. 1978-ci ildə istehsalatda sex rəisi vəzifəsində çalşımışdır. 1981-ci ildə isə Bakı Şəhəri İstilik Şəbəkəsində anbar müdiri, sonra isə Maddi Texniki Təchizat şöbəsinin rəisi vəzifəsində çalışmışdır. Ümummili Lider Heydər Əliyevə xüsusi rəğbəti olduğundan "Heydər baba" MMC-nin yaranmasında təşəbbüs göstərmişdir. 1994-cü ildə "Heydər baba" MMC-də direktor vəzifəsini daşımışdır. 1995-1998-ci illərdə Bakı

Şəhəri Təsərrüfatlararası Maddi-Texniki Təchizat idarəsi rəisi işləmişdir. Xarici ölkələrdən Neft şirkətinə, zavodlara müxtəlif növ avadanlıqlar, materiallar, fəhlə geyimləri gətirilməsi, çatdırılmasında fəal iştirak etmişdir. 1999-cu ildə "Azərsukanal təmir" İstehsalat birliyində İstehsalat kommersiya və material Texniki kompleksləşdirmə bazasının rəisi, 2001-ci ildə Bakı şəhəri xüsusi ixtisas tikinti Quraşdırma idarəsində Baza müdiri vəzifəsində işləmişdir. 26 noyabr 2021-ci il tarixində Bakı şəhərində dünyasını dəyişib.

**Seydəliyev Hüseyn Həsən oğlu**

1938-ci ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndinda anadan olub. 13 yaşına kimi Çivədə yaşayıb. İlk ibtidai təhsilini Çivədə alıb. 24 noyabr 1951-ci ildə yaşadığı kənddən ailəsi ilə birlikdə Noraşen stansiyasına gətiriblər. Bir həftə orada qaldıqdan sonra mal-qara ilə birlikdə yük vaqonlarına yığaraq əvvəlcə Yevlağa oradan isə Bərdə rayonunun İmirli (Əmirli) kəndinə gətiriliblər.

H.Seydəliyev: “Altı ailəni bir vaqona yığdılar bir həftəyə yaxın yol getdikdən sonra Ələt stansiyasına çatdıq. Buradan bizi göndərdilər Yevlax stansiyasına. Ordan bizi Bərdə rayonunun ayrı-ayrı kəndlərinə payladılar. Bizim ailəmizdə İmirli kəndinə gəldik. Kənd bom-boş idi. Odur ki, qazmalar qazaraq orada yerləşdik. Yaza kimi Çivə camaatının çoxu gəlib İmirli kəndinə məskunlaşdı. Yavaş-yavaş kolxoz quruldu. Sonra palçıqdan tövlələr tikdik, mal-qara saxladıq. Öküzlə yer şumlayıb, əkin əkirdik. Yay gəldi yayın istisinə insanlar dözə bilmədi qızdırma xəstəliyinə düşdülər. Bakıdan həkim qrupu gəlib əhaliyə tibbi yardım etsə də, xəstəlikdən ölənlər oldu. Onu da qeyd edim ki, biz Çivə kəndindən köçəndə orada cəmi 30 erməni ailəsi yaşayırdı. Sonra ermənilər doğma yurdumuza yiyələndilər. Mən bir şeyi də qeyd edim ki, ermənilərin əsas peşəsi dilənçilikdir. Kəndimizdə yalnız ermənilər dilənçilik edirdi. Kənddə böyük meyvə bağlarımız, əkin yerlərimiz varidi. Biz üç qardaş, üç bacı idik. Böyük qardaşım 1941-ci ildə İkinci

Dünya müharibəsinə getdi. 1943-cü ilin fevral ayında son dəfə bizə məktub göndərdi sonra heç bir xəbər ala bilmədik. Mənim ən böyük arzum doğma torpaqlarımıza qayıtmaqdır".

**Pənahov Əhəd Pənah oğlu**

1929-cu ildə Şərur-Dərələyəz Qəzasının Sallı kəndində anadan olub. Ailədə dörd bacı, bir qardaş olublar. İlk ibtidai təhsilini Sallı kəndində yeddiillik natamam orta məktəbdə alıb. 1949-cu ildə İ.Stalinin deportasiya qərarı ilə yük qatarları ilə Salyan rayonuna köçrülmüşdür. Dərələyəz mahalının dağlıq relyefinə, əsrarəngiz gözəlliyinə, sərin bulaqlarına öyrəşən Əhəd Pənahovun ailəsi Salyan rayonun iqliminə dözə bilməyib oradan Şamxor (Şəmkir) rayonuna köçüblər. Üç ilə yaxın orada qaldıqdan sonra 1953-cü ildə yenidən doğma Sallı kəndində qayıdıblar. Onlar Sallı kəndində qayıdanda evlərində ermənilərin məskunlaşdığını görüblər. Əhəd Pənahovun ata-anası məsləhət görüb ki, nisbətən oxşar iqlimi olan Şərur rayonun Danzik kəndinə köçsünlər. Əhəd Pənahov ata-anası iki bacısı ilə birlikdə Danzik kəndinə köçüb orda məskunlaşıblar. 1954-cü ildə Əhəd Pənahov Danzik kənd sakini Hüseynova Sara Əli qızı ilə ailə həyatı qurub. 1955-ci ildə Onu hərbi təlimə çağırıblar. Bundan sonra Əhəd Pənahovun anası Səkinə xanım və həyat yoldaşı Sara xanım Sallıda yaşayan qohumlarının (bacısı Diləprüz və əmisioğlu Qəmbəralı) yanına qayıdırlar. 18 iyun 1955-ci ildə Sallı kəndində Əhəd Pənahovun qızı Şövkət dünyaya gəlib. Sonra yenidən onlar ailəsi ilə birlikdə Danizk kəndində qayıdıb. 1969-cu ilin oktyabr ayında Əhəd Pənahov ailəsi ilə birlikdə Bərdə rayonun İmirli kəndində yaşayan qohumlarının (əmisi İsa Pənahov və digər kəndçilərinin) yanına köçüb. İki aya yaxın İmirlidə yaşayıblar. Həmin dönəmdə Əhəd Pənahovun oğlanları Səməd və Nemət İmirli kənd orta məktəbində təhsil alıblar. Lakin kəndə uyğun ev tapa bilməyən Əhəd Pənahov nisbətən daha sərin bölgəyə Tərtər rayonunun Qaynaq kəndinə köçüb. Qaynaq kəndində Sallı kəndindən gəlib məskunlaşmış əhalinin olması bir müddət Əhəd

Pənahovun burada qalmasına səbəb olub. 1975-ci ildə yenidən Danzik kəndinə köçüb. Sonradan Danzik kəndində bənd tikilməsi ilə bağlı Şərur rayonun Şəhid Məmməd kəndinə köçüblər. İki mininci illərdə Bakıya köçən Əhəd Pənahov 13 yanvar 2012-ci ildə Bakıda dünyasını dəyişib.

Əhəd Pənahov özü folklor daşıyıcısı olub. Saatlarla bədahətən şeir deyib, dastan söyləyirmiş. Uşaq yaşlarında aşıq olmaq arzusunda olub. Qızı Şövkət Bəylərli atasının bu arzusu barədə bunları söyləyir: "Sallı kəndində bir nəfər saz satırmış, kasıbçılıq dövrü imiş həmin adam saza təxminən yüz yumurta qiymət qoyubmuş. Atam anasından xəlvət bu yumurtaları toplayır və sazı alır. Ancaq utandığından sazı çala bilmir. Sonra isə sazı həmkəndlisi Mirzalıya hədiyyə edir. Sonralar Mirzalı kişi aşıqlıq etməyə başladı. Beləliklə, atam Aşıq Mirzalının bu sənətə gəlməsinə səbəb olub".

Əhəd Pənahovun qızı Şövkət Bəylərlinin atasının çəkdiyi iztirablara həsr etdiyi şeir də bu yaşantıların ifadəsidir.

**Atam mənim**

Bəxtinə köçkünlük düşən,
Neçə-neçə yurd dəyişən,
Hər eldə bir bina tikən
Çox zəhmətkeş atam mənim.

Stalinin sərt qanunu,
Didərgin saldı elini,
Hər kəsin kəsdi dilini,
Qərib düşən atam mənim.

Vətəninə həsrət qalan,
Yurd-yuvasından qovulan,
Uzaq yollarda yorulan,
Qəlbi viran atam mənim.

Yurdunda kafir oturdu,
Mülkün küləklər sovurdu,
Ürəyi dərddən qovruldu,
Tərki-vətən atam mənim.

Dörd bacıya bir qardaşsan,
Kimsəsizə dost-yoldaşsan,
Son tikəni paylaşmısan,
Mərhəmətli atam mənim.

Əmin, dayın sürgün oldu,
Mal-mülkləri talan oldu,
Yaşamağı yalan oldu,
Könlü qubar atam mənim.

Tikdiyində oturmayan,
Əkdiyini qoparmayan,
Şuraya tabe olmayan,
Dağ vüqarlı atam mənim.

Neçə yurdda izi qalan,
Közü sönüb külü qalan,
Vətən boyda cığır salan,
Kövrəkləşən atam mənim.



## Vəkilov Mustafa Əhməd bəy oğlu

31 dekabr 1932-ci ildə Çivə kəndində anadan olub. Şərur-Dərələyəz qəzasının naibi olmuş, Hüseynəli Sultan Dostəli Sultan oğlu Həsənalı Sultanın ailəsindəndir. Həsənalı Sultan Vəkilov Şərur-Dərələyəz qəzasının ən böyük mülkədarı olub (ifadə araşdırmaçı mərhum Ənvər Çingizoğluya məxsusdur). Tədqiqatçı alim Nazir Əhmədlinin, fransız əsili rus səyyahı İvan İvanoviç Şopenin kameral siyahıya alması əsasında hazırladığı "Dərələyəz mahalının kameral təsviri" adlı kitabından götürlmüş məlumata əsasən Şərur-Dərələyəz qəzasının **Çivə, Axura, Yaycı, Yuxarı Danzik, Aşağı Danzik, Dostəlibəy Dizə, Həmzəli Dizə, Heşin, Ertiş, Kəllətağ, Havuş, Bəydərə, Mərətüz qışlağı kəndi, Qortun, Muğancıq kəndləri** Vəkilovlara məxsus olmuşdur. Mustafa Vəkilovun mənsub olduğu ailənin şəxsi mülkləri Sovet hakmiyəti qurulduqdan sonra əllərindən alınıb kolxozun mülkiyyətinə qatılıb. Onlar babası Həsən bəy Vəkilovun meyvə saxlanan zirzəmisində məskunlaşmalı olublar. 1940-cı ilədək bəy ailəsi olduqları üçün ağır vergilər tətbiq edilməsinə baxmayaraq Çivədə kolxozda işləməyə buraxılmayıblar. Yalnız 1940-cı ildə kolxoza işləməyə cəlb ediliblər. Mustafa Vəkilov kiçik yaşlarında Çivə kəndində kolxozda hodaxlıq (əkin sahəsində cütçü sürən şəxsin köməkçisi) edib, bir müddət fermada işləyib. Böyük qardaşı İsa Vəkilov və ortancıl qardaşı Musa ilə birlikdə bolşevik zülmündən qurtarmaq üçün Şərur rayonun Arbatan kəndinə qaçaraq oradan İran üzərindən Türkiyəyə keçmək istəsələr də qaçmaq mümkün olmayıb.

M.Vəkilov ilk ibtidai təhsilini Çivə kəndində alıb. O, 1942-1947-ci ildə Çivədə 5-ci sinifi bitirib. 1951-ci ilin oktyabar ayında Noraşen dəmiryolu stansiyasından yük vaqonlarında deportasiya

edilərək əvvəlcə Yevlax stansiyasına oradan sonra Bərdə rayonunun Həsənqaya kəndinə gətiriliblər. Bir müddətdən sonra həmkəndlilərinin cəmləşdiyi İmirli kəndinə gəliblər. 1951-1953-cü illərdə İmirlidə yaşayıblar. Yerli iqlimə uyğunlaşa bilmədikləri üçün 1953-cü ildə anası Şəhrəbanu Həsən bəy qızı Vəkilova ilə birlikdə yenidən Çivə kəndinə qayıdıb. Çivə kəndinə qayıtdıqdan sonra vaxtilə qaldıqları evə yenidən yığışıblar (bu məsələdə kənd sakini Mikayıl Tənfəyev ona dəstək olub). Ermənilər həmin vaxt köhnə evlərinin bir hissəsində arı saxlayırmışlar, Bir müddətdən sonra arılar bal toplamaq üçün çıxanda ermənilərin məskunlaşdığı yeri bağlayıb erməniləri həyətdən qovub. 1955-1958-ci illərdə Moskva şəhərində həqiqi hərbi xidmətdə olub. 1959-cu ildə Şərur rayonun Danzik kəndindən olan Hüseynova Zeynəb Əli qızı ilə nigaha girib. 1968-ci ilə kimi təzyiqlərə baxmayaraq Çivə kəndində yaşayıblar. 1968-ci ildə böyük oğlu Əhməd Vəkilovu Çivə kəndində ibtidai sinifə qəbul etmədiklərinə görə yenidən Bərdə rayonunun İmirli kəndinə köçüblər. İmirli kəndində bir müddət dəyirman işlədib, qəssablıq edib. Kolxozun anbarında gözətçi kimi çalışıb. 2002-ci ildən Bakı şəhərində yaşayır.



**Həziyev (Möhüb) Mehbalı İman oğlu**

15 may 1951-ci ildə Şərur-Dərələyəz qəzasının Sallı kəndində folklor daşıyıcısı İman Həziyevin ailəsində anadan olub. İlk ibtidai təhsilini Sallı kəndində alıb (5 sinifə qədər). 6-cı sinfi Şərur rayonun Danzik kəndində oxuyub. Sonra yenidən Dərələyəzə qayıdıb. 7-8-ci sinifləri Ağkənd kəndində bitirib. Sonra isə Bərdə rayonunun İmirli kəndinə gələrək 9-10-cu sinifi İmirli kəndində oxuyub. Sonra yenidən Ermənistana qayıdıb. Basarkeçər rayonunda Tibb Texnikumunu bitirib. 1970-ci ildə Gülüdüzü kəndində həkimlik fəaliyyətinə başlayıb. Sonra yenidən Bərdə rayonun İmirli kəndinə qayıdıb və 50 ilə yaxın həkim kimi fəaliyyət göstərib. Ağdam Hərbi Hospitalında 1993-1996-cı illərdə kiçik gizir kimi çalışıb. Hazırda İmirli kəndində yaşayır.

## Abbaslı Sevinc Abbas qızı



Sevinc Abbaslı: “Hər bir Qərbi Azərbaycan Türkü kimi çox nisgilliyəm. Mən ermənilərlə azərbaycanlıların birgə yaşadığı kənddə böyümüşəm və bizlərin 1951-ci ildə necə hiyləgərliklə torpaqlarımızdan çıxarılmağımızın şahidi olmuşam. Əvvəl kənddəki böyük tayfaları bir-biri ilə düşmən edərək, sonra elmli, ziyalı insanlara sədd qoyaraq. Mənim rəhmətlik atam məktəbin müdiri idi onu elə həddə çatdırdılar ki, ərizə yazıb Naxçıvana getməli oldu. Biz məktəb də 2 saat erməni dili keçirdik. İnanın ki, müəllim erməni hərflərini belə bizə öyrətmirdi... Onların bu iyrənc siyasətlərini çox az insanımız anlayırdı nə yazıq ki... anlasaydıq biz o gözəlim torpaqları itirməzdik... 1982-ci ilin martında bizim 10 nəfərlik ailəmizdən kənddə böyük qardaşımla mən qalmışdıq və qardaşım qərar verdi ki, köçmək lazımdır. Evimizi dəyər-dəyməzinə satıb çıxdıq... O böyük kənddə 20-25 ailə qalmışdı və hər ailə də param-parça oldu. Beləliklə, 1989-cu ildə bu iyrənc siyasət nəticəsində Qərbi Azərbaycanda bir nəfər də Türk qalmadı... hələ də yuxularımı o dağda, dərədə, bulaq başında, hər cığırında həyətimizdə, kəndimizdə görürəm. Üzgünəm çox üzgünəm...”

**Abbasov Eldar Abbas oğlu**

1952-ci ildə Bərdə rayonun İmirli kəndində anadan olub. 1953-cü ildə ailəsi ilə birlikdə Çivə kəndində geri qayıdıblar. Orta məktəbi 16 yaşında Çivə kəndində bitirib. Həmin ili Politexnik İnstitutuna qəbul olub 3 il oxuduqdan sonra səhhəti ilə bağlı təhsili yarımçıq qalıb. Sonra Naxçıvan Dövlət Universitetinin riyaziyyat fakültəsində təhsil alıb. 1980-ci ildə Gəncə Kənd Təsərrüfatı İnstitunun iqtisadiyyat fakultəsində təhsil alıb. 1982-ci il tarixədək Dərələyəzin ətraf kəndlərində müəllim işləyib. 1982-ci ildən sonra Bərdə rayonun İmirli kəndində köçüb burada kolxozda iqtisadçı vəzifəsində işləyib. Sonra Bakıya köçüb. Bakıda kitab ticarəti ilə məşğul olub. Hazırda Bakı şəhərində yaşayır.



**Quliyev Məzahir Həmzə oğlu**

1937-ci ildə Şərur-Dərələyəz qəzasının Qozulca kəndində doğulub. Atası Həmzə Quliyev 1937-ci ildə repressiya qurbanı olub. Dərələyəzin Heşin kəndində dükançı işləyib. Oğlanqala kəndinə köçüb orada yaşayıb. İ.Stalinin ölümünə qədər Qozulca kəndinə getmək cəhdləri mənfi nəticələnib. N.Xuruşşovun ölümündən sonra Qozulca kəndinə gedib-gəlməyə başlayıblar. Sonra Bakı şəhərinə köçüb. Hazırda Bakıda yaşayır.

## Xəlilova Leyla Kərbəlayi Əli qızı

Leyla Xəlilova: "1951-ci ildə bizi dədə-baba yurdumuz olan Çivə kəndindən yük vaqonlarına doldurub (2-3 günə) Yevlaxa yola saldılar. Yevlaxdan bizi Bərdənin Piyadalar, Soğanverdi, Şahvəlilər, Xanərəb kəndlərinə payladılar. Bizim ailə Xanərəb kəndində yerləşdik. Onu da qeyd edim ki, 1918-ci ildə Çivədən Bərdənin Həsənqaya kəndinə köçən Əlkəbər adlı kəndçimiz var idi. Əlkəbər kişi bizə elilikcə İmirli kəndinə məskunlaşmağı məsləhət bildi. Beləliklə biz Xanərəb kəndində mart ayında İmirli kəndinə gəldik. Biz gələndə kənd meşəlik idi, bircə cığır yolu bir də məscid və gümbəz var idi. Bu meşəliyin hamısını əllərimizlə qırdıq. Biz dağ adamları idik sağlam və güclü. Meşəliyi qırıb buranı özümüzə böyük bir kənd elədik. Yeraltı qazmalar qazdıq iki ilə yaxın qazmalarda qaldıq. Sonra yerin üstündə evlər tikdik. Əvvələr kənddə yalnız bizim Çivə camaatı idi. Sonradan Dərələyəzin Sallı, Vedibasarın Hörtun, Göyçə mahalının Mollalı kəndindən gələn camaat da gəlib məskunlaşdılar. Çivədən gələndə 20 yaşım var idi yeni evlənmişdik, bir övladımız var idi. Qalan övladlarımız İmirli kəndində doğuldu. Deyirdilər bizi Stalin Qazaxıstana sürgün etmək istəyirmiş. Mircəfər Bağırov deyib ki, mənim Qarabağda boş torpağım çoxdu, niyə getsinlər Qazaxıstana?. Beləliklə bizi Mircəfər Bağırov Qarabağda yerləşdirib. Biz indi buranın vətəndaşıyıq, buralara öyrəşmişik. Amma əlbəttdə bizim üçün Çivə daha doğmadır".

## Abbasov Əli Hüseyn oğlu

26 iyun 1923 cü ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. Çivə kəndində orta məktəi bitirib. 1941-1945-ci illərdə İkncі Dünya müharibəsində Berlinə kimi döyüşlərdə iştirak edib, yaralanıb, müxtəlif orden və medallarla təltif edilib. Müharibə bitdikdən sonra Çivə kəndində orta məktəbdə müəllim kimi fəaliyyət göstərib. 1951-ci ildə dədə-baba torpaqlarından deportasiya edilərək Bərdə rayonun İmirli kəndinə köçürülüblər. Sonra Xankəndi şəhərində mühasibatlıq üzrə təhsil alıb. Uzun illər kəndimizi də əhatə edən kolxozda mühasib işləyib. Eyni zamanda bir müddət Tərtər rayonu Hüsənli kəndində də mühasib işləyib. 7 iyun 1986-cı il tarixində Bərdə rayon İmirli kəndində vəfat edib.

## Alıyev Əli Hüseyn oğlu

1928-ci ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olmuşdur. 1-ci sinifə həmin kəndə getmiş, 6-cı sinifə qədər oxuduqdan sonra isə atalarını uşaq ikən itirdiklərini görə sonra artıq məktəbə getməmiş və ailəyə kömək etməyə başlamışdır. 1950-ci ildə hərbi xidmətə getmiş, Alıyev Əli hərbi xidmətdə olan zaman Çivə kəndi Bərdə rayonunun İmirli kəndində deportasiya edilib. Alıyev Əli hərbi xidmətdən İmirli kəndinə qayıtmış və ömrünün sonuna qədər İmirli kəndində yaşamışdır. Amma Çivə ilə bağlı xatirələri heç vaxt unutmamışdır. O, hətta ölən bir gününə qədər ordakı xatirələrdən danışarmış. Ölümündən bir gün əvvəl isə Çivədəki Xəlilin bulağının suyunu istəyib. 17 dekabr 2021-ci il tarixində İmirlidə dünyasını dəyişib.

## Alıyev Gəray Hüseyn oğlu

1931-ci ildə Şərur-Dərləyəz qəzasının Çivə kəndində anadan olmuşdur. İlk ibtidai təhsilini Çivədə almış. Atalarını uşaq ikən itirdiklərini görə sonra təhsilini davam etdirə bilməmişdir. 1952-ci ildə Bərdə rayonunun İmirli kəndində deportasiya edilmişdir.

Bütün həyatı boyu doğma Çivə kəndindin həsrətini çəkmiş, ailədə daima Çivə kəndindən xatirələrini danışmış və yalnız yuxularını Çivə kəndində görmüşdür. 19 yanvar 2002-ci ildə İmirli kəndində Çivə həsrəti ilə dünyasını dəyişmişdir.

## Calalova Əzət Oruc qızı



1928-ci ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. Çivə kənd 7-illik məktəbi bitirib. Orta məktəbdə ən yaxşı oxuyan şagird olub. Anası Sidiqə Vəkilova Şərur-Dərləyəz qəzasının ən böyük mülkədarı Həsənalı Sultan Vəkilovun ailəsindədir. Çivədə yaşadığı vaxtlarda Ermənistan SSR Ali Sovetinə deputat seçilmək təklif edilsə də Əzət xanım bundan imtina edib. 1947-ci ildə, Calal Calalovla ilə ailə həyatı qurub, yarım əsrdən çox birlikdə ömür yolu keçiblər, bu nigahdan 11 övlad dünyaya gəlib. 1951-ci ildə Çivədən ailəsi ilə birlikdə Bərdə rayonun İmirli kəndinə deportasiya ediliblər. Qəhrəman anadır. SSRİ-nin "Qəhrəman ana" medalı ilə təltif olunub. İstiqanlılığı və kübarlığı ilə seçilən Əzət xanım söhbətlərinin ana xəttini Çivə kəndi ilə bağlı xatirələr və motivlər təşkil edir. Hazırda İmirli kəndində yaşayır.

## Alıyev Musa Hüseyn oğlu

1927-ci ildə Şərur-Dərləyəz qəzasının Çivə kəndində anadan olub. İlk orta təhsilini Çivədə alıb. Çivədə Xırda (İzzət) xanımla ailə qurub. Bu nigahdan Həmidə (1949), Məhluqə (1952), Şövkət (1954), İbrahim (1966) adlı övladları doğlulub. 1952-ci ildə Bərdə rayonuna deportasiya olunublar. Yerli iqlimə uyğunlaşa bilməyib geri Çivə kəndində qayıdıblar. 1968-ci ildə yenidən Bərdə rayonunun İmirli kəndində gəliblər. 1971-ci ilə kimi İmirlidə yaşayıblar. Sonra Şəki rayonuna köçüblər. 22 noyabr 2009-cu ildə Şəkidə dünyasını dəyişib.

## Vəkilov Ramin Mustafa oğlu



20 avqust 1964-cü ildə Şərur-Dərləyəz qəzasının Çivə kəndində doğulub. 4 yaşında Bərdə rayonunun İmirli kəndinə köçüb. Köçmə prosesi onun uşaqlıq yaddaşında təbəddülatlara səbəb olub. 1978-ci ildə İmirli orta məktəbi pambıq yığımına bağlandığından oxumaq üçün atası Mustafa Vəkilov onu Dərələyəzin Ələyəz kəndində aparıb. Yolda atası ona doğma Çivə kəndini göstərib "Bax bu bizim Çivə kəndidir" söyləyib. Bir neçə ay Ələyəz kəndində orta məktəbdə oxuyub. Sonra yenidən İmirli kəndinə qayıdıb. 1981-ci ildə İmirli kənd orta məktəbini bitirib. İmirli kəndinin ən yaxşı riyaziyyatçılarından olub. 1982-1984-cü ildə Polşada həqiqi hərbi xidmət keçib. 1984-cü ildən Bakı şəhərində yaşayıb. 1985-ci ildə H.Z.Tağıyev adına Toxuculuq Kombinatında əmək fəaliyyətinə başlayıb. Hazırda iş adamıdır.

## Məmmədov Yaqub Zal oğlu



1928-ci ildə Şərur-Dərləyəz qəzasının Çivə kəndində doğulub. Atası Zal Rüstəm oğlu 1937-ci ildə represiya qurbanı olub. Anası o uşaq ikən vəfat edib. Dayısı tərəfindən himayəyə götürülərək Şərur rayonun Dizə kəndinə aparılıb. 1951-ci ildə ata qohumları deportasiya edilərkən onu da özləri ilə Bərdə rayonunun Şahvəlilər kəndinə gətiriblər. Bir müddət-1953-cü ilə qədər burda yaşadıqdan sonra İmirli kəndində öz kəndçilərinin yanında məskunlaşıblar. Gənc yaşlarından kolxozda traktor sürücüsü, mexanik, baş mexanik, təsərrüfat üzrə briqada başçısı işləyib. 1971-ci ildə mexanik işləyərkən Azərbaycan Kommunist partiyası Bərdə rayon komitəsi katibi Xəlfə İbrahimov tərəfindən, 01 seriyalı sovet maşını hədiyyə olunub.1976-cı il sentyabr ayının 4-də Azərbaycan respublikası üzrə, 140% pambıq planını ilk dolduran təsərrüfat briqada başçısı kimi "Əmək veteranı" medalı ilə təltif olunub. Buna görə Heydər Əliyev onun sahəsinə gələrək kolxozçularla görüşüb, onları təbrik edib, problemləri ilə maraqlanıb. Kənd sakini Gülgəz Tağıyeva, həyat yoldaşının vəfat etməsi, böyük oğlunun sovet ordusu sıralarında, xidmət etməsi və kiçik oğlununda məktəbli olmasını səbəb gətirərək, Ulu Öndərdən ona ev tikilməsini xahiş edib. Heydər Əliyev bu işi bir başa kolxoz sədri Qiyas Kərimov və Bərdə rayon 1-ci katibi Rüstəm Səfərəliyevə tapşırıb. Bir ay müddətinə Gülgəz arvadın evi ona təhvil verilir. Heydər Əliyev kolxozçulara (həmin dövr rus dilində “автолавка” deyilən səyyar maqazin funksiyasını yerinə yetirən) bir maşın (внешторг) xaricdən idxal olunan mallar hədiyyə edir. 1979-cu ildə, Məmmədov Yaqub Ağdam rayon Kənd Təsərrüfatı Texnikumunu fərqlənmə ilə bitirdiyinə görə, Gəncə Kənd Təsərrüfatı İnstitutuna qəbul olub. Ömrünün sonuna qədər əməklə məşgul olan, təsərrüfat briqada başçısı işləyən Məmmədov Yaqub 22 iyun 1991-ci il tarixində İmirli kəndində dünyasını dəyişib.

## Məmədov İslam İrza oğlu



1936-cı ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində andan olub. 5-ci sinifə qədər Çivədə təhsil alıb. Çivədə Suriya ermənisi Məjgal və Makidona hodaxlıq edib. 1951-ci ildə Bərdə rayonun İmirli kəndinə deportasiya ediliblər. İslam Məmmədov: "Çivə kəndindən Noraşen (Şərur) stansiyasına yük vaqonlarında gətirdilər. Usta Həsən dayım, Mahmud dayım (Vəkilov) və bizim ailəmiz anam və mən. Nə evi satmağa imkan vedilər. Nə də evin əşyalarını götürməyə. Şəxsi əşyalarımız olan sandığımız da orda qaldı. Köhnə məsidin yerində 1953-cü ildə ilk ibtidai məkətəb açıldı. İsa Vəkilov, Abbas Abbasov ibtidai məktəbdə bizə dərs dedilər. Sonra qonşu Xanərəb, Şahvəllər kəndlərində orta təhsilimi davam etdirdim. Tam orta təhsilimi gecə məktəbində tamamladım".

Köç biletlərini 1988-ci il də Əbdürrəhman Vəzirovun hakimiyyəti dönəmində təhvil alıblar.

## Xəlilov Bəhlul Vəli oğlu



1888-ci ildə Şərur-Dərləyəz qəzasının Çivə kəndində doğulub. 1937-ci ildə Sibirə surgun olunub, 10 ildən sonra 1948-ci ildə Bərdə rayonun Həsənqaya kəndinə gedib. 1951-ci ildə İmirli kəndinə köçüb. 1958-ci ildə İmirli kəndində dünyasını dəyişib.

Övladları:
Xəlilov Əhməd Bəhlul oğlu 1930 il
Vəliyev Məhəmməd Bəhlul oğlu 1926 il
Xəlilova Sara Bəhlul qızı 1924 il
Xəlilova Əli Bəhlul oğlu 1933 il
Xəlilova Sona Bəhlul qızı 1935 il

Xəlilov Əhməd Bəhlul oğlu 1930-cu ildə anadan olub. İlk orta təhslini Çivədə alıb. Çivədə Məhəmmədəli adlı müəllimdən dərs alıb. Onun sözlərinə görə Məhəmmədəli müəllim Huseyn Seydəliyevgildə qalırmış. Ə.Xəlilov “Yadımdadır Çivədə 150 azərbaycanlı 30 ailə isə erməni yaşayırdı. Sonra Suriyadan ermənilər köçürdülər. Bizi sıxışdırmağa başladılar. 1948-ci ildə atası ilə birgə Bərdə rayonun Həsənqaya kəndinə gəlib. Orada traktorçu kursunu bitirib. 1956-cı ildə yeganə oğlu Həbib Həsənqaya kəndində dünyaya gəlib. Sonra İmirli kəndinə köçüblər.

## Hüseynova Bəsti Həsən qızı



Əslən Qərbi Şərur-Dərləyəz qəzasının Çivə kəndindən Bərdə rayonunun İmirli kəndinə deportasiya edilmiş Sosialist Əməyi Qəhrəmanı Həsən Hüseynovun ailəsində 01 oktyabr 1959-cu ildə Bərdə şəhərində anadan olmuşdur. 01 sentyabr 1966-1976-cı illərdə Bərdə şəhər 4 saylı tam orta məktəbdə təhsil alıb.

1977-ci ildə Azərbaycan Tibb Universitetinə qəbul olan Bəsti həkim 1984-cü ildə həmin Universiteti fərqlənmə diplomu ilə bitirmişdir.

1984-1990-cı illərdə Bərdə rayon Xanərəb kənd həkim ambulatoriyasında pediatr kimi tibb fəaliyətinə başlamışdır.

1991-ci ildən hazırkı vaxtədək Bərdə rayon Əmirli kənd həkim məntəqəsində məntəqə müdiri, baş həkim vəzifəsində çalışır. Savadlı tibb işçisi nümunəvi həkim kimi regionda böyük nüfuza malikdir.

## Abbasov İsmi Cəbrayıl oğlu

1936-cı ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. İlk ibtidai təhsilini Çivədə alıb. 1951-ci ildə Bərdə rayonunun İmirli kəndinə deportasiya olunub. 16 may 1991-ci ildə İmirli kəndində dünyasını dəyişib.

## Cəlilov Ələkbər Nəsir oğlu

1928-ci ildə Vedibasar mahalının Hortun kəndində anadan olub. 1951-ci ildə deportasiya zamanı Bərdə rayonunun İmirli kəndinə köçüb. 1986-cı ildə İmirli kəndində dünyasını dəyişib.

## Əli Tənfəyev (Çılpaq Əli)

Doğum tarixini dəqiqləşdirmək mükün olmayıb. Sözü çılpaq dediyinə görə Əli Tənfəyevə Çılpaq Əli deyirmişlər. Çılpaq Əli çox cəsarətli və hazırcavab şəxs olub. Erməni Birinci Katibi kənd camaatı ilə qışqıra-qışqıra danışırmış. Əli kişi onun sözünü kəsərək deyib ki, elə qışqıraram ki, Türkiyədə gəlib qulaqlarını kəsərlər. Sonra Çılpaq Əlini İrəvana çağırırlar, deyirlər ki, pantürkistlik edirsən. O, deyir ki, mən Türkiyə yox, Azərbaycan demişəm. Əli kişi İrəvana yola düşəndə heç kəsin ümidi yox imiş ki, geri qayıdacaq. Sonradan atalar sözünə çevrilmiş bir dialoq olub. Həyat yoldaşı Süsənbər xanım Əli kişiyə deyir ki, özündən muğayat ol. O, da cavabında deyir: “Siz özünüzü saxlayın, mən bu başı saxlaya bilməsəm bu papaq mənə haram olsun”. Çılpaq Əli 1918-ci ildə erməni-müsəlman qırğınlarında Çivə taborunun fəallarından olub.

## Tənfəyev Mikayıl Əli oğlu

29 noyabr 1925-ci ildə Şərur-Dərləyəz qəzasının Çivə kəndində anadan olub. 1944-cü ildə Sovet-Alman müharibəsində Krım bölgəsində döyüşüb. 1948-ci ildə Krımdan İrəvan şəhərinə göndəriblər. 2 il orada ordu sıralarında qulluq edib. Təxris olduqdan sonra doğma kəndlərinə qayıdıb. 1951-ci ildə deportasiya olduqlarına görə Bərdənin İmirli kəndinə köçüblər. 1955-ci ildə yenidən qayıdıblar öz dədə-baba yurdları Çivə kəndinə. Kəndə qayıtdıqdan sonra o kənddə Sovet sədrinin müavini, inşaat briqadiri və üzümçülük briqadiri işləyib. 1969-cu ildə Yexeqnadzor rayonunun I katibi Tənfəyev Mikayılı yanına çağıraraq ona deyib ki, sən nə əcəb köçüb getmirsən? Tənfəyev Mikayıl ona cavab verib ki, sən mənimlə milli söhbət edirsən? Katib isə deyib ki, yox mən ona görə deyirəm ki, burada məktəb zəifdir, 8 illikdir, uşaqlara görə deyirəm. Tənfəyev Mikayıl 1969-cu ildə uşaqlarının təhsil almasına görə təzədən Bərdənin İmirli kəndinə köçüb. Uzun illər İmirli kəndində pambıq briqadiri işləyib. 2 iyul 2006-cı ildə İmirli kəndində dünyasını dəyişib.

## Abbasov Fərəməz Əli oğlu

1938-ci ildə Şərur-Dərələyəz qəzasının Yelpin kəndində anadan olub. İlk ibtidai təhsilini Yelpində alıb. Qaraxıdıranlı tayfasındandır. 1951-ci ildə deportasiya zamanı Bərdə rayonunun İmirli kəndinə köçüb. 2 iyun 2020-ci ildə İmirli kəndində dünyasını dəyişib.

## Hüseynova Sona Əli qızı

10 fevral 1925-ci ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. İlk ibtidai təhsilini Çivədə alıb. 1945-ci ildə Ermənistan SSR-nin Ali Sovetinə deputat seçilib. 1951-ci ildə deportasiya olub. 1955-ci ildə yenidən geriyə Çivə kəndinə qayıdıb. 1988-ci ildə məcburi köçkün kimi Bərdə rayonunun İmirli kəndinə köçüb.

## Molla Ağa Axundov

Şərur-Dərləyəz qəzasının Çivə kəndində doğulan, (doğum tarixi dəqiq bilinməyir) Axund, molla Ağa, ali dini təhsilini İraqın Nəcəf şəhərində alması söylənilir. Çox mütərəqqi, dövrünün dindarlarından fərqlənən dünyagörüşə və savada malik bir şəxs kimi dünyəvi elmlərə (fizika, riyaziyyat, astronomiya) yaxşı bələd olub, ərəb, fars dillərini mükəmməl danışan bir insan olub. Övladları xatırlayır ki, bizə şifahi hesablamanı, vurmanı bölməni elə aydın, müəllimlərin bacarmadığı şəkildə başa salardı. Kənddə ölən adamların dəfnini təmənnasız etməyi özünə borc bilərmiş. Əgər yas məclisini idarə etmək dəvəti alarmışsada, heç vaxt qiymət, hesab aparmazmış. Hər kəsin öz istəyinə uyğun şəkildə razılaşarmış.

1918-1920-ci illərdə Çivə camaatı Xalq Qəhrəmanı Balo bəy Vəkilovun komandanlığı ilə könüllü öznümüdafiə tabor təşkil etdiyi ağır illərdə Axund Ağanın başqa bir özəlliyi də üzə çıxır.

Kəndi mühasirəyə alan erməni quldurları onların digər yerlərlə əlaqə qurmasına imkan vermirdilər. Camaat vəziyyətin necə olduğunu bilmirdi. Belə məqamda o zaman Axund, molla Ağa çuxasını geyinir əyninə, boz atını minir, müqəddəs Qurani- Kərimi başının üstündə tutub, bildiyi duaları oxuyaraq atala Şərur istiqamətində hərəkət edir ermənilər nə qədər güllə atsalarda o sağ salamat Şərura çatır. Ordan kəndə xəbər gətirir ki, hər yerdə vəziyyət ağırdır, kəndlər boşalıb, yandırılıb, yağmalanıb, heç bir silah və canlı yardım etmək imkanları yoxdur. Ən yaxşı halda kənddən camaatın çıxmasını vacib sayan kəndin başbilənləri, ermənilərin duyuq düşməməsi üçün itlərin qabağına gücləri çatan yeyəcək-içəcək qoyub gecə ilə kəndi tərk edirlər. Arazın o tayına keçən camaat, bir az dincəlmək, götürdükləri azuqədən yemək istəyirlər ki, bu zaman bir adam bunların yanına gəlib torpaq basdı istəyir. Ağsaqqal və cəsarətli gənclər əhvalatı bura gəlmə səbəblərini desələrdə, adam qulaq asmaq belə istəmir və xoşuna gələn bir atı minib qaçır. Cavanlar atlanıb onun ardınca çapmaq istəyəndə, Kərbəlayı Calal onları qoymur ki, getməyin, arvad-uşaq var, atımızı qaçırdan bizə nələr etməz. Hətta yaşlı insanlar "o tayda başımıza elə oyunlar gəldi ki, kaş “gavurun” əlində ölərdik sizdən bu pisliyi görməzdik" deyir. Camaatın bir hissəsi ordan Bərdənin Qılınclı, Qaradəmirçi kəndlərinə köçürlər. Digər hissəsi isə sonra Çivə kəndinə qayırlar. Bir neçə ailə isə Ağdamın Tağıbəyli kəndinə köçüb orada məskunlaşır. Molla Ağa bir neçə günlərdən sonra çuxasının dəlik - deşik, atının quyruğunun ucunun qopduğunu görür. Sonralar belə, bu hadisəni ermənilər dəhşət içində söyləyərmişlər. Molla Ağa 1935-ci ilə qədər Çivədə yaşayır, kollektivləşmə prinsipini qəbul etmədiyi üçün, erməni bolşeviklər üzdə olan ağıllı adamları sıxışdırdığı üçün, Bərdənin Qılınclı kəndinə köçür,1945- ci ilə qədər orada yaşayır və vəfat efir və orada dəfn edilir. Kənd camaatının çox böyük hörmətini qazanan Axund Ağanın məzarını qoruyub saxlayırlar. Onun nəvəsi: “Biz, Kəlbəcərdə yaylaqda olanda biləndə ki, Axund Ağanın nəvəsiyik, alaçığımızı qurmağa kömək edirdilər, bizə yağ, pendir, qatıq , süd

gətirirdilər, xüsusi hörmət göstərirdilər".

Molla Ağanın ailə şəcərəsində hamısı demək olar ki, dini təhsil alanlardır. Qardaşı molla İsmayıl da ali dini təhsilli olub, o Bərdə rayon İmirli kəndində məskunlaşıb və oradada vəfat edib.

## Calalov Qadir Cəmil oğlu



1951-ci ildə Şərur-Dərləyəz qəzasının Çivə kəndində anadan olub. Lakin doğum şəhadətnaməsi almaq mükün olmayıb. 1952-ci ilin may may ayında Azərbaycan SSR Bərdə rayon İmirli kəndindəndən doğum şəhadətnaməsi almaq mükün olmuşdur. Ailəsinin köç biletində köçmə tarixi 13 oktyabr 1951-ci il qeyd olunub. 1953-cü il, Stalinin ölümündən sonra ailəsi yenidən Çivəyə öz ata-baba yurdlarına qayıdır. 1959-cu ildə, Çivə kənd orta məktəbinin 1-ci sinfinə gedir, məktəb tam orta məktəb olmadığı üçün, təhsilinin davamını İmirli kəndində davam etdirərək, 1969-cu ildə məzun olur. 1970-ci ildə, Bakı Politexnik Texnikumun gündüz şöbəsinə qəbul olur. Bundan başqa Ermənistan SSR Kənd təsərrüfatı institutunun hidravlik mühəndis fakultəsini bitirir. 1985-ci ilə qədər Bərdə rayon Suvarma sistemləri idarəsində hidrotexnik mühəndis işləyir. 1985-ci ilin iyun ayında 33 yaşında vəfat edib.

## Axundov Huseyn Ağa oğlu

1927-ci ildə Şərur-Dərləyəz qəzasının Çivə kəndində anadan olub. Ruhani ailəsindən olduqları üçün bolşevik təzyiqindən qaçaraq 1948-ci ildə Bərdə rayonun Qılıclı kəndində gəliblər. 1951-ci ildə kənd cammatı Bərdə rayonu İmirli kəndində köçdüyü üçün onlarda həmkəndlilərinin yaşadığı İmirli kəndində köçüblər.

Kitabxanaçılıq üzrə teknikum təhsili alıb. 1958-1993-cü illərdə Bərdə rayon Mədəniyyət İdarəsinin İmirli kənd kitabxanasının direktoru işləyib. 13 mart 2020-ci il tarixində İmirli kəndində dünyasını dəyişib.

## Calalov Həmid İbrahim oğlu

5 oktyabr 1950-ci ildə Şərur-Dərləyəz qəzasının Çivə kəndində anadan olub. 1951-ci ildə ailəsi ilə birgə Bərdə rayon İmirli kəndinə deportasiya edilib. 1957-1967-ci illərdə Əmirli kənd orta məktəbində təhsil alıb. 1968-1970-ci illərdə SSRİ-nin ordu sıralarında hərbi xidmət keçib. 1971-ci ildə Bakı Dövlət Bədən tərbiyəsi texnikumuna qəbul olaraq 1973-cü ildə oranı bitirib. Həmin ildən Əmirli kənd orta məktəbində bədən tərbiyəsi üzrə müəllimlik fəaliyyətinə başlayıb. 1975-1980 illərdə Bakı Dövlət Bədən tərbiyəsi institutunun qiyabi şöbəsində təhsil alıb. 1973-2016-cı ilə qədər Əmirli kənd orta məktəbində müəllimlik fəaliyyəti ilə məşğul olub.

1978-ci ildə İmirli kənd klubu nəznində sərbəst güləş üzrə idmanla məşgul olmaq üçün şərait yaradıb. Güləş klubunun üzvləri rayon birinciliyində uğurla iştirak ediblər. Bundan başqa kənd uşaqlarımın vaxtlarını səmərəli keçirtmək üçün idman klubunda tennis, bilyard və digər oyun növlərindən istifadə etmək üçün şərait yaradıb. Kənddə kino sahəsində də maraqlı filmlərin nümayiş etdirilməsində xidmətləri olmuşdur.

## Calalov Rəhim Calal oğlu



17 may 1952-ci ildə Bərdə rayon İmirli kəndində anadan olub. 1958-1968-ci illərdə Əmirli kənd orta məktəbində təhsil alıb. 1969-cu ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuş, 1976-cı ildə həmin institutu bitirmdir. 1976-cı ildən Bərdə rayon İsteklak Cəmiyyətində 1994-cü ilədək müxtəlif vəzifələrdə- Bərdə rayon İstehlak cəmiyyətində kadrlar üzrə təlimatçı, iqtisadçı, Plan şöbəsinin rəisi, Bərdə rayon ticarət və ictimai iaşə işçiləri həmkarlar komitəsinin sədri vəzifələrində çalışıb. 1994-1998-ci illərdə Bərdə rayon Bankında iqtisadçı işləyib. 1999-2004-cü illərdə Bərdə rayon Dövlət Vergi müfəttişliyində rəis müavini işləyib. Hazırda Bakı şəhərində yaşayır.

## Calalov Calal Cəlil oğlu



*C.Calalov 1950-ci illərdə ev tikərkən*

8 mart 1925-ci il tarixində Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. Çivədə 7 illik orta məktəbi bitirib. 1941-ci ildə azyaşlı olduğu üçün Böyük Vətən müharibəsinə aparılmır. Gündüzlər arxa cəbhədə çalışır, gecələri ailəsini, eyni zamanda ailəsi müharibədə olan qohumlarını aclıqdan qurtarmaq üçün ovla, balıq tutmaqla bu işin öhdəsindən gəlir. Hər zaman qohum əqrəbasının onun haqqında danışdığı həyat hekayələrində zəhmət, əziyyətli yuxusuz gecələr, yorulmadan insanlara etdiyi yardımlar ,ən əsasıda cəsarət və qorxmazlığı onun xarakterinin göstəricisidir. Hətta müharibə dönəmində Çivə kəndinin hər zaman olduğu kimi erməni kolxoz sədrlərindən biri, hədə qorxu, şirnikdirici təklifləri və başqa vədləri ilə bir-birinin üzünə durub tutdurmaqla, kənd camaatı arasında düşmənçilik toxumu səpir. Bir gün gənc və cəsarətli Calal erməni kolxoz sədrinin qapısının ağzına patron qoyur. Bununlada əməllərinə davam edərsə ermənini öldürməklə işarə verir. Dağlarda gizlətdiyi köhnə tüfəngini heç vaxt kəndə gətirməzmiş, həmin tüfəng onun ən yaxın dostu olub. 1943-1945-ci illərdə Çivənin bir neçə cavanları Abbasov Calal, Tənfəyev Mikayıl, Fərzəliyev Musa ilə birlikdə İrəvan minamyot zavodunda hərbi xidmətdə olurlar. 1951-ci ildə əsrin ən əzablı deportasiyalarından birinin şahidi və iştirakçısı kimi ailəsi ilə birlikdə Bərdə rayon İmirli kəndinə köçürülür. Heç bir şəraiti olmayan xaraba kənddə, qazma evlərdə yaşamağa başlayırlar. İlk günlərdən, bütün kənd camaatı kimi yaşamaq, həyatda qalmaq uğrunda mübarizəyə başlayır. Kolxozda briqada manqa başçısı, təftiş komissiyasının

sədri işləyir. 1956-cı ildə qoyunçuluq üzrə, daha sonra maldarlıq üzrə, 1965-1988-ci illərdə quşçuluq üzrə ferma müdiri işləyir. 1980-ci ildə ət və yumurta üzrə planı 200% doldurduğuna görə, 06 seriyalı maşın mükafat olunur. Respublika və rayon üzrə bir neçə dəfə ən qabaqcıl ferma müdürü kimi qəzetlərdə qeyd edilib. 30 illik fəaliyyətində nöqsansız ferma müdüri kimi camaatın yaddaşında qalmışdır. 1988-ci ildə Qərbi Azərbaycandan növbəti sonuncu deportasiyaya, yurddaşlarının başına gətrilən fəlakətlərə dözməyərək ağır insult keçirir. Bütün qohumların ehtiyac və qayğılarına qoşan filantrop kimi 7 avqust 2000-ci ildə yurd həsrəti ilə dünyadan köçüb.

**Calalov Cəmil Kərbəlayi Calal oğlu**



1902-ci ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində doğulub. Həyatında dörd dəfə qaçqınlıq ömrü yaşayıb. 1905-1906-cı illərdə, 1918-1920; 1948-1952; 1975-ci illər. Xarakteri və fiziki gücü ilə həmyaşıdlarından fərqlənən Cəmil Calalov sərrast atıcılıq qabiliyyətinə malik biri kimi Abasqulu bəy Şadlinskinin dəstəsində erməni- daşnak birləşmələrinə qarşı şücaətlə vuruşmuşdur. Abasqulu bəy Şadlinskinin ən yaxşı döyüşçülərindən biri olub. Döyüş zamanı ayağından ağır yaralanıb. Ermənistan Sovet Sosialist hökümətі qurulduqdan sonra, Cəmili Calalov silahı təhvil verəndə onun ibadət əhli olduğunu bilən erməni təklif edir ki, hamının qarşısında “Allah yoxdur de”, biz sənin silahını özünə qaytaraq, sənədə şura bileti verək. O, isə cavabında Allah da var, Quran da var, İmam da var deyib hər şeydən imtina edir.

1948-52 illər deportasiyası onunda ailəsini çöllərə salır, taxta vaqonlara doldurularaq Bərdənin İmirli kəndinə köçürülürlər. Uzun illərdən sonra dünyaya gələn övladları, buranın iqliminə

adaptasiya ola bilmirlər, malyariya xəstəliyinə tutulurlar. Yerdən qazılmış, torpaq, nəm daxmalarda yaşam tərzinə alışa bilmirlər. 1953-cü ildə İ.Stalinin ölümündən sonra yenidən Çivəyə geri qayıdırlar ki, evlərinin dörd divarı qalıb, yay ayı olduğundan uşaqları bir müddət divarların kölgəsində qalır, evin damını düzəldənə kimi, payızı evə yığışa bilirlər. Yurda qayıtdıqdan sonra, ermənilərin mənəvi terroru ilə qarşılaşan camaat əvvəlki kimi rahat yaşaya bilmir. Ağır həyat yolu keçən, traxoma xəstəliyi keçirən Cəmil kişinin gözləri tutulur. Hökümətdən əlillik və qocalığa görə məvacib də almır. 1975-ci ildə yenidən oğlu onu İmirli kəndinə köçürdür 1979-cu ilin iyun ayında vəfat edib İmirlidə dəfn olunur. Dostları və qohumları onun istiqanlı biri olduğunu söyləyirlər. Onu da qeyd edək ki, Cəmil Calalov folklor daşıyıcısı olub. O, bədahətən bayatılar söyləyərmiş. Həmin bayatılardan bir neçəsi yaddaşlarda qalsa da çox hissəsi təəssüf ki, unudulub.

Cəmil Calalovun söylədiyi folklor nümunələrindən bəzilərini sizə təqdim edirik.

Qadir Allah yazıları yazanda,
Bizim bəxtimizi belə yazıbdır.
Dəryaya balığı, havaya quşu,
Alagöz ceyranı çölə yazıbdır.

Ov keçdi bərədən ata bilməzsən,
Uçdu getdi əldən, tuta bilməzsən,
Yerisən yüyürsən çata bilməzsən,
Görürsən ki baxtın yatdı, sən də yat

Eləmi dağa belə,
Gəl gedək bağa belə,
Tutaydım yar əlindən,
Çıxaydım dağa belə

Əzizim ağ köynəklilər,
Budur gəldi ağ köynəklilər,
Ay bostan, sən imanın tez yetiş,
Qoy səni yesin ağ köynəklilər!

## Calalov Salman Calal oğlu

1948-ci ildə Şərur-Dərləyəz qəzasının Çivə kəndində anadan olmuşdur. 1951-ci ildə Bərdə rayonun Əmirli kəndinə deportasiya olunmuşdur. 1955-1965-ci illərdə Bərdə rayonun Əmirli kənd orta məktəbində təhsil almışdır.

1965-1972-ci illərdə Azərbaycan Xalq Təssərrüfatı İnsitutunun Sənayenin planlaşdırılması fakültəsində ali təhsil almışıdr. İqtisadçı ixtisası verilmişdir. 1972-1979-cu illərdə Bərdə rayonunun Telman kolxozunda partkom işləmişdir 1979-1982-ci illərdə Bərdə rayon Komsomol Təşkilatının rəhbəri işləmişdir. 1966-cı ildə Bərdə rayon İmirli (Əmirli) kəndində klub midiri kimi fəaliyyətə başlamışdır. 1982-1985-ci illərdə Şirvanlı serposunun sədri işləmişdir. 1985-1990-cı illərdə Bərdə rayon Aqropromunda kəndlərarası şöbənin müdiri olmuşdur. 1999-cu ildən 2004-cü ilə qədər Bərdə rayon Əmirli kəndində Bələdiyyə sədri kimi fəaliyyət göstərmişdir. 1990-cı ildən 1999-cu ilərdə fasilələrlə Bərdə rayon Əmirli kəndində kolxoz sədri işləmişdir 2005-ci ildən 2011-ci ilə qədər fiziki şəxs kimi ticarət fəaliyyəti ilə məşğul olmuşdur. 2011-ci ildə təqaüdə çıxmışdır. 10 fevral 2022-ci ildə Bərdə rayonunda dünyasını dəyişib.

## Abbasov Cəbrayıl Əsgər oğlu

1898-ci ildə Çivə kəndində anadan olub. 1951-ci ildə Bərdə rayonunun İmirli kəndinə deportasiya olunub. 1963-cü ildə dünyasını dəyişib.

**Abbasov İslam Cəbrayıl oğlu**

1929-cu ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. 1951-ci ildə Bərdə rayonun İmirli kəndinə deportasiya olunub. Bərdə rayonunun İmirli kəndində uzun müddət pambıq briqadiri işləyib. 2019-cu ildə may ayında rəhmətə gedib.

**Abbasov Hüseyn Cəbrayıl oğlu.**

1925-ci ildə Şərur-Dərləyəz qəzasının Çivə kəndində anadan olub. 1951-ci ildə Bərdə rayonunun İmirli kəndinə deportasiya olub. Çivə kəndində az müddətdə müəllim işləyib. Bərdə rayonunun İmirli kəndində yaşayarkən Telman adına kolxoz Təftiş komissiyasının sədri işləyib. 27 oktyabr 1987-ci ildə İmirli kəndində dünyasını dəyişib.

**Məmmədov Hüseyn Məhəmməd oğlu**

1911-ci ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. Müharibə iştirakçısıdır. İlk ibtidai təhsilini Çivə kəndində alıb.1951-ci ildə Çivə kəndindən Bərdə rayonunun İmirli kəndinə deportasiya olunub. 1963-cü ilin avqust ayında İmirli kəndində dünyasını dəyişib.

**Məmmədov İsa Məhəmməd oğlu**

1909-cu ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. Müharibə veteranıdır. İlk ibtidai təhsilini Çivə kəndində alıb. 1951-ci ildən Çivə kəndindən Bərdə rayon İmirli kəndinə deportasiya olunub. 1962-ci ildə İmirli kəndində dünyasını dəyişib.

**Məmmədov İbrahim Məhəmməd oğlu**

1913-cü ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. İlk ibtidai təhsilini Çivə kəndində alıb. II Dünya Müharibəsi iştirakçısı olub. Çivə kəndində briqadir işləyib. 1951-ci ildə Çivə kəndindən Bərdə rayonunun İmirli kəndinə deportasiya olunub. İmirli kəndində briqadir, parkom və ferma müdiri işləyib. 1963-cü ilin avqust ayında İmirli kəndində dünyasını dəyişib.

**Qənbərov Məhəmmədtağı Abdulla oğlu**

1903-cü ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. İlk ibtidai təhsilini Çivə kəndində alıb. 1941-ci ildə Sovet Alman müharibəsində vuruşub. Müharibədən qayıdandan sonra Çivə kəndində sovet sədri, anbardar və ferma müdiri işləyib. 1951-ci ildə Çivə kəndindən Bərdə rayonunun İmirli kəndinə deportasiya olunub. Burada ferma müdiri, sonra isə taxıl briqadiri işləyib. 1990-cı ildə dünyasını dəyişib.

**Xəlilov Hüseyn Həsən oğlu**

1 iyul 1930-cu tarixində Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. İlk ibtidai təhsilini Çivə kəndində alıb. 1951-ci ildə Bərdə rayonunun İmirli kəndinə deportasiya olunub. 10 avqust 2014-cü il tarixində İmirli kəndində dünyasını dəyişib.

**Məmmədov Məhəmməd Əhməd oğlu**

1906-cı ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. Burada kolxoz sədri olaraq fəaliyyət göstərib. İlk ibtidai təhsilini Çivə kəndində alıb. 1941-ci ildə müharibəyə gedib. Sonra İmirli kəndinə köçüb. Bu kənddə taxıl briqadiri olaraq işləyib. 1988-ci ilin aprel ayında İmirli kəndində rəhmətə gedib.

**Fətəliyeva Şölə Həsən qızı**



20 fevral 1944-cü il tarixində Göyçə mahalının Mollalı (Alçalı) kəndində anadan olub. Ailəsi ilə birlikdə 1949-cu ilin dekabrında qarlı-yağışlı, dumanlı bir gündə əvvəlcə İrəvan şəhərinə, orada bir gün qaldıqdan sonra isə yük vaqonlarına mindirib Əli Bayramlının Cəngən kəndinə gətiriblər. Burada onları müvəqqəti olaraq yerli adamların evlərinə yerləşdiriblər. Yerli iqlimə uyğunlaşa bilməyiblər. Mollalı kəndinin sakinləri Fətəliyev Məhyəddin, Hüseynov Kamil, Həsənov Fərzalı, Abbasov Həmid, və s. Bakıya Köç Komissiyasına bildiriblər ki, biz bu şəraitdə yaşaya bilmirik. Köç Komissiyası isə özünüzə yer seçin biz həmin yerə köçməyinizə kömək edərik. Bundan sonra Bərdə rayonunun İmirli kəndində gəliblər. 1953-cü ildə İmirlidə ilk məktəb təşkil olunanda ( İsa Vəkilovun) ilk təhsil alan şəxslərdən biri olub. 4-cü sinfi İmirlidə bitirdikdən sonra Şahvəllər kəndində orta təhsilini davam etdirib. Sonra isə pedaqoq Əhməd Məmmədovla ailə qurub Ağdam rayonuna köçüb. Hazırda Ağdam rayonunun Quzanlı qəsəbəsində yaşayır.

Şölə xanımın şəxsi hekayəsini qeyd etmək üçün evlərində qonaq olanda çox maraqlı bir mənzərə ilə qarşılaşdım. Şölə xanım təxminən 60 il əvvəl İmirlidə təhsil aldığı ilk müəllimi İsa Vəkilovun həyat yoldaşı Əminə xanımın ona bağışladığı gülü (həmin dövrdən toxumunu dəyişməklə) bu günlərə kimi saxladığını söyləyəndə bu xanımın nə qədər böyük iradə sahibi olduğunun şahidi oldum. Bir gülə 60 il qulluq edən bu nəcib xanımıın həyatı əlbəttə ki, ən gözəl bir nümunədir.

## Cəfərov Süleyman Cəfərqulu oğlu ( 1938 təvəllüd)

**S.Cəfərov**: "1949-cu ilin noyabr ayında bizi kəndimizdən - Sallıdan məcburi köçürtdülər. İndiki kimi yadımdadır. Kəndə o qədər maşın gəlmişdi ki... Hər ailəyə bir maşın ayırmışdılar. O maşınlara həm ailə üzvləri, həm ev əşyaları, həm də mal-qara yığılmalı idi. Bizi maşınlara yığıb Şərura gətirdilər. Şərurda isə hamını qatara doldurub yola saldılar. Şərurun Qıvraq, Şahtaxtı, Qarabağlar kəndlərinin camaatı bizim sürgün olunmağımızı eşidib dəmiryoluna yığışmışdılar. Onlar hökümət nümayəndələrindən xahiş edirdilər ki,bu adamlar bizim tayfadır, Kəngərlidirlər, icazə verin bizim evlərdə qalsınlar, köçürtməyin. Amma icazə vermədilər. Belə olduqda onlar gətirdikləri ərzaqları bizə verdilər. Kəndimizin sakinlərindən bəziləri isə piyada, mal-qaranı qabaqlarına qatıb dağlarla Bərdənin İmirli kəndinə gəlmişdilər. Biz də çox çətinliklə, neçə gün yük qatarında, soyuqda yol gedəndən sonra Qaradonlu (indiki İmişli) stansiyasında dayandıq. Bizi 2 həftədən artıq orda vaqonda saxladılar. Camaat əlacsız qalıb özü ilə götürdükləri undan orda çörək bişirib yeyirdilər. Sonra bizi Salyana gətirdilər".

## Cəfərov Abbas Cəfərqulu oğlu (1944 təvəllüd)

**A.Cəfərov:** "Xəbər verdilər ki, iki saat vaxtınız var, köçürsünüz. Ailə başçılarına da köçürülmə biletləri verirdilər. Mənim cəmi beş yaşım vardı. Hər ailəyə bir maşın ayrılmışdı. Sözsüz ki, bütün ev əşyalarını, mal-qaranı götürə bilməzdi heç kim. Bəzi adamlar xahiş-minnətlə icazə alıb qışın soyuğunda mal-qaralarını qabaqlarına qatıb piyada dağlarla Azərbaycana gəlməyə başladılar. Biz də maşınlarla Şərura gətirildik. Orda isə yük qatarlarına doldurulub yola salındıq. Neçə gün getdik, nəhayət qatar Qaradonlu stansiyasında dayandı. On beş-iyirmi gün bizi orda saxladılar. Ondan sonra isə bizi Salyanın Kürqaraqaşlı kəndinə göndərdilər".

**Kazımov Kazım Şəmil oğlu** (1928 təvəllüd)

**K.Kazımov:** "Dərələyəzin Sallı kəndində anadan olmuşam. Kəngərli tayfasındanam. Hələ 1937-ci ildə məsələ qalxmışdı ki, Qərbi Azərbaycanda yaşayan türk-müsəlman əhalisi Qazaxıstana köçürülsün. Lakin Mircəfər Bağırov buna razı olmamışdı. Sonra ortaya müharibə düşdü. Müharibədən sonra bu məsələ yenidən qalxdı. Əhalini köçürməyə başladılar. Bunun üçün təbliğat məqsədi ilə rayonlara, kəndlərə hökümət adamları göndərilirdi. Bizim kəndimizə də Azərbaycan Mərkəzi Komitəsinin nümayəndəsi olan Əşrəf Məmməd oğlu Allahverdiyev yoldaş gəlmişdi. O, şəxs bizim əhaliyə dedi ki, siz Salyan rayonuna köçürüləcəksiniz. Kəndimizdən iki nəfər göndərdik ki, gedib ora baxsınlar. Gedənlərdən biri kolxoz sədri Bəhman Mustafayev, o biri isə ağsaqqal Qədim kişi idi. Qayıdıb gələndən sonra Bəhman kişi hökümət adamı olduğu üçün heç nə deyə bilmədi. Amma Qədim kişi sıravi kolxozçu idi. O, dedi ki, ora yaşamalı yer deyil. Biz dağda, təmiz havada, buz bulaqların arasında yaşamış adamıq, Salyanda qırılıb, batacağıq. Amma bizə qulaq asan kim idi ki? Camaata köçmə bileti paylayıb, zorla ərizə yazdırırdılar ki, guya əhali könüllü köçür. Bütün kəndi, eləcə də Cəfərqulu kişinin də ailəsini Şərura gətirib qatara doldurub Salyana yola saldılar. Biz 12 nəfər cavan isə mal-qaranı da qabağımıza qatıb, noyabr ayının soyuğunda dağlarla Basarkeçərə, ordan isə Kəlbəcərə keçdik. Daha sonra isə Tərtərdən keçib Bərdənin İmirli kəndinə çatdıq. Onu da deyim ki, mənimlə birlikdə dağlardan keçib gələn adamlardan biri də Cəfərqulunun, Nəbinin qardaşları olan Usub (Yusif) idi. Bundan başqa Alışan, Mirzəhüseyn, sarı Əli, Lətif də bizimlə gəlmişdi. Bizim gəldiyimiz Bərdənin İmirli kəndində əhali yaşamırdı. Oranın əhalisini sürgün etmişdilər. Bizim bundan xəbərimiz vardı. Vəli adlı bir adam vardı. Əslən bizim kənddən idi, amma 1917-ci ildən köçüb Bərdədə yaşayırdı, işləyirdi. O, bizə bələdçilik etdi, meşənin içindən cığırla keçirdib bizi kəndə gətirdi ki, burda yaşayın. Kənd xarabaya çevrilmişdi. Bircə salamat olan kənd məscidi idi. Kənddə iri ağacların üstündə oranın əvvəlki

sakinləri sürgün olunmamışdan qabaq öz talelərini,başlarına gələnləri yazmışdılar. Biz İmirli kəndində çadırda qalırdıq. Biz yaza qədər o kənddə yaşadıq. Bəziləri ailə üzvlərini də xəlvət gətirmişdilər. May ayının 1-də hökümət adamları bizi milis gücü ilə kənddən qovub çıxartdılar. Camaatı məcburi vaqonlara doldurub bir hissəsini Salyana yola saldılar. Biz isə Bərdənin Şahvəlilər kəndinə köçüb orda yaşadıq".

## Calalov Xəlil Kərbəlayi Calal oğlu



1880-cı ildə Şərur-Dərələyəz qəzasını Çivə kəndində anadan olub. Dəfələrlə erməni vəhşiliyinə şahid olsada bacardığı sınıxçılıq sənətində heç vaxt erməni ilə türkə fərq qoymazmış. Onun yanına nəinki Çivədən, Naxçıvan, Dərələyəz, Vedibasar mahallarından, hətta İrəvan şəhərindən xəstələr ondan yardım alırmış. Qonşu və qohumlarının danışdıqları xatirələrdə etdiyi yardımlara görə heç vaxt heç kimdən pul almazmış. Təmənnasız etdiyi xidmətlərə görə, çox böyük hörmətə sahib, kolxozda uzun müddət qoyunçuluq üzrə ferma müdüri işləmiş. Xəlil kişinin erməni kolxoz sədri Armik dalıyca maşın göndərərmiş, kolxozun biçinlə, üzümçülüklə, qoyunçuluqla bağlı bütün məsləhətləri ondan alarmış. Sınıxçılıq sənətinin mükəmməl bilicisi kimi şöhrət tapan Xəlil kişi hər gün 15-30 nəfər xəsarət alanlara yardım edərmiş. Bu eyni zamanda yaşadıqları relyeflə əlaqədar idi. Dağ massivində yaşayan əhalidə sınma, çıxma halları daha yüksək olurmmuş. İstifadə etdiyi ləvazimatın xərcini belə, özü çəkərmiş. Ermənilər ondan nə üçün qarşılıq almadığını soruşduqda, cavabında; - mən ibadət əhliyəm, etdiyim əməlləri Allah yolunda səvab kimi edirəm, mənə dövlətin verdiyi təqaüd bəs edir, deyərmiş. Məhşur sınıxçı, qohum əqrəbanın sevimlisi, övladı olmayan Xəlil baba 1983-cü ildə,103 yaşında

Çivə kəndində vəfat edir və orda dəfn olunur. Övladı olmadığı üçün, adını qardaşı nəvəsinə verirlər.

## Ağalarov Zahid Cəbrayıl oğlu (1940-2021)

Ağalarov Zahid Cəbrayıl oğlu 1940-cı ilin may ayında Qərbi Azərbaycanın Dərələyəz mahalının Çivə kəndində anadan olub. 1958-ci ildə Şərur rayonu Mahmud kənd orta məktəbini bitirib. 1960-cı ildə İrəvan Kənd Təsərrüfatı Texnikumunu bitirib. 1965-ci ildə ailəsi ilə birlikdə Naxçıvan MR Şahbuz rayonunun Nurs kəndinə köçmüşdür. Uzun müddət Şahbuz rayonunun Rabitə idarəsində şöbə müdiri vəzifəsində çalışmışdır. 2021-ci ildə vəfat etmişdir.

## Ağalarov Bakir Mamo oğlu

Ağalarov Bakir Mamo oğlu 1962-ci il aprel ayinın 4-da Qərbi Azərbaycanın Dərələyəz mahalının Çivə kəndində anadan olmuşdur. 1965-ci ildə ailəsi ilə birlikdə Naxçıvan MR Şahbuz rayonu Nurs kəndinə köçüb. 1979-cu ildə Şahbuz rayonu Nurs kənd orta məktəbini bitirib.

1989-cu ildə Rusiyanın Volsk Arxa Cəbhə Ali Hərbi Məktəbini bitirib. 1989-cu ilin avqust ayından - 1989-cu ilin dekabr ayınadək Sovet Ordusunun 342 saylı hərbi hissəsində ərzaq xidməti rəisinin köməkçisi vəzifəsində, 1989-cu ilin dekabr ayindan 1992-ci ilin mart ayınadək 1545 saylı hərbi hissənin ərzaq və əşya xidməti rəisi vəzifəsində çalışmışdır.

Bakir Ağalarov, Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra da 1992-1998-ci illərdə Azərbaycan Silahlı Qüvvələrində hərbi vəzifələrdə çalışmışdır. 1998-2014-cü illərdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında müxtəlif hərbi vəzifələrdə çalışmışdır.

1997-ci ildə mayor, 2000-ci ildə isə polkovnik-leytenant hərbi rütbəsinə yüksəlmişdir. Hal-hazırda ehtiyatda olan baş zabitdir. Ailəlidir 3 övladı var.

## DÜDƏNGƏLİ ƏZİZ BƏY



Cənubi Azərbaycanda Rustamalı tayfasından olan Kərbəlayi Kazım bəy Nadir şahın süqutundan sonra Arazın sol sahilinə (Şərur bölgəsinə) köçmüşdür. Kazım bəyin Əziz, Həbib, adında oğlanları Sara və Bəyim adında qızları olmuşdur. Həbib bəy 1885-ci ildə Əziz bəy 1890-cı ildə anadan olmuşlar. Əziz bəy və Həbib bəy qardaşları Qori seminariyasında təhsil almışlar. Qardaşların mülkiyyətində faytonları, dəyirmanları və Dərələyəzin Gülüdüzündə otlaq sahələri olmuşdur.

Əziz bəy və Həbib bəy qardaşları (Fətulla Hüseynovla birlikdə) 1918-1920-ci illərdə Düdəngə özünümüdafiə taborunun yaradıcıları və rəhbərləri olmuşlar. Qardaşlar Şərur rayonunun Ələkli kəndindən dəmiryolu xəttini sökərək ermənilərə göndərilən silah dolu vaqonu yoldan çıxraraq silahları ələ keçirib yerli əhaliyə paylamaqla müqaviməti gücləndirmişlər. 1920-1927-ci illərdə Sovet Hökümətinə qarşı mübarizə aparmışlar. Əziz bəy 1927-ci ildə həbs edilmiş 2 il Bayıl türməsində qaldıqdan sonra Sibirə sürgün edilmişdir. Sibirdə ölüm hökmü almış məhbuslarla birlikdə Belamor kanalının tikintisində iştirak etmişdir. 1942-ci ildə Sibirdə sürgündən qaçmışdır. 1951-ci ildə Bərdə rayonunun İmirli kəndinə köçmüş ömrünün sonuna qədər burada yaşamışdır. 1982-ci ildə İmirli kəndində dünyasını dəyişmişdir.

## XOCALI SOYQIRIMIN QURBANI ŞƏHİD DİLARƏ NÜRƏLİYEVA



Nürəliyeva Dilarə Oruc qızı 1930-cu ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. Atası Oruc Nürəliyev Şərur rayonunun Yaycı kəndində Çivə kəndinə köçən ailələrdəndir. Anası Sidiqə Əhməd bəy qızı Vəkilova Şərur-Dərələyəz qəzasının naibi olmuş Hüseynalı Sultan Vəkilovun ailəsindəndir. Dilarə Nürəliyeva ailəsi ilə birlikdə 1951-ci il tarixdə Stalinin qərarı ilə Çivə kəndindən deportasiya edilərək Bərdə rayonunun İmirli kəndinə köçürülüblər. Bir müddət burada qaldıqdan sonra ailə həyatı ilə bağlı Xocalıya köçüb. 26 fevral 1992-ci il tarixdə Xocalı şəhərində şəhid olub.

O, müdhiş soyuq fevral gecəsi Xocalıda kütləvi insan qırğını olduğu barədə xəbərlər gəldi. Lakin Azərbaycanın o vaxtkı səriştəsiz və qorxaq rəhbərliyi Ayaz Mütəllibov ciddi-cəhdlə belə bir qırğının olmadığını sübut etməyə çalışırdı. Lakin fakt faktlığında qalırdı dünyanın gözü qarşısında böyük bir insanlıq dramı yaşanmışdır. Azərbaycan türklərinə qarşı genosid siyasəti həyata keçirilmiş 366 rus alayının hərbi dəstəyi ilə ermənilər Xocalıda soyqırım həyata keçirmişdir. Bu hadisələrə hər kəs öz fərdi xüsusiyyətlərinə uyğun olaraq reaksiya verirdi. Bəzi insanlar daha təhlükəsiz yerlərə getmək bəziləri isə Xocalıyaköməyə getmək istəyirdilər. Xocalı soyqırımı təkcə orada əzizlərini itirən insanların deyil Azərbaycan türklərinin faciəsi idi. Dilarə Nürəliyeva 26 fevral 1992-ci il tarixində şəhid olsa da onun nəşini əldə etmək 22 mart 1992-ci il tarixində mükün olmuşdur. Şəhidin qardaşı oğlu Yusif Nürəliyev bu barədə belə söyləyir: “Həmin günü meyittlər gətirildi və mən meyyitlərin içindən axtara-axtar bibimi tapdım. İki

ayağındann güllə yarsı almışdır. Bir qadın Dilarə bibimin öldürülməsinin şahidi olmuşdu və orada danışdrdı ki, Dilarə xanım iki ayaqlarından yaralanmışdı erməni hərbicisi gəlib ciyinlərindən vurub qışqırırdı ki durun qalxın Dilarə xanım erməniyə korsan görmürsən ayaqlarım yaralıdır deyib erməninin üzünə tüpürdü və ürəyinin üstündə saxladığı şəkili çıxardıb erməniyə tərəf uzdaraq qardaşım sağ olsaydı sən belə edə bilməzdin dedi və erməni onu güllələdi".

Keşməkeşli bir ömür yaşamış Dilarə xanımın adı Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda şəhid olmuş Xocalı soyqırımının qurbanları siyahısına yazıldı. Məkanı cənnət olsun!..

## YURD HƏSRƏTLİ ALİMLƏRİMİZ

### Sevil Abbasoğlu İrəvanlı

Finlandiyada yaşayan həmvətənimiz, dəyərli tədqiqatçı Sevil Abbasoğlu İrəvanlının 2015-ci ilin ilin sonlarında Türkiyədə çap olunan "Qafqazda qırğın və sürgünlər (Qərbi Azərbaycanda rus və ermənilərin törətdiyi soyqırım)" adlı kitabı vətənindən uzaqlarda Türk Dünyası Araşdırmaları Vaqfı tərəfindən İstanbulda nəşr edilmiştir. Bu dəyərli tədqiqat əsəri uzun illərin, gərgin araşdırmaların və ən başlıcası, vətən sevgisinin, vətəndaşlıq qeyrətinin məhsuludur.

**Abbaslı Sevil Abbas qızı** 1962-ci ildə Şərur-Dərləyəz qəzasının Çivə kəndində anadan olub. İlk ibtidai təhsilini Çivə kəndində alıb. Orta məktəbi Naxçıvanda bitirib. 1993-cü ildə Bakı Dövlət Univesitetinin Kitabxanaçılıq fakultəsindəki ali təhsilini fərqlənmə diplomuyla başa çatdırıb. 1996-cı ildə Prof. Turan Yazqanın rəhbərlik etdiyi Türk Dünyası Araşdırmalar Vəqfinin Bakıda fəaliyyət göstərən kitabxanasında çalışıb. Daha sonra bir tədqiqatçı alim kimi fəaliyyətini Türkiyədə, İstanbulda davam etdirib, 2002-ci ildə müxtəlif qəzet və dərgilərdə məqalələri dərc olunub. Hazırda Finlandiyada yaşayır. "Osmanlı arxivlərində

İrəvan xanlığının tarixi" mövzusunda dissertasıya işi üzərində çalışır.Finlandiyanın Turku universitetində fin və macar dilləri üzrə də təhsil alan S.A.İrəvanlı fin, macar,rus və erməni dillərini bilir. Həyatda ən böyük dayağı isə qəlbindəki vətən sevgisi və ailəsinə - dəyərli həyat yoldaşı, türkoloq alim Atilla Jorma ilə sevimli qızı Nəbahat Ayturana məhəbbətidir. Elə oxuculara təqdim etdiyi kitabını da sevdiklərinə - Vətənini itirən, qürbətdə yaşayan bütün yurddaşlarına və sevimli qızı Nəbahat Ayturana ithaf edib.

Kitabına yazdığı "Ön söz" ün elə ilk sətirlərində doğma İrəvan torpağının bu gün yad əllərdə olmasından ürək ağrısı ilə söz açan Sevil xanım yazır:

"Uşaq ikən yaşadıqlarını insan heç vaxt unuda bilməz. Çünki hafizəmizin ən təmiz, ən güclü olduğu çağdır uşaqlıq çağı.Təəssüf ki, uşaqlıq illərimizin cənnəti İrəvan bu gün "İtirilmiş bir cənnət"ə dönmüşdür. Bu da bizə dərin bir acı və kədər verir. Zalımlar,erməni daşnakları uşaqlıq illərimizin cənnətini xarabaya, həyatımızı cəhənnəmə çeviriblər."

Sevil Abbasoğlu İrəvanlının vətən həsrəti, yurd itkisinin ağrı-acısı ilə qələmə aldığı "Qafqazda qırğın və sürgünlər (Qərbi Azərbaycanda rus və ermənilərin törətdiyi soyqırım)" kitabı "Giriş" və on üç bölümdən ibarətdir. Kitabın sonuna müxtəlif foto və sənədlərdən ibarət "Ermənilərin törətdiyi türk soyqırımı sənədlərdə" adlı hissə də əlavə edilmişdir. Əvvəlki iki bölümdə "Qərbi Azərbaycanın tarixi", "Səfəvilər dövründə İrəvan", "Nadir Şah dövründə İrəvan", "İrəvanda Azərbaycan türkcəsində kitab çapı (1890-1917)", "Türkiyədə erməni məsələsi və ermənilərin imperialist dövlətlərlə işbirliyi" və b. kimi sərlövhələr altında Qərbi Azərbaycanın tarixindən, İrəvan xanlığından və s. bəhs edən müəllif III bölümdə tarixi faktlara, sənədlərə əsaslanaraq "XIX-XX yüzillərdə Qərbi Azərbaycanda ermənilərin törətdiyi soyqırımlar"dan söz açır. Kitabın digər on bölümündəki otuz yarımbölümün sərlövhələrindən bir neçəsinin yalnız adlarını çəkmək belə, zənnimizcə, bu kitabın oxucular üçün nə dərəcədə əhəmiyyət kəsb etməsindən xəbər verir:

“I Dünya müharibəsi ərəfəsində erməni planları”,“İmperialist dövlətlərin Cənubi Qafqaz siyasəti”, “Ermənilərin bolşeviklərlə birləşərək Bakıda qırğın törətməsi”, “Türk ordusunun Cənubi Qafqazda zəfər qazanması”, “Sovet Ermənistanında İrəvan türklərinin mədəni fəaliyyəti və mətbuatı (1920-1988)”, “Sürgün edilən türklər”, “Türklərin Qərbi Azərbaycandan sürgün edilməsinin (1948-1953) səbəbləri” və b.

**Ağalarov Arif Mamo oğlu - əslən Qərbi Azərbaycanın Şərur - Dərələyəz mahalının Çivə kəndindəndir.**

Arif Ağalarov 1968-ci ildə Şahbuz rayonunun Nursu kəndində anadan olub. 1976-1985-ci illərdə Nursu kənd orta məktəbində orta təhsil almışdır. 1992-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitunun (İndiki Naxçıvan Dövlət Universiteti) Azərbaycan dili və ədəbiyyat ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir. Həmin ildə Naxçıvan Dövlət Universitetində işə başlayan Arif Ağalarov inspektor, rektor köməkçisi vəzifələrində çalışmışdır. 2000-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası ilə Bakı Dövlət Universitetinin Birləşmiş, İxtisaslaşmış Müdafiə Şurasında “İqtisadiyyat terminlərinin leksik-semantik və linqvistik xüsusiyyətləri "mövzusunda dissertasiya işini müdafiə etmiş, filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini qazanmışdır. 2004-cu ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən dosent elmi adı almışdır. Arif Agalarov 4 dərs vəsaitinin, 5 monoqrafiyanın, 16 fənn proqramının, 2 metodik vəsaitin və 100-ə yaxın elmi məqalənin müəllifidir. 2009-2017-ci illərdə Naxçıvan Müəllimlər İnstitutunda “Dillər və Ədəbiyyat” kafedrasının müdiri, 2018-2021-ci illərdə həmin ali təhsil ocağında "Pedaqoji" fakültənin dekanı vəzifəsində çalışmışdır. Arif Agalarov 2022-ci ildən etibarən Naxçıvan Dövlət Universitetinin Tarix - Filologiya fakültəsinin dekanı vəzifəsində çalışır.

Ailəsi 1965-ci ildə Naxçıvan Muxtar Respublikasına köçmüşdür.

Atası – Ağalarov Mamo Cəbrayıl oğlu Dərələyəz Mahalının

Çivə kəndində anadan olub. 2002-ci ildə vəfat etmişdir.

Anası Ağalarova Tamaşa Əyyub qızı Dərələyəz mahalının Çivə kəndində anadan olmuşdur.

**Ağalarlı Mübariz Zahid oğlu əslən Şərur-Dərələyəz mahalın Çivə kəndindəndir.**

Ağalarlı Mübariz Zahid oğlu 1975-ci ilin yanvar ayının 9-da Şahbuz rayonunun Nurs kəndində anadan olub. 1992-ci ildə Şahbuz rayonu Arınc kənd orta məktəbini bitirmişdir. 1998-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirib. 2003-cü ildə Bakı Dövlət Universitetinin Beynəlxalq Hüquq fakültəsini bitirib.

2013-cü ildə "XV-XVI əsrlərdə Azərbaycan beynəlxalq münasibətlər sistemində" mövzusunda fəlsəfə doktoru dissertasiyasını müdafiə edərək tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb. 2018-ci ildə dosent elmi adını almışdır.

1998-ci ildən AMEA-nın Tarix İnstitutunda elmi fəaliyyətə başlayıb. Hazırda AMEA-nın Tarix İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışır. Həmçinin 2013-2017-ci illərdə ATMU-nun "İctimai fənlər" kafedrasının müəllimi, 2017-ci ildən ADPU-nun "Azərbaycan tarixi" kafedrasının dosentidir. Onlarla elmi əsərin və bir neçə dərs vəsaitinin müəllifidir. Çoxsaylı beynəlxalq konfranslarda iştirak edərək Azərbaycan tarix elminin xaricdə tanınmasında böyük rol oynayıb. Evlidir, iki övladı var.

Atası – Ağalarov Zahid Cəbrayıl oğlu Dərələyəz mahalının Çivə kəndində anadan olub. 1965-ci ildə ailəsi ilə Naxçıvana, Şahbuz rayonunun Nurs kəndinə köçmüşdür. 2021-ci ildə vəfat etmişdir.

Anası - Ağalarova Şəfəq Əloş qızı Dərələyəz mahalının Qaraqaya kəndində anadan olub. 1985-ci ildə vəfat etmişdir

**Qurbanova Yeganə Əli qızı**

1987-ci il oktyabrın 30-da Ermənistan SSR Dərələyəz mahalı Yexeqnadzor rayonunun Çivə kəndində anadan olub.

1994-2005-ci illərdə Bakı şəhəri Nəsimi rayonu Mehdi

Hüseynzadə adına 19 saylı orta məktəbdə təhsil alıb.

2005-2009-cu illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin bakalavr pilləsində təhsil alıb və fərqlənmə diplomu ilə bitirib.

2009-2011-ci illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin magistratura pilləsində təhsil alıb və oranı fərqlənmə diplomu ilə bitirib.

2011-2014-cü illərdə BDU-nun Filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının əyani doktorantı olub.

2015-cı ilin yanvar ayının 22-də "Fikrət Sadığın poetik üslubu" adlı dissertasiya işini BDU-nun nəzdində fəaliyyət göstərən D.02.181 Müdafiə Şurasının iclasında müdafiə edib və 5706.01 Azərbaycan ədəbiyyatı ixtisasında filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi adını alıb.

# İMİRLİDƏ MƏSKUNLAŞMA

Şərur-Dərləyəz qəzasının Çivə, Sallı, Qozulca, Vedibasarın Hortun, Göyçə mahalının Mollalı (Alçalı) kəndlərinin əhalisindən təşkil olunmuş İmirli kəndi Qarbağın qədim yaşaıy məskənlərindən biridir. Kəndin ərazisində olan məscid və künbəz kəndin ərazisində əvvələr yaşayış olduğunu təsdiq edir. Şübəhsiz ki, İmirli kəndinin tarixinə Qarbağın tarixi konteksində baxmaq daha doğru olardı.

Tədqiqatçı Nazir Əhmədlinin Qarabağ əyalətinin kameral təsviri 1832-1833-cü illər adlı kitabının 450-ci səhifəsində İmirli obası haqqında məlumat verilmişdir. İmirli kəndinin köhnə əhalisi aşağıdakı tərkibdə olmuşdur. İmirli kəndinin bir neçə dəfə qurulub dağılması barədə şifahi yaddaşlarda olan məlumatlar nə dərəcə də həqiqətə uyğun olub olmaması barədə fikir və mülahizələrin qiymətləndirilməsinin Qarabağın tarixi ilə məşğul olan mütəxəssilərin öhdəsinə buraxırıq.

## İMİRLİ obası

Əkinçiliklə məşğul olan müsəlman əhali.

İldə ailəbaşına xəzinəyə gümüş pulla 4 rubl 50 qəpik vergi ödəyirlər. Başqa kəndlərin torpaqlarında taxıl əkirlər.

1.Aslanxan Mirqasım oğlu 60 y; oğlanları: Mirqasım 16 y; Naib- xan 10 y.

2.İbrahimxəlil Mirqasım oğlu 53 y; oğlanları: Novruzxan 7 y; Əhməd 4 y.

3.Əli Qasım oğlu 16 y.

4.Ovçu Əziz oğlu 59 y; oğlanları: İsgəndər 12 y; Mə(hə)mməd 3 y.

5.Hüseyn Allahverdi oğlu 20 y.

6.Şahhüseyn Qurbanəli oğlu 54 y; oğlanları: Əlihüseyn 18 y; Məmmədyar 15 y.

7.Şəmi Mirzə oğlu 60 y; oğlu Əliməmməd 30 y.

8.Şirin Qasım oğlu 28 y.

9.Şahverən Haxverdi oğlu 40 y; oğlu İsfəndiyar 6 y.

10. İbrahim Qasımxan oğlu 44 y; oğlanları: Əbdürrəhim 10 y; Qasımxan 3 y.

11. Rəsul Əziz oğlu 31 y.

12. Məlikəli Aslan oğlu 40 y; oğlanları: Aslan 16 y; Pirməmməd 12 y.

13. Mövlamverdi Əliyar oğlu 9 y.

14. Baxşəli Əmir oğlu 21 y. 9318.Xələfxan Qılıçxan oğlu 4y.

15. Hüseyn Məlikqasım oğlu 30 y. 9320. Musa Zərbəli o. 38 y.

16. Əliməmməd Zərbəli oğlu 29 y.

17. Yüzbaşı Əmir Haxverdi oğlu 40 y; oğlanları: Haxverdi 24 y; Fəzləli 10 y.

*Yüzbaşı olduğuna görə vergi ödəmir.İmirli obasında 19 ailə və kişi cinsindən 35 nəfər müsəlman yaşayır.*

# SÜLEYMAN BƏYİN YADİGARI,
# 120 YAŞLI İMİRLİ KƏND MƏSCİDİ



Qərbi Azərbaycanlıların öz doğma yurdlarından deportasiya edilməsi və bu əhalinin bir hissəsinin kompakt şəkildə Bərdə rayonun İmirli kəndində məskunlaşması faktını araşdırarkən maraqlı faktlarla rastlaşdıq. Şərur-Dərələyəz mahalının Çivə kəndindən deportasiya edilən əhalinin İmirli kəndində məskunlaşmasının səbəbləri araşdırılarkən bəlli oldu ki, Çivə əhalisi 1918-1920-ci illərdə tarixçi alim Əli Əliyev "Biz əzablı bir ömür yaşadıq" və "Əlincə yaddaşı" adlı kitablarında qeyd etdiyi kimi İrana keçmək məcburiyyətində qalıblar. Çivə kəndinin əhalisinin İrandan qayıtdıqdan sonra əksəriyyəti yenidən öz doğma kəndlərinə qayıdsalar da lakin əhalinin kiçik bir qrupu Əli bəy Vəkilov Ağdam ərazsində Qərvənd kəndinə, bir hissəsi isə Bərdə rayonunda Həsənqaya və Qaradəmirçi kəndlərinə məskunlaşıblar. 1951-ci ildə Qərbi Azərbaycandan deportasiya edilərkən onlar Bərdədə olan öz kəndçilərinin vasitəsi ilə ərazini gəzib Sultanbud meşəsinin



içərisində dağ ətəyi yerdə çoxlu kəhrizləri olan bir ərazidə yerləşən İmirli kəndinin məskən salmaq üçün uyğun biliblər. Kəntdə məscid və köhnə künbəzin olması vaxtıilə bu ərazidə yaşayış olmasını təsdiq edir. Əvvəllər burada yaşayış olması araşdırıcı alim Nazir Əhmədlinin "Qarabağ əyalətinin kameral təsviri" (1832-1833-cü illər) kitabında öz təsdiqini tapmışdır.

İmirli kəndinin yerli sakinlərindən olan Süleyman bəy Hüseyn oğlu tərəfindən 1913-cü ildə inşa edilən İmirli "Çıraq" məscidinin bu il 120 yaşı olur. Qərbi Azərbaycan əhalisinin ilk sığınacaq yeri olan İmirli məscidi 1953-cü ildə İsa Vəkilovun təşkil etdiyi ilk ibtidai orta məktəbə də ev sahibliyi etmişdir. Kəntdə ilk təhsil alan uşaqlar məhz bu məsciddə dərs keçmişlər. Səksəninci illərin ortalarında kənd ağsaqqalarından olan Hüseyn Sadıqov məscidi tikdirmiş Süleyman bəyi törəmələrini axatrıb tapmış, Bərdə rayonunun Kətəlparaq kəndində yaşıyan Süleyman bəyin qızı Pinikar xanımı kəndə dəvət etmişdir. Hüseyn Sadıqov halallıq naminə kəntdə məscidə yığılmış nəzir-niyazı Pinikar xanıma təklif etsə də, Pinikar xanım: "Mən Süleyman bəyin qızıyam bu məscidi mənim atam tikdirib. Bu nəzir-niyazıda mənim adımdan kəndə imkansız ailələrə verin".

Məsciddən danışarkən şübhəsiz ki, İmirli kənd orta məktibin məzunu olmuş Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarında yüksək hörmətə və nüfuza malik bir şəxs olan polis-polkovniki Ənvər Quliyevin adını çəkməyə bilməzdik. Əslən Dərələyəz mahalının Qozulca kəndindən olan polis-polkovniki Ənvər Məhəmmədəli oğlu Quliyevin təşşəbüsü ilə 2011-ci ildə kənd məscidi əsaslı təmir edilmiş və yenidən yerli sakinlərin ibadət yerinə çevrilmişdir. 2013-cü ildə İmirli kənd məscidinin 100 illik

yubileyi qeyd edilmişdir. Bu il İmirli kənd məscidinin 120 yaşı tamam olur. Məscidi inşa etmiş Süleyman bəyin parlaq xatirəsini ehtiramla yad edirik.

**Süleyman bəy Hüseyn bəy oğlu** İmirlidə yaşayıb, Lalə adlı xanımla evli olub. Lalə xanım əslən Şuşa rayonunun Zarıslı kəndindən olub. Süleyman bəy Sovet höküməti qurulduqdan sonra sürgün olunub sürgündə vəfat etmişdir. Lalə xanımın qardaşları (Xanəli, Qoşunalı, Əli) Bərdə rayonunun Kətəlparaq kəndində yaşadığı üçün onlar atası sürgündə oldunduqdan sonra bu kəndə gəliblər. Lalə xanım Süleyman bəy vəfat etdikdən sonra Kətəlparaq kəndində Rəhim Hüseynov adlı şəxslə ailə qurub. Onun bu evlilikdən 3 övladı Eldar, Yelmar, Hamayıl adlı uşaqları olmuşdur.

Süleyman bəyin birinci evlilikdən olan qızı **Abdullayeva Pinikar Süleyman** qızı 7.05.1928-ci ildə İmirli kəndində anadan olub. Sonra anası ilə birlikdə Kətəlparaq kəndinə gəlib burada uzun illər pambıqçı kimi çalışıb. Qabaqcıl pambıq ustası və əmək qəhrəmanı olmuşdur. 16.04.2008-ci ildə Kətəlparaq kəndində dünyasını dəyişib.

Pinikar Süleyman bəy qızı Abdullayev Müseyib Mejdun oğlu ilə ailə qurub onun bu evlilikdən 6 övladı dünyaya gəlib. Kübra, Araz, Suqra, Allahverən, Ofilə, Knyaz.

**Abdullayev Allahverən Müseyib oğlu** uzun illər Qaz təhcizatı sahəsində çalışıb, 2 dəfə Prezidenti fəxri fərmanı ilə təltif edilib.

Allahverən Abdullayev söylədiklərindən. 1983-cü ildə Tərtərdən bir nurani kişi bizə gəlib soraqlaşa-soraqlaşa Süleyman bəyin qızının burada yaşadığını öyrəndiyini söylədi. Mən Süleyman bəyin xidmətçisi olmuşam o vaxtı mən Süleyman bəyə dedim ki dolana bilmirəm sizdən ayrılmaq istəyirəm o da əlindəki çombağı ilxının içinə atdı və dedi çombağ düşən yerdən oyana sənindi götür mal-qaranı halal-xoşun olsun qal işinlə məşğul ol. Mən də elə etdim. İndi yaşlı adamam gəlmişəm halalıq almağa. Anam da halalıq verdi .

# İMİRLİ, YOXSA ƏMİRLİ

İmirli toponimi türk toponimi olmaqla İmirli sözünün mənşəyi Əfşar tayfasının bir qolu olan eymurların içərisindən çıxan İmir qolunun adından götürülməsi haqqında toponimşünas alimlər arasında yekdil fikir mövcuddur. Maraqlıdır ki, Türkiyə ərazisində İmirli kəndi hətta İmirli radiosu da var. Türkiyə ərazisində olan İmirli kəndi də tarixçilər tərəfindən ciddi şəkildə araşdırılmamışıdr. Kənd əhalisinin şifahi yaddaşına əsasən Türkiyədə ki İmirli kəndinin tarixi orta əsrlərə gedib çıxır.

İmirli yoxsa Əmirli toponimi daha düzgündür? Hazırda kəndin adı dəyişdirilərək Əmirli edilib. Yuxarıda Qarbağ əyalətinin kameral siyahısına istinadən kəndin qədim adının İmirli olduğu artıq şübhə doğurmur.

Ancaq bir ziddiyətli məqam bu anlaşılmazlığın yaranmasına səbəb olmuşdur, belə ki, İmirli kəndində təsis edilmiş orta məktəb yetmişinci illərdən Əmirli kənd orta məktəbi adlandırılmışdır. Əslində bu yalnışı aradan qaldırmağın düzgün yolu məktəbin adını yerli toponimə uyğunlaşdırmaq daha doğru olardı. Hazırda Kəndin adı Əmirli olmaqla məktəblə yarnmış uyğunsuzluq aradn qaldırılmışdır. Lakin İmirli toponimi yalnış olaraq Əmirli ilə əvəz edlmişdir.

Gəlcəkdə Azərbaycan Respublikasının Milli Məclisinə toponimin adının yenidən qaytarılması ilə bağlı əsaslandırılmış təklif hazırlanması fikiri artıq ictimai rəydə mövcuddur.

Qayıdaq İmirli kəndinin ötən əsrin əllinci illərində yenidən məskunlaşmasına.

İmirli kəndinin əhalisinin əsas kütləsini Şərur-Dərələyəz qəzasının Çivə kəndindən deportasiyaya məruz qalmış əhali təşkil edir. Çivə camaatının kənd ərazisinə köçməsi 1951-ci ilin oktyabr noyabr aylarını əhatə edir. Kitabın şəxsi hekayələr bölməsində bu barədə çox saylı məlumatlar mövcuddur. İmirli kənd məktəbinin ilk qurucusu İsa Vəkilovun xatirələrində də dəqiq tarix göstərilmişdir. İsa Vəkilov qeyd edir ki, atam Əhməd bəy 1 sentaybr 1951-

ci ildə dünyasını dəyişdi 7 mərasimini Çivədə verdik sonra Bərdəyə köçdüyümüzə görə atamın 40 mərasimini İmirlidə verdik.

Beləliklə kənd əhalisinin oktaybr noyabr aylarında köçməsi öz təsdiqini tapır. Çivə camaatının İmirli kəndinə kompak köçməsi məsələsi kənd əhalisi arasında yekdil fikir olmuşdur.

Kəndin ərazisinin bəyənilməsində və infrastrukturunun formalaşmasında vaxtıilə Çivə kəndindən Bərdə rayonun Həsənqaya kəndinə köçmüş Ələkbər Qasımovun rolunu xüsusi ilə qeyd etməliyik. Ələkbər Qasımov Çivəlilərin kompak yaşaması üçün İmirli kəndini seçməsi fikirini daha da qüvvətləndirmişdir. Eyni zamanda bu məsələdə kəndin ağsaqqalları Musa Fərzəliyev, Fazil Pirəliyev, İbrahim Calalov, Cəlil Hüseynov, Həbib Pirəliyev, Mahmud Vəkilov, Lətif Ələkbərov, İbrahim Məmmədovun da rolları danılmazdır.

Əvvəlcə kəndin adını Çivə qoymaq istəsələr də sonradan bu fikir dəstək qazanmayıb və kəndin köhnə adının bərpa edilməsi əsas gətiriərək İmirli adı yenidən həyata vəsiqə qazanıb.

Sonraki illərdə isə Sallı, Hortun, Qozulca, Mollalı kəndlərinin əhalisidə İmirli kəndinə köçməklə əhali tərkibi daha da genişlənmişdir.

Onu da qeyd edək ki, Vedibasar mahalından Salyana deportasiya edilmiş Hortun kənd sakini ağır seyid Mir Əkbər ağa sonradan İmirli kəndinə köçmüş burada dünyasını dəyişərək kəndin qəbristanlığında ilk dəfn edilən şəxs olmuşdur.



## ƏMİRLİ (İMİRLİ) KƏNDİ

Əmirli kəndi Qarabağ düzündə, rayon mərkəzindən 23 km. cənubda - Tərtər-Ağcabədi magistral yolunun 1,5 km-də Xaçın çayının köhnə yatağının sağ və sol hissəsində, əsasən düzən ərazidə yerləşir. İqlimi mülayim, quru subtropikdir.

Sahəsi 10,050 $km^2$, əhalisi 2044 nəfərdir. Əkin sahəsi 685 hektar. Tikinti altında olan sahənin həcmi 230 hektar. Bələdiyyənin torpaq sahəsi sahəsi 135 hektar.

Milli tərkibi Oğuz türkləridir.

Əhalinin məşğuliyyətində əkinçilik və maldarlıq əsas yer tutur.

Kənddə bir tam orta məktəb, həkim məntəqəsi, folklor klubu, poçt məntəqəsi, kitabxana, baytarlıq sahə məntəqəsi və ATS var.

Kənddə 1911-ci ildə tikilmiş və dövlət tərəfindən mühafizə olunan məscid və dairəvi günbəz var.

## İMİRLİ KƏNDİNİN XANƏRƏB SOVETLİYİNDƏ AYRILMASINA DAİR

Azərbaycan Respublikası Ali Sovetinin qərarı.

**Azərbaycan Respublikasının Abşeron, Ağstafa, Balakən, Beyləqan, Bərdə, Biləsuvar, Qobustan, Qubadlı, Zaqatala, İsmayıllı, Yevlax, Kəlbəcər, Masallı, Xızı, Şamaxı rayonlarının və DQMV Hadrut rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN QƏRARINDAN ÇIXARIŞ

Azərbaycan Respublikasının Ali Soveti **qərara alır:**

Respublikanın aşağıdakı rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilsin:

**Bərdə rayonu üzrə**

Bəcirəvan kəndi Xəsili kənd Sovetindən ayrılaraq, həmin kənd

mərkəz olmaqla Bəcirəvan kənd Soveti yaradılsın.

Böyük Göyüşlü kəndi Kolayır kənd Sovetindən ayrılaraq, həmin kənd mərkəz olmaqla Böyük Göyüşlü kənd Soveti yaradılsın. Kolayır kənd Sovetindən Bala Göyüşlü kəndi Böyük Göyüşlü kənd Sovetinin tərkibinə verilsin.

Əmirli kəndi Xanərəb kənd Sovetindən ayrılaraq, həmin kənd mərkəz olmaqla Əmirli kənd Soveti yaradılsın. Xanərəb kənd Sovetindən Şahvəlilər kəndi Əmirli kənd Sovetinin tərkibinə verilsin.

Soğanverdilər kəndi Kətəlparaq kənd Sovetindən ayrılaraq, həmin kənd mərkəz olmaqla Soğanverdilər kənd Soveti yaradılsın.

Çələbilər kəndi Otuzikilər kənd Sovetindən ayrılaraq, həmin kənd mərkəz olmaqla Çələbilər kənd Soveti yaradılsın. Otuzikilər kənd Sovetindən Nifçi kəndi Çələbilər kənd Sovetinin tərkibinə verilsin.

**Azərbaycan Respublikası Ali Sovetinin sədri**
**E. QAFAROVA**
Bakı şəhəri, 25 may 1991-ci il. № 123-XII.

İmirli kəndi uzun illər Almaniya komunistlərinin lideri **Ernest Telman** adına kolxozun tərkibində olub. 1991-ci ildən İmirli kəndi E.Telman adına kolxozundan ayırılaraq Sovet İttifaqı Qəhrəmanı **Gəray Əsədov** adına kolxoz təsis edilmişdir.

## G.ƏSƏDOV ADINA KOLXOZUN İDARƏ HEYƏTİNİN SƏDRİ VƏZİFƏSİNDƏ İŞLƏMİŞ ŞƏXSLƏRİN SİYAHISI

***Calalov Salman Calal oğlu 1991-1993***

***Məmmədov Aydın Yaqub oğlu 1993-1995***

***Ələkbərov Razim Vəli oğlu 1995-1996***

***Calalov Salman Calal oğlu 1996-1999***

1991-ci ildən İmirli kəndi Telman kolxozu sovetliyindən ayrıldıqdan sonra müstəqil olub.

## İMİRLİ KƏNDİNDƏ İCRA NÜMAYƏNDƏSİ İŞLƏMİŞ ŞƏXSLƏRİN SİYAHISI

**1)** 1991-ci ildən 1993-cü korlədək icra nümayəndəsi **Dadaşov Məhərrəm Gəray oğlu**
2) 1993-cü ildən 1995-ci ilə qədər icra nümayəndəsi **Hüseynov Əziz İsa oğlu**, müavini Nuralıyev Asif İsmayıl oğlu olub.
3) 1995-ci ildən 2002-ci ilə qədər icra nümayəndəsi **Fətəliyev Qiyas Həsən oğlu**, müavini Nuralıyev Asif İsmayıl oğlu olub.
4) 2002-ci ildən 2007-ci ilə qədər **Ələkbərov Nazim Vəli oğlu**, müavin Abbasov Rəşid Rəfi oğlu.
5) 2007-ci ildən 2009-cu ilə qədər icra nümayəndəsi **Məmmədov Aydın Yaqub oğlu** müavin Abbasov Rəşid Rəfi oğlu.

6) 2009-cu ildən 2016-cı ilə qədər icra nümayəndəsi **Pirəliyev Hüseyn Fazil oğlu,** müavin Abbasov Rəşid Rəfi oğlu.
7) 2016-cı ildən 2018-ci ildə qədər icra nümayəndəsi **Həsənov Rauf Sadıq oğlu**, müavin Abbasov Rəşid Rəfi oğlu.
8) 2018-ci ildən icra nümayəndəsi **Abbasov Rəşid Rəfi oğlu** müavin Tahirov Nəsib Tahir oğlu

## ƏMİRLİ (İMİRLİ) KƏNDİNİN BƏLƏDİYYƏ SƏDRLƏRİ OLMUŞ ŞƏXSLƏRİN SİYAHISI

***Calalov Salman Calal oğlu 2000-2005***

***Qəmbərov Nizami Əmirasaln oğlu 2005-2010***

***Həsənov Sadiq Tapdıq oğlu 2010-2015***

***Xəlilov Ramin Əli oğlu 2015-2020***

***Həsənov Rahib Sadiq oğlu 2020***

## İMİRLİ KƏNDİNİN FOLKLOR MÜHİTİ

Dərələyəz və Göyçə mahalının əhalisinin deportasiya nəticəsində Bərdə rayonunun İmirli kəndində köçməsi ilə hər iki mahalın folklor mühiti və folklor mühitinin ayrı-ayrı vacib tərkib hissəsi olan folklor söyləyicilərində bu mühitə inteqrasiya etmişdir. Bu mənada İmirli kəndinin folklor mühiti aşıq ədəbiyyatı və digər elemetlərlə zəngindir. Belə ki, İmirliyə köçən əhalinin mənsub olduğu Dərələyəz mahalının Sallı və.b. kəndlərində o cümlədən Göyçə mahalının Mollalı (Alçalı) kəndində zəngin aşıq mühiti olmuşdur. Təkcə Sallı kəndindən olan Aşıq Cəlil və Alaçalı Aşıq Məhərrəm kimi klassik aşıqlar bəsdir ki, bu mühitin zənginliyini göz önündə canlansın.

## AZƏRBAYCAN AŞIQ SƏNƏTİ

Öz qaynağını qədim türk qam-şaman arxetipindən alan aşıq sənəti Azərbaycan milli mədəniyyətinin onurğa sütununu təşkil edir. Milli folklor mədəniyyətinin bütün növ və janrları bu və ya digər şəkildə aşıq sənəti və yaradıcılığı ilə əlaqədədir. Aşıq özünün poetik janr coğrafiyası ilə Azərbaycan xalq poeziyasının bütün janrlarını əhatə edir. Aşıq elə bir söyləyici tipidir ki, onun milli mədəniyyət müstəvisində yeri müstəsnadır. Müxtəlif populyar folklor janrlarının ayrı-ayrı söyləyiciləri (nağıl söyləyən nəqqallar, əfsanə, əhvalat, rəvayət söyləyən ravilər, ağı söyləyən ağıçılar, bayatı, nağıl, müxtəlif şeir və nəğmələr, atalar sözləri, məsəllər və s. söyləyən sinədəftərlər və s.) olduğu halda, aşığın repertuarı zəngin Azərbaycan folklorunun, demək olar ki, bütün janrlarını əhatə edir. Bu, aşıq sənəti və yaradıcılığının milli mədəniyyət tarixindəki son dərəcə geniş funksional struktura malik olması ilə əlaqədardır.

Aşıq milli mədəniyyət hadisəsi kimi, iki tarixi-mədəni hadisənin qovşağında meydana çıxmış sənət və yaradıcılıq fenomenidir:

1. Aşıq etnokulturoloji tipi etibarilə oğuz-türk qam-şaman,

qam-ozan sənətinin varisidir;

2. Aşıq ideoloji-poetik tipi etibarilə İslam dini bazasında yaranmış təsəvvüfi-irfani görüşlərin daşıyıcısıdır.

XV-XVI əsrlərə qədər sufi ocaqlarında funksionallaşan aşıq sonrakı əsrlərdə öz siyasi-inzibati himayəsindən məhrum olaraq el məclislərində çalıb-oxuyan sənətçiyə çevrildi. Ancaq bütün bunlara baxmayaraq, aşıq yaradıcılığı özünün ideoloji mahiyyəti etibarilə müasir günlərə qədər təsəvvüfi-irfani obrazlara bağlı qalmışdır. Bu günün özündə də aşıqlar şeirlərində "şəriət", "təriqət, "mərifət", "həqiqət" kimi fundamental sufi anlayışlarını onların təsəvvüfi-idraki məna aləminə, ideoloji-semantik yüklərinə bələd olmadıqları halda belə tərənnüm edirlər. Çünki aşıq yaradıcılığının bütün poetik obrazlar sisteminin əsası tarixən təsəvvüfi-irfani görüşlər əsasında formalaşmışdır.

Aşığın söz yaradıcılığı son dərəcə zəngin olub, Azərbaycan şifahi xalq ədəbiyyatının, demək olar ki, bütün janrlarını əhatə edir.

Aşıqlar ifaçı və yaradıcı olmaqla iki tipə ayrılırlar. Yaradıcı aşıqlar həm şeirlər, dastanlar qoşur, həm də saz çalıb oxuyurlar. İfaçı aşıqlar isə yalnız saz çalır və başqalarının şeirlərini oxuyurlar.

Aşıq yaradıcılığında dastan ifaçılığı əsas yer tutur. Bir aşığın sənətkar sanbalı, çəkisi, nüfuzu onun dastan yaradıcılığına nə dərəcədə bələd olması ilə də ölçülür. Bu cəhətdən aşıqlar zəngin yaddaşa malik olurlar. Ustad aşıq orta əsrlərdə yaranmış klassik dastanların hamısını bilməyi və ifa etməyi bacarmalıdır.

Aşıq sənətində ustad-şagird ənənəsi ən mühüm hadisədir. Bir aşıq illər boyunca öz ustadına qulluq edərək, ondan sənətin sirlərini öyrənir. Heç bir şagird öz ustadının razılığı olmadan müstəqil şəkildə aşıqlıq fəaliyyətinə başlaya bilməz.

Aşıq sənətçi tipi etibarilə özündə çoxlu sənət növlərini birləşdirir:

**Aşıq** – şairdir: o, qoşma, gəraylı, müxəmməs və s. jnarlarda şeirlər yaradır;

**Aşıq** – epos yaradıcısıdır: o, özünün, yaxud başqların şeirləri əsasında dastan janrında iri həcmli "hekayətlər" yaradır.

**Aşıq** – musiqiçidir: o, sazda ifa edir.
**Aşıq** – müğənnidir: o, mahnılar oxuyur.
**Aşıq** – bəstəkardır: o, yeni mahnılar və musiqilər bəstələyir.
**Aşıq** – rəqqasdır: o, eyni zamanda rəqs edir.
**Aşıq** – aktyordur: o, dastandakı bütün obrazların dili ilə danışır.
**Aşıq** – epos söyləyicisdir: o, Azərbaycan epik sisteminə daxil olan mətnləri həm öz yaddaşında daşıyır, həm məclislərdə söyləyərək müasirlərinə çatdırır, həm də şagirdlərinə öyrədərək gələcək nəsillərə ötürür. Beləliklə, Azərbaycan folklorunun əsas hissəsi aşığın söyləyicilik funksiyasının vasitəsilə müasir dövrümüzə qədər gəlib çıxmışdır. Bütövlükdə götürdükdə Azərbaycan folklor sistemində epos söyləyiciliyi baxımından aşıqla müqayisə olunacaq söyləyici yoxdur. Bir sıra folklor janrlarının öz söyləyicilərinin (nağılçı, ağıçı və s.) olmasına baxmayaraq, həmin janrların özləri də ümumi planda aşığın yaddaş yükünə daxildir.

Aşıq bir sənətkar kimi, əsasən, el məclislərinin, toyların, bayramların mühüm ünsürü olmuşdur. Onun əsas aləti sazdır. Müxtəlif aşıq mühitlərində aşığın yanında balabançılar da olmuşlar. Ritmin aparıcı fonu təşkil etdiyi Şirvan aşıq mühitində sazla bərabər balaban, qoşa nağara, nağara kimi müxtəlif alətlərdən də istifadə olunur.

Aşıqların bədii yaradıcılığında xalq poeziyasının qoşma, müxəmməs, gəraylı, qıfılbənd, ustadnamə, təcnis, vücudnamə və s. janr və formaları mühüm yer tutur.

Aşıq musiqiləri bütövlükdə havacat adlanır. Təqribən, 70-80 civarında aşıq havasının olduğu söylənilir. Bunun dəqiq statistikası aparılmasa da, aşıq sənəti şifahi folklor hadisəsi olduğu üçün burada variantlaşma güclüdür. Eyni aşıq havasına müxtəlif aşıq mühitlərində fərqli adlar altında rast gəlmək olur. Aşıq havalarında musiqi ilə poetik mətnin qarşılıqlı əlaqəsi onların melodik-ritmik, forma xüsusiyyətlərinin yaranmasına önəmli təsir göstərir.

Aşıq poeziyasının poetik ölçüsü heca vəznidir. Havaların quruluşu şeirin forma və heca tərkibi, bölgü xüsusiyyətləri ilə əlaqədə yaranır. Qurbani (16-cı əsr), Abbas Tufarqanlı, Sarı Aşıq

(17-ci əsr), Xəstə Qasım, Aşıq Valeh, Aşıq Dilqəm (18-ci əsr), Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Bilal, Aşıq Hüseyn Şəmkirli (19-cu əsr) və başqaları aşıq sənətinin klassikləri hesab olunurlar. Müasir dövr aşıqları arasında Aşıq Hüseyn Bozalqanlı, Aşıq Əsəd, Aşıq Mirzə, Aşıq Abbas Cəyirli, Aşıq Şakir, Aşıq Bəylər, Aşıq Xanmusa, Aşıq Əhməd, Aşıq Mahmud, Aşıq Əlifağa, Aşıq İslam, Aşıq Şəmşir, Hüseyn Saraclı, Əmrah Gülməmmədov, Hüseyn Cavan, Aşıq Kamandar, İmran Həsənov, Mikayıl Azaflı, Əkbər Cəfərov, Aşıq Əli (Şərur-Dərələyəz Çivə kəndi, 19-cu əsr) Aşıq Cəlil və b. fərqlənir.

Aşıq sənəti Azərbaycanın şimalı və cənubunda geniş yayılmış və müxtəlif mühitlərə malikdir. Aşıq mühitləri içərisində Şirvan aşıq mühiti muğam sənəti ənənələri ilə sintezə girdiyi üçün burada aşıq sənəti spesifik məzmun və forma kəsb etmişdir.

## İMİRLİDƏ DƏRƏLƏYƏZ, GÖYÇƏ AŞIQ MÜHİTİ

Sənət ənənəsi baxımından bir-birinə yaxın olan Göyçə və Dərələyəz aşıq mühitləri deportasiya nəticəsində Bərdə rayonun İmirli kəndində köçən Dərələyəzin Çivə, Sallı, Qozulca və Göyçə mahalının Mollalı (Alçalı) kəndlərinin əhalisinin simasında daha da çulğalaşdı. İyirminci əsrin əvvəllərində yüzdən yuxarı kəndi əhatə eləyən Dərələyəz mahalının ardıcıl sıxışdırmalardan və vaxtaşırı zorla köçürülmələrdən sonra səksəninci illərdə iki rayonda (Soylan və Keşişkənd) cəmləşən iyirmiyə yaxın kəndi qalmışdı . 1988-ci ildə Azərbaycan türkləri həmin kəndlərdən də məcburən çıxarılmışdır.

Göyçə mahalı ilə Dərələyəz mahalını biri-birindən məşhur Selim gədiyi ayırmışdır. Çox mürəkkəb çoğrafi mövqedə yerləşən bu gədik yalnız ilin altı ayında gediş-gəlişə imkan vermişdir. Altı aylıq qış dönəmində qar yağıb gədiyi bağladığından bir mahaldan o biri mahala adlamaq mümkün olmamışdır. Yaz-yay aylarında yaxın güzaran əlaqələri quran, sənət münasibətləri saxlayan Göyçə və Dərələyəz camaatı qış dönəmində demək olar ki, mahal daxili

həyat keçirirmişlər. (M.Qasımılı Ozan aşıq sənəti və ədəbiyyatı, *Ə.Ələkbərli. Qədim türk-oğuz yürdu-"Ermənistan", s 133-137; 153-156)*

Qış zamanı bir-birinə qapanan aşıq mühitləri də həyatın digər axarları kimi yaz-yay çağlarında yenidən qaynayıb-qarışmış və öz sənət münasibətlərini qarşılıqlı faydagötürmə zəminində qurmuşlar. Öz mahallarından əlavə Göyçə aşıqlarının Dərələyəz mahalına, Dərələyəz aşıqlarının isə Göyçə mahalına toy-düyünə çağırılması inkişaf ahənginin eyni axarda getməsinə geniş imkan və şərait yaratmışdır. Bundan əlavə, gah Göyçə aşıqlarının Dərələyəz aşıqlarını, gah da əksinə Dərələyəz aşıqlarının Göyçə aşıqlarını saz-söz meydanına çağırması və sənət imtahanına çəkməsi də inkişafda az iş görməmişdir. Sonralar aşıq hekayətlərinə, dastan qanadlarına çevrilən bu sənət imtahanları yaradıcılıqda poetik siqlətin, ifaçılıqda isə mədəni-estetik tutumun qüvvətlənməsinə təkan vermişdir.

Göyçədə olduğu kimi Dərələyəz mahalının da hər kəndində bir neçə aşıq yaşayıb yaratmışdır. Salı, Hors, Qabaxlı, Qaraqaya kəndləri isə peşəkar aşıqlar məskəni sayılmışdır. XIX yüzilliyin sonu ilə XX yüzilliyin ortaları arasında Sallı kəndində iyirmiyə yaxın saz-söz sənətkarının çalıb-çağırması orada sənət həyatının olduqca qaynar keçidindən soraq verir. Sallı kəndində ərsəyə gələn Aşıq Paşa, Qul Mustafa, Aşıq Cəlil, Şair Təhməz, Dəllək Xələf, Aşıq Əsəd, Şair Alhüseyn, Şair Məhəmməd Aşıq Cəlilin qardaşıdır, Şair Rzaqulu, Aşıq Qulu, Məhəmmədəli, Aşıq Bəhmən, Aşıq Mirzalı və başqaları Dərələyəz aşıq mühitinin ən kamil saz-söz ustadları kimi şöhrətlənmişlər[253]. Bu sıradan başda yer alan Aşıq Paşanın XVI yüzilliyin ikinci yarısı ilə XVII yüzilliyin əvvəlləri arasında yaşayıb yaratdığını ehtimal etmək mümkündür. Folklorçu İ.Abbasov Ermənistanda Matenadaran əlyazmaları (*Q.Kazımov. Aşıq Cəlilin sorağı ilə. "Qobustan" j., 1989, N'3,s.2l)* arasında axtarış apararkən onun 1611-ci ildə yazıya alınmış "Əcayib görəydim dersən" misrası ilə başlanan bir gəraylısına rast gəlmişdir[254]. Həmin mənbədəki 1687-ci il tarixli bir başqa

əlyazmasında isə Qul Mustafanın:

***Bulandı çeşmim seli,***
***Məgər bir gün durulmazmı?***
***Üzün gördüm, oldum dəli,***
***Aşıq Paşa dirilməzmi?!***[255]**-**

bəndiylə başlanan gəraylısı verilmişdir ki, buradan da Qul Mustafanın Aşıq Paşanı ustad kimi qəbul eləməsi anlaşılır. Hər halda, bu orta əsr əlyazmalarındakı şerlər ən yaxşı vəziyyətdə həmin sənətkarların öz sağlığında yazıya alına bilərdi. Amma sonradan başqa bir ifaçı aşığın dilindən qeydə alınması da mümkünlük içərisindədir. Bununla belə, variantlardan hansının dəqiq olub-olmamasından asılı olmayaraq, Aşıq Paşa və Qul Mustafanın aşıq sənətinin təşəkkül və formalaşma mərhələsində yaşayıb yaratdığı göz qabağındadır. Olsun ki, Dərələyəz aşıq mühitinin əsası da Aşıq Paşa və onun davamçıları tərəfindən qoyulmuşdur. Burada belə bir cəhət də xüsusi maraq doğurur ki, Aşıq Paşa öz adı qarşısında "aşıq" sözünü məhz sənətkar ad-titulu kimi işlətmişdir. Bu mənada 1611-ci ilə məxsus əlyazmadakı "Aşıq Paşa" təxəllüsü "aşıq" sözünün sənətkar statusunda çıxış etdiyini soraq verən ilk yazılı qaynaqlardan biridir.

Dərələyəz aşıq mühitinin sonrakı dövr sənətkarları içərisndə də Sallı kəndindən olan Aşıq Cəlil xüsusi yer tutmuşdur.

*(İ.Abbasov. Azərbaycan-erməni şifahi ədəbiyyat əlaqələri filoloji elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya , Bakı, 1965, s.186)*

Aşıqlıq elminin sirlərinə dərindən bələd olan Aşıq Cəlil bəstəçilik sahəsində - yeni saz havalarının yaradılmasında misilsiz xidmətlərə malikdir. Söyləndiyinə görə o, on iki saz havasının yaradıcısıdır. Aşığın həmyerlisi Qulu Kazı- mov-Kəngərli gərgin zəhmət və uzunmüddətli axtanşlar sayəsində həmin on iki havadan yeddisini müəyyənləşdirərək lent yazısına köçürmüşdür. Hazırda aşıqların musiqi repertuarında yaşamaqda davam edən Aşıq Cəlil

havalan aşağıdakılardır: “Baş Cəlili”, “Orta Cəlili”, “Ayaq Cəlili”, “Qəhrəmanı”, “Dərələyəz gəraylısı”, “Qaytarma”, “Badamı”[256]. Aşıq Ələsgərlə yaxından dostluq eləyən Aşıq Cəlil yaratdığı havalan bir qayda olaraq ilk öncə böyük ustadın hüzurunda çalar, onun xeyir-duasını alarmış. Göyçə aşıq mühitində Aşıq Ələsgər hansı haqqa sahibdirsə, Dərələyəz aşıq mühitində Aşıq Cəlil həmin mövqeyin yiyəsidir. On beşdən yuxarı şagird yetişdirən Aşıq Cəlilin qardaşı və üç oğlu, daha sonra isə iki nəvəsi də aşıq olmuşdur. Kiçik oğlu Bəhmən məlahətli səsi və bənzərsiz çalğısı ilə atasının şöhrətini davam etdirmişdir. “Cəlil ocağı”nın son nümayəndəsi - Aşıq Cəlilin nəvəsi aşıq Mirzalı 1993-cü ildə vəfat etmiş və bununla da Dərələyəz aşıq mühitinin əsas ocağı sönmüşdür.

Dərələyəz aşıq mühitinin ifaçılığı saz və balaban müştərəkliyinə əsaslanmışdır. Yüyrək templi oxu tərzinə və musiqinin ritminə uyğun dinamik hərəkətə - oynaq gəzişmələrə bu bölgədə xüsusi fikir verilmişdir. Repertuarda fəlsəfi-ürfani məzmun daşıyan deyişmə, müəmma, bağlama və buna bənzər örnəklərin önəmli yer tutması və bu qəbildən olan örnəklərin saz-söz məclislərində fəal işləkliyi, əlbəttə, yuxarıdakı ifaçılıq prinsipləri ilə birlikdə Göyçə aşıq mühiti kimi Dərələyəz aşıq mühitinin də təkkə kökənli olmasını səciyyələndirən qabarıq cizgilərdir. (*Q.Kazımov. Aşıq Cəlilin sorağı ilə. “Qobustan” j., 1989, Na)*

Bütün aşıq mühitlərində olduğu kimi Dərələyəz aşıq mühitində də musiqi və söz repertuarının yerli yaradıcılığı və ifaçılığı əks etdirən regional-məhəlli cizgiləri olmuşdur. Həmin cəhətlərin kamillik və cilalılıq dərəcəsinə görə diqqət çəkənləri mühitdən kənara çıxaraq kütləviləşmiş, yetkin olmayanları isə mühit daxilində bir müddət fəaliyyət göstərdikdən sonra işləkliyini itirmişdir.

Milli-siyasi təzyiqin güclü olduğu tarixi mərhələlərdə, xüsusən də 1915-1918-ci illərdə və əsrin ortalarında (1948- 1950-ci illər) Dərələyəz mahalım tərk etməyə məcbur olan aşıqların böyük əksəriyyəti Naxçıvana gedərək orada məskunlaşmışlar. Dərələyəz

aşıq mühitinin bel sütunu sayılan Aşıq Cəlil də ömrünün son bir neçə ilini Naxçıvanın Dizə kəndində keçirmiş və həmin kəddə də dünyasını dəyişmişdir. Ümumiyyətlə, XIX-XX yüzilliklərdə Dərələyəz aşıq mühitinə mənsub aşıqlar öz fəaliyyətlərinin çox hissəsini Naxçıvan aşıq mühitinin tərkibində davam etdirmişlər. Gəncəbasar, Zəngəzur, Dərələyəz, İrəvan mahalları ilə əhatələnən Göyçə mahalı uzunluğu təqribən yüz, eni isə qırx kilometr olan böyük bir əraziyə sahib olmuşdur. Özündə Basarkeçər, Kəvər, Aşağı Qaranlıx, Yelenovka, Çəmbərək kimi beş iri rayon mərkəzini və yüzdən yuxarı kəndi cəmləşdirən bu qədim oğuz diyarında son bilgiyə - 1988-ci il hesablamalarına görə yüz əlli mindən yuxarı adam yaşayırdı . Mahalın əhalisinin yüzdə səksənini Azərbaycan türkləri, yüzdə iyirmisini isə ermənilər təşkil edirdi.

"Kitabi - Dədə Qorqud" boylarında adı keçən Göyçə Azərbaycan türklüyünün ən saf bölgələrindən biri olduğu üçün orada saz-söz sənəti həmişə güzəranın ayrılmaz tərkib hissəsi olmuş və ulusun mənəvi yaşam sistemində aparıcı mövqeyə yiyələnmişdir. Bu qədim türk yurdu öz misilsiz koloritini, bulaq kimi qaynayan obrazlı danışıq tərzini milli ruhun ən dərin qatlarından şirə çəkərək yaratmışdır. Bu mahal qərar tapdığı ilkin zamanlardan üzü bəri son süqut məqamına qədər demək olar ki, həmişə canlı folklor həyatı yaşamışdır.

Göyçə aşıq mühiti Azərbaycan aşıq sənətinin təkkə ocağı əsasında intişar tapan qanadına daxildir. "Miskin Abdal ocağı" adıyla pir, ziyarətgah səviyyəsinə qalxan məşhur sufı- dərviş ocağının Göyçədə qərar tapması bunu söyləməyə tam əsas verir. Miskin Abdal XVI yüzillikdə ömür sürmüşdür. Onun İrandan-güney Azərbaycandan köçüb gəlməsi, Şah İsmayıl Xətayi ilə şəxsi tanışlığı və yaxınlığı, hətta qohumluğu barədə çoxsaylı rəvayətlər indi də el arasında gəzib dolaşmaqdadır. Əsil adı "Hüseyn" olan sufi-dərvişin təsəvvüf məzmunu daşıyan "Miskin Abdal" təxəllüsünü götürməsi və İrandan gələrək qarşıya qoyduğu missiyanı həyata keçirməsi Göyçə aşıq mühitinin rəmzi statusunu

və ideya-estetik zəminini hazırlamışdır. Hətta çox-çox sonralar - XIX yüzilliyin ikinci yarısı ilə XX yüzilliyin əvvəlləri arasında yaşayıb yaradan Növrəs İman Göyçə mühitində Miskin Abdalın yaratdığı ideya-estetik zəmini dərindən mənimsəməyin aşıqlıq üçün zəruri şərt olduğunu xüsusi vurğulamışdır:

Belə ki, məsələn, sözü gedən Göyçə aşıqlığınm ana axarında duran Aşıq Ələsgərin sənət şəcərəsi əslən İrandan - güney Azərbaycandan olan və Göyçəyə gənc yaşlarında aşıq kimi gələn Ağ Aşığa (öz adı Allahverdididr) söykənir:

***Aşıq Haqverdi (XX-XXI yüzillik), Aşıq Talib (XX yüzillik), Aşıq Ələsgər (XIX yüzillik),Aşıq Ah (XVIII-XIX yüzillik) Ağ Aşıq (XVII-XVIII yüzillik).***

Göyçə aşıq mühitinin digər sənət şəcərələrindən də təqribən yuxarıdakı mənzərə müşahidə olunmaqdadır. Məsələn:

***Aşıq Hacı Bayramov (XX-XXI yüzillik), Qanlı Aşıq Mehdi (XX yüzillik)***

***Aşıq Qulu (Aşıq Alının qardaşı oğlu)-(XIX-XX yüzillik),Aşıq Ah (XVIII-XIX yüzillik), Ağ Aşıq (XVII-XVIII yüzillik)***

Sənət şəcərələrinin mənzərəsindən də göründüyü kimi, Göyçə aşıqlığının repertuar yükündə Ağ Aşıq vasitəsilə gətirilən Təbriz-Qaradağ aşıq mühitinə məxsus saz-söz repertuarı kifayət qədər geniş yer tutmuşdur. Təbriz-Qaradağdan gələn sənət havası hətta Aşıq Ələsgər dönəmində də Göyçə aşıqları tərəfindən rəğbətlə qarşılanmışdır. İslam Ələsgərin atası Aşıq Talıbdan eşitdiyi bir xatirə-təəssürat bu baxımdan diqqət-çəkicidir: “Abbas-Gülgəz” dastanı barədə söz düşəndə Aşıq Ələsgər öz şəyirdlərinə deyərmiş ki, mən gənc yaşlarımda olarkən Təbriz tərəfdən bir aşıq gəlmişdi. Onun adı İsmeyıl idi. O,' dastanı bir həftədən artıq hər gecə söylədi. Amma vacib işi çıxdığına görə təcili İrana qayıtdığı üçün dastanı qurtarmadı. Dastan yarımçıq qaldı. Bizim indiki aşıqlar dastanın az hissəsini bilir. İsmeyil deyirmiş ki, dastan “on iki gecəlikdir”.

Azərbaycan Aşıq sənətinin vacib tərkib hissəsi olan Göyçə və Dərələyəz aşıq mühitinin görkəmli nümayəndələrinin haqqında burada qeyd etmək yerinə düşərdi.

# ƏMİRLİ (İMİRLİ) KƏND FOLKLOR KLUBU

Bərdə rayon Mədəniyyət Mərkəzinin filialı Əmirli kənd folklor klubu 1958-ci ildə istismara verilib. 1968-ci ildən mədəniyyət obyekti kimi istifadəyə verilib. Rayon mərkəzi ilə 25 km məsafədə yerləşir. Qarabağ Regional Mədəniyyət İdarəsinin balansındadır. Ümumi sahəsi 8 sotdur. Bir otaqdan ibarətdir. Zalın tutumu 50 nəfərlikdir. Binanın qalan otaqlarında məcburi köçkünlər məskunlaşıb.

Ən yaxın mədəniyyət müəssisəsi Əmirli kənd kitabxanası 100 m-lik məsafədə yerləşir.

Müəssisədə yaşlı üzvlərdən ibarət "El Yallısı" kollektivi var. 1980 ci ildən fəaliyyət göstərir. Üzvlərdən çoxu dünyasını dəyişib. Yeni üzvlərlə əvəz olunub.Kollektivin 10 nəfər üzvü var. Ən yaşlı üzvün Salman Məmmədovun 70 yaşı var. Folklor kollektivi rayon tədbirlərində böyük həvəslə çıxış edirlər. Həmçinin Əmirli kənd folklor klubunun tədbirlərində də fəal iştirak edirlər.

***Salman Calalov 1966-1972***
***Həyat Calalova 1972-1977***
***Sitarə Calalova 1977-2007***
***Şamama Calalova 2007***

Sitarə Calalovanın Folklor klubuna rəhbərlik etdiyi dönəmlərdə yaradılmış "Yallı qrupu" müstəqilliyimizin ilk illərində Bərdə rayonunda keçirilən Bahar bayramında və digər mədəniyyət tədbirlərində uğurla iştirak etmişdir.



**Yallı qrupu**



**İmirli kəndi toy mərasimi. 5 yanvar 1975-ci il**

# YETMİŞ YAŞLI ƏMİRLİ (İMİRLİ) KƏND ORTA MƏKTƏBİ

## İMİRLİ KƏND ORTA MƏKTƏBİNİN YARADILMASI

Şərur-Dərələyəz mahalının Çivə, Sallı, Qozulca, Vedibasar mahalının Hortun, Göyçə mahalının Mollalı kəndindən, Bərdə rayonunun İmirli kəndinə deportasiya edilmiş şəxslərlə bağlı araşdırmalar zamanı maraqlı və əlamətdar fakt ortaya çıxdı. Bərdə rayonunun İmirli (Əmirli) kənd orta məktəbinin 1953-cü ildə təşkil olunması ilə bağlı maraqlı fakta rast gəldim. Məktəbin yaradıcısı İsa Vəkilovun 2001-ci ildə qeydə aldığı şəxsi xatirələrində İmirli kəndinə köçmələri, ilk ibtidai orta məktəbin təşkil olunması ilə bağlı dəqiq tarix qeyd edilib. İsa Vəkilov İmirli kəndindəki dördillik ilk ibtidai məktəbi 1953-cü ildə təşkil etdiyini, məktəbin kəndin məscidində yerləşdiyini bildirmişdir. Beləliklə, bu il Əmirli (İmirli) kənd orta məktəbinin 70 yaşı tamam olur.

## ƏMİRLİ KƏND ORTA MƏKTƏBİNİN DİREKTORU İŞLƏMİŞ ŞƏXSLƏRİN SİYAHISI

1)Vəkilov İsa Əhməd oğlu 1953
2) Məmmədov Əhməd Salman oğlu 1962-1972- ci il
3) Fətəliyev Şahbaz Məhyəddin oğlu 1972-1975- ci il
3) Fətəliyev Səməndər Həsən oğlu 1975/1981-ci il
4) Abışov Məhəmməd Həsən oğlu 1981/2019-cu il.
5) Mikayılov Rəvan Elburus oğlu 2019/ 2022- ci il.
6) Qəmbərov Aslan Qəmbər oğlu 2022-ci ildən hazırkı vaxtadək.

# İMİRLİ KƏND ORTA MƏKTƏBİNİN YARADICISI

## Vəkilov İsa Əhməd bəy oğlu



1925-ci ildə Şərur-Dərələyəz qəzasının Çivə kəndində anadan olub. Atası Əhməd bəy Vəkilov Qazax-İrəvan-Şərur-Dərələyəz qəzasında məskunlaşmış Şərur-Dərələyəz qəzasının naibi olmuş Hüseynalı Sultan Vəkilovun oğlu Həsənalı Sultanın ailəsindəndir. Həsənalı Sultan Vəkilov Şərur-Dərələyəz qəzasının ən böyük mülkədarı olub (ifadə mərhum araşdırıcı Ənvər Cingizoğluna məxsusdur, "Soy" jurnalı, № 5(49) 2011-ci il Bakı). Anası Danzikli Həsən bəy Vəkilovun qızı Şəhrəbanu xanımdır. Əhməd bəy Vəkilovun Sidiqə, Leyla, Səltənət adlı qızları, İsa, Musa, Mustafa, Məhəmməd, Əhəd adlı oğlanları olub. İsa Vəkilov ilk ibtidai orta təhsilini Çivə kəndində alıb. Bir neçə il Çivə kəndi də daxil olmaqla Dərələyəzin bir neçə kəndində müəllimlik edib. Sonra Yerevan Pedaqoji Texnikumunu bitirib. İ.Satlinin qərarı ilə 1951-ci ilin oktyabr ayında ailəsi ilə birlikdə Bərdə rayonunun İmirli kəndinə deportasiya ediliblər. 1953-cü ildə İmirli kəndində ilk orta məktəbini (kənddə ilk mağazanı da o təşkil edib) yaradıb. Onu da qeyd etmək yerinə düşər ki, İsa Vəkilovun həyat yoldaşı əslən İrəvan şəhərindən olan Əminə Misgərova İmirli kəndində 1953-cü ildə Uşaq bağçası təşkil edərək ora rəhbərlik etmişdir. İmirlidə təşkil olunan ilk ibtidai orta məktəbin şagirdələri Nəsib Calalov, Şölə Məmmədli, Yusif Calalov, Xanlar Quliyev, Roza Vəkilova, Pərzad Novruzova, Hüseyn Abışov, Durdanə Calalova, Münəvvər xanım və.b. olmuşdur. Bir neçə il İsa Vəkilov orta məktəbdə həm direktor həm də müəllim kimi çalışıb. Ailə

vəziyyəti ilə bağlı Dərərləyəz mahalının Çivə kəndinə geri qayıdan İsa müəllim sonradan müəllimlik fəaliyyətini dayandırmalı olub. 1960-cı ilə kimi İmirlidə yaşayan İsa Vəkilov həmin ili Bərdə rayonuna köçüb. Bərdə rayonunda "Qarabağ tikinti" adlanan yerdə uzun illər mağaza müdiri işləyib. Rayonda yaşadığı müddətdə el-obanın xeyiri-şərində yaxından iştirak edib. Kəndçilərinin problemləri ilə yaxından maraqlanıb və onlara ağsaqqallıq edib. 1976-cı ildə İsa Vəkilov ailəsi ilə birlikdə Bakı şəhərinə köçüb. Bakıda müxtəlif vəzifələrdə çalışan İsa Vəkilov müəllimliyi ən şərəfli peşə sayıb. İsa Vəkilov 16 fevral 2012-cı ildə Bakı şəhərində dünyasını dəyişib.

İsa Vəkilov: "Ömrümün 16 ilini müəllimlikdə, 15 ilini ticarətdə, 20 ilini isə başqa işlərdə işləmişəm. Ancaq ömrüm boyu müəllimliyimlə fəxr etmişəm. Həyatımı düşüncəmi ağlımı, ləyaqətimi hörmətimi müəllim iftixarı ilə qurmuşam. Ona görə də harda işlədimsə "İsa müəllim" adı ilə tanınmışam. Müəllim adı çox şərəflidi. Bu adı qoruyub saxlamaq insanın ləyaqətini ucaldır. Çox sevinirəm ki, dərs dediyim tələbələrim həmişə mənim hörmətimi saxlayıblar".

## Məmmədov Əhməd Salman oğlu



1 fevral 1929-cu ildə Ağdam rayonunun Quzanlı kəndində anadan olub. 1951-ci ildən pedaqoji fəaliyyətə başlayıb.

Əmirli (İmirli) kənd orta məktəbi 1962-ci ilədək 8 illik orta məktəb kimi fəaliyyət göstərib. 1962-ci ildən isə **Əhməd Məmmədov** İmirli (Əmirli) kənd orta məktəbinə direktor təyin edilib və məktəbin tam orta məktəbə çevrilməsinə nail olub. Bundan sonra 1972-ci ilə kimi həmin orta məktəbin direktoru kimi fəaliyyət göstərib.

Əhməd Məmmədov İmirli kəndinə direktor təyin edilənə kimi on ildən artıq bir vaxt idi ki, pedaqoji fəaliyyətlə məşğul olurdu. Onun Bərdə rayonunun Qaradəmirçi (1951-1952), Əyricə (1952-1956), Mollalı (1956-1957), Qarağacı (1957-1958), Boyəhmədli (1958-1959), Şahvəllər (1959-1962) kəndlərində müəllim və direktor kimi böyük pedaqoji fəaliyyəti olmuşdur. O, eyni zamanda 1952-1957-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitunda Azərbaycan dili və ədəbiyyat fakültəsində ali təhsil almışdır. Əhməd Məmmədovun müəllimlik fəaliyyətini araşdırdıqda onun gözəl pedeqoq olmaqla bərabər həm də böyük təşkilatçı olması üzə çıxır. Belə ki, adıçəkilən məktəblərdə müəlimlik fəaliyyəti ilə yanaşı dərs hissə müdiri, direktor vəzifələrini yerinə yetirməsi onun yüksək təşkilatçılıq bacarığından xəbər verir. “Ot kökü üstə bitər” deyib atalar Əhməd Məmmədovun mənsub olduğu nəslin şəcərə məlumatlarını araşdırdıqda onun istedadının dərin köklərə bağlı olduğunun şahidi oluruq. Ağdam rayonunun Quzanlı kəndindən olan Əhməd Salman oğlu Məmmədov kəndinın ən köklü ailələrindəndir. Onların nəslinə el arasında Sud Həllac deyirmişlər. Ulu babası Allahverdi Həllac Qarabağ xanın

qohumudur. Allahverdi Həllac Qazı olduğuna görə sonradan Sud Həllac adı ilə çağrılıb. Babası Məhəmmədəlı Həllac (sovet dövründə Məmmədalı yazılıb) və atası Salman Həllac(ov) əkinçilik, maldarlıq və bağçılıqla məşğul olub. Atası Salman Həllac və əmisi Süleyman Həllac 1918-ci ildə Qafqaz İslam Ordusunun sıralarında döyüşüb. Süleyman Həllac Qaraməryəm yaxınlığında ağır yaralanıb və 3 gün sonra aldığı yaradan öz kəndində şəhid olub. Salman Həllac isə Bakıda, Lənkəranda, Qarabağda erməni-daşnak hərbi birliklərinə qarşı 1920-ci ilə kimi döyüşüb. Əhməd müəllimin anası Gülzar Həllacova da Qarabağın tanınmış ziyalı nəslindəndir. Gülzar xanımın anası Ümülbanu Üzeyir Hacıbəyovla xala uşağıdır. Qarabağın məhşur təbiblərindən olan Mirzə Saleh Axundov, axund Molla Mehdi kimi ziyalılarla bir nəsildəndir.

## Fətəliyev Səməndər Həsən oğlu



1927-ci ildə Göyçə mahalının Mollalı (Alçalı) kəndində doğlub. İbtidai təhsilini Mollalıda alıb. Orta məktəbi Mollaıda bitirib. Yerevevan Pedaqoji texnikumunda müəllimlik oxuyub. Bərdə rayonunun Həsnqaya kəndində orta məktəbdə dərs deyib. Sonra Gəncə Pedaqoji İnstutunun biologiya fakültəsini bitirib. Uzun illər Bərdə rayon Sovetinin deputatı olub. Qabaqcıl maarif işçisi döş nişanı ilə təltif edilib. İmirli kənd orta məktəbində orta məktəbdə müəllim, direktor müavini, 1975-1981-ci illərdə direktor işləyib. Bundan sonra isə Səməndər Fətəliyev Əmirli kənd orta məktəbində biologiya müəllimi kimi fəaliyyət göstərib. 11 mart 2005-ci il tarixində dünyasını dəyişib.

Səməndər Fətəliyev barəsində danışarkən onun folklor daşıyıcısı olması, şeriyyata, ədəbiyyata bağlı bir insan olmasını qeyd etmək yerinə düşərdi. Şair təbiətli Səməndər Fətəliyev özü də şeir yazmaqla bərabər saatlarla dayanmadan bədahətən şeirlər deməsinin canlı şahidlərindən biri də bu sətirlərin müəllifidir. Aşıq Alqayıtla Səməndər Fətəliyev İmirlidə toyda deyişmələrinin şahidi olmuşam. Deyişmənin sonunda Aşıq Alqayıt dedi: “Ta mənim deyiləsi sözüm yoxdu, Səməndər müəllim”.

Çox təəssüf ki, Səməndər müəllimin poyeziya nümunələri olan dəftəri və Mollalı kəndi ilə bağlı qeydlərini tapmaq mümkün olmadı.

**Abışov Məhəmməd Həsən oğlu**



15 noyabr 1949-cu ildə Ermənistan SSR Yexednazor (Şərur-Dərələyəz mahalı) rayonu, Çivə kəndində anadan olub. 1951-ci ildə Ermənistan SSR-dən deportasiya edilərək Bərdə rayonunun İmirli kəndinə gəliblər. 1956-1966-cı illərdə Əmirli kənd orta məktibində orta təhsilini başa vurub. 1966-cı ildə Şuşa Kənd Təssərüfatı Texnukumuna daxil olub. 1968-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. 1971-ci ildə Bakı Bədən Tərbiyəsi Texnukumuna daxil olub, 1973-cü ildə oranı bitirib bədən tərbiyəsi müəllimi kimi fəaliyyətə başlayıb. 1975-1980-ci illərdə Xankəndi (Stepanakert) Pedaqoji İnstitutunun riyaziyyat fakültəsini bititirb. 1980-ci ildən Əmirli kənd orta məktəbində riyaziyyat müəllimi kimi fəaliyyətə başlayıb. 1981-ci ildən Əmirli kənd orta məktəbinin direktoru təyin olunub. 2019-cu ilədək Əmirli kənd orta məktəbinin direktoru kimi fəaliyyət göstərib. Hazırda təqaüddədir.

**Fətəliyev Şahbaz Məhyəddin oğlu**

23 sentyabr 1946-cı ildə Ermənistan SSR, Martuni rayonu, (Göyçə mahalı) Mollalı (Alçalı) kəndində anadan olub. 1948-ci ildə Ermənistan SSR-dən deportasiya edilərək Salyan rayonunda məskunlaşıblar. Bir ildən sonra Ağdərə (Mardaket) rayonunun Çərəkdar kəndinə köçüblər. 1961-ci ildə səkkizillik orta məktəbi bitirib. 1963-1968-ci illərdə Lenin adına Azərbaycan Pedaqoji İnstitutnun fizika fakültəsində oxuyub. Bundan sonra Bərdə rayonunun Şahvəllər kəndində pedaqoji fəaliyyətə başlayıb. 1969-cu ildə həqiqi-hərbi xidmətdə olub. 1970-ci ildən Əmirli kənd orta məktəbində dərs deyib. 1972-1975-ci illərdə Əmirli kənd orta məktəbinin direktoru olub. 1975-ci ildən isə həmin məktəbdə fizika fənnini tədris etməyə başlayıb. 1981-1996-cı illərdə fizika fənnini tədris etməklə bərabər tərbiyə işləri üzrə direktor müvaini kimi çalışıb. Hazırda təqaüddədir.

**Mikayılov Rəvan Elburus oğlu**

1 yanvar 1989-cu ildə Bərdə rayonunun Kətəlparaq kəndində anadan olub. 1995-2006-cı illərdə Kətəlparaq kənd orta məktəbində təhsil alıb. 2010-2015-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsini bitirib. 2015-ci ildə Mehdixanlı kənd orta məktəbində tarix müəllimi kimi pedaqoji fəaliyyətə başlayıb. 2017-ci ildən Əmirli kənd orta məktəbində tarix müəllimi kimi fəaliyyətə başlayıb. 2019-2022-ci illərdə Əmirli kənd orta məktəbində direktor vəzifəsində işləyib.

**Qəmbərov Aslan Qəmbər oğlu**

09 mart 1983-cü il tarixində İmirli (Əmirli) kəndində anadan olub. 1990-2000-ci illərdə Əmirli kənd orta məktəbində təhsil alıb. 2000-2004-cü illərdə Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir filialında tarix ixtisası üzrə ali təhsil alıb. 2004-cü

ildən Əmirli kənd orta məktəbində pedaqoji fəaliyyətə başlayıb. 2005-2006-cı illərdə Azərbaycan Milli Ordusu sıralarında həqiqi-hərbi xidmətdə olub. 2006-cı ildən Əmirli kənd orta məktəbində yenidən pedaqoji fəaliyyətni bərpa edib. 2012-ci il tarixinədək Əmirli kənd orta məktəbində tarix fənnini tədris edib. 2012-ci il tarixindən tarix müəllimi kimi fəaliyyət göstərməklə bərabər məktəb direktorunun müavini olub. 2022-ci ildən isə Əmirli kənd tam orta məktəbin direktoru vəzifəsində işləyir. 2019-cu ildə Azərbaycan Respublikası Təhsil nazirinin əmri ilə Qabaqcıl təhsil işçisi döş nişanı ilə təltif edilmişdir.

## ƏMİRLİ KƏND ORTA MƏKTƏBİNİN MƏZUNU OLAN ŞƏHİDLƏR

Məktəbimizin fəaliyyətinə toxunarkən Azərbaycan torpaqları uğrunda şəhid olmuş məzunlarımızdan başlamaq yerinə düşərdi. Qarabağ savaşında onlarla İmirli kənd orta məktəbinin məzunu olmuş şəxslər iştirak edib. İmirli kənd orta məktəbinin məzunu olmuş 4 nəfər isə Azərbaycan torpaqlarının bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olub. Bunlar aşağıdakı şəxslərdir.

**Şəhid Abbasov Rəhman İsmi oğlu**



İmirli kəndinin ilk şəhidi Abbasov Rəhman İsmi oğlu. Əslən Şərur-Dərələyəz mahalının Çivə kəndindən olan 1951-ci ildə Bərdə rayonunun İmirli kəndinə deportasiya edilmiş ailədə 13 may 1973-cü ildə doğulub. 1980-1990-cı illərdə İmirli kənd orta məktəbində oxuyub. 1991-1992-ci illərdə Sovet Ordusu sıralarında Moskva ətrafında Adinsovskaya rayonunda hərbi xidmət zamanı ermənilərlə münaqişədə ağır bədən xəsarətləri alıb. Həqiqi hərbi xidməti başa vurduqdan sonra yenidən könüllü olaraq Qarabağ uğrunda gedən savaşa qatılıb. 19 iyul 1992-ci il tarixində Kasapet kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Ruhu şad olsun!

## Şəhid Məmmədov Əsgər İsmayıl oğlu



8 yanvar 1972-ci ildə Bərdə rayonunun İmirli (Əmirli) kəndində doğulub. Şəhid Əsgər Məmmədov əslən Şərur-Dərələyəz mahalının Çivə kəndindəndir. Ailəsi 1951-ci ildə İ.Stalinin qərarı ilə Qərbi Azərbaycandan Bərdə rayonunun İmirli kəndinə deportasiya edilib. O, 1979-1989-cu illərdə kənd orta məktəbini bitirib. 1990-cı ildə həqiqi hərbi xidmətə gedib. Moskvada Sovet Ordusu sıralarında həqiqi hərbi xidmət keçib. Əsgərin döyüş yolu Ağdam bölgəsindən başlayıb. O, Xocalı polisinin tərkibində Yusifcanlı, Mərzili Cinlilər, Güllücə kəndlərinin müdafiəsində iştirak edib. Ağdam Atçılıq Zavodu yaxınlığında bir neçə gün davam edən döyüşlərdə fəallığı ilə fərqlənib. 26 aprel 1994-cü ildə şəhid olub. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasına təzəcə qəbul olmuşdu. Bütün arzuları kimi təhsilidə yarımçıq qaldı. Məkanı cənnət olsun!

## Şəhid Calalov İlqar Salman oğlu



28 dekabr 1973-cü ildə Bərdə rayonunun İmirli (Əmirli) kəndində anadan olub. Şəhid İlqar Calalov əslən Şərur-Dərələyəz mahalının Çivə kəndindəndir. Onun ailəsi 1951-ci ildə İ.Stalinin qərarı ilə Qərbi Azərbaycandan Bərdə rayonunun İmirli kəndinə deportasiya edilib.

O, 1980-ci il tarixində Bərdə rayon İmirli kənd orta məktəbinin birinci sinifinə gedib. 1987-ci ildə ailəsi Bərdə rayonuna köçdüyü üçün təhsilini Bərdə rayon 1 nömrəli orta məktəbdə davam etdirib. 1991-ci ildə Bərdə rayon 1 saylı orta məktəbi bitirib. 1991-1996-cı illərdə Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsini riyaziyyat ixtisası üzrə oxuyub. 1997-ci ilin yanvarından leytenant rütbəsində hərbi xidmətə başlayan İlqar Calalaov Füzulu, Beyləqan istiqamətində ön cəbhədə tağım komandiri kimi xidmət göstərmişdir. 1998-ci ilin yanvar ayında baş leytenant hərbi rütbəsi alan İlqar Calalov 16 iyun 1998-ci ildə xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Məkanı cənnət olsun!

## 44 ZƏFƏR MÜHARİBƏSİNİN ŞƏHİDİ MURAD MUSAYEV



Musayev Murad Polad oğlu 1 oktyabr 2001-ci ildə Bərdə rayonunun İmirli kəndində anadan olub. Şəhidimizin ulu babaları Şərur-Dərləyəz qəzasında Andranikin qoşunları ilə qəhrəmancasına vuruşan Çivə taborunun iştirakçıları olub. Babası Məhəmməd Tənfəyev İmirli kəndinin ağsaqqallarından sayılır. Atası Polad Tənfəyevin və anası Kəlbəcər rayonundan köçkün düşmüş ziyalı Mədət Seyidovun qızı Arzu xanımın onun vətənpərvər ruhda böyüməsində rolu danılmazdı.

M.Musayev İmirli kənd orta məktəbinin bitirb. O, 2019-cu ilin oktyabr ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdı. Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, "N" saylı hərbi hissələrin birində müddətli həqiqi hərbi xidmət etmişdi.

Azərbaycan Ordusunun əsgəri olan Murad Musayev 27 sentyabr 2020-ci il tarixində Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan II Qarabağ müharibəsində iştirak etmişdir. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Murad Musayev 29 sentyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Şəhid olduğu gün nəşi doğulduğu Bərdə rayonunun İmirli kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Murad Musayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalı ilə

təltif edilmişdir. Bu, şəhid Murad Musayevin rəsmi bioqrafiyasıdır.

Şəhidin bacısı Nigarın qardaşı haqqında dedikləri niskilli həyat hekayəsinin ən sentimental çalarları hesab etmək olar.

Nigar Musayeva: "Şəhid olmaq qardaşımın ən böyük arzusu idi. Uşaq vaxtı həmişə deyirdi ki, mən şəhid olacam bu mənim arzumdur. Onun idealı Mübariz İbrahimov idi. Deyirdi Mübarizin qisasını alacam. Həmişə səninlə bir yerdə olacayıq desə də amma şəhidliyi üstün tutdu. Düzdü çətindi mənə onun nəfəsini, qoxusunu heç kim əvəz edə bilməz. Amma mən dərk edirəm ki, şəhidlər ölməzdi o cənnətdədir. Tədbirlərdə həmişə bayrağı ona verirdilər, üç rəngli bayrağı dalğalandırmaq qaradşıma çox yaraşırdı. Son danışığımızda mənə Nigar özündən muğayat ol, ola bilər gəlmərəm deməsini heç vaxt unutmaram. O, şəhid olmağı o qədər istəyirdi ki, mən onun şəhid olacağını hiss etmişdim".

Şəhid Murad Musayevin əsgər kitabçası onun nə qədər vətənpərvər bir şəxsiyyət olmasının ən gözəl nümunəsidir. Əsgər kitabçasını həyacansız oxumaq mükün deyil.

Əsgər kitabçasında ən təsirli sözlərdən biri şəhid Murad Musayev "Ata Ana sevdiklərinizin qədrini bilin" sözləridir.

Əsgər kitabçasında yazılan bu şeir əsgərlərimizə sevginin ifadəsidir.

**Nə qar bitər nə boran**
**Nə döşək var nə yorğan**
**Əldə silah posta duran**
**Əsgərlərin sağlığına**

Əsgər kitabçasından Murad Musayev yazır: "Sabah əynimə nə geyinəcəm deyə heç ağlınıza kəfən gəldimi?, Onlar rahatdır onlar dünyadan uzaqdırlar"

Şəhid M.Musayevin sevgilisinə xitabən əsgər kitabçasına yazdığı bu bayatı da çox təsirlidir.

**Apardı Tatar məni**
**Qul edib satar məni**
**Yarım vəfalı olsa**
**Axtarıb tapar məni**

Şəhid Murad Musayev əsgər kitabçanın bir səhifəsində bir mərmi birdə siqaret şəkili çəkib və altına bu sözləri yazıb : İkisinin də məqsədi eynidir. Sadəcə biri tez alışır biri isə gec.

Ürək döyüntülərinin işarəsi altında yazır: "B**u bün son gün kimi yaşadıq bəlkə də sabahı görmədik".**

Ruhun şad olsun əziz və qəhrəman Şəhidimiz!

**Bərdə rayon İmirli kəndi üzrə şəhidlər, Qarabağ və Çernobıl əlilləri, I, II Qarabağ və Əfqanıstan müharibəsi veteranları haqqında**

**MƏLUMAT**

Şəhidlər:

1. Abbasov Rəhman İsmi oğlu
2. Məmmədov Əsgər İsmayıl oğlu
3. Calalov İlqar Salman oğlu
4. Nurəliyeva Dilarə Oruc qızı (Xocalı şəhidi)
5.Musayev Murad Polad oğlu

**Qarabağ əlilləri:**

1. Cəfərov Elmar Calal oğlu
2. Nurəliyev Sədi İmran oğlu
3. Musayev Saday Elbəyi oğlu
4. Musayev Polad Məhəmməd oğlu
5. Seydəliyev İsmayıl Musa oğlu
6. Talıbov Möhübbət Qurban oğlu
7. Pirəliyev Rafiq Həsən oğlu

**I Qarabağ müharibəsi iştirakçıları:**

1. Abbasov Əli Qasım oğlu
2. Abbasov Elşən Rəfi oğlu
3. Abbasov Vaqif Fərəməz oğlu
4. Abbasov Sərdar Yaqub oğlu
5. Abbasov Oktay Abbas oğlu
6. Abbaszadə Əhəd Musa oğlu
7. Abdullayev Mərdan İdris oğlu
8. Abışov Sənan Əli oğlu
9. Alıyev Həsən Gəray oğlu
10. Alıquliyev Rafiq Həsən oğlu
11. Calallı Əziz İbrahim oğlu
12. Cəfərov Elman Calal oğlu
13. Cəfərov Əkbər Bilal oğlu

14. Cəfərov Sabir Bilal oğlu
15. Eyvazov Şöhrət Qulam oğlu
16. Ələkbərov Ələkbər Vəli oğlu
17. Fətəliyev Rəhman Cəmil oğlu
18. Fərzəliyev Bəxtiyar Ziyad oğlu
19. Fərzəliyev Vüqar Ziyad oğlu
20. Həsənalıyev İbrahim Hüseynalı oğlu
21. Həsənalıyev Nizami Hüseynalı oğlu
22. Həsənov Fərman Tapdıq oğlu
23. Həsənov Telman Tapdıq oğlu
24. Həziyev Möhbalı İman oğlu
25. Hüseynov Zaməddin Əli oğlu
26. Hüseynov Musa İdoş oğlu
27. Xəlilov Həsən Hüseyn oğlu
28. Kazımov Rəşid Nadir oğlu
29. Məmmədov Eldəniz İslam oğlu
30. Məmmədov Nadir Fətulla oğlu
31. Məmmədov Fazil Mirzə oğlu
32. Novruzov Əyyub Ələddin oğlu
33. Novruzov Ədalət Qədir oğlu
34. Novruzov Vüqar Ələddin oğlu
35. Novruzova Familə Salman qızı
36. Nurəliyev Sabir İmran oğlu
37. Pirəliyev İsmayıl Fazil oğlu
38. Rüstəmov Nazim Əziz oğlu
39. Seyidov Mahmud Həsən oğlu
40. Seydalıyev Teymur Hüseyn oğlu
41. Tahirov Mirağa Tahir oğlu
42. Tağıyev İbrahim Ramazan oğlu
43. Tənifəyev Azər Yunis oğlu
44. Tənifəyev İlham Mikayıl oğlu
45. Tənifəyev Vahid Mikayıl oğlu
46. Vəkilov Yaşar Musa oğlu
47. Vəkilov Əhməd Mustafa oğlu

48. Vəkilov Mobil Mustafa oğlu
49. Məmmədov Məhəmməd İsmayıl oğlu

**Əfqanıstan müharibəsi iştirakçıları:**
1. Abbasov Rəhim İsmi oğlu
2. Pirəliyev Fazil Fazil oğlu

**Çernobıl əlilləri:**
1. Qələndərov Coşqun İsbəndiyar oğlu
2. Nağıyev Vüqar Musa oğlu

**2-ci Qarabağ müharibəsi veteranları**
1. Cavadov Rüstəm Gürşad oğlu
2. Məmmədov Nicad İsmayıl oğlu
3. Alıquluyev Ceyhun Tofiq oğlu
4. Qələndərov Hüseyn Coşqun oğlu
5. Novruzov Sərxan Adil oğlu
6. Hümbətov Nahid Asif oğlu
7. Əhmədov Orxan Həsən oğlu
8. Pirəliyev Həbib İslam oğlu
9. Əhmədov Allahverdi Rəfayıl oğlu
10. Məmmədov Ülfət Aydın oğlu
11. Hüseynov Rauf Maarif oğlu
12. Calalov Toğrul Sədi oğlu
13. Nəcəfquluyev Aslan Mehti oğlu
14. Həsənov Əzim Rövşən oğlu
15. Məmmədov Tural Rasim oğlu
16. Eyvazov Fərahim Qulam oğlu
17. Rəfili Rəfi Rəşid oğlu
18. Məmmədov Nəriman Natiq oğlu
19. Həsənov Fəxri Fərman oğlu
20. Abbasov Rahil Rafiq oğlu
21. Həsənov Müslüm Zaur oğlu

22. Seyidəliyev Əlixan Mehti oğlu
23. Abbasov Tural Cəbrayil oğlu
24. Abbasov Elvin Ərəstun oğlu
25. Nağıyev Əli Famil oğlu
26. Məmmədov Nurlan Natiq oğlu
27. Abışov Şamxal Ədalət oğlu
28. Talıbov Məzahir Tahir oğlu
29. Məmmədov Ruslan Rizvan oğlu
30. Şabanov Bəylər Etibar oğlu

# ƏMİRLİ (İMİRLİ) KƏND ORTA MƏKTƏBİNİN YETİŞDİRDİYİ ALİMLƏR

Əmirli kənd orta məktəbinin Azərbaycan elminə bəxş etdiyi alimlərimizi yaxından tanıyaq.

## Əliquliyev Rasim Məhəmməd oğlu

Akademik texnika elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü. AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru.



## Əliquliyev Ramiz Məhəmməd oğlu



Professor, texnika elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü.

Elm və təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunda son 20 il ərzində süni intellekt, təbii dilin emalı, kiberfiziki sistemlər, kibertəhlükəsizlik, dərin təlim, böyük verilənlərin analitikası, intellektual e-dövlətin formalaşdırılması, əşyaların interneti, bulud texnologiyaları və s. istiqamətlər üzrə aparılan tədqiqatlar dünyanın aparıcı elm mərkəzləri tərəfindən yüksək qiymətləndirilir. Belə ki, 2020-ci ildən başlayaraq artıq dördüncü ildir İnformasiya Texnologiyaları İnstitutunun baş

direktoru, AMEA-nın vitse-prezidenti, akademik Rasim Əliquliyev və şöbə müdiri AMEA-nın müxbir üzvü Ramiz Alıquliyev ABŞ-ın Stenford Universitetinin hazırladığı dünyanın süni intellekt üzrə ən nüfuzlu alimlərinin reytinq siyahısına seçillər.

**Süleymanovun Qəzənfər Salman oğlu**

Professor, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti «Maşınqayırma sənayesinin iqtisadiyyatı və menecment» kafedrasının müdiridir.

Süleymanov Qəzənfər Salman oğlu 1961-ci il yanvar ayının 6-da Bərdə rayonunun İmirli kəndində kolxozçu ailəsində anadan olmuşdur. Q.Süleymanov 1978-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutuna daxil olmuş və 1983-cü ildə щəmin institutda təhsilini fərqlənmə diplomu ilə başa vurmuşdur. 1989-cu ildə o, namizədlik, 2003-cü ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. Bir alim kimi o, çoxlu sayda elmi məqalələrin, belə ki, onlarla elmi əsərin, beşdən çox monoqrafiyanın, 1 dərsliyin, 6 dərs vəsaitinin, onlarla metodik göstərişin, metodik vəsaitin və fənn proqramların müəllifidir. Onun elmi rəhbərliyi ilə ona yaxın alim yetişmişdir. O, fakültədə həm magistr, həm də bakalavr pilləsində təhsil alan tələbələrə «İnvestisiya menecmenti», «İnformasiya iqtisadiyyatı», «Vergi sistemi», «İnformasiya uçotu sistemləri», «Riyazi iqtisadiyyat» və s. fənləri üzrə mühazirələr aparır. Q.Süleymanov ADNA-nın "İqtisadiyyat, beynəlxalq iqtisadi münasibətlər və menecment" fakültəsinin Elmi Şurasının üzvüdür. Eyni zamanda, O ADNA-da fəaliyyət göstərən birdəfəlik Müdafiə Şurasının üzvüdür.

**Məmmədov Vurğun Rəhim oğlu**

Dosent, tarix üzrə fəlsəfə doktoru. Elmi işi. (XIX əsrin sonu XX əsrin əvvələrində Azərbaycanın yazıçı və maarifçilərinin əsərlərində xalq məişətinin əksi (Ü.Hacıbəyov və Ə.Haqverdiyev)).

## Calalova Leyla Qadir qızı

Tarix üzrə fəlsəfə doktoru. Elmi işi. (XVIII əsrin son rübündə Azərbaycan-Rusiya ticarət əlaqələri). Leyla Calalova hazırda Qərbi Azərbaycanla bağlı tədqiqatlar aparır.

### Eyvazova Şirinxanım Qulam qızı

Fəlsəfə üzrə fəlsəfə doktoru. Elmi işi. (XX əsr Azərbaycan ədəbi-bədii və fəlsəfi fikrində inam və idrakın dialektikası)

Şübhəsiz 70 yaşlı bir təhsil ocağının yetişdirdiyi faydalı insanlar içərisində Azərbaycanda və ölkəmizdən kənarda tanınan şəxslər az deyil.

# QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ

Qərbi Azərbaycana qaydışın təmin edilməsi konseptual olaraq iki amili özündə ehtiva edir.

1) ***hüquqi***
2) ***mənəvi***

Hüquqi amillər özlüyündə iki kateqoriyaya ayrılır: milli və beynəlxaql qanunvericilik bazası.

Milli qanunvericilik bazasının formalaşdırılması böyük dövlət adamı Heydər Əliyevin hakimiyyəti dönəmindən əsası qoyulmuşdur. Belə ki, Azərbaycan Respublikasının Prezidenti 18 dekabr 1997-ci il tarixdə ( № 656) 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında, 28 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanlarla Qərbi Azərbaycana qaydışın təmin olunması istiqamətində fəaliyyət üçün hüquqi təminatlar yaradıldı.

Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin 07 iyul 2021-ci tarixli Fərmanı ilə Şərqi Zəngəzur iqtisadi rayonunun (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradılması da bu sahədə atılmış ən vacib addımlardan biridir. Beynəlxalq hüquqi çərçivə və zəmanətləri özündə əks etdirən Qərbi Azərbaycana Qayıdış Konsepsiyası uzun müddətli starteji hədəflərə çatmaq üçün yol xəritəsidir.

Qərbi Azərbaycandan zorakılıqla çıxarılmış şəxslərin öz yurdlarına qayıtmasının beynəlxalq hüquqi təminatlarına gəlincə isə şübhəsiz ki, 10 dekabr 1948-ci il tarixli BMT-nin "İnsan hüquqları haqqında Ümumi Bəyannaməsi", 28 iyul 1951-ci il "Qaçqınların statusu haqqında Cenevrə Konvensiyası", "1967-ci il Konvensiyaya əlavə Protokol", "İnsan hüquqları haqqında Beynəlxalq Bill", BMT Baş Məclisinin 16 dekabr 1966-cı il tarixli 2200 A (XXI) nömrəli Qətnaməsi ilə qəbul edilmiş "İqtısadı, sosıal və mədənı hüquqlar haqqında" Beynəlxalq Pakt, "Genosid

cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" Konvensiyaya, "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı" Konvensiya, "Uşaq hüquqları haqqında Konvensiya" (BMT-nin Baş Məclisinin 44-cü sessiyasında 20 noyabr 1989-cu ildə qəbul edilib) "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq" Konvensiya ( 21 dekabr 1965-ci ildə Baş Məclis tərəfindən qəbul edilib) "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt, (Pakt Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 16 dekabr, 1966-cı ildə qəbul edilmiş və 23 mart, 1976-cı ildə qüvvəyə minmişdir), "Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi Haqqında" Konvensiya (*BMT* Baş Assambleyası tərəfindən 1979-cu ildə qəbul olunmuş, 3 sentyabr 1981-ci ildə qüvvəyə minmişdir) və s. beynəlxalq sənədlər Qərbi Azərbaycandan deportasiya edilmiş vətəndaşlarımıza verilmiş hüquq və azadlıqlar kobud şəkildə pozulması və eyni zamanda onların öz yurdlarına qayıtması üçün hüquqi təminatlar yaradır.

Yurda qaydışın mənəvi amillərinə toxunarkən birinci növbədə Qərbi Azərbaycandan olan soyadaşlarımızın öz doğma torpaqlarına qayıtmasına olan inamın olmasını önə çəkmək lazımdır. 44 günlük Zəfər müharibəsindən sonra bu inam qələbəmizdən sarsılmaz bir güc almışdır.

Şübhəsiz ki, bu inamın müstəsna konponentlərindən biri də məhz dövlət böyüklərinin, xalqın sevdiyi ziyalıların, böyük şəxsiyyətlərin bu inamı ifadə edən coşğulu fikirləridir.

**Ümummilli Lider Heydər Əliyev:** "Bilirsiniz ki, keçmiş zamanlarda Azərbaycan təkcə indiki hüdudlarda deyildi. İndi Ermənistanın əlində olan Göyçə mahalı da, yaxud sizin İqdırın qarşısındakı Vedibasar, Zəngibasar, İrəvan xanlığı da Azərbaycanın olubdur. Sizin ulu babalarınızın əksəriyyəti oralardandır. İqdırda yaşayanlardan soruşsan ki, kökün haradandır, hər on nəfərdən dördü - beşi deyəcək ki, ya Zəngibasardan, ya Vedibasardan, ya İrəvandan, yaxud Borçalıdan, ya da Gəncədəndir,

Naxçıvandandır. (Müzəffər Gəncə bildirdi ki, mən gəncəliyəm, babam oradandır) Necə olub ki, sən Gəncədən İqdıra gedib çıxmısan? Çünki o məntəqə, o bölgə azərbaycanlılar üçün - Türkiyədə azərilər deyirsiniz - azərilər üçün həmişə bir məskən olubdur. Bunların tarixi kökləri var. İqdırın Azərbaycana daha əziz olması və sevilməsi, bax bu tarixi köklərə əsaslanır. Siz gəncsiniz, kitablar oxuyursunuz, mən də bunların bir hissəsini kitablardan bilirəm. Amma bir hissəsini şəxsi həyatımdan bilirəm".

**Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ayrı-ayrı vaxtlarda Qərbi Azərbaycana qaydışla bağlı çıxışları:**

"Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıb. Zəngəzur, Göyçə mahalı, İrəvan bizim doğma torpağımızdır. Biz qayıdacağıq".

**"**Onu da qeyd etməliyəm ki, biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq".

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün ən başlıca vəzifədir, ən böyük problemdir. Biz çalışırıq ki, məsələni sülh yolu ilə, danışıqlar yolu ilə həll edək. Azərbaycan öz tərəfindən bütün səyləri göstərir ki, bu məsələ tezliklə həll olunsun. Beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyümüz bərpa olunsun. Bizim ərazi bütövlüyümüzün bərpası müt-

ləq baş verməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq, heç vaxt bizim əzəli torpağımız olan Dağlıq Qarabağda ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəkdir. Biz hamımız yaxşı bilirik ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı, digər bölgələr bizim tarixi torpaqlarımızdır. İkinci erməni dövlətinin Azərbaycan torpağında yaradılmasına Azərbaycan dövləti və Azərbaycan xalqı heç vaxt icazə verməyəcəkdir. Bu münaqişə yalnız beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağda yaşayan əhali və ora qayıdacaq azərbaycanlılar muxtariyyət statusu çərçivəsində yaşayacaqlar və bu, məsələnin həlli üçün yeganə variantdır. Bizim bayrağımız milli rəmzimizdir, dövlət rəmzimizdir, qürur mənbəyimizdir. Bizim bayrağımız bu gün işğal edilmiş torpaqlarda qaldırılmalıdır və qaldırılacaqdır. Şuşada, Xankəndidə bizim milli bayrağımız dalğalanmalıdır və dalğalanacaqdır. Bu günü biz hamımız yaxınlaşdırmalıyıq, bu günə biz hamımız nail olacağıq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və Azərbaycan dövləti bundan sonra da ancaq və ancaq inkişaf və tərəqqi yolu ilə gedəcəkdir!” (Yeni il və həmrəylik günü ilə bağlı müraciət 31 dekabr 2010-cu il)

"Ümumiyyətlə, Ermənistan dövləti Azərbaycan torpaqları üzərində qurulub. Dünya reallığı tələb edir ki, biz məsələyə BMT-nin müəyyən etdiyi hüdudlar daxilində münasibət bildirək. Amma bu hadisələr onu göstərir ki, biz Ermənistanın işğalına qarşı öz sərt addımlarımızı atmalıyıq. Buna ciddi şəkildə hazırlaşmalıyıq. Ermənilər Naxçıvanı, Gəncəni işğal etməklə hədələyir. Biz cəmiyyəti də bu mübarizəyə ciddi şəkildə hazırlamalıyıq. Əks halda, yeni itkilərə qapı açmış olarıq”. (29 may 2020-ci il)

“Əslində, Ermənistanın aqresiv təcavüzkar siyasəti hələ 80-ci illərin sonlarından başlamışdır. O vaxt indiki Ermənistan respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba

torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb" (Zəfər paradı 10 dekabr 2020-ci il )

**Cənab Prezident babasının məzarını ziyarət edərəkən söylədiyi təsirli fikirlər.**

"Babamın məzarını ziyarət etməklə, eyni zamanda, ürəyimdə olan sözləri dedim. Baxmayaraq ki, mən babamı görməmişəm, o, həyatdan gedəndə mən hələ doğulmamışdım. Amma bildiyiniz kimi, o, Zəngəzurda doğulmuşdur, erməni etnik təmizləmə siyasətinin də qurbanı olmuşdur, onun ailəsi məcburən oradan köçüb Şahbuza, ondan sonra Naxçıvanda yerləşmişdir". Bunu Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində deyib. "Əlbəttə ki, biz əcdadlarımızın yolu ilə getməliyik. Onların ruhlarını həmişə şad etməyə çalışmalıyıq. Azərbaycan xalqının üstünlüyü ondadır ki, biz öz qədim ənənələrimizə sadiqik. Bu nöqteyi-nəzərdən, hər birimiz üçün onun ailəsi, onun ulu babaları, əcdadları böyük əhəmiyyət kəsb edir, o cümlədən mənim üçün. Orada babamın məzarı önündə ürəyimdə dediyim sözləri ola bilsin ki, nə vaxtsa dilə gətirəcəyəm" (12 yanvar 2022-ci il)

"Biz istəyirik ki, gənc nəsil Zəngəzurun tarixi Azərbaycan ərazisi olmasını bilsin. Zəngəzur 1920-ci ildə, 101 il bundan öncə Ermənistana verilib. Ondan əvvəl bu ərazi bizə məxsus idi. Mən Göyçə deyərkən, onlar hazırda Sevan gölü adlandırırlar. Bu, bir həqiqətdir. 20-ci əsrin əvvəllərindəki xəritəyə baxmaq kifayətdir. Siz oraya baxarkən Sevan görməyəcəksiniz. Siz orada Göyçəni görəcəksiniz.

İrəvanla bağlı da eyni məsələdir. Onlar İrəvanın tarixi hissəsini dağıdıblar. Bu, aydın faktdır, mənim əcdadlarım daxil olmaqla, azərbaycanlılar orada yaşayıblar.

Lakin bu o demək deyil ki, bizim ərazi iddialarımız var. Mən

demişəm, bəli, biz oraya qayıdacağıq. Mən deməmişəm ki, biz oraya tankla qayıdacağıq. Mən demişəm biz qayıdacağıq. Bu o deməkdir ki, niyə də yox. Əgər biz Zəngəzur dəhlizinə qayıdırıqsa, əgər biz bu yolu istifadə ediriksə niyə də biz İrəvana qayıtmayaq. Zaman gələcək, biz bunu edəcəyik. Mən mövqeyimi təqdim edirəm."

"Qərbi Zəngəzur da bizim tarixi torpaqlarımızdır və o torpaqlardan Zəngəzur dəhlizi keçəcəkdir!" (28 aprel 2021-ci il)

"Biz də, Qərbi azərbaycanlılar da heç vaxt inamı itirməməliyik. İnanmalıyıq və eyni zamanda, addımlar atmalıyıq, fəal olmalıyıq, işləməliyik. Gün gələcək, biz Qərbi Azərbaycanda da belə gözəl məclis keçirəcəyik və bu günü xatırlayacağıq!" (24 dekabr 2022-ci il)

**Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin 07 iyul 2021-ci il tarixli Fərmanından çıxarış:**

Ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişmiş, regionların iqtisadi potensialı artmış, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşmış, əhalinin rifah halı yüksəlmişdir.

Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirmiş və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaratmışdır.

Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı

tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Göstərilən əsaslarla Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradılmışdır.

**Prezident cənab İlham Əliyevin 24 dekabr 2022-ci il tarixdə Qərbi Azərbaycan İcmasında giriş nitqi:**

- Mən ikinci dəfədir ki, bu binadayam. On iki il bundan əvvəl binanın açılışında iştirak etmişəm. Onu da bildirməliyəm ki, bu bina mənim göstərişimlə inşa edilmişdir və o vaxtkı məcburi köçkünlər üçün nəzərdə tutulmuşdur, Qarabağdan olan məcburi köçkünlərin təşkilatı bu binada yerləşmişdi. İkinci dəfədir ki, buradayam və artıq bu binada Qərbi Azərbaycan İcması yerləşibdir. Bu gün biz bu binanın Qərbi Azərbaycan İcmasına verilməsini qeyd edirik.

Bildiyiniz kimi, avqust ayında Azərbaycan Qaçqınlar Cəmiyyəti Qərbi Azərbaycan İcmasına çevrilmişdir və mən hesab etdim ki, ən düzgün yer, ən düzgün qərargah məhz bu bina olmalıdır. Təkcə ona görə yox ki, bu, çox gözəl binadır, dördmərtəbəlidir və burada fəaliyyət göstərmək üçün bütün imkanlar var, Heydər Əliyev Mərkəzi ilə demək olar ki, üzbəüz yerləşir. Əsas səbəb o idi ki,

burada vaxtilə yerləşmiş Qarabağın məcburi köçkünlər icması artıq öz torpaqlarına qayıdır. Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar.

Bunu deməyə əsas verən bir çox amillər var. Onlardan yəqin ki, ən önəmlisi xalqımızın tarixi yaddaşıdır. Bu gün Zəngilan rayonunun Ağalı kəndinin nümunəsi bunu deməyə əsas verir. Bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda, uşaqlar, gənclər onlar üçün doğma olan o torpaqları heç vaxt görməmişlər. Torpaq həsrəti və Vətən sevgisi onları oraya getməyə vadar etdi. Onların arasında hətta Bakıdan, Sumqayıtdan gedənlər də az deyil. Yəni, bu, xalqımızın xüsusiyyətidir, torpaq həmişə çəkir. Əminəm ki, Qərbi azərbaycanlılar da bu fikirlə, bu arzu ilə yaşayırlar.

Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır.

Xalqımız əsrlər boyu öz hüquqlarını qorumaq üçün, öz tarixi torpaqlarında yaşamaq üçün böyük fədakarlıq göstərmişdir. Ancaq

buna baxmayaraq, tarixin müxtəlif vaxtlarında bizim xalqımız öz doğma torpaqlarından məhrum edilmişdir. XX əsr bu baxımdan xalqımız üçün çox böyük faciələr gətirmişdir. 1918-ci ildə təzə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti özünün ilk qərarlarından birində bizim tarixi şəhərimizi – İrəvanı Ermənistana faktiki olaraq bağışlamışdır. Bu, bağışlanmaz bir addım idi, bu, xəyanət idi və cinayət idi. Bunu biz hamımız yaxşı bilirik, xalqımız da bunu bilməlidir. Biz heç vaxt tariximizi təhrif etməməliyik.

Tariximizdə şanlı səhifələr də olub, əfsuslar olsun ki, qara səhifələr də olub. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, qısamüddətli fəaliyyəti haqqında mən dəfələrlə öz fikirlərimi bildirmişdim. Azərbaycan Demokratik Respublikasının qurucularının fəaliyyətini yüksək qiymətləndirmişdim. Bu, doğrudan da dünya miqyasında, müsəlman aləmində ilk respublika idi, baxmayaraq ki, cəmi iki il yaşadı. Ancaq, eyni zamanda, biz bu tariximizin qara səhifələrini də unutmamalıyıq, ört-basdır etməməliyik. Birincisi, tarixi həqiqət təhrif olunmuş formada təqdim edilməməlidir. İkincisi, bu faciəvi hadisə hamımız üçün dərs olmalıdır.

O vaxt bu qərarı müxtəlif səbəblərlə izah etməyə çalışanlar da olub, bu gün də var. Ancaq hesab edirəm ki, heç bir izahat qəbul edilən deyil, çünki ermənilər bu addımla kifayətlənməmişlər. Əgər kimsə hesab edirdi ki, İrəvanı orada yaşayan insanlardan xəbərsiz öz doğma diyarından məhrum etməklə Ermənistan və ermənilər kifayətlənəcək, böyük səhv edirdi və sonrakı tarix bunu bir daha göstərdi. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə idi. Digər tərəfdən, Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq üçün atılmış bir addım idi.

Yəni, görün, cəmi iki il ərzində xalqımızın başına nə qədər böyük bəlalar gətirildi. Əgər kimsə hesab edirdi ki, 1918-ci ildə İrəvanı Ermənistana verməklə biz hansısa daha böyük bəlalardan

özümüzü sığortalamış ola bilərdik, bax, Zəngəzurun Ermənistana verilməsi bir daha onu göstərir ki, bu, çox yanlış, səhv addım idi və dediyim kimi xəyanət idi. Hətta səndən güclü olan qüvvə qarşısında heç vaxt geri addım atmamalısan, hər zaman öz hüququnu qorumalısan, xüsusilə doğma torpağını qorumalısan.

Bununla Qərbi azərbaycanlıların faciələri bitmədi. Hamımız yaxşı bilirik ki, 1948-1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qalmışdır. Bu, sovet hökumətinin Qərbi azərbaycanlılara və bütövlükdə Azərbaycan xalqına qarşı törədilmiş növbəti cinayəti idi. Bu, eyni zamanda, böyük ədalətsizlik idi, vicdansızlıq idi. Çünki İkinci Dünya müharibəsi cəmi 3 il idi ki, başa çatmışdır. Azərbaycan xalqı böyük fədakarlıq göstərmişdir. Təkcə sovet Azərbaycanından olan insanların 300 mini həlak olmuşdur. O vaxt sovet Ermənistanında yaşamış on minlərlə azərbaycanlı da həlak olmuşdur. Azərbaycan İkinci Dünya müharibəsində faşizm üzərində əldə edilmiş Qələbədə müstəsna rol oynamışdır. Azərbaycan nefti olmasaydı sovet dövləti heç vaxt qələbə qazana bilməzdi. Bunu hər kəs bilir. Bu rəqəmlər dəfələrlə səsləndirilib. Benzinin, sürtkü yağlarının və neftin təqribən 70, 80, 90 faizi Azərbaycandan təchiz edilirdi. Bütün bunlara baxmayaraq, xalqımıza qarşı növbəti cinayətin törədilməsi, yenə də deyirəm böyük vicdansızlıqdır və saxta bəhanə adı altında xalqımız növbəti deportasiyaya məruz qalmışdır.

Nəhayət 1980-ci illərin sonlarında sovet hökuməti xalqımıza qarşı növbəti cinayət törətdi. Bu dəfə Ulu Öndər Heydər Əliyevin hakimiyyətdən getməsindən istifadə edən həm erməni millətçiləri, həm onların sovet hökumətindəki havadarları dərhal hərəkətə keçdilər. Heydər Əliyev 1987-ci ilin noyabrında bütün vəzifələrdən uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləri baş qaldırdılar. Sovet hökuməti onlara dəstək oldu və həm Qarabağda, həm ovaxtkı Ermənistan Respublikasında xalqımıza qarşı növbəti cinayət başlandı. Azərbaycanlılar tarixi diyarı olan Qərbi Azərbaycandan deportasiya edildi və biz bu tarixi yaxşı bilirik, xatırlayırıq və azərbaycanlıların yaşadıqları o məntəqələrin sayını

da yaxşı bilirik - 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar. Mən ovaxtkı Ermənistanı nəzərdə tuturam, Ermənistan Respublikasını nəzərdə tuturam, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və bütövlükdə 300-dən çox şəhər və kənddə azərbaycanlılar yaşamışlar. Onların hamısı 3 il ərzində Ermənistandan zorla çıxarıldı, qovuldu, bir çoxları öldürüldü, onlara işgəncələr verildi. Bütün bu cinayətlər sovet hökumətinin gözünün önündə baş vermişdi. Sonuncu kəndimiz Nüvədi 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı. O da azmış kimi Qarabağda da xalqımıza qarşı cinayət törədildi.

Qarabağın və Şərqi Zəngəzurun işğalı növbəti faciəmiz idi. Yəni, görün, təkcə XX əsrdə xalqımız nə qədər böyük bəlalarla üzləşmişdir. Ancaq sınmadı, əyilmədi, inamını itirmədi, güc topladı və nəticədə istədiyinə nail oldu. İki il bundan əvvəl biz öz tarixi missiyamızı şərəflə yerinə yetirərək ədaləti bərpa etdik, düşmənləri torpaqlarımızdan qovduq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdik. Bu gün azad edilmiş torpaqlarda yaşayırıq, qururuq, yaradırıq, dağıntıları aradan qaldırırıq və dünyaya göstərməyə çalışırıq ki, gəlin, baxın, gözlərinizi açın, bu vəhşilikləri törədən sizin sevimli erməni xalqıdır. Bu cinayətləri hansısa yad planetdən gələnlər yox, sizin sevimli və himayəniz altında olan erməni xalqı törədib, məscidləri dağıdıb, tarixi abidələri dağıdıb, qəbirləri dağıdıb, olmazın vəhşiliklər edib. Eynisini onlar Qərbi Azərbaycanda da ediblər. Sadəcə olaraq, dünya ictimaiyyəti bunu görmür, ya da ki, görmək istəmir. Necə ki, Qarabağda erməni vəhşilikləri faktiki olaraq heç kim tərəfindən təsdiqlənmirdi. Halbuki iki dəfə ATƏT-in faktaraşdırıcı missiyası o vaxt işğal altında olan torpaqlara göndərilmişdi. Ancaq onların məruzəsinə baxdıqda, yenə də ikili standartlar görürük.

Bir tərəfdən, o vəhşilikləri, dağıntıları, qanunsuz məskunlaşmanı etiraf etməyə məcbur oldular, digər tərəfdən yenə də balanslı yanaşaraq işğalçı ilə işğala məruz qalanı necə deyərlər, bir müstəviyə qoydular. Ona görə Qərbi Azərbaycanda ermənilər tərəfindən törədilmiş dağıntılar mütləq dünya ictimaiyyətinə

çatdırılmalıdır. Əminəm ki, Qərbi Azərbaycan İcması Azərbaycan dövlətinin dəstəyi ilə bunu edəcək.

Bütövlükdə XX əsrdə xalqımızın çəkdiyi əzablar haqqında dünya ictimaiyyətinə daha geniş məlumat verilməlidir. Biz hər zaman həqiqəti deyirik. Azad edilmiş torpaqlara gələn 10 minlərlə xarici vətəndaş bu gün artıq öz gözləri ilə görür ki, xalqımız hansı vəhşiliklərə məruz qalıb. Bu gün orada gedən genişmiqyaslı quruculuq işləri bir daha xalqımızın iradəsini göstərir. Yenə də deyirəm, Ağalı kəndinin timsalında biz xalqımızın tarixi yaddaşını görürük. Çünki oranı heç vaxt görməyən uşaqlar, gənclər oraya qayıdıblar. Əminəm ki, biz eynisini Qərbi Azərbaycanda da görəcəyik.

Bu il başa çatır. İl ərzində bir çox önəmli hadisələr baş vermişdir. Biz Azərbaycan-Ermənistan sərhədində məcburən hərbi əməliyyat keçirməli olduq. Bu hərbi əməliyyat nəticəsində bizim tarixi şəhərlərimiz bu gün artıq vizual müşahidə yolu ilə gözümüzün önündədir. Bu gün biz artıq Bala Göyçənin sahilindəyik. Bu gün biz Göyçə gölünü binoklsuz görürük. Birincisi, hesab edirəm ki, bu, ədalətlidir. İkincisi, sentyabr toqquşmaları bizi gələcəkdə böyük problemlərdən sığortalayacaq. Çünki Ermənistanda revanşist qüvvələr baş qaldırır, - istər iqtidarda, istər müxalifətdə, - faktiki olaraq bizim üçün fərqi yoxdur. Çünki Ermənistanda cəmiyyətin şüuru o qədər zəhərlənib, azərbaycanofobiya o qədər geniş vüsət alıb ki, orada faktiki olaraq normal düşüncəyə malik olan, - mən siyasi sahəni nəzərdə tuturam, - qalmayıb. Ona görə onlar revanş fikri ilə yaşayırlar. Onlar yenə də ümid edirlər ki, kimsə gələcək onların əvəzinə bizimlə müharibə aparacaq, onlar da hər zaman olduğu kimi, hansısa himayədarın arxasında gizlənərək yenə də bizə qarşı öz məkrli planlarını həyata keçirəcəklər. Bax, özümüzü bundan sığortalamaq üçün biz mütləq Azərbaycan-Ermənistan sərhədi istiqamətində daha əlverişli mövqelərə sahib olmalı idik və buna nail olduq.

Bu gün yerləşdiyimiz yüksəkliklərdən hətta Naxçıvan dağları da görsənir. Yəni, bu, doğrudan da tarixi nailiyyətdir. Qarabağın,

Şərqi Zəngəzurun döyüş meydanında azad edilməsi tarixi hadisədir və Azərbaycan durduqca Azərbaycan tarixində qalacaq. Bu il əldə edilən həm hərbi, həm siyasi uğurlarımız da gələcək üçün zəmin yaradır. Həm qayıdış üçün, həm təhlükəsizlik üçün, həm Azərbaycanı güclü dövlət kimi qəbul etmək istəməyənlər üçün də bir dərs oldu və bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz. Mən bunu artıq bir neçə dəfə demişəm, bu gün də demək istəyirəm. Bu gün Laçın yolunda baş verən hadisələr növbəti anti-Azərbaycan isterikasına səbəb olub. Burada təkcə Ermənistan yox, bəlkə də onlardan daha çox onların xaricdəki havadarları, onların arxasında dayanan dövlətlər yenə də Azərbaycana qarşı qarayaxma kampaniyası başlamışdır və biz bu gün görüşdüyümüz vaxtda BMT-də bizə qarşı növbəti təxribat hazırlanır. Artıq bir neçə gündür ki, xüsusi canfəşanlıqla seçilən bəzi ölkələr bizə qarşı növbəti çirkin planlarını həyata keçirmək əzmindədir. Amma hələ ki, bir şey əldə edə bilmirlər, neçə gündür əlləşirlər. Gələn həftə də öz səylərini göstərəcəklər. Yəni, Laçın yolunda baş verən hadisə gün kimi aydındır. Bu, bizim legitim hüququmuzdur. Bizim təbii sərvətlərimiz istismar edilir, təbii sərvətlərimiz daşınır. O təbii sərvətlərimizi istismar edənlər istənilən beynəlxalq hüquqi normaya görə cinayətkardırlar. Çünki bu, bizim beynəlxalq birlik tərəfindən tanınmış ərazimizdir və haqlı tələbimiz var ki, bizim ictimaiyyət nümayəndələri və ilk növbədə, ondan əvvəl dövlət qurumlarının nümayəndələri monitorinq keçirməlidirlər. Baxmalıdırlar orada hansı işlər baş verir və o qanunsuz fəaliyyət dayandırılmalıdır. Bizim haqlı tələbimiz bundan ibarətdir. Ancaq bu gün bu vəziyyət tamamilə təhrif edilmiş tərzdə təqdim olunur. Yenə yalan, yenə iftira, yenə böhtan, kim bunu edir, biz hamımız yaxşı bilirik. Yenə də deyirəm, Ermənistan dövləti hazırda burada ilk sıralarda deyil. Amma bu, bizi heç nədən çəkindirməyəcək. Biz artıq bunu dəfələrlə sübut etmişik və İkinci Qarabağ müharibəsi bunu göstərdi, müharibədən keçən iki il bunu göstərdi. Heç kim bizə təsir göstərə bilməz. Zənglər ola bilər, hansısa bəyanatlar ola bilər, onlara əhəmiyyət

vermək lazım deyil. Sadəcə olaraq, siyasi nəzakət naminə biz bu zənglərə cavab veririk. Ancaq bu, bizim mövqeyimizi zərrə qədər dəyişməyəcək.

Hesab edirəm ki, Qərbi Azərbaycan İcmasının bundan sonra daha mütəşəkkil formada fəaliyyət göstərməsi hamımız üçün çox önəmlidir - həm Qərbi Azərbaycandan olan insanlar üçün, həm də bütün Azərbaycan xalqı üçün. Hesab edirəm ki, biz bu işi bundan sonra daha məqsədyönlü şəkildə aparmalıyıq. Yəni, təşkilat qurulub, icma qurulub, dövlət orqanları öz dəstəyini göstərir və göstərəcək. Əlavə göstərişlər mənim tərəfimdən veriləcəkdir. Ona görə hesab edirəm ki, icma bir neçə istiqamət üzrə öz işini davam etdirməlidir. Əlbəttə ki, ölkə daxilində bu icmanın fəaliyyəti daha da gözəgörünən olmalıdır. Hər halda Azərbaycan çərçivəsində bu icmanın fəallığı çox önəmli ola bilər.

Bununla bərabər, hesab edirəm ki, İcmanın bundan az əhəmiyyət kəsb etməyən beynəlxalq müstəvidə fəaliyyəti olmalıdır. Çünki biz bu həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq, necə ki, Qarabağ həqiqətlərini çatdırmışdıq. Faktiki olaraq biz 1990-cı illərin əvvəllərində Qarabağ münaqişəsi ilə bağlı təhrif edilmiş təsəvvürü tamamilə dəyişdirə bildik. İnformasiya müharibəsi və İkinci Qarabağ müharibəsi onu göstərdi ki, bu, az əhəmiyyət kəsb etmir. Ona görə burada da İcmanın xaricdəki fəaliyyəti xüsusi önəm daşımalıdır. Sərgilər, təqdimatlar, beynəlxalq konfranslar keçirilməlidir. Azərbaycan diaspor təşkilatları ilə birlikdə aksiyalar keçirilməlidir. Bizim bir çox ölkələrdə diaspor təşkilatlarımız var və bu il biz Şuşada tarixi Azərbaycan diaspor təşkilatlarının qurultayını keçirdik. Xarici ölkələrin siyasi dairələri, mətbuat və qanunvericilik orqanları ilə təmaslar qurulmalıdır. Yəni, biz haqlı olaraq öz hüququmuzu tələb etməliyik. Bu, bütün beynəlxalq konvensiyalarda təsbit edilmiş hüquqdur.

Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə isterika

başlayacaq ki, Azərbaycan gəldi bizi işğal etdi və sair. Yox. Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq. Hesab edirəm ki, İcmanın çox mötəbər bir rəqəmsal platforması olmalıdır, bir portalı olmalıdır. Orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktlar öz əksini tapmalıdır. Məsələn, indi bunu artıq dünyada da bilməyə başlayırlar və sual olunur, - bu sualı biz qoymuşuq, Azərbaycan nümayəndələri, bu məsələ ilə məşğul olan insanlar qoyublar, - indi göstərin görək İrəvanın tarixi mərkəzi haradır? Haradadır İrəvanın tarixi mərkəzi? Əgər deyirsiniz ki, guya bu, dünyanın ən qədim şəhəridir. Haradadır bunun tarixi mərkəzi?

İndi baxın, görün, Cənubi Qafqazın digər ölkələrinə - Azərbaycanda, Gürcüstanda, bizim şəhərlərimizdə, əksər şəhərlərdə tarixi abidələr, tarixi mərkəzlər var. İstər Bakı olsun, Gəncə olsun, Naxçıvan, Şəki, Qəbələ, digər bütün şəhərlərdə. Bəs, necə ola bilər ki, İrəvanda tarixi mərkəz yoxdur? Qoy, bu sadə suala cavab versinlər. Cavab da gün kimi aydındır. Ona görə ki, bu tarixi mərkəz Azərbaycan xalqının tarixi irsi idi, hansı ki, onlar dağıdıblar. Şəhərsalma adı altında bütün tarixi binalarımız, o cümlədən İrəvan qalası, Sərdar sarayı dağıdılıb. Yəni, bütün bunlar göstərilməlidir. Yəni, siyasi və hüquqi tərəfdən başqa, istənilən məsələdə bunun tarixi mahiyyəti də əhəmiyyət kəsb edir. Ona görə bizim işimiz bu tarix üzərində qurulmalıdır.

Hüquqi tərəfə gəldikdə, biz birlikdə fikirləşməliyik, beynəlxalq hüquqşünaslar cəlb edilməlidir. Azərbaycan dövləti burada da kömək göstərəcək. Onlar bu qayıdış istəyini və hüququnu beynəlxalq müstəvidə necə reallaşdırmaq lazımdır yolunu göstərəcəklər.

Əlbəttə ki, bizim tarixi həqiqətlərlə bağlı kitablarımız yenilənməlidir. Müəyyən dövrdə kitablar dərc edilmişdir, o cümlədən tarixi şəhərlərimizin, kəndlərimizin adları ilə bağlı kitab dərc edil-

mişdir. Siz o kitabın müəllifisiniz. Mən onu görmüşəm. Amma onu indi Azərbaycanda çox adam görübmü? Yox. Bilmirəm o, hansı tirajla dərc edilib. Yəni, siz təşəbbüs olaraq bunu özünüz etdiniz, imkanınız çatan tərzdə. Amma biz bunu dövlət səviyyəsində etməliyik. O kitabça bütün dillərə tərcümə edilməlidir. Onun yanında həm də elektron daşıyıcısı olmalıdır. Xarici dillərə tərcümə edilməlidir. Yəni, bu təbliğat işləri mütləq aparılmalıdır.

Hesab edirəm ki, ildə bir dəfə, ya da iki ildən bir Bakıda Qərbi Azərbaycanla bağlı beynəlxalq konfrans keçirilməlidir. Biz özümüz üçün dost saydığımız ölkələrdən alimləri, arxeoloqları, tarixçiləri dəvət edəcəyik ki, mötəbər bir beynəlxalq konfrans keçirək, bunu təqdim edək. Yəni, bir çox addımlar atılmalıdır ki, bu mövzu gündəlikdən çıxmasın, əksinə bu mövzu beynəlxalq gündəliyə daxil edilsin. Çünki bu gün Ermənistan monodövlətdir. Biz bunu deyəndə, haqlı olaraq dünya ictimaiyyətinə bildiririk ki, bu, dözülməzdir. İndi Avrasiya məkanında, yerləşdiyimiz regionda hansı ölkə monodövlətdir? Bəs, sual olunur nə üçün məhz Ermənistan monodövlətdir? Cavab aydındır, ona görə ki, imkan verməyiblər orada başqa xalqlar yaşasın. O xalqları oradan müxtəlif yollarla çıxardıblar, kimi öldürüblər, kimi hədələyiblər, kimin evini yandırıblar. Beləliklə, bütün başqa millətləri oradan qovub, başqasının torpağında özləri üçün dövlət qurublar. Bu ərazidə heç vaxt Ermənistan olmayıb. İndiki Ermənistan bizim torpağımızdır. Mən bunu dəfələrlə deyəndə, mənə irad tuturlar, çalışırlar irad tutmağa ki, mənim ərazi iddiam var. Mən bunu tarixi həqiqət kimi deyirəm. Əgər kimsə başqa versiyanı təsdiq edə bilsə, gəlsin təsdiq etsin.

Erməni xalqı nə vaxt bizim torpaqlarımıza köçürülüb? Hamımız yaxşı bilirik. Qarabağa nə vaxt köçürülüb? Zəngəzura nə vaxt köçürülüb? Kim tərəfindən köçürülüb? Necə köçürülüb və hansı məqsədlə köçürülüb? Hamısını yaxşı bilirik. Onların bizim ərazimizdə, Cənubi Qafqazda heç vaxt dövləti olmayıb. Əgər nə vaxtsa olubsa, - hələ bəlli deyil kimin dövlətini onlar öz adlarına çıxmaq istəyirlər, - bu, başqa yerdə olub. Ona görə, biz bunları mütləq məqsədyönlü şəkildə, təşkilatlanmış qaydada, düzgün

formada təqdim etməliyik. Əminəm ki, buna nail olacağıq.

Mən bununla paralel olaraq hesab edirəm ki, biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik. Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur. Əlbəttə ki, Qarabağ münaqişəsi həll olunmayana qədər bu haqda danışmaq bəlkə də tez idi. Ancaq, məncə bu gün biz vaxt itirməməliyik. Qayıdış Konsepsiyası hazırlanmalıdır. Yenə də bu, necə deyərlər, sülhsevər konsepsiya olmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik. Qayıdış Konsepsiyası olmalıdır. Bizim tarixi yaşayış yerlərinin bir çoxu, mütləq əksəriyyəti indi bomboşdur. Biz bunu bilirik. Biz öz keçmişimizi yaxşı bilirik. Qərbi Azərbaycandan olan hər bir insan öz ulu babalarının yaşadıqları yerləri yaxşı bilir. İndi müxtəlif yollarla bu informasiyanı əldə etmək olar. Azərbaycanlıların yaşadıqları yerlərin əksəriyyətində heç kim yaşamır. Ermənistanda bütövlükdə indi depopulyasiya dövrü hökm sürür. İnsanlar oradan gedir. Həm təbii artım yoxdur, eyni zamanda, dözülməz siyasi vəziyyət, repressiyalar, faktiki olaraq diktatura və iqtisadi çətinliklər onları buna vadar edir. Bizim kəndlərimiz dağıdılır. Biz buna dözə bilmərik. Ona görə biz Qayıdış Konsepsiyası üzərində işləməliyik. Bu, çox sanballı sənəd olmalıdır. Əlbəttə ki, mütləq digər təkliflər də olacaq. Mən, sadəcə olaraq, bu gün bu görüş əsnasında gələcək fəaliyyətinizlə bağlı öz fikirlərimi bölüşmək istərdim.

Əlbəttə ki, mən sizdən də təkliflər gözləyəcəyəm. İcma həm öz imkanları daxilində, həm də Azərbaycan dövlətinin dəstəyi ilə bu işlərə, necə deyərlər, böyük yer verməlidir. Əminəm ki, biz buna nail olacağıq.

Bir daha onu da bildirməliyəm ki, bu yer icma üçün təsadüfən seçilmədi, rəmzi mənası var. Bu binada yerləşmiş qarabağlılar artıq Qarabağa ya qayıdıblar, ya da qayıtmağa hazırlaşırlar. Burada yerləşən Qərbi azərbaycanlılar da qayıdacaqlar, İnşallah.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Naxçıvan Ensklopediyası. 2005, Naxçıvan
2. **Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2020-ci il tarixli** Zəfər paradındakı çıxışı.
3. **Azərbaycan Respublikası Prezidentinin** 12 yanvar 2022-ci il tarixli televiziya çıxışı.
4. Azərbaycan Respublikasının Prezident 28 aprel 2021-ci il tarixli çıxışı.
5. Azərbaycan Respublikasının Prezidentinin Qərbi Azərbaycan İcması üzvləri ilə görüşündəki 24 dekabr 2022-ci il tarixli çıxışı
6. "Qərbi Azərbaycan Dərələyəz mahalı" Professor Həsən Mirzəyev
7. Andranikə qarşı vuruşan Balo bəy Vəkilov-Kamil Dərələyəzli **axar.az**
8. "Əli Əliyev, Əlincə yaddaşı, kitab1-2 səh.160,Bakl.,1997-2004
9. "Bərabər yürdük biz bu yollarda...." Çağ" yayınları-2007
10. Конституция (Основной Закон) Союза Советских Социалистических Республик Утверждена Чрезвычайным VIII съездом Советов Союза ССР 5 декабря 1936 года (с последующими изменениями и дополнениями)
11. Qərbi Azərbaycana Qayıdış Konsepsiyası
12. Nail Əliyev, 1917-1920-ci illərdə Azərbaycanda türk-müsəlman soyqırımları ilk mənbələrdə
13. Oğuz elinin müqəddəs ocağı! Göyçə Bakı-2006, 512 səh Salman Vilayətoğlu
14. Kamil Dərələyəzli "Vətəndə vətənsiz günlərim" Azəri nəşriyyatı, 2016
15. İ.Bayramov, N.Mustafa Həqiqətin Onomastikası, İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması 2021
16. Ə. Ələkbərli Qərbi Azərbaycanlıların 1988-ci il soyqırımı 2010

17. Ə.Ələkbərli Qərbi Azərbaycan abidələri 2007
18. Ə. Ələkbərli Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz.
19. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin 07 iyul 2021-ci il tarixli Fərmanı.
20. Azərbaycan Respublikasının Prezidenti 18 dekabr 1997-ci il tarixdə (№ 656) 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Fərman
21. Azərbaycan Respublikası Prezidentinin 28 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" Fərman
22. BMT-nin "İnsan hüquqları haqqında Ümumi Bəyannamə-si"
23. "Qaçqınların statusu haqqında Cenevrə Konvensiyası"
24. "1967-ci il Konvensiyaya əlavə Protokol"
25. "İnsan hüquqları haqqında Beynəlxalq Bill"
26. "İqtısadı, sosıal və mədənı hüquqlar haqqında" Beynəlxalq Pakt
27. "Genosid cinayətinin qarşısının alınması və onun cəzalan-dırılması haqqında" Konvensiyaya
28. **"**İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı" Konvensiya
29. "BMT-nin Uşaq hüquqları haqqında Konvensiya"
30. **"**İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq" Konvensiya
31. "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt,
32. "Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi Haqqında" Konvensiya
33. "Köçürülmə" Azərnəşr, 1995-ci il Paşayev Ataxan Əvəz oğlu
34. Azərbaycan Sovet Sosialist Respublikasının 14 mart 1937-ci il tarixli Konstitusiyası
35. "Dərələyəz mahalının kameral təsviri" (1831-1842-ci illər)

Nazir Əhmədli, “Elm və Təhsil” Bakı-2017
36. “Dərləyəzli Ustad Aşıq Cəlil” Nazir Əhmədli, “Elm və Təhsil” Bakı-2018
37. “Azərbaycan folklor nümunələrinin hüquqi qorunması” (milli və beynəlxalq qanunvericilik sistemində) Səməd Vəkilov “Zərdabi nəşr” Bakı-2020
38. “Azərbaycanın ilk hüquq professoru Mustafa ağa Vəkilov” Elbrus Məmmədov “Elm və Təhsil” Bakı-2011
39. “Azərbaycan Cümhuriyyəti tələbələri” Ədalət Tahirzadə, Oğuztoğrul Tahirli, “Teass press” Bakı-2016
40. “XVIII əsrin son rübündə Azərbaycan-Rusiya ticarət əlaqələri” Leyla Calalova “Avropa-2020”
41. “Biz əzablı bir ömür yaşadıq” Əli Əliyev, Yazçı-1994
42. “Qanlı illər” M.S.Ordubadi, Bakı-1991
43. “1905-1906-cı illərdə erməni-müsəlman davası” Mir Möhsün Nəvvab, Bakı-1993
44. “Vəkiloğulları” (tarixi bioqrafiq araşdırma) “Qapp-Ploiqraf” Bakı-2003
45. “Azərbaycan SSR Qanunlar Məcuməs 1938-1963” Azərbaycan Dövlət Nəşriyyatı “Qızıl Şərq-1963”
46. “Soy” jurnalı, Ənvər Cingizoğlu №6 (50) 2011-ci il, “Zərdabi LTD” MMC
47. “Soy” jurnalı, Ənvər Cingizoğlu №5 (49) 2011-ci il, “Zərdabi LTD” MMC
48. “Qarbağ əyalətinin kameral təsviri 1832-1833-cü illər” Nazir Əhmədli, “Elm və Təhsil” Bakı-2023
49. “İrəvan əyalətinin icmal dəftəri” Bakı-1996, “Elm nəşriyyatı”
50. “İrəvan Əyalatinin Kameral Təsviri: 1831-ci il” Nazir Əhmədli “Turxan NPB”- 2018

**Səməd Vəkilov**

**QƏRBİ AZƏRBAYCANDAN DEPORTASİYA**
**İMİRLİDƏ MƏSKUNLAŞMA**
***(hüquq və tarix kontekstində)***
**Bakı – «Red N Line» MMC – 2023, 310 səh.**

Korrektor: Cəsarət Hüseynzadə
Dizayner: İlhamə Məmmədova
Texniki redaktor: Ramiz Əbilov

Format: 60x84 1/16
Tiraj: 300